**Mühazirə 1. Sosial statistikanın ümumi məsələləri: nəzəri əsasları, obyekt və predmeti, vəzifələri və digər elmlərlə qarşılıqlı əlaqəsi**

**Plan:**

1. *Sosial hadisə və proseslərin statistik qiymətləndirilməsinin zəruriliyi*
2. *Sosial statistikanın obyekti və predmeti*
3. *Sosial statistikanın metodları*
4. *Sosial statistikanın nəzəri əsasları*
5. *Sosial statistikanın digər elmlərlə əlaqəsi*
6. *Sosial statistikanın vəzifələri*

**Sosial-iqtisadi statistikanın predmeti və metodu.** Sosial-iqtisadi statistika cəmiyyət miqyasında baş verən hadisə və proseslərin kəmiyyətcə dəyişməsini səciyyələndirən göstəriciləri bir-biri ilə qarşılıqlı əlaqə şəraitində öyrənir, iqtisadi-sosial inkişafa təsir göstərən amillər haqqında məlumat toplayır, onları sistemləşdirir, ümumiləşdirir, təhlil edir və müvafiq nəticələr çıxarır. Dövlət strukturları bu məlumatlardan iqtisadiyyatın tənzimlənməsində, sosial-iqtisadi inkişaf proqramlarının hazırlanmasında, proqnozların verilməsində geniş istifadə edirlər. Bunlara istehsal olunan məhsulların həcmini, əhalinin və əmək ehtiyatlarının sayının dinamikası göstəricilərini misal göstərmək olar. Məlum olduğu kimi, sosial-iqtisadi hadisə və proseslərin kəmiyyət tərəfi ilə yanaşı, keyfiyyət müəyyənliyi də vardır. Bunlar bir-birilə qarşılıqlı əlaqədə olsalar da, müəyyən tarixi anda həcmlərinə, səviyyələrinə və aralarındakı miqdar nisbətlərinə görə fərqlənirlər. Belə ki, hər hansı bir tarixə ölkə əhalisinin sayı, onun tərkibində kişi və qadınların xüsusi çəkisi, istehsalın artım sürəti və s. göstəricilər başqa bir tarixə olan eyni göstəricilərdən fərqlənir. Həm də bunlar obyektiv xarakter daşımaqla daim dəyişir. Beləliklə, sosial-iqtisadi statistika kütləvi sosial-iqtisadi hadisələrin kəmiyyət tərəfini onların keyfiyyət tərəfi ilə qarşılıqlı əlaqə və asılılıq şəraitində öyrənir. Sosial-İqtisadi hadisə və proseslərin inkişaf qanunauyğunluqları, onların arasındakı qarşılıqlı əlaqə və asılılıqlar öz əksini statistik məlumatlarda tapır. Odur ki, statistika öz predmetini öyrənmək üçün elmi anlayış və kateqoriyalar sistemini, onların hesablanması metodlarını işləyib hazırlayır. Bu sistemin çox mühüm tərkib hissəsi cəmiyyətin sosial-iqtisadi həyatını ifadə edən göstəricilərdir. Sosial-iqtisadi statistika zəngin quruluşa malikdir. Bu, öz əksini onun öyrəndiyi sosial-iqtisadi hadisə və proseslərdə tapır. Sosial-iqtisadi Statistika: 1) demoqrafiya məsələlərini; 2) milli sərvəti; 3) investisiya əmtəələri (istehsal vasitələri) və istehsal güclərini; 4) əsas makroiqtisadi göstəriciləri; 5) milli hesablar sistemində gəlirlərin əmələ gəlməsi, ilkin və təkrar bölgüsü, onlardan istifadə göstəricilərini; 6) kapital, istehsal, məhsul və xidmətlər, əsaslı xərclər və maliyyə hesablarını; 7) qiymət və tarifləri; 8) maliyyə və bank statistikasının göstəricilərini; 9) əmək bazarı və əhalinin həyat səviyyəsi göstəricilərini; 10) məhsuldar qüvvələri və onun əsas tərkib ünsürlərini; 11) cəmiyyətin daim artmaqda olan tələbatı və onun ödənilməsinin real imkanlarını; 12) ölkədə təhsil, səhiyyə, mədəniyyət, incəsənət və idmanın vəziyyətini və s. məsələləri öyrənir. Sosial-iqtisadi statistika sosial-iqtisadi hadisə və proseslərin öyrənilməsinə sistemli yanaşır. Sosial-iqtisadi statistikanın

sistemli xarakteri həmçinin bir-biri ilə qarşılıqlı əlaqədə olan müxtəlif sosial-iqtisadi proseslərin təhlil olunması üçün istifadə edilən göstəricilər arasında uyğunluğun yaradılmasını nəzərdə tutur. Statistika göstəricilərini müəyyən etmək üçün isə ilk növbədə öyrənilən hadisə və proseslərin eyniləşdirilməsi, onların mahiyyətinin, istehsalın təşkili xüsusiyyətlərinin, xərclərin maliyyələşdirilməsi, istehsalın subsidiyalaşdırılması metodlarının müəyyən edilməsi lazımdır. Göstəricilərin hesablanmasının əsas mərhələsi onların məzmununun, başqa sözlə, tərkibinin hansı ünsürlərdən ibarət olmasının müəyyən edilməsi metodikasının işlənib hazırlanmasıdır. Məsələn, sənaye məhsulunu hesablamaq üçün onun tərkibinə nələrin daxil edilməsi məsələsi həll edilməlidir. Bu ünsürlər satılmış məhsulların həcmindən; qeyri-sənaye məqsədləri üçün göndərilmiş məhsulların dəyərindən; hazır olan, lakin satılmamış məhsulların dəyərindən; hazır olan, lakin satılmamış məhsul ehtiyatının artımından; bitməmiş istehsal və s. ibarət ola bilər.

Statistik metodologiya qarşısında qoyulan ən mühüm tələblərdən biri də ondan ibarətdir ki, məlumatlar zaman və məkan (regionlar üzrə), habelə beynəlxalq miqyasda müqayisə edilə bilən olmalıdır. Statistika elmi göstəricilərin məzmununu müəyyən edərkən öyrənilən sosial-iqtisadi hadisə və proseslərin keyfiyyətcə təhlil olunmasına əsaslanır. O, bu məqsədlə bir çox hallarda siyasi-iqtisadi xarakterli konsepsiyaları əldə rəhbər tutur. Bunlarla yanaşı, qeyd etmək lazımdır ki, statistikada tətbiqi iqtisad elmlərində əldə edilmiş nəticələrdən də istifadə olunur. Məsələn, maliyyə statistikasında istifadə olunan göstəricilərin hesablanması metodologiyası iqtisad elminin maliyyə, kredit və pul tədavülü ilə əlaqədar məsələlərin öyrənildiyi bölmənin müddəalarına əsaslanır. Sosial-iqtisadi statistika bu ümumi müddəaları nəzərə almaqla hər hansı bir sosial-iqtisadi hadisə və prosesin kəmiyyət tərəfini müəyyən etmək üçün onları münasib formaya salır və iqtisadiyyatın təşkili xüsusiyyətləri ilə əlaqələndirir. Məsələn, məlum olduğu kimi, sosial-iqtisadi statistika dövlət büdcəsi kəsirinin (defisitinin) həcmini müəyyən edir. Və bununla da yaranmış kəsirin hesablanmasında gəlirləri və xərcləri nəzərə alınmalı olan dövlət müəssisə və təşkilatlarını, həmçinin büdcəyə daxilolmaların müxtəlif növlərinin (vergi və qeyri-vergi növləri) müəyyən edilməsi üçün konkret qaydaları işləyib hazırlayır və s.

Öyrənilən hadisə və proseslərə kəmiyyət xarakteristikası vermək üçün istifadə olunan metodlardan biri də təsnifləşdirmədir. Bu metod da hadisələrin keyfiyyətcə təhlilinə, ümumi toplunun eynitipli (yekcins) qruplara ayrılması üçün istifadə olunan meyarlara əsaslanır. Təsnifləşdirmə ayrı- ayrı qrupların kəmiyyət xarakteristikasını, onların xüsusi çəkisini müəyyənləşdirməyə imkan verir. Məsələn, iqtisadiyyat sahələrinin təsnifləşdirilməsi nəticəsində onların hər birinin, dövlət büdcəsi gəlirlərinin təsnifləşdirilməsi nəticəsində isə hər bir vergi növünün onun formalaşmasında xüsusi çəkisini müəyyən etmək olur. Təsnifləşdirmə məlumatların qaydaya salınmasına, onların kodlaşdırılmasına imkan verir. Sosial-iqtisadi statistikada başlıca məsələlərdən biri də təsərrüfatçılıq edən subyektlərdən ilkin məlumatların toplanmasıdır. Bu məlumatları əldə etmək üçün aşağıdakı mənbələrdən istifadə olunur: 1) müəssisə və təşkilatların statistika və mühasibat hesabatları; 2) uçot vahidlərinin dövlət reyestri; 3) iqtisadi siyahıyaalmalar; 4) əhalinin siyahıya alınması; 5) seçmə müşahidəsi; 6) ev təsərrüfatları

büdcələrinin öyrənilməsi və i. a. Müxtəlif mənbələrdən toplanmış ilkin məlumatlar son nəticədə ümumiləşdirici göstəriciləri hesablamaq məqsədilə "emal'dan keçirilir.

**Sosial-iqtisadi statistikanın başqa elmlərlə qarşılıqlı əlaqəsi.** Sosial-iqtisadi statistika sosial-iqtisadi hadisə və proseslərin kəmiyyət tərəfini öyrənərkən nəzəri iqtisad elmlərinin müddəalarına və tətbiqi iqtisad elmlərinin nəticələrinə əsaslanır. Nəzəri iqtisad elmləri də öz növbəsində konsepsiya, müddəa və nəticələrin yoxlanması, bəzi hallarda isə onların dəqiqləşdirilməsi üçün iqtisadi hadisə və proseslərin kəmiyyət tərəfindən bəhs edən və müstəqil elm olan sosial-iqtisadi statistikanın nəticələrinə əsaslanır. Sosial-iqtisadi statistika, statistika elminin digər bölmələri, xüsusilə də sosial-demoqrafik və sahə statistika elmləri (sənaye statistikası, kənd təsərrüfatı statistikası, ticarət statistikası və s.) ilə sıx surətdə əlaqədardır. Çünki sosial-demoqrafik statistika onunla bağlı olan prosesləri, sahə statistika elmləri isə iqtisadiyyatın ayrı-ayrı sahələrində baş verən hadisə və prosesləri təhlil edir. Lakin qeyd etmək lazımdır ki, sosial-iqtisadi statistika ilə statistikanın adları çəkilən bölmələri arasındakı "sərhədlər" şərti xarakter daşıyır. Məsələn, sosial-iqtisadi statistika sosial-iqtisadi hadisə və prosesləri qarşılıqlı əlaqə şəraitində nəzərdən keçirir və eyni bir göstəricidən həm iqtisadi, həm də sosial proseslər təhlil olunarkən istifadə edilə bilər. Məsələn, əmək haqqı göstəricisi bir tərəfdən istehsal xərclərinin çox mühüm tərkib ünsürüdürsə (iqtisadi amil), digər tərəfdən isə gəlirlərin bölüşdürülməsi prosesidir (sosial amil).. Bu, ona görə mümkün olur ki, hər iki elmlərində istifadə olunan göstərici və təsnifləşdirmələr bir-biri ilə dəqiq şəkildə uyğunlaşdırılmışdır, onların hamısı vahid metodologiyaya əsaslanır. Sosial-iqtisadi statistika bu və ya digər bir göstəricinin hesablanması metodunu işləyib hazırlayarkən statistika nəzəriyyəsinə əsaslanır. İqtisadi statistika, statistika elminin ən ümumi kateqoriyaları, prinsipləri və metodlarından istifadə edir. Bütün bunları ümumiləşdirərək belə bir nəticəyə gəlmək olar ki, sosial-iqtisadi statistika ilə nəzəri iqtisad elmləri, eləcə də statistika elminin digər bölmələri arasında qarşılıqlı əlaqə vardır, onlar bir-birinin müddəalarına əsaslanır və bir-birini tamamlayır.

**Sosial-iqtisadi statistikanın vəzifələri.** Sosial-iqtisadi statistika konkret olaraq aşağıdakı vəzifələri yerinə yetirir: - dövlət idarəetmə orqanlarını lazımı məlumatlarla təmin edir; onlar isə bu məlumatlardan dövlətin iqtisadi siyasətinin, müxtəlif sosial-iqtisadi inkişaf proqramlarının, onların həyata keçirilməsi üçün plan və tədbirlərin işlənib hazırlanması üçün istifadə edirlər; - müəssisə və şirkət rəhbərlərini, menecerləri, biznesmenləri, istehsalın təşkilatçılarını onlara məxsus olan iqtisadi vahidlərin fəaliyyət göstərdikləri ölkələrdəki iqtisadi və sosial mühiti öyrənmək üçün zəruri informasiya ilə təmin edir; - geniş ictimaiyyətə, elmi-tədqiqat müəssisələrinə, ictimai-siyasi təşkilatlara və ayrı-ayrı şəxslərə sosial-iqtisadi inkişafın yekunları və meyilləri haqqında məlumat verir. Bütün ölkələrin statistika orqanları iqtisadiyyatın vəziyyəti və inkişafı haqqında beynəlxalq təşkilatlara - BMT, BVF, Dünya Bankı və s. məlumat verməyə borcludurlar. Bu, ayrı-ayrı ölkələrin beynəlxalq təşkilatlara daxil olarkən götürdükləri öhdəliklərdən irəli gəlir. Bunlar onu göstərir ki, statistikanın vəzifələri ölkədə gedən sosial-iqtisadi proseslərin təşkili ilə sıx surətdə əlaqələndirilmişdir. Bazar iqtisadiyyatı şəraitində əsas diqqət dövləti idarəetmə orqanlarının lazımı məlumatlarla təmin olunmasına yönəldilir. Dövləti idarəetmə orqanları isə bu məlumatlardan iqtisadi siyasətin, bazarın inkişafında nəzərə çarpan mənfi halların (işsizliyin artması, inflyasiyanın səviyyəsinin yüksəlməsi, istehsal güclərinin tam yüklənməməsi və s.) aradan qaldırılması məqsədilə zəruri tədbirlərin işlənib hazırlanması, sosial

problemlərin həll olunmasında müvafiq qərarların qəbul olunması üçün istifadə edirlər. Belə bir şəraitdə ümumi daxili məhsul (ÜDM), yığım və istehlak, məşğulluq və inflyasiya, dövlət büdcəsinin kəsiri, pul kütləsi, əhalinin gəlirləri və s. kimi ən mühüm makroiqtisadi göstəricilərin hesablanmasına xüsusi diqqət yetirilir. İqtisadiyyatda baş verən dəyişikliklərin öyrənilməsi, proqnozların hazırlanması üçün bu göstəricilərin çox böyük əhəmiyyəti vardır.

Bazar iqtisadiyyatı şəraitində sosial-iqtisadi hadisə və proseslərin dövlət tərəfindən tənzimlənməsi müxtəlif üsullarla həyata keçirilə bilər. Bunlardan biri dövlət büdcəsi vasitəsilə tənzimləmədir. Məlum olduğu kimi, büdcədə dövlətin sosial-iqtisadi siyasətinin əsas istiqamətləri, habelə dövlət xərclərinin maliyyələşdirilməsi mənbələri (vergi və qeyri-vergi daxilolmaları, dövlət əmlakının özəlləşdirilməsindən daxil olan vəsait və s.) öz əksini tapır. Bununla əlaqədar olaraq 1)statistikanın vəzifəsi dövlət büdcəsinin yerinə yetirilməsini, onun strukturunu, dinamikasını, büdcə kəsirinin əmələ gəlməsinə təsir edən amilləri və onun "örtülməsi" mənbələrini, habelə fiskal siyasətin iqtisadi artıma və əhalinin həyat səviyyəsində baş verən dəyişikliklərə təsirini aşkara çıxarmaqdan və təhlil etməkdən ibarətdir. Bazar iqtisadiyyatını tənzimləməkdə dövlətin məqsədlərindən biri yığım və investisiya üçün əlverişli şərait yaratmaqdan ibarətdir. Bununla əlaqədar olaraq 2)sosial-iqtisadi statistikanın ən mühüm vəzifələrindən biri də investisiyaların maliyyələşdirilməsinin əsas mənbələrindən olan yığım normasına təsir edən amillərin öyrənilməsidir. Bu amillərə bank faizi normaları, istehlak kreditinin şərtləri, sərəncamda qalan gəlirin həcmi, depozitlərin və digər maliyyə aktivlərinin gəlirliliyi və s. aiddir. Yığımın, investisiyaların və iqtisadi artımın stimullaşdırılması üçün bu qarşılıqlı əlaqələrin öyrənilməsinin çox böyük təcrübəvi əhəmiyyəti vardır. Bazar iqtisadiyyatı şəraitində qiymət və əhalinin məşğulluğu göstəriciləri xüsusi əhəmiyyət kəsb edir. İnflyasiya və işsizlik səviyyəsinin yüksək olması ölkədə gərginlik yaradır, dövləti idarəetmə orqanlarım qabaqlayıcı tədbirlər görməyə məcbur edir. Qiymət indeksləri isə nəinki iqtisadi təhlil aparmağa və müxtəlif göstəriciləri hesablamağa imkan verir, bunlardan həm də iqtisadiyyatın operativ idarə olunmasında, məsələn, sosial ödənişlərin indeksləşdirilməsində istifadə edilir. Bununla yanaşı, bazar iqtisadiyyatı şəraitində qiymət statistikasının təşkili daha mürəkkəbdir. Çünki qiymətlərin və xarici iqtisadi fəaliyyətin liberallaşdırılması, qeyri-dövlət bölməsinin genişləndirilməsi, əmtəə və xidmətlərin çeşidinin artırılması və başqa amillər inflyasiyanın ölçülməsini xeyli mürəkkəbləşdirir. 3)Odur ki, inflyasiyanın sürətinə təsir edən amillərin öyrənilməsi, onun (yəni inflyasiyanın) pul kütləsindən asılılığının aşkara çıxarılması sosial-iqtisadi statistikanın vəzifələrindəndir.

4)Hər bir iqtisadi sistemdə məşğulluq statistikasının təşkil edilməsi ən mühüm vəzifələrdən biridir. Lakin bazar iqtisadiyyatı şəraitində məşğul və işsiz əhalinin sayı və strukturu dövləti idarəetmə orqanları və siyasətçilər üçün xüsusi maraq doğurur. Çünki işsizlik səviyyəsinin yüksək olması yalnız iqtisadiyyatın əlverişsiz şəraitdə (tənəzzül, durğunluq) olmasına deyil, həm də sosial gərginliyə dəlalət edir. İşsizlik səviyyəsi öyrənilərkən bu qrupdan olan əhalinin cinsinə, yaşına, peşəsinə və işsizliyin müddətinə görə qruplara bölünməsinin zəruriliyi meydana çıxır. Burada statistikanın vəzifəsi işsizliyə təsir edən səbəb və amilləri aşkara çıxarmaqdan ibarətdir. Məsələn, Almaniyanın statistika orqanları müəyyən etmişlər ki, 1990-cı illərin ortalarında ölkədə işsizlik səviyyəsinin yüksək olmasının səbəbləri kapital ixracı və immiqrasiya siyasətindəki çatışmazlıqlar olmuşdur.

5)Statistika orqanlarının başlıca vəzifələrindən biri də valyutaların alıcılıq qabiliyyətinin bərabərliyini (paritetliyini) müəyyən etmək üçün hesablama aparmaqdan ibarətdir. Çünki bu, ayrı-ayrı Ölkələrdəki qiymətlər arasındakı nisbəti valyuta məzənnələri ilə müqayisədə daha düzgün ifadə edir. Valyutaların alıcılıq qabiliyyətinin paritetliyindən ÜDMin və onun ayrı-ayrı tərkib hissələrinin beynəlxalq miqyasda müqayisə edilməsi üçün istifadə olunur.

Statistika orqanları sosial-iqtisadi hadisəni sadəcə olaraq təsvir etməklə kifayətlənməməli, həm də onların arasındakı qarşılıqlı əlaqə və asılılıqları aşkara çıxarmalıdır. Bu, iqtisadi siyasətin işlənib hazırlanması, idarəetmə ilə əlaqədar qərarların qəbul edilməsi, onların həyata keçirilməsi üçün ən səmərəli tədbirlərin seçilməsi üçün lazımdır. Məsələn, əhalinin sağlamlığının qorunması və onun daha da yaxşılaşdırılması üçün yeni tibb və sağlamlıq müəssisələri tikmək lazımdır. Lakin müəyyən şəraitdə bu vəzifənin yerinə yetirilməsinin daha səmərəli üsulu əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması və ətraf mühitin mühafizəsi ola bilər. Odur ki, statistika orqanları bu və digər bir sıra məsələlər üzrə ən operativ qərarların qəbul edilməsinə də təsir göstərməlidir. Problemin həll edilməsinin ən səmərəli üsulunu seçmək üçün hadisə və proseslər arasındakı qarşılıqlı əlaqələrin öyrənilməsi olduqca vacibdir.6) Sosial-iqtisadi statistikanın qarşısında duran əsas məsələlərdən biri də gəlirlərin bölüşdürülməsinin öyrənilməsidir. Gəlirlərin bərabər bölgüsü insanların əməyə olan marağını azaldır, sahibkarlıq fəaliyyətinə mənfi təsir göstərir. Digər tərəfdən gəlirlərin həddindən çox fərqləndirilməsi əhalinin müxtəlif təbəqələri arasında sosial gərginlik yarada, iqtisadi artımı isə ləngidə bilər. Ona görə də statistika orqanları gəlirlərin bölüşdürülməsi və yenidən bölüşdürülməsi üzərində müşahidə aparmalı, bu prosesin əhalinin həyat səviyyəsinə təsirini aşkara çıxarmalıdır.

Əhali statistikası statistikanın qədim sahələrindən biridir. 7)Bu sahədə statistika orqanlarının əsas vəzifələri əhalinin siyahıyaalınmasını aparmaqdan, onun dinamikası və həyat səviyyəsini öyrənməkdən ibarətdir.

8)Ölkənin iqtisadi resurslarının öyrənilməsi də sosial-iqtisadi statistikanın vəzifəsinə aiddir. Bu vəzifə ən ümumi formada MHS çərçivəsində balans metodu və milli sərvətin hesablanması yolu ilə həll edilə bilər. İqtisadi resursların, milli sərvətin səviyyəsini öyrənmək üçün onların həcminin, aktivlərin növlərinə görə strukturunun, dinamikasının və istifadəsinin səmərəliliyini müəyyən etmək lazımdır.

9)Ətraf mühitin vəziyyəti üzərində müşahidə aparılması artıq uzun illərdir ki, dünyanın bir çox ölkələrində, o cümlədən də Azərbaycan Respublikasında statistika orqanlarının başlıca vəzifələrindən biri hesab edilir. Odur ki, statistika orqanları ətraf mühitin monitorinqini aparmalı, faydalı qazıntı ehtiyatları üzərində nəzarəti həyata keçirməlidir. Son illərdə ekoloji təmiz ümumi daxili məhsul ideyası geniş "şöhrət" qazanmışdır. Və bu, ilk baxışdan cəlbedici ola bilər. Çünki çox qısa zaman kəsiyində ÜDM-in yüksək sürətlə artırılmasına təbii resurslardan acgözlüklə istifadə edilməsi hesabına nail olunması mümkündür. Lakin bu, sonradan uzaq perspektivdə iqtisadi artım sürətinin aşağı düşməsinə gətirib çıxara bilər. Təcrübədə "ekoloji təmiz" ÜDM-in hesablanması olduqca çətindir. Bəzi ölkələrdə-Almaniya, Hollandiya və s. "ekoloji təmiz" ÜDM-in hesablaması sahəsində eksperimentlər aparılır. Lakin onun statistika göstəriciləri "ailə"sinə möhkəm daxil olması üçün çox güman ki, uzun bir zaman kəsiyi lazım gələcəkdir. Statistik məlumatların başlıca tərkib hissələrindən biri təsərrüfat subyektləri (müəssisə, təşkilat, ev təsərrüfatları və s.) haqqında sistemləşdirilmiş informasiyalardan ibarətdir. Odur ki, bütün

ölkələrdə statistika orqanları bu məlumatları əldə etmək üçün təsərrüfat subyektlərinin reyestrini aparır və onu vaxtaşırı yeniləşdirir.

Beləliklə, bazar iqtisadiyyatı şəraitində statistikanın əsas vəzifələri aşağıdakı iqtisadi hadisə və prosesləri öyrənməkdən ibarətdir: - ölkə əhalisinin sayı və strukturu, onun iqtisadi rayonlar və ərazilər üzrə bölgüsü, təkrar istehsalı ifadə edən ən mühüm göstəriciləri (doğum, ölüm, təbii artım əmsalları və s.); - gəlirlərin ilkin və təkrar bölgüsü, son gəlirlərin formalaşması və onlardan istifadə olunması, əhali qrupları arasında bölüşdürülməsində fərqləndirmənin tətbiqi; - əhalinin məşğulluğu və işsizlik, onlara təsir edən amillər; - əhalinin həyat səviyyəsi və onun dinamikasına, rifahı və istehlakına, gəlirləri və yığımına təsir edən əsas amillər, ev təsərrüfatlarının əmlakı, maliyyə aktivləri, uzunmüddətli istifadə üçün nəzərdə tutulan şeylərin mövcudluğu; - sosial sahənin - təhsil və səhiyyənin inkişaf göstəricilərilə iqtisadi artım arasında qarşılıqlı əlaqə; - mənzil-kommunal təsərrüfatı və xidmətlər, mənzil fondunun ümumi sahəsi və strukturu, əhalinin mənzillə və kommunal xidmətlərlə təmin olunması; - ətraf mühitin mühafizəsi ilə əlaqədar görülən tədbirlər, bu sahə üçün nəzərdə tutulan xərclər və s. Lakin qeyd etmək lazımdır ki, bunlar statistika orqanlarının təhlil etdikləri hadisə və prosesləri tam əhatə etmir. Onlar yalnız ən ümumi və başlıca məsələlər haqqında təsəvvür verir.

**İstifadə olunan ədəbiyyatlar:**


- O.Q.Məmmədli, N.Ə.Cavadov, X.N.Cavadzadə. Sosial-iqtisadi statistika. Ali məktəblər üçün dərslik. I hissə. Bakı, "MBM", 2014
- С.М.Йагубов, А.Ж. Мяммядов. Сосиал-игтисади статистика. Дярслик. Бакы: «Игтисад Университети » няшриййаты, 2008, - 388 сящ.


## Mövzu 2. Sosial statistikanın göstəricilər sistemi, təsnifatlar və qruplaşdırmalar, tətbiq olunan əsas anlayış və kateqoriyalar

**Plan:**

7. *Sosial statistikanın göstəricilər sistemi*
8. *Sosial statistikada təsnifatlar*
9. *Sosial statistikada qruplaşdırmalar*
10. *Sosial statistikada istifadə olunan anlayışlar*
11. *Sosial statistikanın əsas kateqoriyaları*

Məlum olduğu kimi, ancaq iqtisadi artım inkişafı tam təmin edə bilmir. Ekoloji və sosial cəhətdən inkişaf etmək ölkənin rəqabət qabiliyyətinin artırılmasına əhəmiyyətli dərəcədə təsir göstərdiyi üçün bir çox ölkələrdə sosial yönümlü bazar iqtisadiyyatına üstünlük verilir. Təbii ehtiyatların mühafizəsi və bərpası, əhalinin həyat səviyyəsinin yüksəlməsi inkişafın prioritet istiqamətlərindən biri hesab edilir. Belə inkişaf davamlı olur, ətraf mühit qorunur, əhalinin sağlamlığı,

yüksək həyat şəraiti təmin edilir, təbii və insan ehtiyatlarından səmərəli istifadə edilir, işsizlik və yoxsulluq səviyyəsi aradan qaldırılır. Qeyd edilməlidir ki, sosial problemlərin həlli öz növbəsində ekoloji və iqtisadi problemlərin həllindən asılıdır.

Bazar iqtisadiyyatı şəraitində sosial-iqtisadi proseslərin tənzimlənməsi üçün mühüm vəzifələrdən biri də dövlət qurumları və ictimaiyyəti doğru-düzgün məlumatlarla təmin etməkdir.

Sosial statistikanın tədqiqat predmeti sosial sektor olub, onun tərkibi aşağıdakı bölmələrdən ibarətdir:

-səhiyyə statistikası;

-sosial təminat və mənzil şəraiti statistikası;

-elm və mədəniyyət statistikası;

-ekologiya, bədən tərbiyyəsi və idman statistikası;

- əhalinin və ev təsərrüfatının tərkibi;
- əhalinin sərbəst vaxtının müşahidəsi;
- məşğulluq və işsizlik statistikası;
- yoxsulluq statistikası;
- təhsil statistikası;
- hüquqpozmalar statistikası;
- əhalinin yaşayış səviyyəsi və s.

Sosial statistikanın quruluşu aşağıdakı kimidir:

- *Əhalini xarakterizə edən göstəricilər sistemi*. Ölkənin iqtisadi inkişafı, bir çox hallarda əhalinin tərkibi, strukturu və hərəkəti ilə müəyyən edilir. Yəni, əmək ehtiyatlarının həcmi, strukturu, ölkədə istehsal edilən əmtəə və xidmətlərə tələb və təklif bu amillərdən asılıdır;
- *Əmək bazarı və əmək ehtiyatlarını xarakterizə edən göstəricilər sistemi*. Bazar iqtisadiyyatında əmtəə və xidmət bazarı ilə yanaşı, əmək bazarı da formalaşır. İnsanlar öz imkanlarını reallaşdırmaq üçün əmək bazarından istifadə edir;
- *Mühüm sahələrin fəaliyyətini xarakterizə edən göstəricilər sistemi*. Bu sahələrə təhsil, səhiyyə, mənzil-kommunal xidməti və mənzil şəraiti, bədən tərbiyəsi və idman daxildir;
- *Əhaliyə xidmət göstərən sosial sahələrin göstəriciləri sistemi*. Bu məqsədlə əhalinin gəliri, xərcləri və istehlakı göstəriciləri nəzərdən keçirilir, əhalinin yaşayış səviyyəsi təhlil edilir. Müasir şəraitdə gəlirlər, xərclər, əmtəə və məhsul istehlakı üzrə əhalinin diferensasiyasının öyrənilməsi böyük əhəmiyyət kəsb edir.

Bu göstəricilər yekun göstərici olub sosial sektorda əmtəə və xidmətlərin istehsalı və istehlakını əks etdirir. Əhalinin yaşayış səviyyəsini qiymətləndirmək üçün MHS makroiqtisadi göstəricilərdən istifadə edilir.

*Beynəlxalq təşkilatların istifadə etdiyi qiymətləndirmə sisteminin öyrənilməsi.* Bu göstərici insan inkişafı indeksinin səviyyəsini müqaisə etməyə, minimum yaşayış həddini, təhsilin səviyyəsini və həyat səviyyəsini xarakterizə etməyə imkan verir. İnsan inkişafı indeksi BMT tərəfindən müəyyən edilən digər göstəricilərlə tamamlanır. Məsələn, əhalinin yoxsulluq indeksi, insan inkişafı indeksi, gender bərabərsizliyi və s.

Göstəricilər sistemi statistikada ictimai-iqtisadi həyatda baş verən hadisələrin kəmiyyət və keyfiyyət tərəfini öyrənmək üçün işlənib hazırlanmışdır. Göstərici- geniş, tez-tez tətbiq edilən çox tutarlı anlayışdır. O müxtəlif hadisələrin konkret məzmununa, xüsusiyyətlərinə və formasına uyğun olaraq qurulur. Statistika göstəricisi sosial-iqtisadi hadisələrin kəmiyyət tərəfi ilə bilavasitə

əlaqədardır. Lakin o hadisələrin mahiyyətinə əsaslanan keyfiyyət məzmununa malikdir. Statistika göstəricisi hadisələrin konkret rəqəmlərlə ifadəsindən ibarətdir. Statistika hadisələri konkret məkan və zaman daxilində öyrəndiyindən, hər bir statistika göstəricisi müəyyən əraziyə və vaxta aid olmalıdır. Statistikada müəyyən əraziyə, vaxta və keyfiyyətə malik olmayan mücərrəd rəqəm yoxdur. Statistika göstəricisi ayrıca hadisəyə (obyektə), ayrıca müəsisəyə, müəyyən sahənin müəssisələri qrupuna və respublikanın bütün iqtisadiyyatına aid ola bilər. Buna uyğun olaraq göstəricilər fərdi, qrup və ümumi ola bilər. Son iki qrup göstəricilərə icmal göstəricilər də deyilir. Respublika ərazisinin müəyyən hissəsinə aid olan göstəriciyə isə bölgəvi göstərici deyilir. Müəyyən iqtisadiyyat sahəsinə aid olan göstəriciyə sahəvi, bütövlükdə respublikaya aid olan göstəricilərə isə makroiqtisadi göstəricilər deyilir. Sosial-iqtisadi hadisələr haqqında müşahidə yolu ilə toplanan kütləvi məlumatları yekunlaşdırmaq yolu ilə icmal statistika göstəriciləri əldə olunur.

Göstəricilər sistemi öyrənilən predmetdən asılı olaraq sadə və ya mürəkkəb ola bilər. Odur ki, iqtisadi statistikanın göstəricilər sistemi dedikdə konkret vəzifələrin həll edilməsinə imkan verən və qarşılıqlı əlaqədə olan sadə və ya mürəkkəb struktura malik göstəricilərin toplusu nəzərdə tutulur. İqtisadi göstərici isə hər hansı sosial-iqtisadi hadisənin (əhalinin sayı, iqtisadiyyatın ayrı-ayrı sahələrində istehsal olunan məhsulların dəyəri, orta aylıq əmək haqqı və s.) rəqəmlə ifadə olunması deməkdir. Statistikanın öyrəndiyi predmet özünün iqtisadi məzmununa görə birmənalı kateqoriya (hadisə, fakt) rəqəmlə ifadə olunduqda onun kəmiyyətini əks etdirən göstəricilərə sadə göstəricilər deyilir. Bütün iqtisadiyyat səviyyəsində sadə göstəricilər sisteminə dəyər ifadəsində məhsul istehsalı, ictimai əmək məhsuldarlığı göstəricilərini misal göstərmək olar. Öyrənilən predmet məzmununa görə mürəkkəb sosial-iqtisadi kateqoriya (hadisə, proses) olduqda göstəricilər sistemi onları əmələ gətirən yarımsistemlər şəklində düzəldilə bilər. Hər bir belə yarımsistem mahiyyətcə bütün sistemin ümumi məqsədi çərçivəsində özünə məxsus spesifik vəzifələri yerinə yetirir. Bütün yarımsistemlər arasındakı qarşılıqlı əlaqə, onların hamısının ümumi məqsədə tabe olmaları sistemin bütöv tam halında olduğunu deməyə əsas verir. Buna statistikanın bütün göstəriciləri misal ola bilər. "Statistika göstəriciləri" termini aşağıdakı iki mənada işlədilir: 1) bu və ya digər bir hadisənin, məsələn hər hansı bir ilin yanvar ayının 1-nə Azərbaycan Respublikası əhalisinin sayı, yaxud da istehlak qiymətləri indeksinin konkret rəqəmlə ifadə edilməsi; 2) hər hansı bir göstəricinin məzmununun, başqa sözlə, göstəriciyə konkret olaraq hansı ünsürlərin daxil edilməsinin müəyyən olunması. Göstəricinin məzmununun və onun qiymətləndirilməsi üsulunun müəyyən olunmasına isə metodologiyanın işlənib hazırlanması deyilir.

Statistika göstəricilərinin hesablanması metodologiyası aşağıdakı tələblərə cavab verməlidir: - ölkədə baş verən sosial-iqtisadi hadisə və proseslər arasında uyğunluq olmalıdır; - göstəricilər sistemində kütləvi xarakter daşıyan, mürəkkəb məzmuna malik hadisə və faktlar öz əksini tapmalıdır; - bütün sistemin ayrı-ayrı sahələrinin işi tədqiqatın başlıca vəzifəsinin yerinə yetirilməsinə tabe edilməlidir; - sistem və yarımsistemlər üzrə göstəricilər məntiqi ardıcıllıqla düzülməlidir; - göstəricilərin müqayisə edilməsi mümkün olmalıdır.

Sosial-iqtisadi statistikanın göstəriciləri proqnozları tərtib etmək üçün də baza rolunu oynamalıdır. Statistika göstəriciləri sabit deyildir. O, cəmiyyətin inkişafı ilə əlaqədər olaraq daima dəyişilir və təkmilləşdirilir. Məsələn, respublikada bazar iqtisadiyyatına keçilməsilə əlaqədər olaraq bəzi göstəricilər öz əhəmiyyətini itirmiş, bir sıra yeni göstəricilər meydana çıxmış və başqa göstəricilərin hesablanması metodologiyası təkmiləşdirilmişdir.

Qərb iqtisadçılarının istehsal amilləri nəzəriyyəsinə uyğun olaraq sosial-iqtisadi statistikanın göstəricilər sisteminin şərhinə əhali statistikası ilə başlanır. Əhalinin sayı və tərkibi göstəriciləri, onun təbii və mexaniki hərəkətinin mütləq və nisbi göstəriciləri, ölüm cədvəllərinin göstəriciləri, əhalinin perspektiv sayının hesablanması metodları və əhaliyə dair informasiya mənbələri. Əmək bazarını öyrənərkən də tədqiqat obyekti əhalidir, lakin o başqa nöqteyi-nəzərdən, istehsal prosesində iştirak etmək imkanı mövqeyindən nəzərdən keçirilir. Burada əmək ehtiyatları, iqtisadi fəal əhali və qeyri-fəal əhali kateqoriyaları, iqtisadiyyatda məşğul olanların sayı və tərkibi göstəriciləri, işçi qüvvəsindən istifadənin intensivliyinin təhlili istiqamətləri ön plana çəkilir. Bununla əlaqədar olaraq iş vaxtı balansları və iş vaxtından istifadə göstəriciləri, əmək məhsuldarlığının səviyyəsi və dinamikası göstəriciləri, əmək məhsuldarlığının yüksəldilməsi amillərinin öyrənilməsinin statistika metodları diqqət mərkəzindədir.

Ölkənin iqtisadi fəaliyyətinin sosial nəticələrini səciyyələndirmək üçün əhalinin həyat səviyyəsi və sosial inkişafı statistikasının göstəriciləri mühüm yer tutur. Həmin qrupa əhalinin gəlirlərinin səviyyəsini, dinamikasını və diferensiasiyasını, mal və xidmətlər istehlakının həcmini, quruluşunu və səviyyəsini, əhalinin təhsil və mədəni səviyyəsini, mənzillə təmin olunmasını, səhhətini və xəstələnməsini səciyyələndirən göstəricilər və əhalinin həyat səviyyəsini kompleks səciyyələndirən bir sıra başqa göstəricilər aid edilir.

Bütün göstəricilər hər hansı bir dəqiqliklə hesablanır. Onların hesablanmasının dəqiqlik dərəcəsi bir sıra amillərdən asılıdır. Bu amillərə öyrənilən hadisənin mürəkkəbliyi, informasiyalardan istifadə edənlərin qarşıya qoyduqları tələblər daxildir. Bunların özləri də bir sıra amillərin təsiri ilə dəyişir. Göründüyü kimi, göstəricilər bir-biri ilə zəncirvarı qaydada qarşılıqlı əlaqədədir. Lakin göstəricilərin çoxu iqtisadi inkişafın ümumi meyillərinin aşkara çıxarılması üçün lazım olduqlarına görə onların "aptek dəqiqliyi" ilə müəyyən edilməsi məcburi deyildir. Statistika orqanları səhvə yol verməmək üçün bir çox qiymətləndirmələrin təqribiliyini nəzərə almalı və xüsusi tədbirlər görməlidir. Lakin prosesin gedişində baş verən xətaları tamamilə aradan qaldırmaq mümkün deyildir. Başqa sözlə, statistika işləri ən yüksək səviyyədə, bütün elmi prinsiplərə əməl olunmaqla təşkil edildikdə belə, yenə də müəyyən xətalara yol verilir

Sosial-iqtisadi statistikanın göstəriciləri aşağıdakı tələblərə cavab verməlidir:

göstəricilər öyrənilən hadisəni tamamilə əhatə etməlidir. Bu, o deməkdir ki, göstəricilər resurs və onlardan istifadə olunmasını; ən mühüm məhsulların istehsalı; gəlirlərin bölgüsü, yenidən bölgüsü və son istifadəsini; investisiyaları, maliyyə sistemini, xarici iqtisadi fəaliyyəti, təsərrüfat subyektlərini, hər cür iqtisadi əməliyyatları və s. əhatə etməlidir; iqtisadi göstəricilər metodoloji baxımdan bir-biri ilə qarşılıqlı surətdə uzlaşdırılmalı, başqa sözlə, müxtəlif konsepsiyalarda, təsnifləşdirmələrdə eyni cür şərh olunmalı, bir-birini təkzib etməməli, əksinə bir-birini tamamlamalıdır. Beləliklə, sosial-iqtisadi statistikanın göstəriciləri metodoloji baxımdan düzgün hesablanmalı və reallığı olduğu kimi əks etdirməlidir. Çünki bu göstəricilərdən təsərrüfat işləri ilə əlaqədar qərarların qəbul olunması və nəticələrin təhlil edilməsində hökumət və ərazi hakimiyyət orqanları, elmi-tədqiqat müəssisələri, beynəlxalq maliyyə qurumları, şirkətlər, xüsusilə də iri bizneslər, müxtəlif mərkəzlər, ali məktəblər və s. geniş istifadə edirlər.

**Sosial-iqtisadi statistikada təsnifatlar və qruplaşdırmalar**

Sosial-iqtisadi statistikada mühüm əhəmiyyət kəsb edən metodoloji problemlərdən biri təsnifatların işlənib hazırlanmasıdır. Onun vəzifəsi öyrənilən hadisələrin məcmu vahidlərini müəyyən

meyarlar (əlamətlər) əsasında yekcins qruplara (siniflərə) ayırmaqla informasiya materiallarının kodlaşdırılması (şifrələnməsi) və nizama salınması imkanını təmin etməkdən ibarətdir.

Statistika məqsədləri üçün yaradılan təsnifatlarla yanaşı başqa təsnifatlar da vardır. Ən mühüm statistika təsnifatlarından milli iqtisadiyyat və fəaliyyət sahələrinin təsnifatını göstərmək olar.

Həm dövlət, həm də qeyri-dövlət müəssisə və təşkilatları qanunla qadağan olunmayan hər bir fəaliyyət növü ilə məşğul ola bilərlər. Müxtəlif növ fəaliyyətlə məşğul olmaq qaydası və şərtləri fəaliyyət növünün xüsusiyyətlərindən asılı olaraq qanunvericiliklə diferensiasiya edilə bilər və hər bir təsərrüfat vahidinin sahə mənsubiyyəti müəyyən edilərək qeydə alına bilər. Bu məqsədlə fəaliyyət növlərinin beynəlxalq standart sahə təsnifatından (BSST) və milli iqtisadiyyat sahələrinin Ümumazərbaycan təsnifatından (MIÜAT) istifadə olunur. Müəssisəsinin hansı sahəyə aid olması məsələsi aydınlaşdırılarkən ona tam vahid kimi baxılır və qeydə alınma anında üstünlük təşkil edən fəaliyyət növü əsas götürülür. Obyektin milli iqtisadiyyatın bu və ya digər sahəsinə: sənayeyə, tikintiyə, kənd təsərrüfatına, nəqliyyata, ticarətə, maliyyə sahəsinə və s. aid edilməsi daha çox sabitdir. Xalq təsərrüfatı sahələrinin siyahısı prinsip etibarı ilə MHS – dəki sektorlar (bölmələr) anlayışına uyğun gəlməlidir. Xalq təsərrüfatı sahələrinin təsnifatında milli iqtisadiyyat sahələri istehsal sahələrinə və qeyri-istehsal fəaliyyəti növlərinə ayrılır. Sənayedə istehsal sahələri məhsulun təyinatından, emal edilən xammalın növündən və texnoloji proseslərin xüsusiyyətindən asılı olaraq müəyyən edilir. Milli hesablar sistemində təsərrüfatçılıq subyektlərinin fəaliyyətinə nəzarət etmək üçün təsnifatın xüsusi vahidi – institusion vahidlər vardır. Milli iqtisadiyyatın tərkibində təsərrüfat subyektlərinin institusion vahid əlamətlərinə malik olan iki qrupu vardır. Onlardan birincisi korporasiyalardan, kommersiya təşkilatlarından və dövlət idarə orqanlarından ibarət olan hüquqi şəxslərdir, ikincisi – birgə ev təsərrüfatını aparmaq üçün birləşən fərdlər və yaxud onların qruplarıdır, yəni fiziki şəxslər.

Iqtisadi fəaliyyətin bütün növlərinin beynəlxalq standart sahə təsnifatı (BSST) statistika vahidlərinin aşağıdakı siyahısını əks etdirir: müəsisə (müəssisələr qrupu), fəaliyyət növlərinin vahidi, yerli vahidlər, idarələr. Həm istehsal, həm də maliyyə məsələlərində müstəqil qərarlar qəbul etmək hüququ olan ən iri iqtisadi vahid müəssisədir ki, onlar da öz istehsal fəaliyyətini həyata keçirmək üçün bütün funksiyaları yerinə yetirən institusion vahidlər və yaxud vahidlər qrupudur.

Fəaliyyət növlərinin vahidi- əsasən bir iqtisadi fəaliyyət növünü müstəqil həyata keçirən, məhsul və xidmətlərin istehsalından əldə etdiyi mənfəəti müəyyən etmək üçün uçotu olan müəssisə və yaxud onun bir hissəsidir. Istehsal vahidlərinin fəaliyyəti əsas, yardımçı və köməkçi ola bilər. Əsas və yardımçı fəaliyyət növlərinin məhsulları bazarda satılmaq və yaxud əvvəlcə müəyyən edilməmiş istifadəyə əvəzsiz vermək üçün istehsal olunur. Yardımçı istehsala sənaye müəssisələrinin tərkibində olan kənd təsərrüfatı istehsalını misal göstərmək olar. Iqtisadi vahidin əsas və yardımçı fəaliyyətinə şərait yaratmaq üçün köməkçi fəaliyyət həyata keçirilir. Köməkçi fəaliyyətin məhsulu bazarda satılmır, əsas və yardımçı istehsala xidmət edir. Məsələn, ayaqqabı fabrikində istehsal olunan məhsulu qablaşdırmaq üçün qutu istehsalı köməkçi fəaliyyətə aid edilir. Yerli vahid – bir yerdə (bir inzibati rayonda) həyata keçirilən fəaliyyət növlərinin məcmuyudur.

BSST çox səviyyəli əsasda qurulur. Onun tərkibində sahə təsnifatının 4 səviyyəsi: bölmələr, yarım bölmələr, qruplar və fəaliyyət növlərinin sinfi göstərilir. Bölmələr –təsnifatının icmal kateqoriyasıdır. Onlar iqtisadiyyatın iri sahələrindən ibarətdir. BSST latın əlifbasınının baş hərflər ilə sıralanan 17 bölmədən ibarətdir:

A) Kənd təsərrüfatı, ovçuluq və meşəçilik; B) Balıqçılıq; C) Dag-mədən sənayesi və karxanaların işlənməsi; Ç) Emaledici sənaye; D) Elektrik enerjisi, qaz və su təchizatı; E) Tikinti. Ə) Topdan və pərakəndə ticarət; avtomaşınların və uzun müddət istifadə olunan məişət texnikasının təmiri. F) Mehmanxanalar və restoranlar. G) Nəqliyyat, rabitə və anbar təsərrüfatı. Ğ) Maliyyə vasitəçiliyi. H) Daşınmaz əmlakla əlaqədar olan əməliyyatlar, icarə və kommersiya fəaliyyəti. X) Dövlət idarəsi və müdafiə, icbari sosial sığorta. V) Təhsil. I) Səhiyyə və sosial xidmətlər. J) Sair kommunal, sosial və fərdi xidmətlər. K) Muzdlu xidmətlə idarə olunan xüsusi ev təsərrüfatı. Q) Eks-ərazi təşkilatları.

Bölmələrdər hər biri bir neçə yarımbölmədən ibarətdir. Yarımbölmələrin formalaşmasının əsasını istehsal vahidlərinin quruluşu və istehsal əlaqələrinin oxşarlığını səciyyələndirən tipik xüsusiyyətlər təşkil edir. BSST tərkibində yarımbölmələr iki rəqəmlə təsnifləşdirilir. Məsələn, A bölməsinin kənd təsərrüfatı, ovçuluq və meşəçilik bölməsinin tərkibində 01-04 kodu ilə işarə olunan yarımbölmələr yaradılması imkanı nəzərdə tutulmuşdur. Sahə təsnifatının 3-cü səviyyəsi 3 rəqəmli kateqoriyalarla- fəaliyyət növlərinin qrupları ilə təqdim olunmuşdur. Məsələn, «kənd təsərrüfatı, ovçuluq və meşəçilik» bölməsinin 01 yarım bölməsində 011-dən başlayaraq 015-də qurtaran fəaliyyət növlərinin qrupları nəzərdə tutulmuşdur. BSST –ın dördüncü səviyyəsi fəaliyyət növlərinin sinifləri kimi verilmişdir. Onlar təsnifat kateqoriyalarının üçüncü səviyyələrini daha yekcins fəaliyyət növlərinə ayırmaqla əldə olunmuşdur. Yenə A «Kənd təsərrüfatı, ovçuluq və meşəçilik» bölməsini misal göstərək. Orada 011-lə işarə olunan «Bitkilərin becərilməsi, əmtəəlik tərəvəzçilik və bağçılıq» təsnifat qrupu üç sinfə: 0111-«Dənli bitkilərin və başqa kateqoriyalara aid olmayan bitkilərin becərilməsi», 0112 «Tərəvəzin becərilməsi, ixtisaslaşdırılmış bağçılıq və şitilliklər məhsulunun istehsalı», 0113 «Meyvələrin, qozun, içki istehsalı üçün bitkilərin becərilməsi» qruplarına ayrılır.

Müəssisə və təşkilatların əsas fəaliyyət növü iqtisadi fəaliyyət növlərinin bu təsnifatı əsasında müəyyən edilir. Müəssisələrin mülkiyyət formaları, sahə mənsubiyyəti üzrə təsnifatından başqa onların böyüklüyünə (həcminə) görə bölüşdürülməsi də böyük əhəmiyyət kəsb edir. Bu zaman əsas götürülən əlamət müəssisələrin fəaliyyətinin xarakterindən asılıdır. Məsələn, kommersiya bankları, sığorta kampaniyaları və b. maliyyə-kredit təşkilatları üçün çox vaxt nizamnamə kapitalının həcmindən istifadə olunur. Məhsul istehsal edən və xidmət göstərən müəssisələr üçün onları böyüklüyünə görə qruplaşdırarkən daha münasib əlamət onların ümumi buraxılışının həcmi, nizamnamə kapitalının məbləği və ya işçilərin orta illik sayı götürülə bilər.

Qeyd etmək lazımdır ki, dünya təcrübəsində müəssisənin kiçik və ya iri hesab edilməsi meyarı hələ də müəyyən edilməmişdir. Ölkələrin əksəriyyətində belə meyar işçilərin sayıdır.

Ölkənin iqtisadi ərazisi onun coğrafi anlayışı ilə düz gəlmir. MHS-də iqtisadi ərazi dedikdə dövlətin inzibati idarəsi altında olan və əhalinin, malların və kapitalın asudə hərəkətinə imkan verən ərazi başa düşülür. Hava yolları, ərazi suları və beynəlxalq sulardakı kontinental şelflər də iqtisadi əraziyə aid edilir. Başqa ölkələrdəki «ərazi bankları»da iqtisadi əraziyə aid edilir. Bu başqa ölkənin ərazisində yerləşən, lakin konkret ölkə hökumətinin icarə və yaxud mülkiyyət hüququ ilə elmi, diplomatik və başqa məqsədlər üçün istifadə etdiyi torpaq sahəsidir. Ərazi anklavlarında ölkənin xarici səfirlikləri, konsulluqları, ticarət və başqa nümayəndəlikləri yerləşdirilə bilər. Başqa ölkələrin və beynəlxalq təşkilatların ərazi anklavları onların yerləşdiyi ölkənin iqtisadi ərazisinə daxil edilmir. Korporasiyalar və qeyri-kommersiya təşkilatları yarandıqları və qeydə alındıqları ölkənin rezidentləri

hesab olunurlar. Əgər korporasiyanın xaricdə uzun müddət fəaliyyət göstərən şöbəsi, ofisi və yaxud istehsalı olarsa, bu yerləşdiyi ölkənin rezidenti hesab edilir.

Mərkəzi hökumətin tərkibində olan dövlət idarələri respublika büdcəsindən maliyyələşdirilir. Onlara: iqtisadiyyatı respublika səviyyəsində tənzimləyən və idarə edən, daxili qayda-qanunu qoruyan və müdafiə ilə məşğul olan respublika orqanları, elmi tədqiqat institutları, təhsil, səhiyyə, gənclər və idman, mədəniyyət nazirlikləri və habelə, sosial təminat mərkəzləri daxildir. Dövlət idarə orqanlarının tərkibində olan mətbəələr, hesablama mərkəzləri, rabitə və başqa xidmətlər ayrıca instutision vahidlər hesab olunmurlar. Ev təsərrüfatları sektoru MHS-nə görə ümumi mənzil şəraiti yaratmaq və əmtəə və xidmətləri birgə istehlak etmək üçün öz gəlirlərini və maddi qiymətlilərini birləşdirən şəxslər qrupudur. Ev təsərrüfatları çərçivəsində onun üzvləri həm öz istehlakı, həm də satış üçün məhsul istehsal edə və xidmət göstərə bilərlər.

**Sosial-iqtisadi statistikada tətbiq olunan əsas anlayışlar və kateqoriyalar.** MHS-in qurulması metodologiyası bir sıra standart anlayışlardan, təriflərdən və kateqoriyalardan istifadə olunmasına əsaslanır. Bu, müxtəlif ölkələrin iqtisadçılarına vahid statistika dilində danışmağa və makroiqtisadi informasiyanın müqayisəli olmasına imkan verir. «Iqtisadi nəzəriyyə» kursundan artıq bizə «əmtəə», «xidmət», «iqtisadi istehsal», «iqtisadi ərazi», «milli iqtisadiyyat», «milli sərvət», «ümumi milli gəlir»» və s. kimi anlayışlar məlumdur. Lakin sosial-iqtisadi statistikada «iqtisadi maraqların mərkəzi», «rezident», «qalan dünya», «institusion vahid», «iqtisadiyyat sektoru», «idarə», «sahə», «buraxılış», «aralıq istehlak», «son istehlak», «aktivlər və passivlər», «öhdəliklər», «iqtisadi axın», «əməliyyat və ehtiyyatlar» kimi anlayışlar da geniş istifadə olunur. Institusion vahidlər çoxsaylı müxtəlif iqtisadi hərəkətləredirlər: istehsal edir, işlədir, əldə edir, vəsait sərf edir və s. Həmin hərəkətlərin nəticəsi iqtisadi axındır. Iqtisadi axın dedikdə dəyərin yaranması, artırılması, mübadiləsi, ötürülməsi və başa çatdırılması başa düşülür.

Iqtisadi axınlar ehtiyatların dəyişməsinə, yəni institusion vahidlərin aktivlərinin və öhdəliklərinin həcminin, tərkibinin və dəyərinin dəyişməsinə səbəb olur. Institusion vahidlər arasında baş verən axınlar isə iqtisadi əməliyyatlar adlanır. Institusion vahidlərin aktivlərinin dəyərinin və öhdəliklərinin dəyişməsi təkçə iqtisadi əməliyyatlar nəticəsində deyil, həm də siyasi hadisələr (məsələn, müharibələr), təbii fəlakətlər (daşqınlar, zəlzələlər və s.) və qiymətlərin səviyyəsinin dəyişməsi nəticəsində baş verir. Belə dəyişikliklərə statistikada başqa iqtisadi axınlar deyilir.

Iqtisadi əməliyyatlar adətən institusion vahidlər arasında qarşılıqlı axınların olmasını nəzərdə tutur: institusion vahid öz aktivlərini, əməyini, xidmətini və malını təqdim etməklə əvəzində müəyyən mal, xidmət və s. kimi axın əldə etməyi nəzərdə tutur. Əvəzsiz iqtisadi əməliyyatlar (pensiya, təqaud, humanitar yardım və s. verilməsi) isə transfert adlanır. Başqa sözlə desək transfert bir təhsisat vahidinin başqa vahidə mal, xidmət və aktivləri əvəzsiz verməsindən ibarətdir. Cari transfertlər-müəssisələrin və ev təsərrüfatlarının əldə etdikləri mənfəətdən və başqa gəlirdən, əmlaka sahib olmağa və s. görə müntəzəm olaraq ödədikləri vergilərdən ibarətdir. Cari transfertlərin digər ünsürü əhalinin sosial müdafiəsinə vəsait ayırmalarıdır. Ölkə daxilində iqtisadi fəaliyyət göstərən bütün hüquqi və fiziki şəxslər «rezident» hesab olunurlar. Xarici ölkələrin hüquqi və fiziki şəxsləri (xarici turistlər, xarici tələbələr) respublikamızda müvəqqəti yaşayan xarici qonaqlar (2 ilə qədər) və ezamiyyətə gələn şəxslər isə rezident hesab edilmirlər.

Sosial-iqtisadi statistikada tətbiq olunan digər anlayışlar və kateqoriyalar haqqında sonrakı dərslərdə ətraflı məlumat veriləcəkdir.

**İstifadə olunan ədəbiyyatlar:**


- O.Q.Məmmədli, N.Ə.Cavadov, X.N.Cavadzadə. Sosial-iqtisadi statistika. Ali məktəblər üçün dərslik. I hissə. Bakı, "MBM", 2014
- С.М.Йагубов, А.Ж. Мяммядов. Сосиал-игтисади статистика. Дярслик. Бакы: «Игтисад Университети » няшриййаты, 2008, - 388 сящ.


**Mühazirə 3. x**

**Plan:**

12. *Əhali sayının statistikasının öyrənilmə zəruriyyəti*
13. *Əhali və əmək ehtiyatları statistikasının əsas anlayışları*
14. *Əhali və əmək ehtiyatları statistikasının vəzifələri*
15. *Əhalinin sayı və tərkibi göstəriciləri*
16. *Əhali haqqında informasiyaların mənbələri*
17. *Əhalinin uçot kateqoriyaları*
18. *Əhalinin say göstəriciləri*
19. *Əhalinin ərazidə yerləşməsi*
20. *Əhalinin sıxlıq göstəriciləri*

**Əhalinin sayının statistik öyrənilməsi zəruriliyi.** Əhali haqqında dərin biliklərə malik olmadan səmərəli sosial siyasət yürütmək mümkün deyildir. Iqtisadiyyatın bütün sahələrinin inkişafı üçün əhaliyə dair informasiyanın olması zəruridir: Əhalinin məşğulluğunun mümkün miqyasını hesablamaq üçün əmək qabiliyyətli əhalinin sayı, fəaliyyət sahələri sferasını müəyyən etmək üçün əhalinin peşə tərkibi məlum olmalıdır. Məktəbəqədər idarələrin, məktəblərin və müvafiq tərbiyəçilərin, müəllimlərin və sairənin sayını müəyyən etmək üçün məktəbəqədər və məktəb yaşda uşaqların sayı bəlli olmalıdır. Mənzil tikintisi, səhiyyə, pərakəndə ticarət və başqa sahələr üçün də əhali haqqında informasiya olmalıdır.

**Əhali statistikası**, statistika elminin ən qədim sahələrindən biridir. Buna demoqrafiya statistikası da deyilir. Demoqrafiya, statistika ilə eyni vaxtda meydana gəlmiş, onun çərçivələri daxilində inkişaf etmiş və sosial təfəkkürün formalaşmasına güclü təsir göstərmişdir Məşhur demoqraf B.T. Urlanis yazdığı "Demoqrafiyanın üç yüz illiyi" məqaləsində qeyd edirdi ki, müasir demoqrafiyanın nəhəng binasının ilk kərpicini düz 300 il bundan əvvəl Temza sahillərində, dumanlı Londonda C. Qraunt qoymuşdur. C. Qraunt əhalinin təkrar istehsalının qanunauyğunluqlarının tədqiq edilməsi ilə məşğul olmuşdur. O, cins tərkibi və səbəbləri nəzərə alınmaqla ölənlərin, habelə doğulanların sayı haqqında hər həftə dərc olunan siyahı əsasında London əhalisi barədə 33 illik bülletenləri təhlil etmişdir. Bu, ona insanların yaşı ilə ölümü arasındakı qanunauyğunluğu əks etdirən qarşılıqlı əlaqəni aşkara çıxarmağa, ölüm haqqında ilk cədvəli tərtib etməyə imkan vermişdir. C.Qrauntun başladığı demoqrafik qanunauyğunluqların öyrənilməsinə dair tədqiqatlar başqa iqtisadçı və statistiklər tərəfindən yaradıcılıqla inkişaf etdirilmişdir.

Çoxəsrlik tarixi olan əhali statistikası ilə müqayisədə "demoqrafiya" termininin özü çox "cavandır". Belə ki, bu söz ilk dəfə fransız statistiki Jan.K.A. Giyyarın (1799-1876) 1855-ci ildə Parisdə nəşr olunmuş "İnsan statistikasının ünsürləri və ya müqayisəli demoqrafiya" kitabının adında işlədilmişdir. "Demoqrafiya" termini iki latın sözünün - "demos" və "qrafıya" birləşməsindən əmələ gəlmişdir. "Demos" - xalq, "qrafıya" isə yazmaq mənasını verir. Beləliklə, demoqrafiya əhali haqqında elm deməkdir. Demoqrafiyanın çox böyük əməli əhəmiyyəti vardır. Demoqrafiya statistikası əhalinin sayı və tərkibindən, miqrasiyasından, doğum, ölüm, evlənmə və boşanma hallarından və s. məsələlərdən bəhs edir.

Müəyyən inzibati ərazidə yaşayan adamların məcmusuna əhali deyilir ki, onların sayı təbii və mexaniki hərəkəti nəticəsində daima dəyişilir və müstəqil öyrənmə tələb edir. Hazırda əhali statistikası sosial statistikasının mühüm sahələrindən biridir. Əhali statistikası öz predmetini konkret zaman və məkan daxilində öyrənir və onun hərəkətinin təbii, mexaniki və sosial formalarını aşkar edir. Əhalinin təbii hərəkəti dedikdə əsasən doğum və ölümü, mexaniki hərəkəti onun öz daimi yaşayış yerini dəyişməsi, sosial hərəkəti dedikdə isə əhalinin sosial həyat şəraitinin dəyişməsi nəzərdə tutulur. Əhali statistikasında müşahidə vahidi məqsəd və vəzifədən asılı olaraq ayrıca şəxs, ailə, ev təsərrüfatı, ahıllar, əmək qabiliyyətli şəxslər, işsizlər, qadınlar, kişilər və s. ola bilər.

**Əhalinin sayı** – müəyyən ərazidə yaşayan şəxslərin məcmusu ilə ölçülür. Əhalinin sayı böyük sosial-iqtisadi əhəmiyyətə malik olmaqla bir sıra göstəricilərin hesablanmasında geniş istifadə olunur. Doğum, ölüm və habelə ərazidə öz yerini dəyişməsi nəticəsində əhalinin sayı daima dəyişilir. Buna görə də əhalinin sayını dürüst uçota almaq üçün onun aparıldığı ərazinin sərhədləri və aparılma vaxtı müəyyən olunmalıdır. Əhalinin sayı müəyyən vaxt anına qeydə alınır ki, buna kritik moment (an) deyilir. Məsələn, Əhalinin 1999-cu il siyahıya alınması zamanı yanvar ayının 27-sindən 28-nə keçən gecə yerli vaxtla saat 12-00 –kritik an hesab edilmişdi. Yəni həmin andan sonra doğulanların sayı nəzərə alınmırdı, ölənlər isə uçota düşürdü. Əhalinin siyahıya alınması onun sayının dəqiq müəyyən edilməsinin əsas metodudur; siyahıya almalar isə adətən hər 10 ildən bir keçirilir. Lakin əhalinin sayına dair hər il məlumat əldə olunmalıdır. Siyahıya almalar arasındakı dövrdə ayrı-ayrı yaşayış məntəqələrinin əhalisinin sayı axırınc siyahıya alınmanın və əhalinin təbii və mexaniki hərəkətinin cari uçotunun məlumatına əsasən balans sxemi üzrə hesablama yolu ilə müəyyən edilir. Ilin əvvəlinə əhalinin sayı + il ərzində doğulanların sayı – ölənlərin sayı + gələnlərin sayı - il ərzində gedənlərin sayı = ilin axırına əhalinin sayı. Əhalinin sayına dair məlumatlar müəyyən ərazi bölgələri (yaşayış məntəqələri) üzrə toplanır, işlənib hazırlanır və öyrənilir.

Əhali siyahıya alınarkən daimi əhali və mövcud əhali kateqoriyalarından istifadə olunur. Daimi əhaliyə həmin yaşayış məntəqəsində daimi yaşayan bütün şəxslər, mövcud əhaliyə isə siyahıyaalmanın kritik anında bu məntəqədə daimi və ya müvəqqəti yaşamasından asılı olmayaraq, qeydə alınan bütün şəxslər daxil edilir. Siyahıyaalma prosesində daimi və mövcud əhalinin sayını dürüst hesablamaq üçün müvəqqəti qaiblərin və müvəqqəti yaşayanların uçotu da aparılmalıdır. Yaşayış məntəqəsinin daimi sakinlərindən kritik anda öz yaşayış yerini tərk edənlər və başqa məntəqədə olanlar (sonuncu siyahıyaalmada qəbul edilən müddət 12 aydır) müvəqqəti qaiblərə aid edilirlər. Deməli, müvəqqəti qaiblər daimi əhalinin bir hissəsidir. Başqa məntəqədə

daimi yaşayan, lakin kritik momentdə bu məntəqədə olan şəxslər müvəqqəti yaşayan hesab edilirlər. Deməli, müvəqqəti yaşayanlar bu məntəqənin mövcud əhalisinin bir hissəsidir.

Hər hansı bir yaşayış məntəqəsi və ya rayon üzrə daimi və mövcud əhalinin sayı bir-birindən fərqlənə, hətta bəzi hallarda kəskin surətdə fərqlənə bilər. Lakin müvəqqəti yaşayan əhalinin sayı ilə müvəqqəti getmiş əhalinin sayı adətən ölkə üzrə bir-birinə uyğun gəlir. Buna əsasən demək olar ki, siyahıyaalma məlumatlarında ölkə üzrə daimi və mövcud əhalinin sayının bir-birinə uyğun gəlməsi siyahıyaalmanın dəqiqliyinə nəzarətin başlıca göstəricisi hesab edilə bilər. Təcrübə göstərir ki, bu iki əhali kateqoriyası arasındakı fərq adətən 0,1-0,2%-ə bərabər olur ki, bu da normal haldır.

**Əhalinin tərkibi göstəriciləri** İşləmək üçün müəyyən edilmiş yaş həddində olan əmək qabiliyyətli əhali əmək ehtiyatlarının əsas hissəsini təşkil edir. İşləyən pensiyaçılar və yeniyetmələr isə ölkədə əmək ehtiyatlarının sayının dəyişməsinə təsir edir. Lakin qeyd etmək lazımdır ki, ölkədə əmək ehtiyatlarının dəyişməsinə təsir göstərən əsas amil əmək qabiliyyətli əhalinin sayının artıb-azalmasıdır. Bütün bunlar göstərir ki, əhalinin sayının müəyyən edilməsi olduqca mühüm, məsuliyyətli və mürəkkəb bir məsələ olmaqla, sosial-iqtisadi statistikanın əsas vəzifələrindən biridir. Ona görə də bu işi uğurla həyata keçirmək üçün bir sıra şərtlərə əməl olunmalıdır. Bunlardan biri əhalinin sayının müəyyən olunduğu vaxtın dəqiq müəyyənləşdirilməsidir. Məsələn, "2010-cu ildə Azərbaycan Respublikası əhalisinin sayı" anlayışı qcyri-müəyyəndir. Başqa sözlə, bu anlayış əhalinin müəyyən tarixə (yanvarın 1-nə, oktyabrın 1-nə, yaxud da dekabrm 1-nə) olan sayını, yoxsa, hər hansı bir ildə orta illik saymı göstərir? sualı meydana çıxır. Bunlar isə müxtəlif anlayışlardır. Yuxarıda göstərildiyi kimi, əhalinin sayı haqqında əsas məlumat mənbəyi onun siyahıya alınmasıdır. Siyahıyaalma zamanı əhalinin sayı hər hansı bir tarixə müəyyən edilir. Siyahıyaalmalar arasındakı dövrdə isə statistik məcmuələrdə əhalinin sayı haqqında məlumat bir qayda olaraq ilin əvvəlinə və ya axırına verilir. Bu məqsədlə axırıncı siyahıyaalınmanın ilkin məlumatları hər il doğulanların, ölənlərin, xaricdən gələnlərin və xaricə gedənlərin sayı, başqa sözlə, əhalinin təbii və mexaniki hərəkəti nəzərə alınmaqla təshih olunur. Başqa sözlə, ilin əvvəlinə olan əhalinin üzərinə il ərzində doğulanların və ölkəyə gələnlərin sayı əlavə edilir, onun üzərindən il ərzində ölənlərin və ölkədən gedənlərin sayı çıxılır və beləliklə də ilin axırına olan əhalinin sayı müəyyən edilir. Bəzi hallarda bir sıra sosial-iqtisadi hadisələri hesablamaq üçün əhalinin orta saymın müəyyən edilməsinin zəruriliyi meydana çıxır. Bu, məsələn, beynəlxalq müqayisə aparmaq, yəni hər nəfərə düşən məhsul istehlakı (ət və ət məhsulları, süd və süd məhsulları, yumurta, taxıl, elektrik enerjisi, avtomobil və i.a.) göstəricilərini, habelə əhalinin doğum, ölüm, təbii artım əmsallarını hesablamaq üçün lazımdır.

Hər hansı bir yaşayış məntəqəsi üzrə əhalinin orta illik sayını müəyyən edərkən xronoloji orta kəmiyyətin düsturu ilə hesabi orta kəmiyyətin düsturundan birlikdə, qarşılıqlı əlaqədə istifadə olunması daha münasibdir. Bunu şərti misalla izah edək. Tutaq ki, hər hansı bir kurort şəhərinin əhalisi ilin əvvəlinə 220 min nəfər, ilin axırına isə 230 min nəfər olmuşdur. Bundan başqa, bu şəhərdə üç ay ərzində 25 min, beş ay ərzində isə 40 min nəfər kənardan gəlib istirahət edən əhali olmuşdur. Şəhərdə il ərzində yaşamış əhalinin orta illik sayı belə müəyyən olunur: - daimi əhali: (220+230):2=225 min nəfər. - kənardan gəlib istirahət edən əhali: (25*3) + (40*5): 12 = (75+200): 12 = 275 : 12 = 23 min nəfər. - il ərzində şəhərdə yaşamış əhalinin orta illik sayı: 225 + 23 = 248 min nəfər. Əhalinin saymm düzgün müəyyən edilməsinin başqa bir şərti hesablama

aparılan ərazinin düzgün müəyyən olunmasıdır. Çünki, yaşayış məntəqələrinin-şəhərlərin, qəsəbələrin, kəndlərin-əraziləri müxtəlif səbəblərə görə dəyişdirilə bilər və dəyişdirilir. Bəzi tarixi hadisələr nəticəsində hətta ölkələrin də əraziləri dəyişir. Əhalinin sayını müəyyən etdikdə, buna dair dinamika sıralarını düzəltdikdə və onları təhlil etdikdə bütün bunları nəzərə almaq lazımdır. Yaşayış məntəqələrinin şəhər və kənd yaşayış məntəqələrinə bölünməsinə uyğun olaraq əhali şəhər və kənd əhalisinə bölünür. Şəhərlərdə və şəhər tipli qəsəbələrdə yaşayan əhali şəhər əhalisinə (fəhlə qəsəbələri və kurort şəhərləri də daxil olmaqla), kənd yerlərində yaşayan bütün şəxslər isə kənd əhalisinə aiddir. Lakin şəhər və kənd əhalisini kənd təsərrüfatı və qeyri-kənd təsərrüfatı əhalisi anlayışı ilə qarışdırmaq olmaz. Çünki əhalinin qeyri-kənd təsərrüfatı və kənd təsərrüfatı əhalisinə bölünməsi əməyin xarakteri, iqtisadiyyatın ayrı-ayrı sahələrinə bağlılıqla əlaqədardır. Bu və ya digər bir yaşayış məntəqəsinin şəhər yerlərinə aid edilməsi qanunvericilik qaydasında həyata keçirilir. Fikrimizi bir qədər də dəqiqləşdirsək, məsələn, kənd müəllimləri və həkimləri, kənddə ticarətlə məşğul olan şəxslər və s., habelə onların ailə üzvləri kənd əhalisinə daxildir, kənd təsərrüfatı əhalisinə isə daxil deyildir. Qeyri-kənd təsərrüfatı əhalisinin bir hissəsi şəhərlərdə və şəhər tipli qəsəbələrdə yaşaya bilər.

Əhalinin sayı həm də ayrı-ayrı inzibati-ərazi vahidləri üzrə müəyyən edilir. Ayrı-ayrı ərazilər, yaxud da inzibati vahidlər üzrə əhalinin sıxlığı göstəricisi də (həmin ərazidə məskunlaşmış əhalinin sayını onun sahəsinə bölməklə bir kv. km-ə düşən əhali) hesablanır. Bu göstərici Azərbaycan Respublikasının iqtisadi rayonları üzrə kəskin surətdə fərqlənir. Əhalinin ölkə ərazisində yerləşməsini təhlil edərkən onun sıxlığı göstəricisi ilə yanaşı, həm də şəhər və kənd yaşayış məntəqələrinin orta həcmi (əhalinin sayı) kimi göstəricilərindən də istifadə edilə bilər.

Əhali kateqoriyası olduqca mürəkkəb topludur. Çünki bir çox dəyişən əlamətlərə (göstəricilərə) malikdir. Odur ki, onu ayrı-ayrı qruplara və yarımqruplara bölmədən hərtərəfli öyrənmək mümkün deyildir. Statistikada əhali müxtəlif əlamətlərə görə qruplaşdırılarkən birinci növbədə xalis demoqrafik göstəricilər əsas götürülür. Bunlara əhalinin cinsi, yaşı, ailə vəziyyəti, milliyyəti və s. aiddir. Bunları bir qədər ətraflı nəzərdən keçirək.

Əhalinin tərkibində qadınlarla kişilər arasındakı nisbət müxtəlif dövrlərdə eyni olmamışdır. Əhalinin tərkibində kişilərin və qadınların xüsusi çəkisi, hər 100 qadına düşən kişilərin sayı, qadınların xüsusi çəkisinin kişilərə nisbətən artıq olmasını ifadə edən göstəricilər hesablanır. Bu nisbi artıqlıq 1%-ə qədər olduqda cüzi, 1-3% olduqda orta, 3 %-dən çox olduqda isə əhalinin cins tərkibində uyğunsuzluq olması deməkdir. Əhalinin cinsə görə tərkibinin öyrənilməsi iqtisadi və demoqrafik əhəmiyyətə malikdir. Bu barədə məlumatlar onun təkrar istehsalının və perspektiv sayının müəyyən edilməsi, ömür müddətinin hesablanması üçün lazımdır. Doğulan uşaqların da cins tərkibi öyrənilir. Başqa sözlə, doğulan hər 100 qız uşağına neçə nəfər oğlan uşağmm düşməsi müəyyən edilir. 100 nəfər qız uşağına görə 105 oğlan uşağının doğulması normal hal hesab edilir.

Əhali statistikasında başlıca məsələlərdən biri də onun yaşa görə bölünməsidir. Bu məqsədlə yaş kontingenti anlayışından istifadə olunur. Bu, hər hansı bir ümumi əlamətə görə bir neçə ili özündə birləşdirən “şəxslərin toplusu” üzrə əhalinin sayının müəyyən edilməsi deməkdir. Bunlara körpələr evi, məktədəqədər və məktəbə getmə yaşında qanunvericiliklə müəyyən edilmiş əmək qabiliyyətli yaşda, habelə bu yaş həddindən aşağı və yuxarı yaşda; seçib-seçilmək hüququ

verən yaş həddində olan əhalinin sayı və s. daxildir. Bunlardan bir çox məsələlərin həllində istifadə olunur.

Yaşa görə qruplaşdırma əhalinin ümumi sayı, kişilər və qadınlar, şəhər və kənd əhalisi üzrə də hesablanır. Cinsə və yaşa görə qarışıq qruplaşdırma xüsusi maraq doğurur. Bunu daha əyani olsun deyə adətən cins-yaş piramidası (qrafiki) şəklində düzəltmək məqsədəuyğundur.

Statistikada əhalinin milli tərkibinə görə qruplaşdırılmasından da geniş istifadə olunur. Çünki demək olar ki, dünyada mövcud olan bütün ölkələrdə müxtəlif millətlərin nümayəndələri yaşayır. Respublikamız çoxmillətli ölkədir. Əhalinin milli tərkibini öyrənərkən onun hansı dili özü üçün ana (danışıq) dili hesab etməsi və vətəndaşlığı, yəni hansı ölkənin vətəndaşı, yaxud da ikili vətəndaşlığı olmasının müəyyən olunması da az əhəmiyyət kəsb etmir.

Statistikada əhalinin ailə (nikah) vəziyyətinə görə öyrənilməsi də çox böyük əhəmiyyətə malikdir. Bu məsələ ilə əlaqədar suallar müxtəlif formalarda qoyula bilər. Başqa sözlə, bəzi hallarda sadəcə olaraq nikahda olan və olmayan şəxslərin sayı müəyyən edilir. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi nəşrlərində bu qaydadan istifadə olunur. Lakin qeyd etmək lazımdır ki, məsələyə bu cür yanaşdıqda ümumiyyətlə nikahda olmayan şəxslərlə dul, boşanmış və hələ nikaha girməmiş şəxslər bir qrupda birləşdirilir ki, bunu da düzgün hesab etmək olmaz, çünki belə qruplaşdırma tərkibinə görə yekcins deyildir. Aşağıdakı qruplaşdırma nikah vəziyyəti haqqında daha tam və düzgün təsəvvür verir: 1) heç vaxt nikahda olmayanlar; 2) nikahda olanlar; 3) dullar; 4)boşanmışlar; 5)nikah vəziyyəti göstərilməyənlər.

Statistikada yuxarıda nəzərdən keçirilən xalis demoqrafiya əlamətləri üzrə qruplaşdırmalarla yanaşı, həm bütün əhali, həm də onun ayrı-ayrı kontingentləri üzrə bir sıra başqa göstəricilər də hesablanır.

Bunlardan biri əhalinin yaşamaq üçün gəlir mənbəyinə görə qruplaşdırılmasıdır. Əhalini siyahıya alarkən onun gəlir mənbəyinə görə aşağdakı kimi qruplaşdırılması məqsədəuyğundur: 1) əmək fəaliyyətindən əldə edilən gəlir; 2) şəxsi həyətyanı sahədən əldə edilən gəlir; 3) təqaüdlər; 4) pensiyalar (əlilliyə görə pensiyadan başqa); 5) əlilliyə görə pensiyalar; 6) işsizliyə görə müavinət; 7) yardımlar (işsizliyə görə müavinətdən başqa) və dövlət təminatının digər növləri; 8) qənaət; 9) əmlakın icarəyə verilməsindən əldə edilən gəlirlər; 10) digər gəlir mənbələri. Əhalinin yaşamaq üçün gəlir mənbələri həm də şəhər və kənd əhalisi, kişilər və qadınlar üzrə ayrılıqda öyrənilir.

Əhalinin tərkibini öyrənərkən başlıca məsələlərdən biri də onun məşğulluğudur. Odur ki, statistikada bir-biri ilə qarşılıqlı əlaqədə olan, lakin bir-birindən fərqlənən “məşğuliyyət” və “peşə” anlayışlarından istifadə olunur. Məşğuliyyət faktiki yerinə yetirilən işdir, peşə dedikdə isə bu və ya digər şəxsin qazandığı ixtisas nəzərdə tutulur. Müasir dünyada milli və bəşəri mədəniyyət hər bir ölkənin və bütövlükdə yer kürəsi əhalisinin ən böyük sərvətinə çevrilmiş və əhalinin mədəni səviyyəsinin daim yüksəlməsi təmin olunmuşdur. Əhalinin mədəni səviyyəsini müəyyən edən başlıca göstərici isə onun savadlılıq və təhsil səviyyəsidir. Ölkədə sosial-iqtisadi inkişafın sürətləndirilməsində onların çox böyük əhəmiyyəti vardır. Odur ki, statistikada bunların öyrənilməsinə xüsusi diqqət yetirilir.

İnsanların, birinci növbədə əmək qabiliyyətli əhalinin fəaliyyəti istehsal prosesinin, ölkənin bütün həyatının əsasını təşkil edir. Odur ki, sosial statistikanın göstəricilər sistemində əhali və əmək ehtiyatları göstəriciləri mühüm yer tutur. İnsanlar özlərinin peşə-istehsal vərdişləri ilə birlikdə ölkənin məhsuldar qüvvələrinin, onun iqtisadi potensialının başlıca tərkib hissəsidir. Məhsuldar

qüvvələr isə təkrar istehsalın həm şərti, həm də nəticəsidir. Deməli, məhsuldar qüvvələrin əsas ünsürlərindən biri olan əmək ehtiyatlarının iştirakı olmadan təkrar istehsal prosesinin həyata keçirilməsi mümkün deyildir. Əhali və əmək ehtiyatları statistikasında əsas müşahidə vahidi bir sıra əlamətlərə (milliyyət, yaş, cins, təhsil, peşə, məşğulluq və i.a.) malik olan ayrıca şəxs, ailə, ev təsərrüfatı, əmək qabiliyyətli şəxslər, işsizlər, kişilər, qadınlar və sairədir. İnsan, əmək qabiliyyətinin daşıyıcısıdır. Olduqca mürəkkəb hadisə olan əmək qabiliyyəti müxtəlif mövqelərdən öyrənilə bilər. Bununla əlaqədar olaraq statistikada öz aralarında qarşılıqlı əlaqədə olan, lakin spesifik xüsusiyyətlərinə görə bir-birindən fərqlənən anlayışlarından istifadə edilir. Bu anlayışlar insanların əmək qabiliyyətlərini əks etdirməklə, onları müxtəlif cəhətlərdən aydınlaşdırmağa imkan verir. Bunlara "işləmək üçün müəyyən edilmiş yaş həddində olan əhali", "əmək funksiyalarını yerinə yetirə bilən əhali" ("işləmək üçün müəyyən edilmiş yaş həddində olan əmək qabiliyyətli əhali"), "əmək ehtiyatları", "əmək funksiyalarını faktiki yerinə yetirən əhali" ("məşğul əhali") daxildir.

İnsanların əmək qabiliyyəti fizioloji və sosial-iqtisadi şəraitlə müəyyən edilir. Fizioloji şərait dedikdə, insanların yaş həddi ilə əlaqədar olan müəyyən inkişaf səviyyəsi nəzərdə tutulur. Burada aşağı və yuxarı yaş həddinin düzgün müəyyən edilməsinin çox böyük əhəmiyyəti vardır. Aşağı yaş həddi dedikdə, böyüməkdə olan, fiziki və psixiki durumuna görə əmək funksiyalarını yerinə yetirməyə imkan verən yaş həddi nəzərdə tutulur. Yuxarı yaş həddi isə əhalinin əmək qabiliyyətinin və deməli, əmək fəaliyyətinin aşağı düşdüyü yaş həddi deməkdir. Başqa sözlə, belə təsəvvür olunur ki, aşağı və yuxarı yaş hədləri daxilində insanların əmək qabiliyyətləri, əmək funksiyalarını yerinə yetirmək bacarıqları özünü daha tam biruzə verir. Lakin qeyd etmək lazımdır ki, insanların əmək qabiliyyətlərini müəyyən edən yaş şərtidir.

Aşağı yaş həddi müəyyən olunarkən 9 illik ümumtəhsil və texniki peşə məktəblərində hazırlığın adətən başa çatması nəzərə alınır. Ölkəmizdə yuxarı yaş həddi isə pensiya təminatı haqqında qanunvericiliklə müəyyən edilir. İşləmək üçün müəyyən edilmiş yaş həddində olan əhalinin tərkibində həqiqətən işləmək qabiliyyəti və faydalı əməyə cəlb edilməsi mümkün olan əhalinin sayını müəyyən etmək üçün statistikada "əmək qabiliyyətli yaşda işləmək imkanı olan əmək qabiliyyətli əhali" anlayışından istifadə edilir. İctimai-faydalı əməkdə iştirak edən minimum yaş həddindən aşağı yeniyetmələr və pensiya yaşında olan şəxslər ümumi əmək ehtiyatları potensialını artırır. Statistikada ümumi əmək potensialını ifadə etmək üçün isə "əmək ehtiyatları" anlayışından istifadə olunur. Ümumi əmək ehtiyatları potensialı ilə iqtisadiyyatın istehsal və qeyri-istehsal sahələrində faktiki iştirak edən əmək ehtiyatları kateqoriyalarını da bir-birindən fərqləndirmək lazımdır. Birinci ümumi əmək ehtiyatlarını, ikinci isə iqtisadiyyata faktiki cəlb edilmiş əmək ehtiyatlarını göstərir. Onlar kəmiyyətcə bir-birinə uyğun gəlmir. Ona görə ki, əmək qabiliyyətli yaşda işləmək imkanı olan əmək qabiliyyətli əhalinin bir hissəsi (məsələn, tələbələr, evdar qadınlar) ictimai əməkdə iştirak etməyə bilər. Odur ki, əhalinin həqiqətən ictimai əməkdə iştirak edən hissəsini səciyyələndirən "məşğul əhali" və ya "məşğul əmək ehtiyatları" anlayışından istifadə edilir.

Cəmiyyətin malik olduğu ümumi əmək ehtiyatları potensialını ifadə edən əmək ehtiyatları iki cəhətdən öyrənilir: 1) formalaşma mənbələrinə görə; 2) məşğul olduqları yerə görə. Formalaşma mənbələrinə görə əmək ehtiyatlarının sayı aşağıdakı kimi müəyyən edilir: əvvəlcə işləmək üçün müəyyən edilmiş yaş həddində olan əhalinin sayından qanunvericiliklə müəyyən edilmiş qaydada

işləməyən əlillərin sayı çıxılır və əmək qabiliyyətli əhalinin sayı müəyyən edilir. İşləmək üçün müəyyən edilmiş yaş həddində olan əmək qabiliyyətli əhali ilə minimum əmək qabiliyyəti yaş həddindən aşağı yaşda işləyən yeniyetmələr, habelə pensiya yaşında olub, işləyən şəxslər əmək ehtiyatlarını əmələ gətirir.

Məşğul əmək ehtiyatlarına dövlət və qeyri-dövlət bölməsinə daxil olan iqtisadi vahidlərdə çalışan şəxslər aid edilir. Əmək ehtiyatlarının azlığı təşkil edən və ictimai əməkdə iştirak etməyən digər hissəsi iqtisadiyyata cəlb edilməmiş, lakin işləmək üçün müəyyən edilmiş yaş həddində olan əmək ehtiyatlarını təşkil edir. İşləməyən əmək ehtiyatlarına işləmək üçün müəyyən edilmiş yaşda olan, istehsalatdan ayrılmadan təhsil olan, ev təsərrüfatında məşğul olan və uşaqlara qulluq edən şəxslər daxildir. Nəzərdən keçirilən bütün əhali kateqoriyaları həm də ölkənin ayrı-ayrı iqtisadi və inzibatı rayonları üzrə müəyyən edilə bilər. İqtisadiyyatın idarə edilməsinin bütün səviyyələrində əhalinin sayı haqqında məlumatlara tələbat vardır. Çünki ölkənin sosial-iqtisadi inkişaf proqramlarının işlənib hazırlanması, milli səviyyədə qərarların qəbul edilməsi üçün əhalinin faktiki və perspektiv sayı, tərkibi, ərazi üzrə yerləşməsi və s. haqqında məlumat olmalıdır. Səmərəli məşğulluq siyasətinin işlənib hazırlanması, pensiya təminatı sisteminin formalaşdırılması və təkmilləşdirilməsi, məktəbə qədər uşaq müəssisələri işinin planlaşdırılması üçün əmək qabiliyyətli əhalinin sayını bilmək lazımdır.

Əhali haqqında məlumatlara regional səviyyədə daha çox tələbat vardır. Ona görə ki, əhali haqqında kifayət qədər məlumat olmadıqda nə qədər yeni mənzil sahəsi, məktəb, uşaq bağçası, poliklinika tikilməsinin, sərnişin daşınmasında, əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsində, əhalinin miqrasiyası sahəsində vəziyyətin necə olması barədə qərar qəbul etmək və fəaliyyət göstərmək olmur. Bütün bunlar onu deməyə əsas verir ki, müasir dövrdə əhali, statistika orqanlarının ən mühüm tədqiqat obyektlərindən biridir. Çünki o, bir tərəfdən istehsalın bilavasitə iştirakçısı, digər tərəfdən isə onun nəticələrinin istehlakçısıdır.

Əhali və əmək ehtiyatları haqqında lazımı məlumatlar onun təbii və mexaniki hərəkətinin uçotundan, əhalinin siyahıya alınmasından, reqistrlərdən, birdəfəlik və seçmə müşahidələrinin materiallarından, avtomatlaşdırılmış bank məlumatlarından ibarətdir. Əhalinin siyahıyaalınması – müəyyən vaxt anına ölkənin hər bir sakinini səciyyələndirən demoqrafik, iqtisadi və sosial məlumatların toplanmasının elmi surətdə təşkil olunmuş statistika işidir.

Siyahıyaalmalar arasındakı dövrdə əhali haqqında əsas məlumat mənbəyi onun təbii və mexaniki hərəkətinin cari uçotudur. Bu, hər şeydən əvvəl vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatından ibarətdir. Doğum, ölüm, nigah bağlanması və nigahın pozulması halları uçota alınır. Şəhərlərdə və rayon mərkəzlərində vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı şöbəsi (VVAQŞ) bu sənədləri tərtib edir. Kənd yerlərində və fəhlə qəsəbələrində isə bu işlə icra hakimiyyətinin yerli nümayəndələri məşğul olurlar. Vətəndaşlıq vəziyyəti aktlarının qeydə alınmasının qaydası, müddəti, proqramı və forması müəyyən edilmişdir. Həmin sənədlər iki nüsxədən ibarət tərtib edilir. Ikinci nüsxələr statistika orqanlarına verilir və buradakı məlumatlar əhalinin cins, yaş və başqa qrupları və habelə, ərazi bölgələri üzrə işlənib hazırlanır. Doğulanlar qeydə alınarkən doğumun tarixi, qeydə alınma yeri və vaxtı, uşağın cinsi, valideynlərin yaşı, milliyyəti, iş yerləri, məşğuliyyəti və yaxud dolanışıq mənbələri göstərilir. Ölənlər qeydə alınarkən ölümün baş verməsi səbəbi və vaxtı, onun qeydə alınma yeri, ölənin cinsi, yaşı, milliyyəti, iş yeri, məşğuliyyəti və dolanışıq mənbəyi göstərilir. Nigah qeydə alınarkən,

evlənənlərin yaşı və doğulma tarixi, doğulduğu və daimi yaşadığı yer, nigah bağlayana qədərki ailə vəziyyəti, milliyyəti, iş yerləri, məşğuliyyəti və yaxud dolanışıq mənbəyi göstərilir. Nigahın pozulması qeydə alınarkən kişi və qadının yaşı, nigahın növbəsi və davam etmə müddəti, bu nigahdan uşağın olub-olmaması və s. göstərilir. Əhalinin miqrasiyası haqqında məlumat mənbəyi miqrantların gəlməsi və getməsinin cari uçotudur. Bu, xüsusi blankda gələnlərin və gedənlərin vərəqəsində əks etdirilir ki, bu vərəqələri pasport masaları doldurur. Statistik işləmə və miqrasiyanın icmal, ümumiləşdirici göstəricilərini əldə etmək üçün getmə ünvan vərəqələrinin cırma talonu vardır. Pasport masaları bu talonları statistika orqanlarına təqdim edirlər. Əhalinin sayı, tərkibi və təbii hərəkətinə dair məlumatlar Dövlət Statistika Komitəsinin hər il tərtib etdiyi statistika məcmuələrində və bülletenlərdə də verilir.

Beləliklə, nəzərdən keçirilənləri ümumiləşdirməklə demək olar ki **əhali və əmək ehtiyatları statistikası aşağıdakı vəzifələri yerinə yetirir:** - əhalinin və əmək ehtiyatlarının sayını və ölkə ərazisində yerləşməsini öyrənir, - müxtəlif sosial-iqtisadi səbəb və amillərin təsiri ilə əhalinin və əmək ehtiyatlarının sayı və tərkibində baş verən dəyişiklikləri aşkara çıxarır, onları sistemləşdirir və təhlil edir; - əhalinin tərkibini (cinsi, yaşı, milli tərkibi, sosial vəziyyəti, təhsili, məşğulluğu və i. a.) müəyyənləşdirir; - əhalinin təbii hərəkəti (doğum, ölüm, bağlanmış nikahların və boşanmaların sayı və səbəbləri) təhlil edir; - əhalinin miqrasiyasını öyrənir; - əhaliyə sosial xarakteristika verir.

**İstifadə olunan ədəbiyyatlar:**


- Aslanov A.M. Statistikanın ümumi nəzəriyyəsi və sosial-iqtisadi statistika. Bakı, 2005, 240 s


## Mühazirə 4. Əhalinin təbii və mexaniki hərəkət statistikası

**Plan:**

*21. Əhalinin təbii hərəkəti*
*22. Əhalinin miqrasiyası*
*23. Miqrasiyanın növləri*
*24. Əhalinin və əmək ehtiyatlarının perspektiv sayının müəyyən edilməsi*
*25. Əhalinin sosial xarakteristikasının statistikası*

Əhalinin doğumu, ölümü və bunların nəticəsində onun sayının dəyişməsinə təbii hərəkəti deyilir. Əhalinin nigah bağlaması, nigahın pozulması və ömür müddətinin dəyişməsi də təbii hərəkətinə aiddir. Statistika əhalinin doğumunu, ölümünü və təbii artımını öyrənərkən hər şeydən əvvəl onun mütləq göstəricilərini uçota alır. Bu zaman doğulanların və ölənlərin sayı uçota alınır və onların fərqilə əhalinin təbii artımı hesablanır. Lakin bu əhalinin təkrar istehsalı haqqında məlumatın təhlilinin başlanğıcıdır. Doğum və ölümün uçotu müəyyən edilmiş qaydada aparılır, vətəndaşlıq

vəziyyəti aktlarında əks etdirilir. Əhalinin təbii hərəkətinin intensivliyini səciyyələndirmək üçün doğum, ölüm və təbii artımın nisbi göstəricilərindən istifadə edilir. Həmin göstəricilər promil(‰) ilə, yəni əhalinin 1000 nəfəri hesabı ilə müəyyən edilir. Bu əmsallar həm bütün əhali üzrə, həm də əhalinin ayrı-ayrı qrupları üzrə hesablanır. Bütün əhali üzrə hesablanan əmsallar ümumi, əhalinin ayrı-ayrı qrupları üzrə hesablanan əmsallar isə xüsusi əmsallar adlanır. Doğum, ölüm və təbii artımın ümumi əmsalları – müvafiq mütləq göstəricilərin əhalinin orta illik sayına nisbətilə hesablanır. Doğulanların sayını – N, ölənlərin sayını – M, əhalinin orta illik sayını – $S$–□, əmsalları isə Ə hərfi ilə işarə etsək, həmin düsturları belə yazmaq olar;

$$Ə_d = \frac{N \cdot 1000}{\bar{S}}; \quad Ə_ö = \frac{M \cdot 1000}{\bar{S}}; \quad Ə_{t.a.} \frac{(M-N) \cdot 1000}{\bar{S}}$$

Misal: Şəhərdə il ərzində 4247 uşaq doğulmuş və 1190 nəfər ölmüşdür. Əhalinin orta illik sayı 169826 nəfərdir.

$$Ə_d = \frac{4247 \times 1000}{169826} = 25{,}0 ‰;$$

$$Ə_ö = \frac{1190 \times 1000}{169826} = 7{,}0 ‰;$$

$$Ə_{t,a} = \frac{(4247 - 1190) \times 1000}{169826} = 18 ‰;$$

Əhalinin təbii hərəkətinin ümumi əmsallarının səviyyəsi onun ictimai-iqtisadi həyat şəraitindən, şəhər və kənd əhalisinin nisbətindən, cins-yaş quruluşundan asılıdır. Əhalinin təbii hərəkətinin xüsusi əmsalları da ümumi əmsallar kimi hesablanır. Onlardan ən çox əhəmiyyətlisi xüsusi doğum və uşaq ölümü əmsallarıdır. Xüsusi doğum əmsalı yaşına görə uşaq doğa bilən qadınlar üzrə hesablanır. Buna şərti olaraq 15-49 yaşlı qadınlar aid edilir. Deməli, xüsusi doğum əmsalı 15-49 yaşlı qadınlar üzrə doğulan uşaqların sayını 1000-ə vurub, həmin yaşda olan qadınlarn orta illik sayına bölməklə hesablanır:

$$Ə_{xd} = \frac{N_{15-49}}{\bar{S}_{15-49}} \times 1000$$

Uşaq ölümü əmsalı 1 yaşa qədər uşaqların ölümünün səviyyəsini səciyyələndirir. Əhalinin təbii hərəkətinin başqa əmsallarından fərqli olaraq, uşaq ölümü əmsalı 1 yaşa kimi ölən uşaqların sayını doğulan uşaqların sayına bölməklə hesablanır. Lakin cari ildə ölən uşaqların bir qismi keçən ildə doğulan , bir hissəsi isə cari ildə doğulan uşaqlardır. Buna görə də uşaq ölümü əmsalını dürüst hesablamaq üçün ölən uşaqların doğulduğu illər üzrə bölüşdürməsi haqqında məlumat olmalıdır. Bu halda uşaq ölümü əmsalını aşağıdakı düsturla hesablamaq olar:

$$Ə_{uö}=(\frac{U_1}{R_1}+\frac{U_o^1}{R_0})\times 1000$$

yaxud da

$$Ə_{uö}=\frac{M_1\times 1000}{\frac{2}{3}N_1+\frac{1}{3}N_0}$$

Burada U0 və U1 keçən ildə və cari ildə doğulan uşaqlardan cari ildə ölənlərin sayını; R0 və R1 keçən ildə və cari ildə doğulan uşaqların ümumi sayını; M1 cari ildə ölən uşaqların ümumi sayını göstərir. Doğumla ölümün nisbətini səciyyələndirən başqa bir göstərici-yaşama əmsalıdır. Bu əmsal doğulanların sayını ölənlərin sayına bölməklə hesablanır. Respublikada 1 yaşa qədər ölən uşaqların sayı 2005-ci ildə 1321 nəfər və ya 9,3 ‰ olmuşdur.

Əhalinin təbii hərəkəti göstəricilərindən biri nigah bağlaması və nigahın pozulması göstəriciləridir. Nigah bağlayan kişi və qadınların mütləq sayı və bütün əhaliyə faiz nisbəti də hesablanır. Nisbi göstəricilər 18 yaşda və böyük əhali üzrə hesablanır. Evlənmə və boşanmanın intensivliyi də öyrənilir. Nigah və boşanmanın ümumi, xüsusi və hissəvi göstəriciləri hesablanır. Ümumi əmsal qeydə alınan nigahların illik sayını 1000-ə vurub əhalinin orta illik sayına bölməklə hesablanır. Nigahın möhkəmliyini səciyyələndirən mühüm göstərici nigahın müddətidir.

**Miqrasiya göstəriciləri. Əhalinin perspektiv sayının hesablanmas metodları.** Əhalinin sayı böütövlükdə respublika üzrə, həm də onun ayrı-ayrı bölgələri üzrə təkcə onun təbii hərəkəti nəticəsində deyil, həm də mexaniki hərəkəti nəticəsində dəyişilir. Əhalinin miqrasiyası onun daimi yaşayış yerini dəyişməklə ölkə ərazisində və ölkələr arasında hərəkətidir. Buna əhalinin mexaniki hərəkəti də deyilir. Daxili və xarici miqrasiya fərqləndirilir. Əhalinin ölkə daxilində yaşayış yerini dəyişməsinə daxili miqrasiya, bir ölkədən başqa ölkəyə köçməsinə isə xarici miqrasiya deyilir. Miqrasiya öz istiqamətinə görə bir-birinə əks olan iki axından ibarətdir: müəyyən yaşayış məntəqəsinə əhalinin köçüb gəlməsi immiqrasiya, bu məntəqədən getməsi isə emiqrasiya adlanır. Miqrasiyanı çoxlu amillər doğurur: öz yaşayış yerini məcburi dəyişmə, təhsillə əlaqədar gənclərin iri şəhərlərə getməsi, iş axtarmaqla əlaqədar öz daimi yaşayış yerindən əhalinin köçüb getməsi və s. Miqrasiya göstəricisi hər şeydən əvvəl həmin yaşayış məntəqəsinə gələnlərin və oradan gedənlərin sayı və onların fərqi ilə müəyyən olunan miqrasiya saldosudur. Saldo müsbət olarsa, bu məntəqə əhalinin sayının miqrasiya hesabına artmasına; mənfi olarsa, azalmasına səbəb olur və buna əhalinin mexaniki artımı deyilir. Əhalinin mexaniki hərəkətinin əsas göstəriciləri:

1. Yaşayış məntəqəsinə gəlmə əmsalı

$$Ə_g=\frac{G\cdot 1000}{\bar{S}};$$

burada G – həmin məntəqəyə gələnlərin sayını göstərir.

2. Köçüb getmə əmsalı

$$Ə_{k.g} = \frac{Kg \cdot 1000}{\bar{S}};$$

burada-

K.G. - həmin ərazidən köçüb gedələrin sayını göstərir.

3. Miqrasiya əmsalı

$$Ə_m = \frac{(G - K.g.) \cdot 1000}{\bar{S}}$$

və ya $Ə_m = Ə_g - Ə_{k.g.}$

Myatnik miqrasiyası da fərqləndirilir ki, bu qısa vaxtda (gün, həftə ərzində) əhalinin bir yerdən başqa yerə (adətən kənddən şəhərə və ya şəhərdən kəndə) hərəkətidir.

**Əhalinin miqrasiyası, onun növləri və öyrənilməsinin əhəmiyyəti** Ayrı-ayrı yaşayış məntəqələrinin, regionların, ölkələrin əhalisinin sayı yalnız onun təbii hərəkəti nəticəsində deyil, həm də mexaniki hərəkətinin, yəni insanların yaşayış yerlərini dəyişməsi, miqrasiyasının təsiri ilə dəyişir. Dünya iqtisadiyyatı qloballaşdıqca, ölkələrin əksəriyyətinin iqtisadi, sosial və demoqrafik inkişafı üçün beynəlxalq miqyasda işçi qüvvəsinin və əhalinin miqrasiyası başlıca amilə çevrilir. Bu, beynəlxalq iqtisadi münasibətlərin ən mürəkkəb ünsürlərindən biridir. Çünki onun obyekti insan resurslarıdır və bu, beynəlxalq miqrasiya ilə əlaqədar kəskin problemlər doğurur. Beynəlxalq miqrasiya əmək ehtiyatlarının daha əlverişli şərtlərlə işə düzəlmək üçün sakini olduğu ölkədən başqa ölkələrə getməsi deməkdir. Buna iqtisadi amillərlə yanaşı, siyasi, etnik, mədəni, ailə münasibətləri də təsir edir.

Beynəlxalq miqrasiyada iki əsas ünsürü bir-birindən fərqləndirmək lazımdır. Bunlardan biri daimi yaşamaq üçün başqa ölkələrə köçübgetmə (emiqrasiya), digəri isə daimi yaşamaq üçün başqa ölkələrdən köçübgəlmə (immiqrasiya) adlanır. Ölkədən köçüb getmiş vətəndaşların öz vətənlərinə qayıtmaları da (repatriasiya) əhalinin beynəlxalq miqrasiyasına aiddir. Beynəlxalq miqrasiyanın özü də iki yerə bölünür: 1) qitələrarası miqrasiya; 2) qitədaxili miqrasiya. Qitələrarası miqrasiyada əhali və işçi qüvvəsi bir qitədən başqa qitəyə gedir. Qitədaxili miqrasiyada isə əhali eyni bir qitə daxilində bir ölkədən başqa ölkəyə "köç edir". Beləliklə, əhalinin və əmək ehtiyatlarının sayının mexaniki surətdə artması əmək qabiliyyətli əhalinin daimi yaşamaq üçün başqa ölkələrə və ya iqtisadi rayonlara gəlməsini, azalması isə daimi yaşamaq üçün başqa ölkələrə və iqtisadi rayonlara getməsini səciyyələndirir. Əmək ehtiyatlarının ümumi saymm artması onun təbii və mexaniki artmasının, azalması isə təbii və mexaniki azalmasının cəminə bərabərdir. Əhalinin və əmək ehtiyatlarının mexaniki artımı onun tərkibində həmin ölkəyə və ya iqtisadi rayonlara gələn və gedənlərin sayı arasındakı fərqlə İfadə olunur. Beynəlxalq miqrasiya aşağıdakı kateqoriyalara bölünür: *1) ölkəyə qanuni yolla gəlmiş mühacirlər; 2) müqavilə üzrə işləyən mühacirlər; 3) qeyrileqal mühacirlər.* Sənayecə inkişaf etmiş ölkələrin demək olar ki, hamısında qeyri-leqal mühacirlər vardır. Bunların bir hissəsi sərhədi qeyri-qanuni yolla keçməklə gəlir, bəziləri isə qanunla müəyyən edilmiş müddət qurtardıqdan sonra gəldikləri ölkədə qalır və ən adi işlərdə çalışırlar; *4) sığınacaq istəyən şəxslər*. XX əsrin 80-ci illərinədək bu kateqoriyadan olan şəxslərin sayı bir qədər az olmuş, sonra isə artmışdır. İnsanlar sığınacaq haqqında xahişi siyasi səbəblərlə,

yaxud da yaşadığı ölkədə iqtisadi vəziyyətin ağır olması ilə əlaqələndirirlər; *5) qaçqınlar.* İndiki qaçqınların çoxu müharibə "qurbanları"dır. Onlar adətən BMT-nin himayəsi altında olan xüsusi düşərgələrdə yaşayırlar. Əhalinin yerdəyişməsi (miqrasiyası) aşağıdakı səbəblərlə əlaqədardır:
- təhsil almaq və iş yerinin dəyişdirilməsi ilə əlaqədar olan yerdəyişmələr; - ölkədə işlə təminolma imkanlarının aşağı olması; - sahibkarlıq və fərdi əmək fəaliyyəti ilə məşğul olmağın mümkünsüzlüyü; - millətlərarası münaqişələrin kəskinləşməsi; - yerli (aborogen) əhalinin dilinin öyrənilməsinə məcburetmə; - kriminal şəraitin pisləşməsi; - insanların səhhətindəki problemlərlə əlaqədar iqlim şəraitini dəyişdirmək məcburiyyətində qalmaları; - ayrı-ayrı regionlarda və ölkələrdə əhalinin həyat səviyyəsindəki fərqlər; - əhalinin həyat səviyyəsi ağır olan kənd yerlərindən şəhərlərə axını; - əhalinin ailə vəziyyəti ilə əlaqədar daimi yaşayış yerlərini dəyişdirmək məcburiyyətində qalması; - digər səbəblər.

Beynəlxalq bazarda insan resurslarının digər iqtisadi resurslarla müqayisəsindən danışarkən onun xüsusiyyətini nəzərə almaq lazımdır. Bu xüsusiyyət ondan ibarətdir ki, işçi qüvvəsi beynəlxalq iqtisadi münasibətlərin nəinki obyekti, həm də subyektidir. Bundan başqa, beynəlxalq miqrasiya prosesi donor və işçi qüvvəsini qəbul edən ölkələrə yalnız iqtisadi cəhətdən deyil, həm də sosial, demoqrafik və sosial-psixoloji cəhətdən təsir göstərir. Təsərrüfat həyatının beynəlmilləşməsi gücləndikcə beynəlxalq miqrasiyanın əhəmiyyəti də artır. Əhalini (və ya işçi qüvvəsini) qəbul edən ölkələr üçün miqrasiya mənbələri bir-birindən fərqlənir. Bu, bir tərəfdən, işçi qüvvəsinin üz tutduğu ölkənin müasir dünyada oynadığı rol və malik olduğu imkanla, digər tərəfdən isə onun tarixi, etnik və coğrafi əlaqələri ilə bağlıdır. Bununla əlaqədar olaraq müasir mühacir axınında nəzərə çarpan dəyişikliklər müşahidə olunur.

Əhalinin, o cümlədən işçi qüvvəsinin beynəlxalq miqrasiyası təkcə iqtisadi deyil, həm də çox mürəkkəb siyasi məsələ olmaqla, getdiyi ölkənin əmək ehtiyatlarının tərkibinə əhəmiyyətli dərəcədə təsir edir, əmək bazarında tələb və təklifin dəyişməsinə, işçi qüvvəsini qəbul edən ölkənin sosial-iqtisadi həyatında çətinliklərə gətirib çıxarır. Beləliklə, insanların müxtəlif səbəblər üzündən uzun müddətə və ya həmişəlik olaraq bir yerdən başqa yerə getməsi nəticəsində həm əmək ehtiyatlarının, həm məşğul əhalinin (məşğul əmək ehtiyatlarının), həm də daimi və mövcud əhalinin sayında dəyişikliklər baş verir. Uzunmüddətli və daimi yerdəyişmələrlə yanaşı, mövsümi, məcburi və gündəlik miqrasiyalar da vardır. Əmək qabiliyyətli əhalinin yerdəyişməsi ilə əlaqədar olan mövsümi miqrasiya işçilərin və təhsil alanların sahə və ərazi üzrə yerdəyişməsi olmaqla, onların daimi yaşayış və iş yerlərinin dəyişməsinə səbəb olmur. Ona görə də müxtəlif iqtisadi hesablamaları aparırkən əmək ehtiyatları və məşğul əhali (məşğul əmək ehtiyatları) göstəricilərinin dəyişməsinə mövsümi miqrasiyanın təsirini nəinki nəzərə almaq, həm də kəmiyyətcə ifadə etmək, bəzi hallarda isə hətta onun təsirinin aradan qaldırılması lazım gəlir. Bütün əhalinin mövsümi miqrasiyası isə yalnız mövcud əhalinin sayının dəyişməsinə təsir göstərir. Məcburi miqrasiya, yəni məşğul əmək ehtiyatlarının vaxtaşırı bir yaşayış məntəqəsindən başqa yaşayış məntəqəsinə getməsi daimi və mövcud əhalinin sayının dəyişməsinə təsir etmir. Məşğul əmək ehtiyatlarının məcburi miqrasiyası işçilərin və təhsil alanların daimi yaşayış yerləri ilə onların işlədikləri və təhsil aldıqları yerlərin bir-birinə uyğun gəlməməsinə gətirib çıxarır.

Əmək ehtiyatları ölkənin ayrı-ayrı rayonları üzrə qeyri-bərabər bölünmüşdür. Bu, başlıca olaraq iqtisadi amillərin təsiri ilə izah olunur. Belə ki, hansı ərazilərdə sənaye inkişaf etmişdirsə, orada daha çox əmək ehtiyatları cəmləşir. Rayonlar üzrə əhalinin sıxlığı haqqında məlumatlar isə ölkə ərazisində əmək ehtiyatlarının mövcudluğu haqqında təxmini təsəvvür verir. Əmək miqrasiyasının bəzi məsələləri "Əmək bazarı statistikası" mövzusunda nəzərdən keçiriləcəkdir.

Makroiqtisadi göstəricilərin gözlənilən səviyyəsini müəyyən edərkən proqnozlaşdırılan dövrdə əhalinin sayını bilmək tələb olunur. bu məqsədlə əhalinin perspektiv sayı hesablanır. Əhalinin perspekiv sayının müəyyən olunması elmi cəhətdən əsaslandırılmış hesablama metodlarına və proqnozlarına əsaslanır. Bir neçə il əvvəlcədən əhalinin sayını hesablamaq üçün əhaliyə, səhiyyənin vəziyyətinə və proqnozlaşdırılan dövrdə milli iqtisadiyyatın vəziyyətinə və inkişafına dair ilkin statistika məlumatları olmalıdır. Bütün materialları öyrənməklə inkişaf meylini aşkar etmək və əhalinin doğumunda, ölümündə gələcəkdə baş verəcək dəyişiklikləri və əhalinin gözlənilən miqrasiyasını hipotezə etmək lazımdır. Bu zaman ölüm əmsalının və yaşama əmsalının möhkəm əsaslandırılması xüsusilə vacibdir. Yaxın perspektivə əhalinin sayı mütləq artım və ya artım surəti göstəricisi əsasında hesablana bilər.

**Əmək ehtiyatlarının təbii hərəkətinin öyrənilməsi** İşləmək üçün müəyyən edilmiş yaş həddində olan əhali əmək ehtiyatlarının əsasım təşkil edir. İşləməkdə olan pensiyaçılar və işləmək üçün yaşı çatmayan yeniyetmələr ölkənin əmək ehtiyatlarının sayının dəyişməsinə müəyyən dərəcədə təsir göstərir. Lakin bu, həlledici amil deyildir. Əmək ehtiyatlarının sayının dəyişməsinə təsir edən əsas amil onun özünün sayının artması və ya azalmasıdır. Bu isə işçilərin yaşa görə işdən çıxması, əlilliyinin olması, ölməsi və s. səbəblər üzündən baş verir. Deməli, cəmiyyətdə təbii proses gedir: bir tərəfdən işçilər müxtəlif səbəblərə görə əmək fəaliyyətlərini dayandırır, digər tərəfdən isə insanların böyüməkdə olan nəsli onları əvəz edirlər. Bununla əlaqədar olaraq sosial-iqtisadi statistikanın qarşısında duran vəzifələrdən biri əmək ehtiyatlarının təbii hərəkətini öyrənməkdən, onun intensivliyini, istehsalatdan çıxan əmək ehtiyatlarının yerinin doldurulması və xaricolma səbəblərini araşdırmaqdan ibarətdir.

Əmək ehtiyatlarının təbii hərəkəti nəticəsində onun sayının dəyişməsinə xarakteristika vermək üçün istehsalatdan çıxan əmək ehtiyatlarının yerinin doldurulması, xaric olması və təbii artımı göstəriciləri hesablanır. Müxtəlif səbəblərdən istehsalatdan çıxan (və ya ayrılan) işçilərin yeri aşağıdakı mənbələr hesabına doldurulur: 1) 15 yaşa çatmış əmək qabiliyyətli əhali; 2) pensiya yaşında olan və ictimai əməkdə iştirak etmək arzusunda olan şəxslər; 3) 15 yaşadək yeniyetmələr. Lakin qeyd etmək lazımdır ki, 16 yaşadək olan yeniyetmələrin ictimai əməyə cəlb olunmasının miqyası məhduddur. Çünki onlar müəyyən əmək vərdişlərinə və biliyə malik deyildirlər. Digər tərəfdən elmi-texniki inqilab yeniyetmələrin əməyindən istifadənin əhatə dairəsini məhdudlaşdırır. Deməli, bu mənbə əmək ehtiyatlarının sayının dəyişməsinə əhəmiyyətli təsir göstərir. Müəyyən əmək vərdişlərinə, istehsal təcrübəsinə və biliyə malik olan pensiyaçıların ictimai əməyə cəlb edilməsi isə bir çox amillərdən asılıdır. Başqa sözlə, pensiya yaşında və işləməkdə davam edən şəxslərin sayı arta, yaxud da azala və nəticədə əmək ehtiyatlarının sayınm dəyişməsinə əhəmiyyətli təsir göstərə bilər. Nəhayət, 15 yaşma çatmış şəxslərin sayı nə qədər çox olarsa, digər

şərtlər sabit qalmaqla əmək ehtiyatlarının sıralarına bir o qədər çox adam cəlb eləmək olar. Əmək ehtiyatlarının təbii səbəblər üzündən öz fəaliyyətlərini dayandırmalarına müxtəlif amillər təsir edir. Bunlar işləməkdə olan əmək ehtiyatlarının qanunvericilikdə müəyyən edilmiş pensiyaya çıxma yaş həddinə çatması, əlil olması, ölməsi, pensiya yaşında olub işləyən şəxslərin ictimai əməkdə öz fəaliyyətlərini dayandırmaları və s. ibarətdir. Əmək ehtiyatlarının ilin əvvəlinə və axırına olan, yaxud da təbii yolla daxil olanlarla xaric olanların sayı arasındakı fərq ölkə üzrə əmək ehtiyatlarının xalis (təbii) artımı adlanır. Bu, işləmək üçün müəyyən edilmiş yaş həddində olan əmək qabiliyyətli əhalinin təbii artımı ilə pensiya yaşında olub işləyən şəxslərin və yeniyetmələrin artımının cəminə bərabərdir. Əmək ehtiyatlarının xalis (təbii) artımının onların orta illik sayının hər 1000 nəfərinə promillə ifadə olunan nisbətinə xalis (təbii) artım əmsalı deyilir. Bu göstəricidən əmək ehtiyatlarının təbii təkrar istehsalına xarakteristika vermək üçün istifadə edilir. Əmək ehtiyatlarının təbii təkrar istehsalı haqqında işləmək üçün müəyyən edilmiş yaş həddində olan əmək ehtiyatlarının təbii (xalis) artım əmsalı daha düzgün təsəvvür yaradır. Bu göstərici əmək qabiliyyətli əhalinin təbii artımının işləmək üçün müəyyən edilmiş yaş həddində olan əmək ehtiyatlarının orta illik sayınm hər 1000 nəfərinə düşən təbii artımına nisbəti kimi hesablanır. Əmək ehtiyatlarının təbii (xalis) artım əmsalını hesablamaq üçün onun sıralarına təbii yolla daxilolma əmsalından xaricolma əmsalını çıxmaq lazımdır. Əmək ehtiyatlarının sıralarına təbii yolla daxilolma əmsalı - əmək ehtiyatlarının orta illik sayının hər 1000 nəfərinə düşən təbii yolla daxil olanların, xaricolma əmsalı isə istehsalatdan çıxanların sayını göstərir. Bu əmsalları başqa bir üsulla da hesablamaq olar. Belə ki, onları işləmək üçün müəyyən edilmiş yaş həddində olan şəxslərin sayını onların orta illik sayınm hər 1000 nəfərinə nisbəti kimi müəyyən edilməsi də mümkündür. Fikrimizi bir qədər də sadə şəkildə ifadə etməli olsaq əmək ehtiyatlarının sıralarına təbii yolla daxilolma və xaricolma əmsalları belə hesablana bilər: 1) təbii yolla əmək ehtiyatlarının sıralarına daxil olan şəxslərin sayının ilin axırına olan əmək ehtiyatlarının hər 1000 nəfərinə nisbəti kimi. Bu əmsal əmək ehtiyatlarının ilin axırına olan ümumi sayında onun sıralarına yeni daxil olan şəxslərin xüsusi çəkisini ifadə edir; 2) təbii yolla əmək ehtiyatlarının tərkibindən çıxan şəxslərin sayının ilin əvvəlinə olan əmək ehtiyatlarının hər 1000 nəfərinə nisbəti kimi. Bu, əmək ehtiyatlarının sıralarından xaricolma əmsalı adlanır. Bu əmsal ilin əvvəlinə mövcud olan əmək ehtiyatlarının sıralarından çıxan işçilərin xüsusi çəkisini göstərir. İşləmək üçün müəyyən edilmiş yaş həddində olan əmək qabiliyyətli əhali üzrə təbii yolla daxilolma və xaricolma əmsalları da bu qaydada hesablana bilər. Təbii yolla daxilolma və xaricolma əmsallarının dinamikada təhlili əmək ehtiyatlarının yaş və cins tərkibində və bu prosesin intensivliyində baş verən dəyişikliklərin qanunauyğunluqlarını aşkara çıxarmağa imkan verir. Bu əmsallar başqa əlamətlər (iqtisadiyyatın sahələri, peşələr və i. a.) üzrə də hesablana bilər. İxtisaslı mütəxəssislərin və elmi işçilərin hərəkətinin öyrənilməsi də az əhəmiyyət kəsb etmir. Əmək ehtiyatları və işləmək üçün müəyyən edilmiş yaş həddində olan əhalinin təbii təkrar istehsalı həmçinin əmək qabiliyyətli əhalinin (əmək ehtiyatlarının) tərkibinə yeni daxil olan şəxslərin sayının xaric olan şəxslərin sayma nisbəti ilə də səciyyələnir. Bu nisbət əmək ehtiyatlarının tərkibinə daxil olan işçilərin işləmək üçün müəyyən edilmiş yaş həddində olan və xaric olmuş

işçilərin sayından neçə dəfə çox və ya az olduğunu göstərir. Bu göstəricilər iqtisadi rayonlar üzrə hesablanarkən nəzərə almaq lazımdır ki, əmək ehtiyatlarının tərkibinə daxil və xaricolmaların dəyişməsinə müxtəlif amillər (əmək qabiliyyətli əhalinin, ixtisaslı kadrların və elmi işçilərin miqrasiyası və i.a.) təsir edir. Belə ki, iqtisadi rayonların əmək ehtiyatlarının sayı yalnız təbii proseslər nəticəsində deyil, həm də əhalinin miqrasiyasının təsiri ilə dəyişir.

**Əhalinin sosial xarakteristikası statistikası** İnsanlar, bir tərəfdən yaşamaq üçün zəruri olan müxtəlif təyinatlı nemətlərin təkrar istehsalı prosesinin bilavasitə iştirakçısı, digər tərəfdən isə istehsal olunan əmtəə və xidmətlərin istehlakçısıdır. Bu isə o deməkdir ki, insanlar həm də istehsalın inkişaf etdirilməsi və daha da təkmilləşdirilməsinin başlıca amillidir. Bütün bunlara əsasən demək olar ki, insanın öyrənilməsi, sosial-iqtisadi statistikanın öyrəndiyi digər hadisə və proseslərlə üzvi surətdə çulğalaşır. Odur ki, əhalini öyrənərkən yalnız xalis demoqrafik göstəricilərlə kifayətlənmək olmaz, statistikanın digər sahələrinin göstəricilərindən də istifadə etmək lazımdır. Əhalinin sosial xarakteristikasının əsas göstəricilərindən biri onun savadlılıq dərəcəsidir. Bu göstərici 9 və yuxarı yaşda olan əhalinin ümumi sayında yazmağı və oxumağı bacaran şəxslərin xüsusi çəkisi ilə ifadə olunur. Həm də bu göstərici siyahıyaalma materiallarına əsasən şəhər və kənd əhalisi, kişilər və qadınlar üzrə ayrılıqda hesablanır. Bununla yanaşı, 15 və daha yuxarı yaşda olan əhali təhsil səviyyəsinə görə qruplara bölünür. Əyani və müqayisə edilə bilən olsun deyə bu göstəricilər əhalinin hər 1000 nəfərinə görə hesablanır. Əhalinin təhsil səviyyəsinə xarakteristika verərkən aşağıdakı göstəricilərdən istifadə olunur:

- məktəbəqədər daimi müəssisələrin və onlarda təhsil alan uşaqların sayı (şəhər və kəndlərdə müvafiq yaşda olan uşaqların ümumi sayında mütləq və nisbi göstərici ilə); -uşaqların məktəbəqədər müəssisələrlə təmin olunması (1-5 yaşında olan uşaqların sayına nisbətən, %-lə); - peşə təhsili müəssislərinin və onlarda təhsil alan şagirdlərin sayı; - peşələr üzrə texniki peşə məktəblərini bitirənlərin sayı; - dövlət gündüz, axşam, qiyabi və məsafədən ümumtəhsil məktəblərinin və onlarda təhsil alan şagirdlərin sayı; - orta ixtisas təhsili müəssisələri və onlarda təhsil alan tələbələrin sayı; - qeyri-dövlət ali və orta ixtisas təhsili müəssisələri və onlarda təhsil alan tələbələrin sayı; - dövlət və qeyri-dövlət ali məktəblərində təhsil alan xarici tələbələrin sayı; - dövlət və qeyri-dövlət ali məktəblərində çalışan professor-müəllim heyətinin sayı; -əhalinin hər 10000 nəfərinə görə ali məktəblərdə hazırlanan mütəxəssislərin sayı (dövlət və qeyri-dövlət müəssisələri çərçivəsində); -elmi-tədqiqat işləmələrini həyata keçirən təşkilatların və onları yerinə yetirən işçilərin sayı; - elmin sahələri üzrə doktorantların sayı.

Əhaliyə sosial xarakteristika verərkən onun mədəniyyət müəssisələri ilə təmin olunmasını ifadə edən göstəriciləri (kitabxanalar, muzeylər, klublar, məktəbdənkənar uşaq müəssisələri, uşaq musiqi və xoreoqrafiya məktəbləri və i.a.), habelə kinoteatrları, teatrları və başqa tamaşa müəssisələrini yaddan çıxarmaq olmaz. Bundan başqa, kinofilmlərin çəkilməsi, kitab, kitabça, qəzet və jurnalların buraxılmasını da bu göstəricilərə aid edirlər.

ikinci qrup göstəriciləri onun xəstələnməsi, tibbi heyətlə və xəstəxanalarda çarpayılarla təminatıdır. Əhalinin xəstələnmə halları haqqında məlumatlar xəstəliklərin beynəlxalq təsnifləşdirilməsinə uyğun olaraq işlənib hazırlanır. Bu zaman xəstəliklər aşağıdakı əsas qruplara

bölünür: yoluxucu və parazitar xəstəliklər (skarlatin, difteriya, suçiçəyi, viruslu hepatit, qızılca və i.a.); yenitörəmələr; qan və qanyaradıcı orqanların xəstəlikləri; tənəffüs orqanlarının, qida qəbuletmənin, dərinin və dərialtı toxumaların, sidik-cinsiyyət sisteminin, sümük əzələ sistemi və birləşdirici toxumaların xəstəlikləri; əsəb sisteminin xəstəlikləri; anadangəlmə anomaliya; travma və zədələnmələr. Alkoqolizm və narkomaniya, psixiki pozuntular, vərəm xəstəliyinə tutulanlar ayrıca uçota almır. Ayrı-ayrı xəstəliklər üzrə xəstələrin sayı aşağıdakı qruplar üzrə müəyyən olunur: a) bu və ya digər dövrdə ilk dəfə müəyyən edilmiş diaqnozla xəstələnənlərin sayı; b)müalicə müəssisələrində uçotda dayanan xəstələrin sayı. Hər iki göstərici həm mütləq ifadədə (cəmi, min nəfər), həm də əhalinin hər 1000, 10000 və ya 100000 nəfərinə görə (xəstəliyin çox-az olmasından asılı olaraq) verilir. “Xəstələnmə səviyyəsi” və “xəstəliyin yayılma dərəcəsi” anlayışlarını bir-birindən fərqləndirmək lazımdır. Xəstələnmə səviyyəsinə xarakteristika vermək üçün il ərzində ilk dəfə diaqnoz qoyulmuş xəstələrin sayı daimi əhalinin orta illik sayı ilə müqayisə edilir. Xəstəliyin yayılması dərəcəsini müəyyən etmək üçün həmin növdən olan xəstəliklə xəstələnmiş və hesabat dövrünün axırma tibbi müəssisələrdə uçota alınmış şəxslərin sayı daimi əhalinin ilin axırına olan sayı ilə müqayisə edilir. Statistikada bunlarla yanaşı ayrı-ayrı xəstəliklərlə xəstələnən şəxslərin yaş strukturu da öyrənilir.. Əhalinin xəstələnməsi haqqmda məlumatlar rayonlar üzrə işlənir ki, bu da onların regionların spesifik xüsusiyyətlərindən, ekologiyanın vəziyyətindən, istehsalın ixtisaslaşdırılmasından asılılığını aşkara çıxarmağa imkan verir.

Xroniki xəstəliklər və ya travmalar əmək qabiliyyətinin daimi, yaxud da uzun müddət itirilməsinə səbəb olar, başqa sözlə, əlilliyə gətirib çıxara bilər. Ona görə də statistikada xəstələnmələrin qeydiyyata alınması ilə yanaşı, ilk dəfə əlil hesab edilən 18 yaşadək uşaqların sayı da müəyyən olunur. Statistikada əlilliyi ilk dəfə etiraf edilmiş 15 və yuxarı yaşda olan şəxslərin sayı da müəyyən olunur. Bu zaman əlillərin sayı əhalinin hər 1000 nəfəri hesabı ilə, əhalinin ümumi sayma nisbətən faizlə, I, II, III qrup əlillərin sayı, habelə əmək qabiliyyətli yaşda olan əlillərin sayı və onların əlillərin ümumi sayında xüsusi çəkisi göstəricilərindən istifadə olunur. Statistikada əhalinin həkimlərlə və orta tibb işçiləri, həmçinin xəstəxanalarda çarpayılarla və tibb müəssisələri ilə təmin olunması da öyrənilir. Bu zaman əhalinin hər 10000 nəfərinə düşən həkimlərin və xəstəxanalarda çarpayıların sayı həm ölkə üzrə ümumillikdə, həm də hər bir rayon üzrə ayrılıqda hesablanır. Qocaların və əlillərin daimi yaşamaları üçün nəzərdə tutulan tibbisosial müəssisələr, internat evlər, onlardakı adamların sayı, yerlərin miqdarı və s. göstəricilər də hesablanır. Əhalinin sosial xarakteristikasına aid olan göstəricilərin tam olmayan siyahısı belədir. Ümumiyyətlə, sosial sfera statistikasının göstəriciləri birbaşa və ya dolayısı ilə əhalinin sosial xarakteristikasına aiddir. Qeydiyyata alınmış cinayətlərin sayı və onların strukturu; cinayəti törədənlərin (və mühakimə olunanların) cinsinə, yaşına və sosial vəziyyətinə görə tərkibi; cinayətin növləri və cəza tədbirləri də əhalinin sosial xarakteristikasına aid göstəricilərdir. Əhalinin sosial xarakteristikasında həyat səviyyəsi göstəriciləri xüsusi əhəmiyyətə malikdir.

## İstifadə olunan ədəbiyyatlar:

- O.Q.Məmmədli, N.Ə.Cavadov, X.N.Cavadzadə. Sosial-iqtisadi statistika. Ali məktəblər üçün dərslik. I hissə. Bakı, “MBM”, 2014
- С.М.Йагубов, А.Ж. Мяммядов. Сосиал-игтисади статистика. Дярслик. Бакы: «Игтисад Университети » няшриййаты, 2008, - 388 сящ.


## Mühazirə 5. Əhalinin siyahiya alinmasi

**Plan:**

*26. Əhalinin siyahıya alınmasının metodoloji məsələləri*
*27. Əhalinin siyahıya alınması ilə əlaqədar hazırlıq işlərinin aparılması*
*28. Siyahıyaalmanın növləri və aparılması metodikası*
*29. Əhalinin siyahıya alınmasına nəzarətin həyata keçirilməsi*
*30. Əldə edilmiş materialların işlənməsi və yayılması*
*31. Əhalinin siyahıya alınmasının təşkili sahəsində beynəlxalq təcrübə*
*32. Azərbaycanda əhalinin siyahıya alınması tarixi*

**Əhalinin siyahıya alınmasının metodoloji məsələləri.** Əhalinin siyahıya alınması statistika işləri təcrübəsində ən mürəkkəb məsələlərdən biridir. Siyahıyaalma ölkədə hər hansı bir tarixə əhalinin sayı, habelə demoqrafik, iqtisadi və sosial vəziyyəti haqqında məlumatların toplanması, işlənməsi, qiymətləndirilməsi, təhlili və dərc olunması problemlərini əhatə edir. Bu prosesin fərqləndirici cəhəti ondan ibarətdir ki, o, heç bir sənəd təqdim olunmadan hər bir şəxsin həyat və fəaliyyətini səciyyələndirən məlumatların toplanmasına imkan verir. Əhalinin sayı, onun ölkə ərazisində yerləşməsi və tərkibi haqqında dəqiq və ətraflı məlumatın əldə edilməsi, sosial-iqtisadi proqramların işlənib hazırlanması, elmi-tədqiqat işlərinin aparılması və s. həyata keçirilməsi üçün lazımdır. Əhalinin siyahıya alınmasının aşağıdakı səciyyəvi cəhətləri vardır: - hər bir şəxs fərdi qaydada siyahıya alınır və bununla da ona ətraflı xarakteristika vermək mümkün olur; - ölkədə və ya onun ərazisinin hər hansı bir hissəsində (məsələn, iqtisadi rayonlarda) yaşayan əhali tam əhatə olunur; - siyahıyaalma eyni vaxtda aparılır, əhali haqqında məlumatların konkret olaraq ilin hansı ayına, ayın hansı gününə, günün hansı saatına toplanması müəyyən edilir; - müşahidənin proqramı ilə onun aparılması metodu arasında tam qarşılıqlı əlaqə yaradılır. Bu, o deməkdir ki, əldə edilən məlumatların sənədləşdirilməsi və ümumiləşdirilməsinin vahid sistemi işlənib hazırlanır; - siyahıyaalma mərkəzləşdirilmiş qaydada aparılır. Bütün mərhələlərdə müəyyən edilmiş işlər nəzərdə tutulmuş müddətlərdə yerinə yetirilir, tərtib olunan proqramın istifadə olunan metoda uyğun gəlməsi prinsipinə tamamilə riayət edilir; - siyahıyaalmanın aparılmasının dövriliyinə əməl olunur. Müqayisəli məlumatların müəyyən ardıcıllıqla əldə edilməsi üçün siyahıyaalmanın on ildə bir dəfədən az olmamaqla (adətən beynəlxalq miqyasda müqayisə aparmaq üçün “0”-la (sıfır) qurtaran ildə) aparılması məqsədəuyğun hesab edilir. Lakin bəzi ölkələr öz əhalisinin sayı və tərkibində dəyişikliklərin tez-tez baş verməsi ilə əlaqədar olaraq siyahıyaalmanın aparıldığı tarixlər arasındakı müddətin azaldılmasını lazım bilirlər; - siyahıyaalma ilə əlaqədar bütün əməliyyatlar çox qisa müddətdə (bir neçə gün ərzində) həyata keçirilir. Dünya təcrübəsində siyahıyaalmalarm başdan-başa, yaxud da seçmə müşahidəsi formasında aparılması məqsədəuyğun hesab edilir. Çünki bu müşahidə növlərinin proqramı aşağıdakı sosial-iqtisadi və demoqrafik vəzifələri yerinə yetirməyə imkan verir:

**Coğrafi əlamətlər** - fərdin daimi yaşadığı, o cümlədən onun siyahıyaalmaya bir il qalmış daimi yaşadığı yer; həmin yaşayış məntəqəsində yaşadığı müddət; əvvəlki yaşayış yeri; ölkəyə gəldiyi il və ya dövr.
**Demoqrafik əlamətlər** - cinsi, yaşı, nikah vəziyyəti (hüquqi / faktiki), vətəndaşı olduğu ölkə, anadan olduğu ölkə, milliyyəti /etnik qrupu, ana dili, dinə etiqadı, diri doğulmuş uşaqların ümumi sayı.
**İqtisadi əlamətlər** - siyahıyaalma vaxtı iqtisadi fəallıq statusu, məşğulluğu, iqtisadi fəaliyyət növü (sahə), məşğulluq statusu (muzdlu işçilər, işverənlər, istehsal kooperativlərinin üzvləri və i. a.), iş yeri, əlavə məşğulluğu, işsiz qaldığı müddət, yaşamaq üçün əsas vəsait mənbəyi, himayənin tipi, gəliri, hər gün işə getmək üçün istifadə etdiyi nəqliyyat növü, iş gününün uzunluğu, iş yerinə gedib-qayıtmağa sərf olunan vaxt.
**Təhsil əlamətləri** - təhsil səviyyəsi, savadlılıq, ali məktəblərə davamiyyət, peşə hazırlığı, ixtisası.
**Ev təsərrüfatları və ailə münasibətləri ilə əlaqədar əlamətlər** xüsusi ev təsərrüfatında əsas şəxsə münasibəti, ailədə statusu, müəyyən yaşda uşaqların sayı, ailənin iqtisadi fəal üzvlərinin sayı, himayədə olanların sayı. Ev təsərrüfatı özünü müstəqil surətdə zəruri qida məhsulları ilə təmin edən, təsərrüfat yaratmaq üçün hər hansı başqa bir şəxslə birləşmək arzusunda olmayan bir nəfərdən, yaxud da ümumi büdcə əsasında öz gəlirlərini birləşdirən və təsərrüfatı birlikdə idarə edən bir neçə nəfərdən ibarət ola bilər. Onlar qohumluq münasibətlərində ola və ya olmaya bilərlər.
**Xüsusi ev təsərrüfatlarının xarakteristikası** - xüsusi ev təsərrüfatının tipi, onun həcmi, ev təsərrüfatının iqtisadi fəal üzvlərinin, müəyyən yaşda uşaqların, pensiya yaşda olan şəxslərin sayı, mənzildən istifadə forması (fərdi və ya kollektiv istifadə), mənzilə görə icarə haqqı, ev təsərrüfatında istifadə olunan avtomobillərin sayı, telefonun mövcud olması;
**Əmək fəaliyyətinin olmamasının xarakteristikası** - əmək qabiliyyətinin olmaması, uzun müddət davam etməsi (altı aydan çox), nöqsan və əlillik (əmək qabiliyyətinin olmamasının müəyyən edilmiş olduğu adamlara), əmək qabiliyyətinin olmamasının səbəbləri;
**Mənzilin və digər yaşayış binalarının xarakteristikası** - yaşayış binasının və sahibliyin tipi, yaşayış binalarının yerləşdiyi yer, bir və ya bir neçə ev təsərrüfatına məxsus olan mənzil, sakinlərin sayı, otaqların sayı, mətbəxin, su təchizatı, vanna otağının, kanalizasiyanın mövcudluğu, qızdırıcı sistemin, təbii (sıxılmış) qazın, elektrikin olub-olmaması;
**Yaşayış evinin yerləşdiyi binaların xarakteristikası** - tikintinin tipi, binada olan mərtəbələrin və mənzillərinin sayı, inşa olunduğu vaxt, tikilərkən hansı materialdan istifadə edildiyi. Ayrı-ayrı kateqoriyalardan olan şəxslərin qeydiyyata alınması, əlamətlərin və təsnifləşdirmələrin müəyyən olunması, yaşayış binalarının xarakteristikası, siyahıyaalmanın aparılmasına dair hazırlanmış xüsusi metodika ilə həyata keçirilir.
**Əhalinin siyahıya alınması ilə əlaqədar hazırlıq işlərinin aparılması.** Əhalinin siyahıya alınması ilə əlaqədar hazırlıq işləri aşağıdakı mərhələlərə bölünür: 1) Siyahıyaalmanın aparılması üçün hüquqi əsasların yaradılması. Bu, o deməkdir ki, siyahıyaalma haqqında qanun qəbul edilir, yaxud da sərəncam imzalanır. Bəzi ölkələrdə isə siyahıyaalmanın aparılması konstitusiyada xüsusi maddədə təsbit olunur. Əhalini siyahıya alarkən aşağıdakıların həyata keçirilməsi zəruridir: a) siyahıyaalmanın miqyası və vaxtının müəyyən edilməsi; b) siyahıyaalmanın aparılması üçün zəruri vəsaitin ayrılması; c) siyahıyaalma aparılarkən əhalinin suallara düzgün cavab verməsinin təmin olunması üçün hüquqi təəhhüdlərin müəyyən edilməsi; d) siyahıyaalmanı aparan şəxslərin (sayıcıların) faktları düzgün qeyd etmələri üçün hüquqi öhdəliklərin (qaydaların) müəyyən edilməsi; e) əhalinin verdiyi informasiyaların həqiqəti əks etdirməsinin təmin olunması. 2) Aşağıdakı tədbirlərin həyata keçirilməsinə imkan verən büdcənin tərtib və təsdiq edilməsi: a) siyahıyaalmaya cəlb edilmiş şəxslərin əməyinin haqqının ödənilməsi üçün smetanın tərtib olunması; b) siyahıyaalma zamanı istifadə olunacaq avadanlıq və materialların əldə edilməsi; c) göstərilən müxtəlif növ xidmətlərin dəyərinin və icarəyə götürülmüş binaların haqqının ödənilməsi. 3) Əlaqələndirici

mərkəzin yaradılması. Bu mərkəz tədbirin həyata keçirilməsinin hüquqi əsaslarının yaradılması və smetanın tərtib olunmasını öhdəsinə götürür, siyahıyaalma vərəqindəki sualların tərtib olunması, siyahıyaalmanın aparılmasına dair təqvim planının, toplanan məlumatların işlənməsi və nəticələrinin yayılması proqramlarının hazırlanmasına cavabdehlik daşıyır. Əhalinin siyahıya alınması dövlət statistika orqanlarına (məsələn, Azərbaycanda Dövlət Statistika Komitəsinə, ABŞ-da Siyahıyaalma Bürosuna, İtaliyada Statistika İnstitutuna, Rusiya Federasiyasında Federal Dövlət Statistika Xidmətinə) həvalə edilir. 4) Siyahıyaalmanı aparmaq üçün kadrların seçilməsi və hazırlanması; 5) Yaşayış məntəqələrinin sahələrinin dəqiqləşdirilməsi və xəritə- materialların hazırlanması. Bu tədbirin həyata keçirilməsi siyahıyaalma zamanı bütün əhalinin əhatə olunması üçün lazımdır. Rayonların xəritələrinə və şəhərdəki məhəllələrin planlarına, habelə əhalinin sayı haqqındakı məlumatlara əsasən rayonun (şəhərin) ərazisi "siyahıyaalma sahələri"nə bölünür. Siyahıyaalma sahələrinin sərhədləri adətən inzibati- ərazi vahidlərinin sərhədi ilə uyğun gəlir ki, bu da siyahıyaalma üzərində nəzarətin həyata keçirilməsini və əldə edilmiş materialların sonrakı mərhələlərdə işlənməsini asanlaşdırır.

Siyahıyaalmanm metodologiyasını, aparılması vasitələrini, proqramını, siyahıyaalma vərəqində sualların qoyuluşunu, onların ardıcıllığını, məlumatların toplanmasının üsul və qaydalarını, siyahıyaalma heyətinin "yükünü" və s. məsələlərini təkmilləşdirmək məqsədilə əhalinin sınaq siyahıyaalınması aparılır. Məlum olduğu kimi 2009-cu il aprelin 13-22-də Azərbaycan Respublikasında əhalinin siyahıya alınması aparılmışdır. Buna daha yaxşı hazırlaşmaq və onu müvəffəqiyyətlə aparmaq üçün 2008-ci ilin eyni vaxtında Şamaxı rayonunda sınaq siyahıyaalınması həyata keçirilmişdir. Deməli, hər hansı bir rayonda (şəhərdə) başdan-başa aparılan müşahidə bir növ "baş məşq" xarakteri daşıyır. Ümumiyyətlə sınaq siyahıyaalmasının təbii şəraitinə, əhalinin tərkibinə və onun ərazi üzrə yerləşməsinin xarakterinə görə bir-birindən fərqlənən bir neçə rayonda aparılması məqsədəuyğundur. Əhalinin siyahıya alınmasının müvəffəqiyyətlə aparılması və uğurla başa çatdırılması xeyli dərəcədə onun məqsədi və əhəmiyyəti, aparılması qaydası və müddətləri haqqında kütləvi informasiya vasitələrində yaxşı təşkil olunmuş izahat işlərindən asılıdır. Məsələn, siyahıyaalmaya hazırlıq dövründə qəzet və jurnallarda çoxlu sayda məqalələr və qısa məlumatlar dərc olunmalı, radio verilişlərində izahat işləri aparılmalı, televiziya kanallarında xüsusi filmlər nümayiş etdirilməli, internetdə ayrıca səhifə açılmalı, kütləvi tirajla əyani vəsait və şüarlar çap olunmalı, sərgilər, vitrinlər düzəldilməli, zərf, təqvim, avtoqələm dəsti, açıqcalar buraxılmalı, siyahıyaalma ərəfəsində qəzetlərdə bu hadisəyə həsr edilmiş və əhalini bu çox mühüm tədbirdə fəal iştirak etməyə çağıran baş məqalələr dərc olunmalı, xüsusi buraxılışlar olmalıdır. Bütün bunlar siyahıyaalmanı müvəffəqiyyətlə başa çatdırmağa imkan verə bilər.

**Siyahıyaalmanın növləri və aparılması metodikası.** Siyahıyaalma xüsusi təşkil olunmuş müşahidənin növlərindən biridir. Onun əsas vəzifəsi hər hansı bir toplunu əmələ gətirən vahidlərin hər birini statistik formulyarda qeyd etmək, öyrənmək və əldə edilmiş məlumatlara əsasən onların hamısına birlikdə xarakteristika verməkdən ibarətdir. Statistik siyahıyaalmaların iki növü vardır. Bunlardan birinin mahiyyəti ondan ibarətdir ki, formulyar müəssisədə aparılan ilk uçot məlumatlarına əsasən doldurulur. Və bunu bir qayda olaraq statistika orqanlarının rəhbərliyi ilə müəssisənin işçiləri həyata keçirirlər. Siyahıyaalmanm ikinci növündə isə formulyar faktlarla xüsusi təşkil olunmuş qeydəalma qaydasında doldurulur. Siyahıyaalmanm ikinci növünün bariz nümunəsi əhalinin siyahıyaalınmasıdır. Çünki əhali haqqmda məlumatın toplanması yalnız sorğu yolu ilə, faktların xüsusi formada qeydə alınması əsasında mümkündür.

Əhalinin siyahıya alınmasının səciyyəvi cəhətlərindən biri bu işin imkan daxilində hər şeydən əvvəl hər hansı bir tarixə həyata keçirilməsidir. Və buna görə də əhali siyahıya alınarkən ən mühüm məsələlərdən biri onun sayının müəyyən edildiyi "qəti zamanın" (kritik anın) müəyyən olunmasıdır. Qəti zaman kimi bir qayda olaraq siyahıyaalmanm aparılması üçün ilin ayının, ayın gününün, günün saatının müəyyən

edilməsi nəzərdə tutulur. Məsələn, müstəqillik dövründə - 1999-cu ildə ölkəmizdə əhalinin siyahıya alınması aparılarkən qəti zaman kimi yanvarın 26-dan 27-nə keçən gecə saat 12 (24), 2009-cu ildə isə aprelin 13-dən 14-nə keçən gecə saat 12 (24) müəyyənləşdirilmişdi. Bu, o deməkdir ki, aprelin 13-də gecə saat 12-dən əvvəl ölənlər və 12-dən sonra doğulanlar siyahıya alınmamalı, 12-dən əvvəl doğulanlar və 12-dən sonra ölənlər isə siyahıya alınmalıdır. Bu, onunla əlaqədardır ki, həmin vaxt əhalinin böyük əksəriyyəti evdə olur və buna görə də onları yaşadıqları yerlərdə (müvəqqəti yaşayanlar da daxil olmaqla) qeydiyyata almaq mümkündür. Bu zaman işdə və ümumiyyətlə evdən kənarda, lakin həmin yaşayış məntəqəsində olan şəxslər də yaşayış yerləri üzrə qeydiyyata alınır. Daimi yaşayış yeri olmayan şəxslər (köçərilər və evsizlər) isə "ələ keçdikləri" yerlərdə qeydiyyata götürülür. Mehmanxanalarda, xəstəxanalarda, istirahət evlərində, sanatoriyalarda yalnız başqa yerlərdə yaşamağa yeri olmayan şəxslər qeydiyyata alınır. Siyahıyaalma qısa müddətdə, bir neçə gün ərzində, ilin insanların az hərəkətdə (yerdəyişmədə) olduğu vaxt aparılır. Bu zaman iqlim şəraiti də nəzərə alınır. Ölkənin təbii-iqlim şəraiti əlverişli olmayan rayonlarında siyahıyaalmanın müəyyən edilmiş vaxtdan əvvəl aparılması məqsədəuyğundur. Dünya ölkələrinin əksəriyyətində əhalinin siyahıya alınması haqqında məlumatlar vərəqindən" istifadə olunmaqla ənənəvi metodla aparılır. Siyahıyaalma vərəqinin doldurulmasında müxtəlif üsullardan istifadə edilir. Başqa sözlə, onu ya bu iş üçün ayrılmış xüsusi sayıcılar doldurur, yaxud da özüqeydetmə üsulundan istifadə edilir. Göründüyü kimi, sorğu üsulunda siyahıyaalma vərəqi sayıcı tərəfindən doldurulur və həmin sənəd həmişə onda olur. Özü qeydetmə isə o deməkdir ki, siyahıyaalma vərəqi doldurulmaq üçün əhaliyə paylanır və sayıcılara sənədin doldurulmasına kömək göstərmələri tövsiyə olunur. Özüqeydetmə ucuz başa gəldiyinə və əməliyyatların sürətləndirilməsinə imkan verdiyinə görə daha faydalı hesab olunur. Lakin sorğu üsulu ölkələrin çoxunda yüksək keyfiyyətli siyahıyaalma materiallarının əldə olunmasını təmin edir. Siyahıyaalma vərəqində müşahidə proqramına uyğun olaraq suallar nəzərdə tutulur. Siyahıyaalmanın metodundan, sorğunun və materialların sonrakı mərhələlərdə işlənməsi üsullarından asılı olaraq siyahıyaalma vərəqinin forması müxtəlif ola bilər. Fərdi siyahıyaalma vərəqi bir nəfər haqqında məlumatların yazılması üçün nəzərdə tutulmuşdur. Lakin siyahıyaalma vərəqi bir mənzildə və yaxud yaşayış binasında yaşayan, yaxud da ev təsərrüfatının bütün üzvləri haqqında məlumat toplanmasına imkan verir. Müasir siyahıyaalmalarda bir ev təsərrüfatı haqqında məlumat toplanması üçün nəzərdə tutulan siyahıyaalma vərəqələrindən daha geniş istifadə olunur.

Suallara verilən cavabların əksəriyyəti rəqəmlərlə, bəziləri isə (milliyyəti, məşğulluğu, iş yeri) sözlə yazılır. Məlumatların toplanması yalnız əsas sualları özündə əks etdirən ixtisar olunmuş siyahıyaalma vərəqindən, tam (çoxsuallı) siyahıyaalma vərəqindən istifadə olunmaqla həyata keçirilir. Siyahıyaalma vərəqindən istifadə olunmaqla əhalinin ənənəvi metodla siyahıya alınması ilə yanaşı digər metodlardan da istifadə edilir. Belə ki, dünyanın bir sıra ölkələrində siyahı (cədvəl), habelə digər inzibati mənbələrdən və müayinələrdən (başdan-başa, yaxud da seçmə müşahidəsi) istifadə olunur. Toplanan məlumatların hadisəni tam əhatə etməsindən və dəqiqliyindən asılı olmayaraq onlar tələb olunan səviyyədə "işlənmədikdə" keyfiyyəti xeyli aşağı düşür. Odur ki, siyahıyaalma başa çatdıqdan sonra müəyyən olunmuş müddətdə toplanmış məlumatların elmi əsaslarla işlənməsinə xüsusi diqqət yetirmək lazımdır.

**Əhalinin siyahıya alınmasına nəzarətin həyata keçirilməsi, əldə edilmiş materialların işlənməsi və yayılması.** Siyahıyaalmanın aparılması və əldə edilmiş məlumatların keyfiyyətinə nəzarətin həyata keçirilməsi siyahıyaalmaya hazırlıq işlərinin nəticələrinin qeydiyyata alınması və işlənməsinin bütün mərhələlərində çox böyük rol oynayır. Siyahıyaalmadan əvvəlki mərhələdə evlərin siyahısının tərtib olunması və kartoqrafiya(coğrafi xəritə) materiallarının hazırlanmasının keyfiyyətinə nəzarət olunması xüsusilə vacibdir. Siyahıyaalma özüqeydetmə üsulu ilə aparıldıqda siyahıyaalma vərəqinin respondentlərə paylanması üzərində nəzarəti həyata keçirmək lazımdır. Nəzarətetmə bir qayda olaraq siyahıyaalmanın başlandığı gündən sonrakı gün həyata keçirilməlidir. Bu, elə başlanğıcdan yol verilən nöqsanları aradan

qaldırmağa və sonrakı günlərdə yüksək keyfiyyətə nail olunmasının təmin edilməsinə imkan vermiş olur. Belə nəzarətetmə həmçinin təlimatların dəqiqləşdirilməsi, bir-iki nəfər əməkdaşın hazırlanması, bəzilərinə irad tutulması və s. tədbirlərin həyata keçirilməsinə imkan verir. Siyahıyaalmanın gedişində məlumatların keyfiyyətinə nəzarətin ən geniş yayılmış metodu tam və ya seçmə yoxlamaların aparılmasıdır. Yoxlama bütün hallarda siyahıyaalmanın hər hansı bir mərhələsində həyata keçirilən işlər üzərində nəzarət olunmasını nəzəri cəhətdən təmin edir. Lakin belə yoxlama baha başa gələ və çox vaxt tələb edə bilər. Ona görə də seçmə yoxlamaların aparılmasına üstünlük verilir. Seçmə yoxlamalarda məlumatlar bloklar üzrə qruplaşdırılır.

İşlər fasiləsiz xarakter daşıdıqda və nəticələrin qruplar üzrə qruplaşdırılması mümkün olmadıqda yoxlama üçün fasiləsiz seçmə nəzarəti üsulundan istifadə edilə bilər. Yoxlamanın digər metodlarından (məsələn, subyektiv üsuldan) da istifadə olunması mümkündür. Məlumatların kodlaşdırılması mərhələsində yoxlamalara xüsusi diqqət yetirilir. Buraxılmış nöqsanların aşkara çıxarılması və düzəldilməsində redaktə etmə başlıca əhəmiyyət kəsb edir. Siyahıyaalmanın gedişində və o başa çatdıqdan sonra əhalinin tamamilə uçota alınmasını yoxlamaq məqsədilə bir sıra tədbirlər həyata keçirilir. Bir neçə yaşayış yeri olan adamlar üçün siyahıyaalma vərəqi ilə yanaşı xüsusi blank doldurulur və onun təkrarən siyahıya alınmaması üçün arayış verilir. Siyahıyaalma başa çatdıqdan sonra əldə edilmiş məlumatların düzgünlüyünü yoxlamaq məqsədilə yaşayış binalarında (10%-də) seçmə müşahidəsi aparılır. Siyahıyaalmanın bütün mərhələlərində ayrılmış maliyyə vəsaitindən istifadə olunması üzərində ciddi nəzarət qoyulur. Siyahıyaalma vərəqələrində qeyd edilmiş və toplanmış məlumatlar ümumiləşdirilməlidir. Bu məqsədlə kodlaşdırılmış qeydlər hesablanır, ayrı-ayrı ərazilər və ölkə üzrə yekunlaşdırılır, habelə yaşa, cinsə, milliyyətə, təhsilinə, nikah vəziyyəti və sair əlamətlərinə görə qruplara bölünür. Ərazi çərçivəsində əlamətlərin və ona cavab verə bilən qruplaşdırmanın əlaqələndirilməsi siyahıyaalma materiallarının işlənməsinin proqramı deməkdir. Hər bir ərazi və ölkə üzrə əhalinin sayı haqqında məlumatların əks etdirildiyi yüzlərlə, minlərlə cədvəl tərtib olunur. Əhalinin siyahıya alınması zamanı tərtib olunan cədvəllərdə əks etdirilən göstəricilərin sayı bəzi hallarda bir neçə milyona çatır. Siyahıyaalma materiallarının tam işlənməsi bir neçə il ərzində həyata keçirilə bilər. Siyahıyaalmanın nəticələri bir neçə cildlik xüsusi nəşrlərdə çap olunur. Bununla yanaşı siyahıyaalmanın nəticələri internet saytlarında yerləşdirilə bilər. Siyahıyaalma materiallarından istifadəyə olan tələbatı daha yaxşı ödəmək məqsədilə informasiyaların kompüterləşdirilmiş məlumat bazalarında yerləşdirilməsi daha münasibdir. Makro-məlumat bazalarının yaradılması da vacib məsələlərdən biridir.

**Əhalinin siyahıya alınmasının təşkili sahəsində beynəlxalq təcrübə.** Statistik müşahidənin təşkil edilməsinin başlıca forması olan siyahıyaalma xarici ölkələrdə də geniş yayılmışdır. Belə müşahidənin formalarından biri necə deyərlər “qısa qeydlərə” əsaslanan siyahıyaalmadır. Bu, dəyişkən başlanğıca, inkişaf mərhələsinə və dəyişən sonluğa malik uzunmüddətli proseslər üzərində fasiləsiz olaraq müşahidə aparılması formasıdır. Bu müşahidə statistik qeydiyyatın aparılmasına əsaslanır. Qeydiyyat müşahidə vahidləri üzərində nəzarətin həyata keçirilməsi və öyrənilən göstəricilərə müxtəlif amillərin təsirinin qiymətləndirilməsi üçün aparılır. Qeydiyyat vərəqində hər bir müşahidə vahidi kompleks göstəricilər sistemi ilə xarakterizə edilir. Onlardan bir qrupu müşahidənin aparıldığı vaxt ərzində dəyişmiş olur və bir dəfə qeyd edilir. Digər göstəricilərdən bəzilərinin dəyişdiyi vaxt məlum olmur və onlar dəyişdikcə yeniləşdirilir. Üçüncü qrup göstəricilər dinamika göstəriciləridir və yeniləşəcəkləri dövr qabaqcadan məlum olur. Bu göstəricilərin hamısı tədqiq olunan toplunun bütün vahidləri tam öyrənilənədək saxlanılır. Aşağıdakı məsələlər həll edilmədən qeydiyyatın təşkili və aparılması mümkün deyildir: 1) müşahidə vahidlərinin nə vaxt qeydiyyat vərəqinə daxil edilməsi və nə vaxt siyahıdan çıxarılması; 2) hansı informasiyaların saxlanılması; 3) məlumatların hansı mənbələrdən götürülməsi; 4) informasiyanın tez-tez dəyişdirilməsi və tamamlanması. Statistika işləri təcrübəsində əhalinin qeydiyyata alınması digər hadisə

və proseslərin qeydiyyata alınmasından fərqlənir. Əhalinin qeydiyyata alınması ölkə sakinlərinin müntəzəm olaraq adbaad siyahısının tərtib edilməsi deməkdir. Bu prosesdə müşahidənin proqramı ümumi əlamətlərlə məhdudlaşır. Bunlara əhalinin cinsi, anadan olduğu tarix və yer, nikaha daxil olduğu tarix (bu məlumatlar bütün müşahidə dövrü ərzində dəyişməz qalır) və nikah vəziyyəti (dəyişən əlamət) aiddir. Qeydiyyatda bir qayda olaraq yalnız sənədlərlə rəsmiləşdirilmiş olan dəyişən əlamətlər üzrə informas iya saxlanılır. Qeydiyyat vərəqinə doğulan və xaricdən gələn hər bir şəxs üzrə informasiya yazılır. Ölən, yaxud da daimi yaşamaq üçün başqa Ölkələrə gedən şəxslər haqqında olan məlumatlar qeydiyyat vərəqindən çıxarılır. Əhalinin qeydiyyatı ölkənin ayrı-ayrı regionları üzrə aparılır. Yaşayış yeri dəyişdikdə müşahidə vahidi haqqında məlumat onun yaşamaq üçün getdiyi yeni əraziyə ötürülür. Qeydiyyatın aparılması çox mürəkkəb olduğu və bu işin həyata keçirilməsi böyük məbləğdə vəsait tələb etdiyi üçün müşahidənin bu formasından əsas etibarilə əhalisinin sayma görə kiçik, lakin mədəni səviyyəsi yüksək olan ölkələrdə (əsas etibarilə Avropa ölkələrində) istifadə olunur. Qeyd etmək lazımdır ki, istər əhalinin qeydə alınması, istərsə də toplu vahidlərinin müşahidə ilə əhatə olunduğu istənilən qeydəalma özündə əlamət haqqında məhdud miqdarda məlumatları əks etdirir. Odur ki, qeydiyyatın aparılmasının xüsusi təşkil olunmuş, o cümlədən də əhalinin siyahıya alınmasının müəyyən edilmiş qaydada öyrənilməsi zəruridir.

**İstifadə olunan ədəbiyyatlar:**


- Azərbaycan Respublikası əhalisinin siyahıyaalınması. I cild. Əhalinin sayı, yerləşməsi, cins, yaş tərkibi və nikah vəziyyəti. Bakı “Səda” nəşriyyatı, 2010-cu il. 410 s.


## Mövzu 6. Əmək bazarı statistikasının göstəriciləri

**Plan:**

1. *Əmək bazarının öyrənilməsi zəruriyyəti*
2. *Əmək bazarının öyrənilməsinin vəifələri*
3. *Əmək ehtiyatlarının sayı və tərkib göstəriciləri*
4. *İqtisadi fəal əhali*
5. *Əhalinin məşğulluq statusuna görə təsnifləşdirilməsi*
6. *Əhalinin məşğulluq göstəriciləri*
7. *Məşğul şəxslərin sayı və tərkibinin müəyyən edilməsi*
8. *İşsizliyin göstəriciləri*
9. *İşsizliyin səviyyəsi və dinamikasının təhlili*

**Əmək bazan statistikasının əsas anlayışları və vəzifələri.** Əmək bazarı(işçi qüvvəsinə olan tələb və təklifin məcmusu) statistikasının əsas anlayışlarına iqtisadi fəal əhali, məşğulluq və işsizlik, iş vaxtı və ondan istifadə, əmək münaqişələri daxildir. Əmək bazarı statistikasının məlumatlarından dövlətin sosial-iqtisadi siyasətinin işlənib hazırlanmasında istifadə olunur.

Məşğulluq və işsizlik səviyyəsi isə iqtisadiyyatın vəziyyəti və inkişafını səciyyələndirən çox mühüm makroiqtisadi göstəricilərdir. Əhalinin həyat səviyyəsi və iqtisadiyyatın ayrı-ayrı sahələrinin rəqabət qabiliyyətini təhlil edərkən bu göstəricilərdən geniş istifadə olunur. Ölkədə məşğulluq, işsizlik, əmək haqqı və s. barədə beynəlxalq təşkilatlara məlumat verilir, əhalinin məşğulluq statusuna görə qruplaşdırılması, məşğulluğun özünün təsnifləşdirilməsi, habelə iqtisadi fəal əhalinin vəziyyəti haqqında metodoloji məsələlərin hazırlanması və istifadə edilməsi beynəlxalq standartlara əsaslanır. Bütün bunlara uyğun olaraq əmək bazarı statistikası aşağıdakı vəzifələri yerinə yetirir: - iqtisadi fəal əhali, iqtisadiyyatın sahələri və müxtəlif peşələr üzrə onun sayı və məşğulluğu, habelə işsiz əhali haqqında cari məlumatları toplayır, işləyir və təhlil edir; - işçi qüvvəsinin hərəkəti haqqında məlumatları öyrənir; - əmək ehtiyatları balansını tərtib edir; - vaxt fondu və onun quruluşu haqqmda məlumatları toplayır, təhlil edir, iş vaxtından istifadə göstəricilərini hesablayır; - əmək münaqişələri haqqmda məlumat toplayır, sahələr və başvermə səbəbləri üzrə onları səciyyələndirən göstəriciləri hesablayır.

**İqtisadi fəal əhali, məşğulluq və işsizlik, onları ifadə edən göstəricilər.** Məşğul və işsiz əhali ikisi birlikdə ölkənin işçi qüvvəsini əmələ gətirir. Buna iqtisadi ədəbiyyatda həm də "iqtisadi fəal əhali" deyilir. Fikrimizi bir qədər də sadələşdirsək, deyə bilərik ki, əhalinin, əmtəə(satış üçün istehsal olunan məhsul, mal) və xidmətlərin istehsalı prosesində iştirak etmək üçün öz əməyini təklif etmək iqtidarında olan hissəsinə iqtisadi fəal əhali deyilir. Beynəlxalq statistika standartlarında göstərilir ki, "iqtisadi fəal əhali" termini istifadə olunduğu müddətin uzunluğundan asılı olaraq iki cəhətdən nəzərdən keçirilə bilər: 1) bir günə və ya bir həftəyə bərabər qısa zaman kəsiyində mövcud olan iqtisadi fəal əhali. Bu əhali kateqoriyası həmin dövr üçün iqtisadi fəal əhali hesab oluna bilər və əslində "işçi qüvvəsi" anlayışına uyğun gəlir; 2) uzun bir müddəti əhatə edən dövr üzrə iqtisadi fəal əhali. Bu əhali kateqoriyasına ölkədə mövcud olan bütün iqtisadi fəal əhali daxildir. Hər hansı bir konkret dövr üzrə əhalinin daha çox istifadə olunan hissəsini ifadə edən əsas göstərici işçi qüvvəsidir. Ölkə əhalisinin ümumi sayında iqtisadi fəal əhalinin nə kimi rol oynadığına xarakteristika vermək üçün aşağıdakı düsturla "əhalinin iqtisadi fəallığı" əmsalı hesablanır: $Ə_{\text{Əhalinin iqt. fəal}} = \text{İFƏ}/\text{ƏÜS} \times 100$ Burada: $Ə_{\text{əhalinin iqt. fəal}}$. - əhalinin iqtisadi fəallığı əmsalı; İFƏ - iqtisadi fəal əhali; ƏUS - əhalinin ümumi sayı deməkdir. İqtisadi fəal əhali iki hissədən (kateqoriyadan) ibarətdir :1) məşğul əhali; 2) işsiz əhali.

Məşğulluq iqtisadiyyatın inkişaf etdirilməsi və əhalinin həyat səviyyəsinin yüksəlməsinə təsir göstərən mühüm amillərdən biri, dövlətin sosial siyasətinin başlıca tərkib hissəsidir. "Məşğulluq haqqında" Azərbaycan Respublikasının qanununda onun sosial-iqtisadi mahiyyəti belə müəyyən edilmişdir: "Azərbaycan Respublikasında daimi yaşayan Azərbaycan Respublikasının vətəndaşları, vətəndaşlığı olmayan şəxslərin və əcnəbilərin Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan və bir qayda olaraq onlara qazanc (gəlir) gətirən hər hansı bir fəaliyyətdir". Qanunda məşğul əhali kateqoriyasına hansı şəxslərin aid edilməsi də özünün konkret və aydın ifadəsini tapmışdır. Qanunda məşğul şəxslərə

aşağıdakılar aid edilir: muzdla işləyən, o cümlədən əmək müqaviləsi ilə tam və ya tam olmayan iş vaxtı ərzində haqq müqabilində iş görən, habelə haqqı ödənilən başqa işi (xidməti) olanlar; sahibkarlıq, fərdi əmək fəaliyyəti ilə məşğul olanlar, mülkiyyətində torpaq sahəsi olanlar; haqqı ödənilən vəzifəyə seçilən, təyin və ya təsdiq edilənlər; Azərbaycan Respublikasının silahlı qüvvələrində və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə xidmət edənlər; əmək qabiliyyətinin müvəqqəti itirilməsi, məzuniyyət, ixtisasartırma, tətil, istehsalatın dayanması və ya başqa səbəblərlə əlaqədar iş yerlərində müvəqqəti olmayanlar; Azərbaycan Respublikasının ərazisində daimi əsaslarla haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər; Azərbaycan Respublikasının hüdudlarından kənarda qanuni əsaslarla əmək fəaliyyəti ilə məşğul olan Azərbaycan Respublikasının vətəndaşları".

Milli hesablar sistemində məşğulluq anlayışı istehsalın miqyası anlayışı ilə əlaqəli şəkildə şərh olunur. Məsələyə bu cür yanaşılması o deməkdir ki, ictimai tələbatı ödəmək üçün əmtəə və xidmətlərin istehsal olunduqları sahələrdə çalışan şəxsləri məşğul əhaliyə aid etmək lazımdır. Özlərinin şəxsi istehlakının ödənilməsi üçün əmtəə və xidmətləri istehsal edən ev təsərrüfatlarında çalışan şəxslər isə məşğul əhaliyə aid edilmir. Bu, məşğulluq və istehsal göstəricilərinin əlaqəli şəkildə təhlil olunmasına imkan verir.

Hər hansı bir şəxsin məşğul əhaliyə aid edilib-edilməməsini müəyyənləşdirərkən "bir saat" meyarından istifadə olunur. Bu, o deməkdir ki, hesabat dövründə bircə saat iqtisadi fəaliyyət sahəsində çalışan şəxs məşğul əhali sırasına aid edilə bilər. Beynəlxalq standartlarda hesabat dövrü dedikdə bir həftə və ya bir gün nəzərdə tutulur. Bir saat meyarından istifadə olunması qısamüddətli, təsadüfi və digər qeyri-müntəzəm məşğulluq növləri də daxil olmaqla, ölkədə mümkün ola bilən bütün məşğulluq növlərinin əhatə edilməsinin zəruriliyi ilə əlaqədardır. Bu, iqtisadi təhlildə bütün əmək məsrəflərini istehsal olunan məhsulun həcmi, iqtisadi fəaliyyətdən əldə edilən gəlirin ümumi məbləği və s.-lə müqayisə etməyə imkan verir. Bundan başqa, bir saat meyarı işsizliyin müəyyən edilməsinin başlıca "aləti"dir.

Məşğul və iqtisadi fəal əhalinin sayı haqqında məlumatlara əsasən aşağıdakı düsturla məşğulluq əmsalı hesablanır: $Ə_{məşğ.}$ = MƏ / IFƏ x 100 Burada: $Ə_{məşg}$ - məşğulluq əmsalı; MƏ - məşğul əhali deməkdir Məşğulluq əmsalı əhalinin ümumi sayı, cinsi və ayrı-ayrı yaş qrupları üzrə hesablanır.

Əhalinin iqtisadi fəallıq və məşğulluq səviyyəsi ayrı-ayrı cins və yaş qrupları üzrə də hesablanır və təhlil olunur. Beynəlxalq miqyasda müqayisə aparmaq üçün məşğul əhalinin sayı 10 və bundan yuxarı yaşda olan şəxslərin sayı ilə müqayisə edilir. Müqayisə üçün belə bir yaş həddinin götürülməsi inkişaf etməkdə olan ölkələrin bir çoxunda bu yaşda olan uşaqların əməyindən istifadə olunması ilə əlaqədardır. İşsizlərə 15 və bundan yuxarı yaşda olan aşağıdakı şəxslər daxil edilir. Nəzərdən keçirilən dövrdə: a) işləməyən və ya gəlir gətirən işlə məşğul olmayan şəxslər; b) iş axtaranlar; c) işləməyə hazır olan şəxslər. Hər hansı bir şəxsi işsizlər siyahısına daxil edərkən bu meyarların üçü də nəzərə alınmalıdır. İş axtarmaq dedikdə, dövlət məşğulluq xidmətinə, idarə və müəssisələrin müdiriyyətinə, mətbuatda dərc olunan

elanlara müraciət edən, öz işini təşkil etməyə cəhd göstərən şəxslər fəal iş axtaranlar hesab olunur. Məşğulluq xidməti tərəfindən oxumağa və yenidən hazırlığa göndərilən şəxslər də işsizlərin tərkibinə daxil edilir. Fəal surətdə iş axtaran və iş tapılan kimi işləməyə hazır olan şagird və tələbələr, əlilliyi olan insanlar və pensiyaçılar da işsiz hesab edilirlər. İşsizlərin sayının bu qaydada müəyyən edilməsi beynəlxalq statistika standartlarına (beynəlxalq əmək təşkilatının(BƏT) metodologiyasına) uyğun gəlir. Rəsmi işsizlərə işi və gəlir mənbəyi olmayan əmək qabiliyyətli əhali, yaşadığı ərazidə məşğulluq mərkəzində münasib işlə təmin olunmaq üçün qeydiyyata alınmış iş axtaran və işə başlamağa hazır olan şəxslər daxildir.
Məşğulluq haqqında qanunvericiliyə uyğun olaraq aşağıda göstərilən şəxslər rəsmi işsiz hesab edilə bilməzlər: a) məşğulluq xidmətinə müraciət etdikdən sonra 2 il ərzində təklif olunan iki münasib işdən imtina edən şəxslər(bir il müddətinə); b) ixtisası olmayan və ilk dəfə iş axtaran, iki dəfə peşə hazırlığı keçməkdən, yaxud da təklif olunan haqqı ödənilən işdən imtina edən şəxslər; c) məşğulluq xidmətində qeydiyyatdan keçdikdən sonra 10 gün müddətində üzürlü səbəb olmadan münasib işlə təmin olunmaq, yaxud da işsizlik statusu almaq üçün maraqlı olmayan şəxslər. Beynəlxalq əmək təşkilatının metodologiyasından fərqli olaraq 15 yaşdan aşağı şəxslər; pensiyaçılar; əmək qabiliyyətli yaşda olub gündüz təhsil müəssisələrində oxuyan, iş axtaran və işləməyə hazır olan şagirdlər və tələbələr rəsmi işsiz hesab olunmurlar. İşsizliyin səviyyəsinə xarakteristika vermək üçün aşağıdakı düsturla işsizlik əmsalı hesablanır: $\text{Ə}_{\text{işsiziik}} = \text{İS} / \text{İFƏ} \times 100$ Burada: $\text{Ə}_{\text{işsizlik}}$ - işsizlik əmsalı; İS - işsizlərin sayı deməkdir.
İşsizlik əmsalı işsizlərin ümumi sayı və işsiz statusu verilmiş şəxslərin sayı nəzərə alınmaqla hesablana bilər. Bu göstərici birinci halda Beynəlxalq Əmək Təşkilatının metodologiyasına, ikinci halda isə məşğulluq xidmətində rəsmi qeydiyyata alınmış işsizlər üzrə hesablanan işsizlik əmsalı adlanır. İşsizlərin sayını hesablayarkən ölkəmizdə və digər ölkələrdə müxtəlif amillərin təsiri ilə baş verən problemləri nəzərə almaq və həll etmək lazımdır. Burada söhbət işçilərin uzunmüddətli məzuniyyətə göndərilməsindən gedir. Bu zaman işçilər formal olaraq işverənlərlə əlaqə saxlasalar da, onların çoxu başqa iş axtarır və onu tapan kimi işə başlamağa hazır olurlar. Xarici təcrübənin təhlili göstərir ki, digər ölkələrdə də belə hallara rast gəlinir. Lakin inzibati məzuniyyətin müddəti 2-3 həftə, ən çoxu bir ay olur. Bu müddətdən sonra həmin şəxslər işsizlər kateqoriyasına daxil edilir. Əhalinin məşğulluq probleminin öyrənilməsi ilə əlaqədar metodologiyaya uyğun olaraq müdiriyyətin təşəbbüsü ilə əmək haqqı ödənilmədən 6 aydan artıq müddətə məzuniyyətə göndərilən şəxslər məşğul əhalinin tərkibinə daxil edilmir. Lakin əmək üzrə cari statistik hesabatlarda müddətindən asılı olmayaraq inzibati məzuniyyətdə olan şəxslərin hamısı məşğul əhalinin tərkibində göstərilir. İnzibati məzuniyyətdə olan şəxslər rəsmi işsiz hesab olunan və işsizliyə görə müavinət alan şəxslərə nisbətən daha ağır vəziyyətdə olduğuna görə işsizliyin müəyyən olunmasına bəzi düzəlişlər etmək lazımdır. Bu, rəsmi surətdə işsiz hesab olunan və məzuniyyətə göndərilmə müddəti başa çatdıqdan sonra işverənlərlə formal əlaqə saxlayanlar arasında fərq qoyulmasına imkan vermiş olardı. İşsizlik haqqında məlumatlar cins, yaş və ailə vəziyyəti üzrə də təhlil olunur. İşsizlərin sayı təhsil və peşələrə görə də öyrənilir. Bunlarla yanaşı işsizliyin davametmə müddəti haqqında məlumatlar

da işlənib hazırlanır. Statistikada işsizliyin başa çatmış və başa çatmamış müddəti göstəricilərinin hesablanması da ən mühüm məsələlərdən biridir.

Başa çatmış işsizliyin davametmə müddəti dedikdə, şəxsin iş axtarmağa başladığı gündən işə düzələnədək olan müddət nəzərdə tutulur. Başa çatmamış işsizliyin davametmə müddəti isə işin axtarılmasına başlayan gündən nəzərdən keçirilən dövrədək olan müddətə deyilir.

İqtisadi qeyri-fəal əhali dedikdə işçi qüvvəsinin tərkibinə daxil olmayan (iqtisadi fəal əhali üçün müəyyən edilmiş yaş həddindən aşağı yaşda olan şəxslər də daxil olmaqla) əhali nəzərdə tutulur. İqtisadi qeyri-fəal əhalinin sayını əhalinin ümumi sayından işçi qüvvəsinin sayını çıxmaq yolu ilə də müəyyən etmək olur. İqtisadi qeyri-fəal əhalinin tərkibinə aşağıdakılar daxildir: -gündüz ümumtəhsil, dövlət və qeyri-dövlət orta ixtisas və ali məktəblərində təhsil alan şagird və tələbələr (magistrlər də daxil olmaqla), dinləyici və kursantlar; - yaşa (qocalığa) görə və güzəştli şərtlərlə, habelə ailə başçısını itirdiyinə görə pensiya alan şəxslər; - əlilliyə görə pensiya alan şəxslər; - ev təsərrüfatlarında məşğul olan, uşaqlara xidmət göstərən şəxslər; - iş axtarmağı dayandırmış, bütün ümidlərini itirmiş, lakin hər an işləməyə hazır olan şəxslər; - gəlir mənbəyindən asılı olmayaraq işləməyi zəruri hesab etməyən şəxslər. Əmək qabiliyyətli yaşda olan iqtisadi qeyri-fəal əhali haqqında məlumatları təhlil edərkən işləmək arzusunda olan və işləmək arzusunda olmayan əhali kateqoriyalarını bir-birindən fərqləndirmək lazımdır. İşləmək arzusunda olan əhali özü də aşağıdakı qruplara bölünür: a) nəzərdən keçirilən dövrdə iş axtaran, lakin işləməyə hazır olmayan şəxslər; b) işləmək istəyən, lakin iş axtarmayan, o cümlədən uzunmüddətli axtarışdan sonra usanıb ümidsizliklə üzləşən şəxslər. İqtisadi qeyri-fəal əhali haqqında məlumatlar da cins və yaş qrupları, təhsil səviyyəsi və digər əlamətlərə görə də təhlil olunur.

**Əhalinin məşğulluq statusuna görə təsnifləşdirilməsi.** Məşğulluğa görə yalnız iqtisadi fəal əhali (yəni məşğul və işsiz əhali) təsnifləşdirilir. Məşğulluq statusu əslində cəmiyyətdə hər bir fərdin vəziyyətinin müəyyən edilməsi deməkdir. Məşğulluq statusu üzrə qruplar muzdlu iş və işlə özünün xüsusi mülkiyyətində olan müəssisədə işləməsi arasındakı fərq nəzərə alınmaqla müəyyən edilir. Muzdla işləmək əmək fəaliyyətinin xüsusi bir növüdür. Bu zaman müəssisə ilə muzdlu işçi arasında müqavilə bağlanır. Müqaviləyə əsasən işçiyə yerinə yetirdiyi işin müqabilində müəssisə və ya təşkilatın gəlirindən asılı olmayaraq əmək haqqı ödənilməsinə zəmanət verilir. Aydın məsələdir ki, bu halda əsas fondlar və aktivlər muzdla işləyən şəxsin deyil, digər şəxslərin mülkiyyətində olur. Özünün xüsusi mülkiyyətində olan müəssisədə işləmək də əmək fəaliyyətinin bir növüdür. Onun müqabilində əldə edilən haqq əmtəə və xidmətlərin istehsalından daxil olan gəlirdən birbaşa asılı olur. Bu fəaliyyət növü ilə məşğul olanlar idarəetmə qərarlarını ya özləri qəbul edir, yaxud da özü məsuliyyət daşımaqla onun qəbul edilməsini digər şəxslərə tapşırırlar. Özüməşğul əhaliyə işverənlər, sərbəst məşğul əhali, kollektiv müəssisələrin üzvləri və ailə müəssisələrində əmək haqqı almadan çalışan işçilər aid edilir. Əhali məşğulluq statusuna görə aşağıdakı kimi təsnifləşdirilir:

1) Muzdla işləyən şəxslər. Bunlar muzdla həyata keçiriləcək əmək fəaliyyətinin şərtləri haqqında mülkiyyətin hər hansı bir formasına mənsub olan müəssisənin rəhbərləri, yaxud da

hər hansı bir şəxslə yazılı və ya şifahi müqavilə bağlayan şəxslərdir. Onlar qabaqcadan müəyyən olunmuş şərtlərə uyğun olaraq nağd pul və ya natura şəklində haqq alırlar. Haqqı ödənilən vəzifələrə təyin və təsdiq olunan şəxslər də (müəssisə rəhbərləri də daxil olmaqla) bu qrupa daxildir. Muzdla işləyən işçilər özləri də aşağıdakı yarımqruplara bölünür: a) mülki işçi qüvvəsi; b) hərbi qulluqçular (hərbi rütbəli, müqavilə əsasında işləyən, yaxud da həqiqi hərbi xidmətə çağırılmış şəxslər). Daxili işlər orqanlarında sıravi və ya rəhbər heyətin tərkibində xidmətdə olan xüsusi rütbəli şəxslər (məsələn, polis və daxili qoşunların əməkdaşları) hərbi qulluqçulara aid edilmir. Gündüz hərbi təhsil müəssisələrində oxuyanlar da bu kateqoriyaya yox, iqtisadi qeyri-fəal əhalinin tərkibinə daxil edilir. Muzdlu işə qəbulun müddətinə görə muzdlu işçilər aşağıdakı qruplara bölünür: a) daimi işlərə qəbul edilmiş muzdlu işçilər; b) müvəqqəti muzdlu işçilər; c) mövsümi işlərə qəbul edilmiş muzdlu işçilər və təsadüfi işlərə cəlb edilmiş muzdlu işçilər.

2) İşverənlər(işəgötürənlər). Bunlara özlərinin xüsusi (ailə) müəssisələrində daimi işləyən, sərbəst peşəkarlıq fəaliyyəti, yaxud da sənətkarlıqla məşğul olan və muzdlu əməkdən daim istifadə edən şəxslər daxildir. İşverən dedikdə ailə müəssisəsini idarə edən şəxs nəzərdə tutulur. Lakin bu zaman müəssisə ailə üzvləri arasında paylara bölünməmiş olmalı və muzdlu əməkdən daim istifadə edilməlidir. Həm də, işverən idarəetmə funksiyalarını müstəqil həyata keçirə, yaxud da muzdla tutulmuş başqa bir şəxsə həvalə edə bilər. Hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə, fərdi qaydada sənətkarlıqla məşğul olan və muzdlu əməkdən daim istifadə edən şəxslər də işverənlərə aid edilir;

3) Sərbəst məşğul olanlar. Bunlara müstəqil, yaxud da bir və ya bir neçə tərəfdaşla birlikdə gəlir gətirən işlə məşğul olan və muzdlu əməkdən daim istifadə etməyən şəxslər aiddir. Onlar muzdlu əməkdən çox qısa bir müddətdə (mövsümi və ya təsadüfi işlərdə) istifadə edə bilərlər. Hüquqi və fiziki şəxslərlə bağlanmış müqavilə əsasında podrat və mülki-hüquqi xarakterli işləri yerinə yetirən şəxslər məşğulluq statusuna görə muzdla işləyən işçilərə aid edilir. Lakin burada çox vacib bir məsələni nəzərə almaq lazımdır. Bu, ondan ibarətdir ki, həmin şəxslərin yerinə yetirdikləri işlər muzdlu iş hesab edildikdə onlar məşğulluq statusuna görə muzdlu işçilər kateqoriyasına, özlərinin xüsusi mülkiyyətində olan müəssisələrdə çalışdıqda isə ya işverən, yaxud da sərbəst məşğul olan işçilər kateqoriyasına aid edilirlər.

4) Ailə müəssisələrində çalışan şəxslər. Bunlara ev təsərrüfatı üzvlərinin hər hansı birinə, yaxud da qohumuna məxsus olan şəxslə birlikdə yaşayan və yaşamayan, lakin ailə müəssisəsində haqq olmadan çalışan işçilər aiddir;

5) Kollektiv müəssisələrin (istehsal kooperativlərinin) üzvləri. Bunlara kollektiv müəssisələrdə çalışan və həmin müəssisələrin mülkiyyətçilər kollektivinin üzvü olan şəxslər aiddir. Kollektiv müəssisəsinin hər bir üzvü istehsal, satış, gəlirlərin bölüşdürülməsi və s. məsələlərin həll edilməsində onun digər üzvləri ilə eyni hüquqa malikdir. Lakin kollektiv müəssisədə çalışan muzdlu işçilər bu qrupa daxil edilmir;

6) Məşğulluq statusu üzrə təsnifləşdirməyə düşməyən şəxslər. Bunlara haqqında kifayət qədər məlumat olmadığına görə yuxarıda göstərilən kateqoriyalardan hər hansı birinə aid edilməsi mümkün olmayan şəxslər aid edilir.

Məşğul əhali ilə yanaşı işsiz əhali də təsnifləşdirilir. Bu zaman da hazırda işsiz olan şəxslərin statusu müəyyən olunarkən onların axırıncı iş yeri əsas götürülür. Ümumiyyətlə, heç bir əmək fəaliyyəti ilə məşğul olmamış şəxslər isə axırıncı (6-cı) qrupa aid edilir. Əhalinin məşğulluq statusuna görə təsnifləşdirilməsi siyahıyaalmaların gedişində məşğulluq problemləri həll olunarkən və sosial-demoqrafik vəziyyət öyrənilərkən həyata keçirilir. Əhalinin məşğulluğa görə təsnifləşdirilməsi haqqında məlumatlardan cəmiyyətin sosial strukturunu təhlil edərkən istifadə olunur. Əhali məşğulluğa görə təsnifləşdirilərkən işçilərin əsas iş yerində tutduqları vəzifə əsas götürülür. Əgər işçi nəzərdən keçirilən dövrdə bir neçə yerdə işləyirsə, onda əsas və əlavə iş yerləri müəyyən edilir. Birdən çox iş yeri dedikdə tədqiqat aparılan dövrdə əsas iş yeri ilə yanaşı, başqa bir işi yerinə yetirən, yaxud da gəlir gətirən digər bir işlə məşğul olan şəxslər nəzərdə tutulur. Bunlar əvəzçiliklə işləyən, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti, yaxud da fərdi işlə məşğul olan şəxslər ola bilər. Əsas iş yeri dedikdə işçinin özü üçün əsas hesab etdiyi, əmək kitabçasının saxlandığı iş yeri nəzərdə tutulur. Hər hansı bir şəxsin nəzərdən keçirilən dövrdə məşğul olduğu başqa bir iş yeri əlavə hesab edilir.

**Məşğul şəxslərin sayı və tərkibinin müəyyən edilməsi.** İqtisadiyyat rəsmi və qeyri-rəsmi bölmələrə ayrılır. Məşğul şəxslərin ümumi sayını müəyyən etmək üçün bu bölmələrdə fəaliyyət göstərən iqtisadi vahidlərdə çalışan işçilərin sayı haqqında məlumat toplamaq və onları cəmləmək lazımdır. Hər iki bölməyə daxil olan iqtisadi vahidlər hüquqi şəxs statusuna malik olmalıdırlar. Məşğul əhali haqqında məlumatlar cins, yaş, ailə vəziyyəti, təhsil səviyyəsi, şəhər və kənd əhalisi əlamətlərinə görə qruplaşdırılır. İqtisadiyyatda məşğul olanların sayı və strukturu mülkiyyət formaları üzrə də öyrənilir.

İqtisadiyyatda məşğul olan şəxslər yerinə yetirdikləri işin növündən, ixtisasından asılı olaraq beynəlxalq standartlar nəzərə alınmaqla müxtəlif qruplara bölünür. Bu zaman iki anlayışdan istifadə olunur. Bunlardan biri yerinə yetirilən işin və ya məşğulluğun növü, digəri isə işçinin ixtisasıdır. Məşğulluq aşağıdakı iriləşdirilmiş qruplara ayrılır: 1) İqtisadi subyektlərin rəhbərləri də daxil olmaqla hakimiyyətin və bütün səviyyələrdə idarəetmə orqanlarının rəhbərləri (nümayəndələri); 2) Yüksək ixtisasa sahib olan mütəxəssislər; 3) Orta ixtisas təhsilli mütəxəssislər; 4) İnformasiyanın hazırlanması, sənədlərin tərtib olunması, uçot və xidmətetmə sahələrində məşğul olan qulluqçular; 5) Xidmət, mənzil-kommunal təsərrüfatı, ticarət və bunlara yaxın fəaliyyət növləri ilə məşğul olan şəxslər; 6) Kənd və meşə təsərrüfatı, ovçuluq, balıq yetişdirilməsi və balıq ovu ilə məşğul olan ixtisaslı işçilər; 7) İri və xırda sənaye müəssisələrinin, tikinti, nəqliyyat, rabitə, geologiya və faydalı qazıntıların kəşfiyyatı, bədii sənətkarlıqla məşğul olan şəxslər; 8) Operatorlar, aparatçılar, qurğu və maşınların maşinistləri, yığıcı çilingərlər; 9) İxtisassız fəhlələr. Bu təsnifləşdirmə yalnız mülki işçi qüvvəsinə aiddir. Və o, milli əmək bazarının strukturunu əks etdirir, beynəlxalq müqayisə aparmağa yararlı olan informasiya əldə etməyə imkan verir. Bu təsnifləşdirmədən həm ölkə miqyasında, həm də sahə

və regional səviyyədə istifadə oluna bilər. İşçilərin böyük əksəriyyəti iqtisadiyyatın rəsmi bölməsində məşğul olur. Rəsmi bölmə dedikdə hüquqi şəxs statusu olan iqtisadi vahidlərin toplusu nəzərdə tutulur. Bu bölmədə məşğul olan işçilərin sayı və tərkibi haqqında əsas məlumat mənbəyi statistika hesabatlarıdır. Rəsmi bölmədə fəaliyyət göstərən iqtisadi vahidləri aşağıdakı qruplara bölmək olar: 1) Kiçik sahibkarlığın subyekti olmayan, işçilərinin sayı 15 nəfərdən (və ya qanunvericiliklə müəyyən edilmiş normadan) çox olan (əvəzçiliklə və mülki-hüquqi xarakterli müqavilə ilə işləyənlər də daxil olmaqla) hüquqi şəxslər və onların əlahiddələşmiş bölmələri. 2) Dövlət və bələdiyyə mülkiyyətində olan və işçilərinin sayı 15 nəfərdən (və ya qanunvericiliklə müəyyən edilmiş normadan) az olan strukturlar. 3) Kiçik müəssisələr. Bunlara kiçik sahibkarlıq subyekti olan hüquqi şəxslər aiddir. 4) İctimai təhlükəsizliyi və ölkənin müdafiəsini təmin edən dövlət hakimiyyəti orqanları.
Bunlar məşğul əhalinin sayı haqqında ümumi məlumatı mərkəzləşdirilmiş qaydada, adətən ildə bir dəfə verirlər. İqtisadi vahidlər səviyyəsində işçilərin sayı və tərkibi haqqında məlumatlar fəhlələr, qulluqçular və tarif dərəcələri üzrə təhlil oluna bilər.
İqtisadiyyatın müxtəlif sahələrində ayn-ayrı işçi kateqoriyaları daha ətraflı nəzərdən keçirilir. Müəssisə və təşkilatlarda məşğul olan işçilərin ümumi sayını müəyyən etmək üçün hər hansı bir tarixə (ayın, yaxud da ilin əvvəlinə və ya axırma, habelə xüsusi təşkil olunmuş tədqiqatın aparıldığı tarixə), yaxud da müvafiq dövrə həmin iqtisadi vahidlərdə çalışan işçilərin sayı haqqında məlumatlara malik olmaq lazımdır. Hər hansı bir tarixə işçilərin sayını müəyyən etmək üçün onların siyahı sayı göstəricisindən istifadə olunur. İşçilərin siyahı sayma hesabat dövründə əmək müqaviləsi ilə bir gün və daha çox müddətdə müəssisədə işləyən daimi, müvəqqəti və ya mövsümi işləri yerinə yetirən, habelə həmin müəssisədə çalışan və əmək haqqı alan mülkiyyətçiləri daxildir. Hər təqvim günü üçün işçilərin siyahı sayma həmin gün həm işə çıxan, həm də müxtəlif səbəblərdən (xəstəlik, növbəti, əlavə, tədris, müdiriyyətin təşəbbüsü, hamiləlik və doğuş, uşağa qulluq edilməsi ilə əlaqədar məzuniyyətdə olduqlarına görə) işə çıxmayan işçilər daxil edilir, işi evdə yerinə yetirmək üçün müəssisə ilə müqavilə bağlamış, tətil hərəkatında iştirak edən, heç bir səbəb olmadan işə çıxmayan, tam olmayan iş günündə, yaxud da iş həftəsində işə götürülmüş şəxslər də işçilərin siyahı sayına daxil edilir. Aşağıdakı şəxslər işçilərin siyahı sayına daxil edilmir: 1) başqa təşkilatlarda daimi işləyən, əvəzçiliklə işə götürülmüş şəxslər; 2) mülki-hüquqi xarakterli müqavilələr əsasında iş görənlər; 3) əmək haqqı saxlanılmadan başqa təşkilatlara göndərilən şəxslər; 4) istehsalatdan ayrılmaqla oxumağa göndərilən və həmin müəssisənin vəsaiti hesabına təqaüd alanlar; 5) müəssisə və təşkilatların işləməyən mülkiyyətçiləri; 6) təsadüf nəticəsində baş vermiş hadisənin nəticələrinin aradan qaldırılması üçün birdəfəlik işlərin yerinə yetirilməsinə cəlb edilmiş, istehsalat təcrübəsində və stajkeçmədə olan (əmək haqqı ödənilməklə ştatda olan vəzifələrə qəbul edilməmiş) şəxslər, habelə texniki peşə təhsili müəssisələrinin şagirdləri.
İşçilərin siyahı sayına dövrün hər təqvim günündə siyahıda olan işçilər daxil edilir. Bu zaman bayram və bazar günləri üzrə işçilərin sayı həmin günlərdən əvvəlki iş günündə siyahıda olan

işçilərin sayına bərabər götürülür. Bütün mülkiyyət formalarına mənsub olan iri və orta həcmli müəssisələr hər ay, işçilərinin sayı 15 nəfərdən (və ya qanunvericiliklə müəyyən edilmiş normadan) az olan dövlət və bələdiyyə mülkiyyətində olan müəssisələrdə isə hər rüb aşağıdakılar müəyyən edilir:

- işçilərin orta siyahı sayı;
- kənardan cəlb edilmiş və əvəzçiliklə işləyən işçilərin orta sayı;
- mülki-hüquqi xarakterli müqavilələr əsasında müxtəlif işləri yerinə yetirən işçilərin orta sayı.

İşçilərin orta siyahı sayı ayın bütün təqvim günlərində siyahıda olan işçilərin sayını cəmləyib aydakı təqvim günlərinin sayına bölmək yolu ilə müəyyən edilir. Bu göstərici ay ərzində işə çıxmış və çıxmamış işçilərin sayını cəmləyib aydakı təqvim günlərinin sayma bölmək yolu ilə də hesablana bilər.

Müəssisə ayın bütün günlərində işləmədikdə, yəni tam olmayan ay işlədikdə işçilərin orta aylıq sayını hesablamaq üçün bazar və bayram günləri də daxil olmaqla işçilərin siyahı sayı yuxarıda göstərilən qaydada müəyyən edilir və alınan nəticə yenə də aydakı təqvim günlərinin sayına bölünür. İşçilərin rüb üzrə orta siyahı sayı aylar üzrə orta siyahı sayını cəmləyib, əldə olunan nəticəni 3-ə bölmək yolu ilə müəyyən edilir. İlin əvvəlindən keçən istənilən dövr və il üzrə bütövlükdə işçilərin orta siyahı sayı eyni qaydada ilin əvvəlindən başlayaraq keçən aylar ərzində işçilərin orta siyahı sayı haqqında məlumatları cəmləyib həmin ayların sayına bölmək yolu ilə müəyyən edilir. Müəssisə tam olmayan il işlədikdə də onun fəaliyyət göstərdiyi aylar üzrə işçilərin orta siyahı sayı aqqındakı məlumatlar cəmlənir və alınan nəticə ilin aylarının sayma bölünməklə işçilərin orta illik siyahı sayı müəyyən edilmiş olur.

İqtisadiyyatın qeyri-rəsmi bölməsində məşğulluq statistikası ölkəmizdə, digər ölkələrdə və beynəlxalq statistikada statistikanın bölməsidir. Qeyri-rəsmi bölmənin sərhədlərinin müəyyən edilməsinin, habelə statistik məlumatların toplanması və işlənməsinin təşkili üçün metodoloji əsas 1993- cü ilin yanvar ayında əmək statistiklərinin 15-ci beynəlxalq konfransında qəbul edilmiş sənəddir. Bu sənədə görə qeyri-rəsmi bölmə dedikdə, iştirakçılarını iş və gəlirlə təmin etmək məqsədilə əmtəə və xidmətlərin istehsalı ilə məşğul olan və ev təsərrüfatlarının malik olduqları cəhətlərə malik olan vahidlər toplusu nəzərdə tutulur. Qeyri-rəsmi bölmənin iqtisadi vahidlərində istehsalın təşkili səviyyəsi aşağı, fəaliyyət dairələri isə məhduddur. Onlar ev təsərrüfatlarından və ya onların üzvlərindən ayrılıqda yaradılmış müstəqil hüquqi qurum deyildirlər. Qeyri-rəsmi bölmə vahidlərində əmək münasibətləri təsadüfi məşğulluğa, yaxud da qohumluq və şəxsi münasibətlərə əsaslanır. Ev təsərrüfatlarının kooperasiyalaşdırılmamış müəssisələrinin əsas fondları (əsas kapitalı) və digər aktivləri istehsal vahidlərinə deyil, onların sahiblərinə məxsus olur. Həm də əsas fondlardan bir qayda olaraq istehsal və şəxsi məqsədlər üçün istifadə olunur. İstehsal ehtiyacları üçün sərf olunan xərclər bir çox hallarda ev təsərrüfatlarının sair xərcləri ilə birlikdə uçota alınır. Sahibkarlar öz fəaliyyətlərini risk əsasında qurur və istehsal prosesi ilə əlaqədar olan hər hansı öhdəliklərə görə şəxsən cavabdehlik daşıyırlar. Qeyri-rəsmi bölmə vahidlərində sahibkarlıq fəaliyyəti ayrı-ayrı şəxslər tərəfindən, yaxud da onlara kömək göstərən ailə üzvlərinin yardımı, ya da haqqı ödənilməklə

bir və ya bir neçə muzdlu işçi cəlb edilməklə həyata keçirilir. İstehsal adətən daimi olmayan binada, yaxud da adamların evlərində təşkil olunur. Özünün şəxsi istehlakı üçün əmtəə və xidmətləri istehsal edən ev təsərrüfatları qeyri-rəsmi bölməyə aid edilmir. Lakin ayrı-ayrı ölkələrin statistika işləri təcrübəsində qeyri-rəsmi bölmədə məşğul olanların tərkibinə özlərinin şəxsi həyətyanı təsərrüfatlarında özləri üçün kənd təsərrüfatı məhsulları istehsal edən şəxsləri (bu fəaliyyət ev təsərrüfatı gəlirlərinin çox hissəsini təşkil etdikdə) daxil edirlər. Qeyri-rəsmi bölmə konsepsiyası gizli və qeyri-qanuni iqtisadiyyat konsepsiyasından fərqlənir. Qeyri rəsmi bölmədə fəaliyyət göstərən istehsal vahidlərinin əksəriyyəti əmtəə və xidmətlərin istehsalı və onların reallaşdırılması ilə qanuni yolla məşğul olurlar. Qeyri-rəsmi bölmədə fəaliyyət göstərən müəssisələr vergiləri, sosial fondlara ayırmaları ödəməkdən şüurlu surətdə boyun qaçırmır, əmək qanunvericiliyini məqsədyönlü şəkildə pozmağı qarşılarına məqsəd qoymurlar. Lakin bunlarla yanaşı bu bölmənin bəzi müəssisələri istehsal xərclərini azaltmaq və deməli, gəlirlərini gizlətmək üçün qanunları, müəyyən edilmiş qaydaları poza bilərlər və pozurlar.

Qeyri-rəsmi bölməyə daxil olan müəssisələr iki qrupa bölünür: 1) daimi işləmək üçün muzdlu işçi cəlb etməyən qeyri-rəsmi müəssisələr; 2) daimi işləmək üçün muzdlu işçi cəlb edən müəssisələr.

Mühasibat uçotunun bütün hesablarından və bütün statistika hesabatlarından istifadə etməyən qeyri-rəsmi bölmənin müəssisələri digər müəssisələrlə kooperasiya əlaqələrində olmur və onların istehsal etdikləri əmtəə və xidmətlərin çox cüzi bir hissəsi bazar üçün nəzərdə tutulur. Qeyri-rəsmi bölmədə məşğul olan şəxslərin əsas işinin (fəaliyyət növünün) yalnız bu bölməyə aid olduğu şəxsləri deyil, həm də əsas işinin (fəaliyyət növünün) iqtisadiyyatın rəsmi bölməsinə aid olduğu, lakin bununla yanaşı qeyri-rəsmi bölmədə ikinci fəaliyyət növü ilə məşğul olan şəxsləri də nəzərə almaq lazımdır.

İstehsal vahidlərinin qeyri-rəsmi bölməyə aid edilməsi üçün meyar onun hüquqi şəxs kimi dövlət qeydiyyatınm olmamasıdır. İqtisadiyyatın qeyri-rəsmi bölməsinə aşağıdakı məşğulluq kateqoriyaları aid edilir: - kənd və meşə təsərrüfatlarında hüquqi şəxs yaratmadan və ya fərdi qaydada sahibkarlıq fəaliyyəti ilə məşğul olanlar (onların sahibkar kimi dövlət qeydiyyatının olmasından asılı olmayaraq); -hüquqi şəxs yaratmadan dövlət qeydiyyatının olub-olmamasından asılı olmayaraq peşə və texniki xidmət göstərməklə məşğul olan şəxslər (arxitektorlar, həkimlər, baytar həkimləri, ali məktəblərə daxil olmaq üçün tələbə hazırlayan müəllimlər, notariuslar və i.a.); - hüquqi şəxs yaratmadan başçısı (rəhbəri) sahibkar kimi qeydiyyatdan keçmiş kəndli (fermer) təsərrüfatları; - fiziki şəxslərin yanında muzdla işləyən şəxslər, fərdi sahibkarlar; - işçi olub-olmamasından asılı olmayaraq evə pullu xidmət göstərilməsi ilə məşğul olan şəxslər (sürücülər, cangüdənlər, bağbanlar, gözətçilər və i-a-); - avtomobillərin, məişət texnikasının, ev təsərrüfatlarının sifarişi ilə mənzillərin tikintisi və təmiri ilə məşğul olan şəxslər; - ev təsərrüfatlarında kənd təsərrüfatı məhsullarının istehsalı, ovçuluq, balıqçılıq, kənd təsərrüfatı məhsullarının emalı (bu məhsullar satış üçün nəzərdə tutularsa) ilə məşğul olan şəxslər. Aşağıdakı kateqoriyalardan olan hüquqi və fiziki şəxslər iqtisadiyyatın qeyri-rəsmi bölməsinə daxil edilmir: -hüquqi şəxs statusu olmasından asılı

olmayaraq maliyyə-sənaye qrupları, pay əsasında formalaşdırılmış investisiya fondları, habelə hüquqi şəxslərin nümayəndəlikləri, filialları, şöbələri, məntəqələri və başqa əlahiddələşmiş bölmələri; - hüquqi şəxs kimi qeydiyyata alınmış kəndli (fermer) təsərrüfatları; -əmək haqqı almadan, könüllülük əsasında uşaqlara, xəstələrə və ahıllara xidmət göstərən, habelə uşaq evlərində, internatlarda və valideyn himayəsindən məhrum olan evlərdəki şəxslərə meyvə, tərəvəz və digər kənd təsərrüfatı məhsulları təqdim edən şəxslər. -qanunla qadağan olunmuş insanlığa zidd fəaliyyətlə (məsələn, narkotiklərin istehsalı və satışı) məşğul olan şəxslər.
Qeyri-rəsmi bölmədə məşğul olan əhali yaşayış yerlərinə (şəhər və kənd əhalisi), məşğulluq statusuna, demoqrafik xüsusiyyətlərinə (cins və yaşa görə) və təhsil səviyyəsinə görə qruplaşdırılır. Qeyri-rəsmi bölmə müəssisələri işçilərin sayından asılı olaraq iki qrupa bölünür: a) işçilərin sayı beş nəfərdən az olan müəssisələr; b) işçilərin sayı beş nəfər və daha çox olan müəssisələr. Qeyri-rəsmi bölmə də məşğul olan şəxslər məşğulluğun tipinə görə aşağıdakı qruplara ayrılır: a) yalnız qeyri-rəsmi bölmədə məşğul olan şəxslər. Bu kateqoriyaya ya qeyri-rəsmi bölmə vahidlərindən birində yeganə işi, yaxud da bir neçə işi yerinə yetirən şəxslər; b) qeyri-rəsmi bölmədə və ondan kənarda məşğul olan şəxslər (o cümlədən əsas işi qeyri-rəsmi bölmədə olan, yaxud da qeyri-rəsmi bölmədə əlavə işi olan şəxslər). Qeyri-rəsmi bölmədə məşğul olanlar haqqında əsas informasiya mənbəyi məşğulluq problemi ilə əlaqədar əhali arasında hər rübdə bir dəfə aparılan seçmə müayinələridir. Bu müayinənin proqramı qeyri-rəsmi bölmədə məşğul olan şəxslərin sayı haqqında məlumatları qiymətləndirməyə, habelə bu bölmədə məşğul olan əhalini bir çox qruplaşdırma əlamətinə görə təsnifləşdirməyə imkan verir. Lakin məşğulluq problemi üzrə aparılan müayinələr qeyri-rəsmi bölmədə məşğulluq səviyyəsini müəyyən etmək üçün yeganə məlumat mənbəyi deyildir. Əlavə məlumat mənbəyi kimi inzibati statistikanın, vergi orqanlarının informasiyalarından, habelə pərakəndə ticarətdə fərdi sahibkarların, kəndli təsərrüfatlarının müayinəsi, bu və ya digər fəaliyyətlə məşğul olmağa razılıq (lisenziya) verən nazirlik və idarələrin də məlumatlarından istifadə etmək olar.

## İstifadə olunan ədəbiyyatlar:


- O.Q.Məmmədli, N.Ə.Cavadov, X.N.Cavadzadə. Sosial-iqtisadi statistika. Ali məktəblər üçün dərslik. I hissə. Bakı, “MBM”, 2014
- С.М.Йагубов, А.Ж. Мяммядов. Сосиал-игтисади статистика. Дярслик. Бакы: «Игтисад Университети » няшриййаты, 2008, - 388 сящ.
- İzahlı statistika terminləri lüğəti. Redaktor-əlaqələndirici A.H.Mansurov. Bakı, “Səda” nəşriyyatı 2010. - 720 s.


## Mövzu 7. İşçi qüvvəsinin hərəkət göstəriciləri və iş vaxtı fondları

**Plan:**

10. *Əmək ehtiyatları balansı*
11. *İşçi qüvvəsinin hərəkəti göstəriciləri*
12. *İşçi qüvvəsinin sayı*
13. *İş vaxtı və ondan istifadə göstəriciləri*
14. *Əmək münaqişələri statistikası*
15. *Əmək miqrasiyası statistikası*
16. *İş vaxtı fondları, quruluşu, istifadəsinin statistikasının öyrənilməsi*
17. *Əmək ehtiyatları, işçi qüvvəsi və iş vaxtı haqqında informasiya mənbələri*

**Əmək ehtiyatları balansı.** Əmək ehtiyatları balansı - əmək ehtiyatlarının sayı və tərkibi, onların iqtisadiyyatın sahələri və mülkiyyət formalarına görə iqtisadi fəal və iqtisadi qeyri-fəal əhaliyə bölgüsünü özündə əks etdirən göstəricilər sistemidir. Əmək ehtiyatları balansı iki bölmədən ibarətdir. Birinci bölmədə əmək ehtiyatlarının formalaşması mənbələri, ikinci bölmədə isə onların məşğul və məşğul olmayan əhaliyə bölünməsi göstərilir. Məlum olduğu kimi, əmək ehtiyatları dedikdə əmtəə və xidmətlərin istehsalında iştirak etmək imkanına malik hər iki cinsdən olan şəxslər nəzərdə tutulur.

Əmək ehtiyatları balansının tərtib olunması metodologiyası daim təkmilləşdirilir. Məşğulluq problemi üzrə əhalinin rüblük müayinəsinin aparılması təcrübəsi statistika hesabatlarında olmayan aşağıdakı kateqoriyalar üzrə təsəvvürləri genişləndirməyə imkan vermişdir: sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslər; kəndli (fermer) təsərrüfatlarında məşğul olan şəxslər; fiziki şəxslərin yanında muzdla işləyən şəxslər; ev təsərrüfatlarına kömək edən, əmək haqqı almadan çalışan işçilər. Qeyri-rəsmi bölmədə məşğul olan işçilərin sayı haqqında müayinə yolu ilə əldə edilən məlumatları dəqiqləşdirmək üçün əlavə məlumat mənbəyi kimi vergi orqanlarının, hər hansı bir fəaliyyət növü ilə məşğul olmaq üçün icazə (lisenziya) verən təşkilatın məlumatlarından istifadə etmək lazımdır. Əmək ehtiyatları balansını tərtib etmək üçün əsas məlumat mənbələri aşağıdakılardır: - əmək qabiliyyətli yaşda əhalinin sayı haqqında əhali statistikasının cari məlumatları; -müəssisə və təşkilatların illik hesabatlarına əsasən işçilərin orta siyahı sayının hesablanması; - əhalinin sosial müdafiəsi orqanlarının əmək qabiliyyətli yaşda işləməyən əlillər və pensiyaçıların sayı haqqında məlumatı; - istehsalatdan ayrılmaqla təhsil alanlar haqqında (15 və daha yuxarı yaşda) ümumtəhsil müəssisələrinin məlumatı; - təsadüfi işləri yerinə yetirən kəndli (fermer) təsərrüfatlarında məşğul olan şəxslər, kömək edən ailə üzvlərinin və digər kateqoriyadan olanların, qeyri-rəsmi bölmədə məşğul olan şəxslərin sayı haqqında məlumat; - Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti məlumatlarına əsasən ölkədə məşğul olan xarici vətəndaşların sayı.

Əmək ehtiyatlarının sayı daimi əhalinin sayına əsasən müəyyən edilir. İqtisadiyyatda məşğul olanların sayı hesablanarkən işçilərin orta illik sayı göstəricisindən istifadə edilir. İqtisadiyyatın rəsmi bölməsinin müəssisə və təşkilatlarında bu kəmiyyət işçilərin orta siyahı sayına əsasən müəyyən edilir. Əhalinin məşğulluq problemi üzrə müayinəsini apararkən məşğul əhalinin sayı haqqında məlumat rübdə bir dəfə (tədqiqat aparılan həftədə) əldə edilir və orta say fevral-noyabr aylarını əhatə edən dövrə aid edilir. Rəsmi bölmənin müəssisə və təşkilatlarında məşğul əhalinin orta siyahı sayında: 1) hamiləlik və doğuşla, habelə uşaq üç yaşa çatana qədər ona qulluq edilməsi

ilə əlaqədar məzuniyyətdə olan şəxslər nəzərə alınmır; 2) davametmə müddətindən asılı olmayaraq inzibati məzuniyyətdə olan şəxslər isə nəzərə alınır. Məşğulluq problemi üzrə müayinənin metodologiyasına görə məşğul əhalinin sayına: a) hamiləlik və uşaq 1,5 yaşa çatana qədər ona qulluq edilməsi ilə əlaqədar məzuniyyətdə olduqlarına görə işdə olmayan şəxslər daxil edilir; b) 6 ay və daha çox müddətə müdiriyyətin təşəbbüsü ilə haqqı ödənilməyən məzuniyyətdə olan şəxslər daxil edilmir. Əhalinin məşğulluğu probleminin müayinəsində tətbiq olunan metodologiyadan fərqli olaraq əmək ehtiyatları balansı metodologiyasında iqtisadiyyatda məşğul olanların orta illik sayı hesablanarkən hərbi qulluqçular nəzərə alınmır. Əhalinin məşğulluq probleminin müayinəsini apararkən məşğul əhalinin sayı haqqında məlumat onların yaşadıqları yerə, əmək ehtiyatları balansı metodologiyasında isə iş yerlərinə aid edilir. Bu uyğunsuzluğun aradan qaldırılması əmək ehtiyatları balansı ərazi çərçivəsində tərtib olunarkən xüsusilə vacibdir. Çünki bu zaman işləyən əhalinin gündəlik miqrasiyasının nəzərə alınması zəruriliyi meydana çıxır. Əmək ehtiyatları balansında məşğul əhalinin orta illik sayı haqqında məlumat əsas iş yeri üzrə fiziki vahidlə verilir. Odur ki, tam olmayan iş həftəsində, yaxud da tam olmayan iş günündə məşğul olan şəxslərin orta illik sayını hesablayarkən həmin işlər bütöv bir fiziki şəxs hesab olunur (əgər bu iş onun üçün yeganə iş yeridirsə). Əvəzçiliklə işləyənlər, yalnız əsas iş yeri üzrə nəzərə alınır.

Əmək ehtiyatları balansının məlumatlarına əsasən onların strukturunu təhlil etmək, müxtəlif fəaliyyət sahələri arasında yenidən bölgüsünü işləmək, məşğul olmayan əhalinin sayı haqqında məlumat əldə etmək olar. Əmək ehtiyatları balansındakı məşğulluq göstəriciləri fiziki şəxslərə, həm də onların əsas, yaxud da yeganə iş yerinə aiddir. Deməli, məşğul əhalinin bir hissəsinin ikinci məşğulluğu nəzərə alınmır. Bu, balansın təcrübəvi əhəmiyyətini azaldır. Çünki bu məlumatlar məşğulluqdan əldə olunan gəlir göstəriciləri, işçi qüvvəsinə sərf olunan xərclər, istehsal fəaliyyətinin nəticələri ilə uzlaşdırılır. Əmək məhsuldarlığının və digər analitik göstəricilərin hesablanmasında onlardan istifadə edilə bilməz. Bu, əmək ehtiyatları balansının məlumatlarını MHS göstəriciləri ilə əlaqələndirməyə imkan verəcəkdir. Bütün bunların həyata keçirilməsi onunla əlaqədardır ki, əmək ehtiyatları balansı bazar iqtisadiyyatını təhlil etməyin başlıca metodları içərisində xüsusi yer tutur.

**İşçi qüvvəsinin hərəkəti göstəriciləri**. Ayrı-ayrı müəssisə və təşkilatlarda işçilərin sayı daim dəyişir. Bu, işçilərin işə qəbulu və işdən çıxarılması ilə əlaqədar olaraq baş verir. Ayrı-ayrı müəssisələr, sahələr və regionlar arasında işçi qüvvəsinin yenidən bölgüsünə gətirib çıxaran prosesə işçi qüvvəsinin hərəkəti deyilir. İşçi qüvvəsinin hərəkəti həmişə baş verir və bunun bir çox səbəbləri vardır. Bunlardan biri demoqrafik xarakter daşıyır. Bu, ondan ibarətdir ki, təbii proses olaraq insanların bir hissəsi əmək qabiliyyətli yaşa daxil olur, bir hissəsi isə pensiya yaşına çatır. İqtisadiyyatda baş verən dəyişikliklər işçilərin sahələr və ərazilər arasında yenidən bölgüsünə, iqtisadi konyunkturanın dəyişməsi isə yeni yaradılmış iş yerlərinin ixtisar olunmasına gətirib çıxarır. Bu, həmçinin işçilərin özlərinin maraqları və tələbatları ilə əlaqədardır. Bu məlumatlara əsasən kadrların hərəkəti (işçi qüvvəsi balansı) balansını tərtib etmək olar.

İşçi qüvvəsinin daxil olduğu mənbələr içərisində müəssisənin təşəbbüsü, məşğulluq xidməti orqanlarının göndərişləri, ali məktəbi bitirdikdən sonra isə göndərilmə, digər müəssisələrdən köçürmələr xüsusi yer tutur. İşçilərin işdən çıxarılmaları istiqamətlərinə xarakteristika vermək üçün müxtəlif yanaşmalar vardır. Məsələn, bunlardan biri fizioloji xarakterli səbəblərlə əlaqədar

xaric olmalardır. Bu səbəblərə işçilərin vəfat etməsi, uzun müddət xəstə olması, səhhəti ilə əlaqədar hamin müəssisədə işi davam etdirə bilməməsi, pensiya yaş həddinə çatması aiddir. İşçi qüvvəsinin zəruri və artıq dövriyyəsi də onun xaricolma səbəblərindəndir. İşçi qüvvəsinin zəruri dövriyyəsinə onların qanunla müəyyən edilmiş qaydada müqavilə müddəti başa çatması, hərbi mükəlləfiyyətə çağırılması, istehsalatdan ayrılmaqla ali və ya orta ixtisas təhsili müəssisələrinə daxil olması, seçkili orqanlara vəzifəyə seçilməsi, başqa müəssisələrə köçürülməsi, ərinin (arvadının) yaşadığı yerə getməsi və s. əlaqədar işdən çıxarılması aiddir. Artıq işçi qüvvəsinin dövriyyəsinə - kadr axıcılığına (Beynəlxalq təcrübədə «axıcılıq» anlayışı ilə «işçi qüvvəsinin hərəkəti» anlayışları eyniləşdirilir və sinonim sözlər kimi işlədilir) gətirib çıxaran səbəblərə bilavasitə qanunda nəzərdə tutulmayan, işçilərin özləri ilə əlaqədar olan səbəblər (işçinin öz arzusu ilə işdən çıxması, əmək intizamını pozduğuna görə işdən çıxarılması) aiddir. Artıq işçi qüvvəsi dövriyyəsinin ayrıca müəyyən edilməsi axıcılıq əmsalının hesablanmasına imkan vermişdir. Axıcılıq əmsalı kadr axıcılığı ilə əlaqədar işdən çıxarılanlarının sayının işçilərin orta siyahı sayma olan nisbəti kimi müəyyən edilir. Bu göstəricidən müəssisənin kadr siyasətinə qiymət vermək üçün istifadə oluna bilər. İşçi qüvvəsinin hərəkətini öyrənərkən ona təsir edən amillərin təhlilinə xüsusi diqqət yetirilir. Bu məqsədlə işçi qüvvəsinin dövriyyəsini ifadə edən mütləq və nisbi göstəricilər hesablanır. Mütləq göstəricilərə aşağıdakılar aiddir: -kadrların dövriyyəsi. Bu, işə qəbul edilmiş (siyahı tərkibinə daxil edilmiş) və işdən çıxarılmış işçilərin toplusu deməkdir; - işdən xaricolma üzrə dövriyyə. Bu, hesablama aparılan dövrdə bütün səbəblərdən işdən xaric olunanların sayı deməkdir; - işə qəbul üzrə dövriyyə. Bu göstərici hesablama aparılan dövrdə əmrlə müəssisəyə işə qəbul olunan şəxslərin sayını ifadə edir.

İşə qəbul olunan və işdən çıxarılan işçilərin tərkibinə dövlət təşkilatları ilə bağlanmış xüsusi müqavilə ilə cəlb edilmiş (hərbçilər və azadlıqdan məhrum olunduqlarına görə cəza çəkənlər), xaricdən gəlmiş və əvəzçiliklə işləyən, işi mülki-hüquqi xarakterli müqavilələrlə yerinə yetirən şəxslər daxil edilmir.

İşə qəbul üzrə dövriyyəni müəyyən edərkən daxilolma mənbələri aşağıdakı xüsusi qruplara ayrılır: 1) məşğulluq və işədüzəltmə mərkəzlərindən göndərilənlər; 2) müəssisənin özünün təşəbbüsü ilə işə götürülənlər; 3) digər müəssisə və təşkilatlardan köçürülənlər; 4) ali və orta ixtisas təhsili müəssisələrini bitirib işə göndərilənlər.

a bilər: 1) ordu sıralarına çağırıldıqda; 2) başqa müəssisələrə köçürüldükdə; 3) bağlanmış müqavilənin vaxtı başa çatdıqda; 4) pensiyaya çıxdıqda (pensiya yaşma çatdığına, əlilliyə görə); 5) işçi vəfat etdikdə; 6) ştatlar ixtisar olunduqda; 7) öz xahişi ilə; 8) proqul və əmək intizamının pozulmasının başqa hallarında. Əmək ehtiyatlarının hərəkətini təhlil etmək üçün aşağıdakı nisbi göstəricilərdən də istifadə olunur:

göstəricilərdən də istifadə olunur:

1) İşçi qüvvəsinin sayı indeksi:

$$I_{say} = \frac{\text{Dövrün axırına işçilərin sayı}}{\text{Dövrün əvvəlinə işçilərin sayı}} \times 100$$

2) İşə qəbul üzrə dövriyyə əmsalı:

$$Ə_{qəbul} = \frac{\text{Dövr ərzində işə qəbul olunanların sayı}}{\text{Dövr ərzində işçilərin orta siyahı sayı}} \times 100$$

3) İşdən xaricolunma üzrə dövriyyə əmsalı:

$$Ə_{\substack{xaric \\ olma}} = \frac{\text{Dövr ərzində bütün səbəblərə görə işdən xaric olunanların sayı}}{\text{Dövr ərzində işçilərin orta siyahı sayı}} \times 100$$

4) İşçi qüvvəsinin ümumi dövriyyəsi əmsalı

$$Ə_{\substack{ümumi \\ dövriyyə}} = \frac{\text{İşə qəbul olunanların sayı + işdən çıxarılanların sayı}}{\text{Dövr ərzində işçilərin orta siyahı sayı}} \times 100$$

Bu göstərici işə qəbul və işdən çıxarılma üzrə əmsalların cəmi kimi də hesablana bilər. İşçi qüvvəsinin ümumi dövriyyəsi əmsalı təhlil olunan dövrdə işçi qüvvəsinin hərəkətinin intensivliyini səciyyələndirir.

5) Axıcılıq əmsalı

$$Ə_{axıcılıq} = \frac{\text{Kadr axıcılığı hesab olunan səbəblərə görə işdən çıxarılmış işçilərin sayı}}{\text{Dövr ərzində işçilərin orta siyahı sayı}} \times 100$$

Məşğulluqla əlaqədar şəraiti qiymətləndirmək üçün işçi qüvvəsinin əvəzlənməsi (yerinin doldurulması) əmsalından istifadə etmək olar. Bu göstərici aşağıdakı iki üsulla hesablana bilər: a) dövr ərzində işə qəbul olunan işçilərin sayının işdən çıxarılan işçilərin sayma olan nisbət kimi; b) işə qəbul üzrə əmsalla işdən xaricolma əmsalı arasındakı nisbət kimi. Yəni:

$$Ə_{\substack{işçi\ qüvvəsinin \\ əvəzlənməsi}} = \frac{\text{Dövr ərzində işə qəbul edilmiş işçilərin sayı}}{\text{Dövr ərzində işdən çıxarılmış işçilərin say}} = \frac{Ə_{qəbul}}{Ə_{xaric}}$$

Bu göstərici vahiddən böyük olduqda, nəinki işdən çıxarılanların yeniləri ilə tam əvəzləndiyini, həm də yeni iş yerlərinin açıldığını göstərir. Bu göstəricinin vahiddən kiçik olması isə iş yerlərinin ixtisar olunması deməkdir. Belə bir vəziyyət bütövlükdə iqtisadiyyatda müşahidə olunduqda bu, işsizliyin artdığını göstərir. Əmək kollektivinin sabitliyini təhlil etmək üçün "tərkibin sabitliyi əmsalı"ndan istifadə oluna bilər:

$$Ə_{\substack{işçi\ qüvvəsinin \\ əvəzlənməsi}} = \frac{\text{Dövr ərzində işə qəbul edilmiş işçilərin sayı}}{\text{Dövr ərzində işdən çıxarılmış işçilərin say}} = \frac{Ə_{qəbul}}{Ə_{xaric}}$$

İşçi qüvvəsinin hərəkəti haqqında məlumatlar müəssisə və təşkilatlar, sahələr, ərazi vahidləri və bütövlükdə iqtisadiyyat üzrə işlənib hazırlanır. İşçi qüvvəsinin əvəzlənməsi (yerinin doldurulması) əmsalı bütövlükdə iqtisadiyyat və iqtisadi fəaliyyət sahələrinin əksəriyyəti üzrə vahiddən kiçik

olur. Müasir iqtisadi nəzəriyyə yalnız işçilərin hərəkətinin öyrənilməsinin zəruri olduğunu müəyyənləşdirməklə kifayətlənmir. Həm də əməyin tətbiq olunduğu sahələrin, fəaliyyət növünün, işçilərin istehsal funksiyalarının dəyişməsinin öyrənilməsinin zəruriliyini əsaslandırır. Bununla əlaqədar olaraq peşəkarların hərəkəti, yəni başqa ixtisasa keçmək, yaxud da yeni peşəyə yiyələnmək, işçilərin funksiyalarının genişləndirilməsi və s. halların öyrənilməsi də ön plana çəkilir.

**İş vaxtı və ondan istifadə göstəriciləri.** İş vaxtı fondu, onun strukturu və ondan istifadə göstəriciləri istehsal prosesinin təşkilinə və əmək məhsuldarlığına təsir edir. İş vaxtı statistikası əmək haqqı və sosial sığorta statistikaları ilə bilavasitə əlaqədardır. İş vaxtı haqqında informasiya işçi qüvvəsindən istifadə müqavilələrini işləyib hazırlamaq və bağlamaq üçün lazımdır. Muzdla işləyən şəxslərin iş vaxtı əmək qanunvericiliyi ilə tənzimlənir. Qanunvericiliyə görə normal iş həftəsinin uzunluğu 40 saat, həddi-buluğa çatmayanlar və ağır şəraitdə işləyən şəxslər üçün isə həftədə 36 saat olmalıdır. Xüsusilə ağır şəraitdə çalışan bəzi işçi kateqoriyaları üçün iş həftəsinin uzunluğu daha az müəyyən edilir. Deməli, iş vaxtı dedikdə, işçinin işin fiziki cəhətdən yerinə yetirdiyi vaxtın uzunluğu (davam etdiyi müddət) nəzərdə tutulur. İş vaxtının əsas ölçü vahidləri adam-gün və adam-saatdır. Təcrübədə adam-ay və adam-il kimi daha iri vaxt vahidlərindən də istifadə olunur. Lakin bunlar əslində müvafiq dövr üzrə hesablanan işçilərin orta siyahı sayı göstəricilərinin ekvivalentidirlər. Adam-saat dedikdə, işçinin öz yerində işlədiyi bir saat nəzərdə tutulur. İşlənmiş adam-gün isə iş vaxtının uzunluğundan asılı olmayaraq işçinin iş yerinə gəlməsi və işə başlaması deməkdir. Statistikada aşağıdakı iş vaxtı fondu bir-birindən fərqləndirilir: 1) təqvim üzrə iş vaxtı fondu; 2) tabel üzrə iş vaxtı fondu; 3) maksimum mümkün olan iş vaxtı fondu. Təqvim üzrə iş vaxtı fondu həm adam-gün, həm də adam-saatla hesablanır. Adam-günlə iş vaxtı fondu hesablama aparılan dövrün bütün təqvim günlərində müəssisə və təşkilatlarda çalışan işçilərin siyahı sayının cəminə bərabər olur. Adam-saatla iş vaxtı fondunu müəyyən etmək üçün isə adam-günlə iş vaxtı fondunu iş gününün normal orta uzunluğuna vurmaq lazımdır. Təqvim üzrə iş vaxtı fondu sərəncamda qalan iş vaxtını ifadə edir, təbiidir ki, bundan istehsal prosesində tamamilə istifadə olunması mümkün deyildir. Təqvim üzrə iş vaxtı fondu işə çıxılan və müxtəlif səbəblərə görə işə çıxılmayan adam-günlərin miqdarından ibarətdir. Buna uyğun olaraq təqvim üzrə iş vaxtı fondu işə çıxılan və müxtəlif səbəblər üzündən işə çıxılmayan adam-günlərin cəmi kimi də müəyyən edilə bilər. Təqvim üzrə iş vaxtı fondundan işçilərin orta siyahı sayını hesablamaq üçün istifadə olunur. Təqvim üzrə iş vaxtı fonduna qanunla müəyyən edilmiş işçilərə hər il verilən növbəti məzuniyyət, habelə bayram və istirahət günləri də daxildir.

Təqvim üzrə iş vaxtı fondundan istirahət və bayram günləri çıxıldıqda tabel üzrə iş vaxtı fondu müəyyən edilmiş olur. Tabel üzrə iş vaxtı fondundan növbəti məzuniyyət günlərinin miqdarı çıxıldıqda isə maksimum mümkün olan iş vaxtı fondu alınır. Bu, işləmək üçün mümkün olan vaxt deməkdir. Başqa sözlə, maksimum mümkün olan iş vaxtı fondu işçilərin hamısının 100% işə çıxması şəraitində işlənməsi mümkün olan iş vaxtını ifadə edir. O, normal iş dövrü ərzində faktiki işlənilmiş iş vaxtından və həmin dövrdə istifadə edilməmiş iş vaxtından ibarətdir. Faktiki işlənilmiş vaxt müəyyən olunarkən Beynəlxalq Əmək Təşkilatı tərəfindən bəyənilmiş beynəlxalq statistika standartlarına əsaslanılır. Bu standartlara uyğun olaraq faktiki işlənmiş vaxta aşağıdakılar daxil edilməlidir: - normal iş dövründə faktiki işlənilmiş vaxt; -normal iş dövründən əlavə işlənilmiş və haqqı yüksək dərəcələrlə ödənilmiş vaxt; - iş yerinin hazırlanmasına, təmir

işlərinə, avadanlıqların hazırlanması və onlara qulluq edilməsinə, qəbzlərin, vərəqələrin, qaimələrin doldurulmasına sərf olunan vaxt; - iş yerində keçirilən vaxt, boşdayanmalar, avadanlıqların dayanması, bədbəxt hadisələr, yaxud da iş yerində heç bir iş görülmədən (lakin bağlanmış müqaviləyə əsasən əmək haqqı ödənilən) keçən vaxt; - siqaret çəkməyə, çay içməyə sərf olunan vaxt da daxil olmaqla iş yerində qısa müddətli istirahətə sərf edilən vaxt. Qeyd etmək lazımdır ki, beynəlxalq standartlara uyğun olaraq boşdayanmalar və iş vaxtından əlavə işlənilən vaxt da faktiki işlənilmiş vaxta daxildir. Boşdayanma dedikdə, işçinin iş yerində olması, lakin müxtəlif texniki və texnoloji səbəblərlə əlaqədar işləmədiyi vaxt nəzərdə tutulur.
Deməli, boşdayanma işçi iş yerində olduğu halda iş vaxtı itkisi deməkdir. İş vaxtından əlavə sərf olunan vaxt müəyyən olunmuş (və ya nəzərdə tutulmuş) vaxtdan əlavə işlənilən vaxta deyilir. O, həmişə ayrılıqda qeydiyyata alınmalıdır. Həm də qeyd etmək lazımdır ki, iş vaxtından əlavə iş dedikdə, əlavə olaraq müəyyən edilmiş normal vaxtdan artıq işlənmiş hər cür vaxt nəzərdə tutulmur. Hazırda sürətli iş qrafiki geniş yayılmışdır. Buna uyğun olaraq işçi öz arzusu ilə müəyyən bir limit daxilində iş gününün, iş həftəsinin uzunluğunda dəyişikliklər edə bilər. Belə bir şəraitdə qanunla, yaxud da əmək müqaviləsi ilə hər hansı bir dövrdə müəyyən edilmiş vaxtdan əlavə işləmək başqa bir vaxtda kompensasiya olunur. Həmin dövrdə üzürlü səbəbə görə istifadə olunmamış iş vaxtı xəstəliyə, tədrislə əlaqədar məzuniyyətdə olmaq, dövlət və ictimai işlərin yerinə yetirilməsi və qanunla nəzərdə tutulan digər hallarda işə çıxmamaqdan ibarətdir. Boşdayanmalar, müdiriyyətin icazəsi və özbaşına işə çıxmamaq iş vaxtı itkisi hesab olunur. İnzibati məzuniyyət və tam olmayan iş günü, yaxud iş həftəsi rejimində işlədikdə, habelə əmək münaqişələri ayrılıqda göstərilir. İşçi qüvvəsi balansının müəssisə səviyyəsində hər ay tərtib olunması məqsədəuyğundur. Üzürlü səbəblərə görə iş vaxtından istifadə olunmamasının istiqamətləri və iş vaxtı itkisinin səbəblərinin təsnifləşdirilməsi istehsal proqramını real iş vaxtı imkanları ilə müqayisə etməyə imkan verir. Balansın məlumatlarına əsasən aşağıdakı göstəricilərin hesablanması mümkündür: 1) Maksimum mümkün olan iş vaxtı fondundan istifadə əmsalı:

$$Ə_{m.m.f.} = \frac{FİV}{T_{m.m.f.}} \times 100$$

Burada: $Ə_{mm.f.}$ - maksimum mümkün olan iş vaxtı fondundan istifadə əmsalı; FİV - faktiki işlənilmiş vaxt; $T_{mmf}$ - maksimum mümkün olan iş vaxtı fondu deməkdir. Bu göstəricidən müəssisə və onun ayrı-ayrı bölmələri səviyyəsində iş vaxtından istifadəni təhlil edərkən istifadə olunur. 2) Tabel üzrə iş vaxtı fondundan istifadə əmsalı

$$Ə_{tab.f} = \frac{FİV}{T_{tab.f}} \cdot 100$$

Burada: $T_{tab\ f}$ - tabel üzrə iş vaxtı fondu deməkdir
Bu göstəricidən iş vaxtından istifadənin sahələrarası müqayisəsi zamana istifadə olunması daha yaxşıdır. Bu məqsədlə maksimum mümkün olan iş vaxtı fondundan istifadə əmsalının tətbiqi münasib deyildir. Çünki iqtisadiyyatın ayrı-ayrı sahələrində işçilərin növbəti məzuniyyət müddətinin uzunluğunda fərqlər vardır. 3) Təqvim üzrə iş vaxtı fondundan istifadə əmsalı:

$$Ə_{tab.f} = \frac{FİV}{T_{tab.f}} \cdot 100$$

Burada: $Ə_{toq.f}$-təqvim üzrə iş vaxtı fondundan istifadə əmsalı; $T_{taq.f}$-təqvim üzrə iş vaxtı fondu deməkdir. Bu göstəricidən həm müəssisə, sahələr və bütövlükdə iqtisadiyyat, həm də beynəlxalq miqyasda iş vaxtından istifadə dərəcəsini təhlil və müqayisə edərkən istifadə olunur. Ayrı-ayn ölkələrdə növbəti məzuniyyətin müddəti və bayram günlərinin miqdarı bir-birindən kəskin surətdə fərqlənir (məsələn, Yaponiyada muzdla işləyən bir işçiyə düşən maksimum mümkün olan iş vaxtı fondu İsveçrədəki eyni göstəricidən 20% çoxdur). Odur ki, maksimum mümkün olan və tabel üzrə iş vaxtı fondlarından istifadə əmsallarının tətbiqi xeyli xətalara gətirib çıxarır. İş vaxtından istifadəni təhlil etmək üçün aşağıdakı düsturla "iş dövründən istifadə əmsalı" hesablanır:

$$Ə_{i.d.} = \frac{G_f}{G_{işçi}} \times 100$$

Burada: $G_f$ - dövr ərzində bir işçi tərəfindən orta hesabla işlənilmiş günlərin sayı (bu işlənilmiş adam-günlərin ümumi sayını işçilərin orta sayma bölməklə müəyyən edilir); $Ə_{i.d}$ - iş dövründən istifadə əmsalı $G_{jşçj}$ - müəssisədə iş rejimi dövründə bir işçinin işləməli olduğu günlərin sayı deməkdir.

İş günündən istifadə olunmasına xarakteristika vermək üçün "iş günündən istifadə əmsalı" ($Ə_{jg}$) hesablanır:

$$Ə_{\text{iş günündən istifadə}} = \frac{\text{İş gününün faktiki uzunluğu}}{\text{İş gününün müəyyən edilmiş orta uzunluğu}} \times 100$$

Qeyd etmək lazımdır ki, işlənilmiş vaxt haqqında məlumatlara əsasən iş gününün faktiki orta uzunluğuna xarakteristika vermək üçün aşağıdakı iki göstərici hesablana bilər: 1) İş vaxtının faktiki orta uzunluğu. Bu, işlənilmiş adam-saatların ümumi miqdarı ilə işlənilmiş adam-günlərin ümumi miqdarı arasındakı nisbət kimi müəyyən edilir; 2) iş günü ərzində faktiki işlənilmiş vaxtın orta uzunluğu. Bu, faktiki işlənilmiş adam-saatların miqdarı ilə faktiki işlənilmiş adam-günlərin miqdarı arasındakı nisbət kimi müəyyən olunur. İş günündən istifadə dərəcəsi təhlil olunarkən məhz iş günü ərzində faktiki işlənilmiş vaxtın orta uzunluğu göstəricisi tətbiq edilir.

$$Ə_{\text{iş dövründən istifadə}} = \frac{\text{İş günü ərzində faktiki işlənilmiş vaxtın orta uzunluğu}}{\text{İş gününün müəyyən edilmiş orta uzunluğu}} \times 100$$

**İş dövründən və iş günündən istifadə əmsallarına əsasən "iş vaxtından istifadənin ümumi göstəricisi"ni ($Ə_{ümumi}$) hesablamaq olar:**

$$Ə_{ümumi} = Ə_{\text{iş dövründən istifadə}} \times Ə_{\text{iş günündən istifadə}} \times 100$$

İş vaxtından istifadənin ümumi əmsalı ümumi iş vaxtı itkisinin xüsusi çəkisini (bunun bir hissəsi gündəlik, digəri isə növbədaxili itkilərdir) müəyyən etməyə imkan verir. Xarici ölkələrin statistikalarında müntəzəm olaraq iş həftəsinin faktiki orta uzunluğunu səciyyələndirən göstərici hesablanır. Bu göstəricidən iqtisadi konyunkturanı təhlil edərkən istifadə olunur. Bu göstəricinin əhəmiyyəti ondan ibarətdir ki, ona əsasən ölkədə iqtisadi konyunkturanın dəyişməsi haqqında mühakimə yürütmək, nəticə çıxarmaq mümkün olur. Növbə rejimində işləyən müəssisələrdə və sahələrdə «növbəlik göstəricisi» hesablanır. Bu göstərici istər növbə rejimindən, istərsə də

müəssisədə olan iş yerlərindən tam istifadə olunmasını səciyyələndirir. Bu göstərici adətən fəhlə kateqoriyası üçün hesablanır. Müəyyən tarixə növbəlik əmsalı aşağıdakı kimi hesablanır:

2) Təqvim dövrü üzrə növbəlik əmsalı belə müəyyən edilir:

$$Ə_{\substack{\text{növbə} \\ \text{(təqvim dövrü)}}} = \frac{\text{Bütün növbədərdə işlənilmiş adam - günlərin sayı}}{\text{Ən çoxsaylı növbədə işlənilmiş adam - günlərin sayı}} \times 100$$

Bunu misalla izah edək. Tutaq ki, üç növbəli iş rejimində işləyən müəssisədə iyun ayı üzrə aşağıdakı məlumat verilmişdir: fəhlələr tərəfindən birinci növbədə 8700 adam-gün, ikinci növbədə 5300 adamgün, üçüncü növbədə isə 2200 adam-gün işlənilmişdir. İş rejiminə görə aydakı iş günlərinin sayı 20, iş yerlərinin sayı 480-ə bərabərdir. Növbəlik əmsalı belə müəyyən edilir:

$$Ə_{n} = \frac{8700 + 5300 + 2200}{8700} = \frac{16200}{8700} = 1{,}86$$

3) Növbə rejimindən istifadə əmsalı aşağıdakı kimi hesablanır:

$$Ə_{\text{növbə rejimindən istifadə}} = \frac{Ə_{n}}{ns} \times 100$$

Burada: ns – müəssisədəki iş rejiminə görə növbələrin sayı deməkdir.
Nəzərdən keçirilən müəssisə üzrə bu göstərici belə müəyyən edilir:

$$Ə_{\text{növbə rejimindən istifadə}} = \frac{1{,}86}{3} \times 100 = 62\%$$

Bu o deməkdir ki, müəssisədə növbə rejimindən yalnız 62% istifadə olunur.
Son illərdə iş vaxtından istifadə məsələlərinə maraq daim artır. Bu isə təsadüfi deyildir. Çünki iş vaxtından istifadənin səmərəliliyinin yüksəldilməsi məsələsi bütün iqtisadi fəaliyyət sahələrində istehsalın artırılması və onun səmərəliliyinin yüksəldilməsinin başlıca amillinə çevrilmişdir.
**Əmək münaqişələri statistikası**. Əmək münaqişələri statistikası ölkəmizdə statistika elminin yeni bölmələrindən biridir. Çünki keçmiş Sovet İttifaqında planlı iqtisadiyyat şəraitində mövcud olan hüquqi normalar əmək münaqişələri ilə əlaqədar sahibkarlarla işçilər arasında meydana çıxan münaqişələri tətil və ya nümayiş yolu ilə həll etməyə imkan vermirdi. Hazırda ölkəmizdə mövcud olan əmək münaqişələri statistikası 1993-cü ildə əmək sahəsində məşğul olan statistiklərin 15-ci beynəlxalq konfransında yenidən nəzərdən keçirilmiş beynəlxalq normalara əsaslanır. Əmək münaqişələri dedikdə hər hansı bir və ya bir neçə məsələ ilə əlaqədar olaraq işverənlərlə işçilər arasında narazılığın meydana çıxması nəzərdə tutulur. İqtisadiyyatın digər sahələrində baş verən hadisələrin müdafiə olunması, yaxud da ona qoşulmaq üçün çağırışlarla əlaqədar olaraq da işverənlərlə işçilər arasında narazılıqlar ola bilər. Əmək münaqişələrinin aşağıdakı növləri bir-birindən fərqlənir: 1) İşin dayandırılmasına səbəb olmayan əmək münaqişələri. Münaqişənin bu növündə tərəflər öz tələblərini irəli sürürlər. Belə münaqişələr adətən danışıqlar yolu ilə həll edilir, yaxud da iş günü başa çatdıqdan sonra görülən tədbirlər münaqişənin aradan qaldırılmasına təsir göstərir. Belə tədbirlərə mitinqləri, nümayişləri, aclıq elan olunmasını, tətil komitələrinin yaradılmasını, tətil etməyə çağırışları misal göstərmək olar. Bunlar münaqişə tərəflərini danışıqlar masasında oturmağa və narazılığı aradan qaldırmağa imkan verir. 2) İşin dayandırılmasına səbəb

olan əmək münaqişələri. Belə münaqişələrin də iki növü vardır: a) tətil; b) lokaut. Tətil - öz tələblərinə diqqəti cəlb etmək, ya da narazılıqlarını bildirmək, digər müəssisə işçilərinin çağırışlarına cavab olaraq işin müvəqqəti dayandırmalarına deyilir. Lokaut dedikdə isə ya bir, yaxud da bir neçə iş yerinin tam və ya qismən bağlanması nəzərdə tutulur. Bir və ya bir neçə iş verən tərəfindən işçilərin normal fəaliyyət göstərmələrinə maneçilik törədilməsi, yaxud da digər işverənlərin tələblərinin müdafiə edilməsi və ya ona narazılıq bildirilməsi də lokauta aiddir.

Əmək münaqişələri onları törədən səbəblər üzrə aşağıdakı kimi təsnifləşdirilir: 1) sahibkarların təmsilçiləri ilə zəhmətkeş təşkilatları arasında aparılan kollektiv danışıqlar nəticəsində meydana çıxan münaqişələr. Bu münaqişələr aşağıdakı problemlərlə əlaqədar dalana dirənir: a) əmək haqqı, mükafat və digər əmək ödənişləri; b) əmək şəraiti (iş vaxtının uzunluğu, əmək təşkili, təhlükəsizlik texnikası və i.a.); c) məşğulluq (kadr siyasəti, işçilərin irəli çəkilməsi, müəssisələrin bağlanması, heyətin təsnifləşdirilməsi problemləri, məsələn, kimlərin yeraltı işlərdə işləməsi; d) həmkarlar ittifaqlarının azad fəaliyyət göstərmələri. 2) kollektiv əmək müqavilələrinin işlənib hazırlanması ilə əlaqədar olmayan münaqişələr. Buna aşağıdakı problemlərlə əlaqədar olan münaqişələr aiddir: a) əmək haqqı ilə əlaqədar olan problemlər (əmək haqqının vaxtında verilməməsi, inflyasiya ilə əlaqədar əmək haqqının indeksləşdirilməsi və i.a.); b) əmək şəraitinə aid problemlər (iş vaxtı uzunluğunun dəyişdirilməsi, təhlükəsizlik texnikası və i.a.); c) məşğulluqla əlaqədar problemlər (müəssisələrin bağlanması, işçilərin kütləvi surətdə işdən çıxarılması, haqqı ödənilmədən inzibati məzuniyyətə göndərilməsi və i.a.); d) işverənə qarşı heç bir tələb irəli sürülmədən digər müəssisələrin işçiləri ilə həmrəylik əlaqələrinin qurulması və onların müdafiə edilməsi; e) hökumətin yeritdiyi iqtisadi və sosial siyasətə etirazla, yaxud da siyasi tələb irəli sürülməsi ilə əlaqədar olan problemlər. Əmək münaqişələri haqqında məlumatlar hər ay toplanır. Və bu zaman aşağıdakılar nəzərə alınır: 1) tətil və lokautların sayı; 2) əmək münaqişələrinə cəlb edilmiş müəssisə və təşkilatların sayı; 3) əmək münaqişələrinə cəlb edilmiş işçilərin sayı. Tətil hərəkatı dövründə xəstəlik və məzuniyyətlə əlaqədar, habelə müdiriyyətin icazəsi ilə iş yerində olmayan (özbaşına işə çıxmayan şəxslər də daxil olmaqla) şəxslər həmin müddətdə əmək münaqişələrinə cəlb edilənlərin tərkibinə daxil edilməməlidir. Əmək münaqişələrinin davam etdiyi müddət günlə, iş vaxtı itkisi isə adam-gün və adam-saatla, münaqişəyə dolayısı ilə cəlb edilmiş işçilərin sayı (nəqliyyatın işinin pozulması, xammalın, yanacağın və enerjinin olmaması və i.a.) və müəssisənin məhsul istehsalı ilə əlaqədar düçar olduğu itkinin məbləği və s. müəyyən olunur.

Analitik məqsədlər üçün əmək münaqişələri haqqmda məlumatlar aşağıdakı istiqamətlər üzrə işlənir: 1) əmək münaqişələri başvermə səbəblərinə görə qruplaşdırılır. Hər qrupda münaqişəyə cəlb olunan müəssisə və təşkilatların, münaqişə iştirakçılarının sayı və itirilmiş iş vaxtının (adam-günlə) miqdarı müəyyən edilir; 2) bu məlumatlar sahələr, regionlar və bütövlükdə iqtisadiyyat üzrə də işlənir; 3) əmək münaqişələrinin davametmə müddəti onların və iştirakçıların sayı, işin dayandırılması nəticəsində itirilmiş adam-günlərinin miqdarı ilə qarşılıqlı əlaqədə öyrənilir; 4) analitik məqsədlər üçün bir tətil hərəkatına orta hesabla cəlb edilmiş işçilərin, işlənilməmiş vaxtın miqdarı, bir tətilin davametmə müddəti hesablanır. Əmək münaqişələri haqqında məlumatları beynəlxalq səviyyədə müqayisə etmək üçün aşağıdakı göstəricilərdən istifadə olunması məsləhət görülür: 1) münaqişə nəticəsində hər 1000 işçiyə düşən iş vaxtı itkisi (İ):

$$İ = \frac{\text{Münaqişə nəticəsində iş vaxtı itkisi}}{\text{İşçilərin orta siyahı sayı}} \times 1000$$

2) işçilərin hər 1000 nəfərinə düşən münaqişədə iştirak edənlərin sayı (Ə):

$$Ə = \frac{\text{Münaqişədə iştirak edən işçilərin sayı}}{\text{İşçilərin orta siyahı sayı}} \times 1000$$

Bu göstəricilər iqtisadiyyatın münaqişə baş verdiyi sahələri üzrə hesablanır. Ayrı-ayrı ölkələrdə tətil hərəkatlarının əsas səbəbləri əmək haqqının verilməsinin ləngidilməsi, əmək haqqının yüksəldilməsinin tələb olunması, kollektiv əmək müqavilələrində nəzərdə tutulan şərtlərin pozulması və s. ibarətdir.

**Əmək miqrasiyası statistikası.** Əhalinin, xüsusilə də əmək ehtiyatlarının sürətlə hərəkət etməsi həm işsizlik səviyyəsinin yüksək olduğu, həm də işçi qüvvəsinin azlıq etdiyi regionlarda istehsal proseslərinin səmərəli idarə edilməsi və bu əsas üzərində iqtisadi səmərəliliyin yüksəldilməsi ilə əlaqədar bir sıra tədbirlərin həyata keçirilməsini zəruri edir. Bu, həm də əmək miqrasiyasına aiddir. Əmək miqrasiyası ölkənin sosial-iqtisadi vəziyyətinə fəal təsir göstərir. Bu, öz ifadəsini ÜDM-in və məşğulluğun artmasında, həyat səviyyəsinin yüksəldilməsində tapır. Əks əlaqə də mövcuddur, başqa sözlə, siyasi sabitlik pozulduqda, istehsalın səviyyəsi aşağı düşdükdə miqrantların ölkəyə gəlməsi azalır. Miqrasiyanın ölkənin sosial-iqtisadi inkişafına təsirini öyrənərkən onun həm müsbət, həm də mənfi cəhətlərini nəzərə almaq lazımdır. Məsələn, birmənalı şəkildə demək olar ki, başqa ölkələrdən gələn işçi qüvvəsi əmək bazarında gərginlik yaradır, yerli işçilərin əmək haqqının azalmasına səbəb olur, işsizliyi artırır. Məlum olduğu kimi, işçi qüvvəsinin immiqrasiyası milli əmək bazarındakı konkret şəraitlə əlaqədardır, sahə və region çərçivəsində tələblə təklif arasındakı uyğunsuzluğu aradan qaldırmaqla tarazlıq yaradır. Bununla birlikdə immiqrasiya proseslərinin, xüsusilə də qeyri-fəal immiqrasiyanın mənfi cəhətləri də vardır. Belə ki, qeyri-fəal immiqrantlar bəzi hallarda gəldikləri ölkədə qeyri-qanuni kommersiya fəaliyyəti ilə (qaçaqmalçılıqla silah və ya narkotik maddələrin gətirilməsi və s.) məşğul olmaqla iri şəhərlərdə, sərhədyanı ərazilərdə, ayrı-ayrı etnik qrupların yığcam yaşadığı rayonlarda kriminal vəziyyət yaradırlar. Əmək miqrasiyasınm dəqiq və tam nəzarətdə saxlanması xeyli dərəcədə hüquqi bazanın vəziyyətindən asılıdır. MDB ölkələrində ümumi əmək bazarının mərhələli şəkildə formalaşdırılması, işçi qüvvəsinin sərbəst yerdəyişməsi üçün şərait yaradılması sahəsində görülən ilk tədbirlərdən biri 1994-cü ildə əmək miqrasiyası və miqrantların sosial müdafiəsinin təşkili haqqında əməkdaşlığa dair razılaşma olmuşdur. Bu razılaşmada aşağıdakı məsələlərin tənzimlənməsi nəzərdə tutulmuşdur: işçilərin əmək fəaliyyətinə cəlb edilməsi qaydaları; diplomların, iş stajının tanınması; əmək gəlirlərindən vergitutulmalar; sosial təminat; tibbi xidmət və i.a. Lakin qeyd etmək lazımdır ki, razılaşmanın bir çox müddəaları de-yure mövcud olmuş, de-fakto isə istifadə olunmamışdır.

Əmək miqrasiyası iş yerinin dəyişməsi ilə əlaqədar olaraq məşğul əhalinin yerdəyişməsi deməkdir. Məlum olduğu kimi, daxili və xarici əmək miqrasiyaları bir-birindən fərqlənir. Ölkə daxilində əmək miqrasiyasının statistik təhlili əmək üzrə cari və illik hesabatlara əsaslanır. Bu zaman işçi qüvvəsinin miqrasiyasının (hərəkətinin) miqyası və istiqamətləri regionlar (şəhər və kəndlərə ayrılmaqla), sahələr və mülkiyyət formaları üzrə müqayisə aparılması və gələn (artma)

və gedənlərin (azalma) sayının saldosunun müəyyən edilməsi yolu ilə həyata keçirilir. Əmək ehtiyatlarının hərəkəti xüsusi təşkil olunmuş seçmə müşahidəsinin köməyilə daha dərindən öyrənilə bilər. Bunun vasitəsilə işçi qüvvəsinin miqrasiyası (axıcılığı), onun sahələr və bölmələr arasında yenidən bölgüsü prosesində meydana çıxan səbəb-nəticə əlaqələrini təhlil etmək mümkün olur. Əmək miqrasiyasının növlərindən biri gündəlik miqrasiyadır. Bu, işçinin hər gün iş yerinə getməsi və iş yerindən evinə qayıtmasını ifadə edir. Gündəlik miqrasiyanın saldosu (qalığı) həmin regiona işə gələnlərin sayı ilə həmin regiondan başqa regiona işə gedənlərin sayı arasındakı fərq kimi müəyyən edilir. Gündəlik miqrasiya həmin ərazi vahidində işçi qüvvəsinin formalaşması mənbələrindən biridir. Onun həcmi və istiqamətləri müəyyən dərəcədə ölkənin ayrı-ayrı regionlarında işçi qüvvəsi artıqlığının olmasını, yaxud da çatışmadığımnı qiymətləndirməyə imkan verir. Bu informasiyalardan isə haqqında danışılan prosesi tənzimləmək üçün istifadə edilir. Gündəlik miqrasiya haqqında məlumatları işləyən şəxslərin iş və yaşayış yerləri üzrə ayrılıqda başdan-başa aparılan birdəfəlik uçotaalınmasınm materiallarına əsasən müəyyən etmək olar. Gündəlik miqrasiyanın miqyası haqqında informasiya mənbələrindən biri də ev təsərrüfatlarının məşğulluq problemləri üzrə seçmə müayinəsi nəticəsində əldə edilən materiallar ola bilər. Xarici əmək miqrasiyası əhalinin iqtisadi fəaliyyətlə məşğul olmaq üçün ölkədən başqa ölkələrə getməsinə deyilir. Əmək miqrasiyasının sayı və axını, əhalinin cinsinə, yaşına, peşələrinə, iqtisadi fəaliyyət növlərinə görə bölgüsü haqqında məlumatlara müasir dövrdə daha böyük ehtiyac vardır.

Xarici ölkələrdən işçi qüvvəsinin ölkə iqtisadiyyatına cəlb edilməsinin müxtəlif formaları vardır. Bu formalardan istifadə olunması öz əksini statistika hesabatlarında tapır. Statistika hesabatlarını tərtib edərkən aşağıdakı əsas anlayış və müddəalardan istifadə olunur: - xarici əməkçi - miqrantlar. Bunlar öz ölkələrindən kənarda, yaxud da xarici işverənlərlə bağlanmış mülki-hüquqi müqavilələr əsasında işin yerinə yetirilməsini (xidmət göstərilməsini) həyata keçirən vətəndaşlardan ibarətdir. Əməkçi-miqrantlar adətən qısa müddətə cəlb olunurlar. Lakin iqtisadi fəaliyyətlə məşğulolma müddəti uzadıla bilər; - mövsümi işçilər. Bunlar xarici ölkələrdə işverənlərin təşkil etdikləri istehsal prosesinin mövsümi xarakter daşıması ilə əlaqədar öz ölkələrindən kənara işləməyə gedən şəxslərdir. Onların yerinə yetirdikləri işlər ilin müəyyən hissəsində həyata keçirilir; - sərhədyanı işçilər. Bunlar hər gün və ya hər həftə daimi yaşadığı yerə qayıtmaq şərtilə əmək fəaliyyətini həyata keçirmək üçün yaşadığı ölkədən qonşu ölkənin ərazisinə keçən şəxslərdən ibarətdir. Sərhədyanı işçilər əslində gündəlik miqrantlara bənzəyir. Çünki xarici işverənin yanında işləməyinə baxmayaraq hər gün və ya hər həftə daimi yaşadığı ölkəyə qayıdır. Başqa ölkələrdə yaşayan və ya digər ölkələrə işləməyə gedib və geri qayıdan şəxslər də sərhədyanı işçilərə aiddir. - muzdla işləyən stajçılar. Bunlara özlərinin peşə səviyyələrini yüksəltmək məqsədilə xaricdəki işverənlərin yanında muzdla çalışan işçilər aid edilir. Stajkeçənlər iqtisadi fəal miqrantların xüsusi qrupudur. Ona görə ki, onların xaricdə işləməkdə əsas məqsədləri ixtisaslarını yüksəltməkdir. Lakin buna baxmayaraq onların yerinə yetirdikləri işlərin əhəmiyyəti danılmazdır. Bunun əhəmiyyəti stajkeçən stajlı işçi olduqda xüsusilə artır. Ölkə vətəndaşlarının xaricdə gördükləri işlərdə statistik müşahidənin obyekti xarici ölkə vətəndaşlarının əməyindən istifadə etməyə icazə (lisenziya) almış və podrat müqaviləsi bağlamış hüquqi şəxslərdən (müəssisə və təşkilatlar) ibarətdir. Xarici işçi qüvvəsini cəlb edən statistik müşahidə obyekti hüquqi şəxslər və onların əlahiddələşmiş bölmələri və xüsusi icazəsi olan fiziki şəxslərdir.

Azərbaycanda əmək miqrasiyası üzərində nəzarəti Respublika Miqrasiya xidməti həyata keçirir. Əmək miqrasiyası ilə əlaqədar tərtib olunan müşahidə sənədlərində bir sıra göstəricilər nəzərdə tutulmuşdur. Sənədin xaricdə işləyən milli kadrlar hissəsində ölkədən xaricə getmiş şəxslərin yaş tərkibi, hansı ölkələrə getmələri, işin müddəti, iqtisadiyyatın sahəsi, peşəsi və miqrantların kateqoriyaları (cəlb olunma forması) göstərilir. Milli iqtisadiyyatda məşğul olan xarici vətəndaşlar hissəsində onların yaş tərkibi, iqtisadiyyatın sahəsi, hansı ölkələrdən gəlmələri, cəlbolunma və işədüzəlmə formaları qeyd edilir.

Bunlar əmək miqrasiyası üzrə aşağıdakı informasiyaların hazırlanmasına imkan verir: ölkədən kənarda çalışan işçilərin (işçiləri qəbul edən ölkələr üzrə) sayı üzrə; iqtisadiyyatın sahələri üzrə (işçi-miqrant, mövsümi işçilər, stajkeçənlər və i.a.) ; ölkədən gedən anda peşə tərkibi. Əcnəbi işçilər haqqında ayrı-ayrı ölkələr, onların haradan gəlmələri, iqtisadiyyatın sahələri, cəlbolunma formaları (məsələn, DIN-nin icazəsinə uyğun olaraq, yaxud da icazə tələb olunmayan formalarda), işədüzəlmə qaydaları (xarici hüquqi şəxslərlə bağlanmış podrat müqavilələrinin, həmin ölkənin hüquqi və fiziki şəxsləri ilə əcnəbi vətəndaşlar arasındakı əmək müqavilələrinin reallaşdırılması çərçivəsində və i.a.) üzrə məlumatlar hazırlanır. Əmək miqrasiyasının miqyasına qiymət vermək üçün aşağıdakı mənbələrdən istifadə oluna bilər: 1) əhalinin siyahıyaalma məlumatları; 2) informasiyaların inzibati mənbələri; 3) əmək miqrasiyası məsələləri ilə əlaqədar ölkələrin qarşılıqlı əlaqələri.

**Əmək ehtiyatları, işçi qüvvəsi və iş vaxtı haqqında statistik informasiya mənbələri**. Əhalinin məşğulluğuna və işsizliyinə dair əsas məlumat mənbəyi məşğulluq orqanlarının (əhalinin işə düzəldilməsi bürolarının), müəssisə və təşkilatların təqdim etdiyi hesabatlardır. Həmin hesabatlarda məşğul olan əhalinin iqtisadiyyat sahələri və sektorları üzrə, habelə fəaliyyət sahələri üzrə bölüşdürülməsi, fəhlələrin, qulluqçuların və kənd təsərrüfatı işçilərinin orta illik sayına, işçi qüvvəsinin hərəkətinə və əmək şəraitinə, əmək bazarının göstəricilərinə dair geniş məlumat verilir.

Əmək bazarına dair mövcud göstəricilər sistemi və onların toplanması metodları hazırda qüvvədədir (məsələn, orta və iri müəssisələrdə). Lakin xüsusi bölmənin inkişafı uçot vahidlərinin sayının sürətlə artması və onların ənənəvi statistika metodları ilə əhatə olunmasındakı çətinliklər əmək statistikası qarşısında yeni vəzifə qoydu və informasiyanın əldə edilməsinin yeni metodlarına müraciət etmək zərurətini yaratdı.

1991-ci ildən başlayaraq əhalinin işə düzəldilməsinə və işsizliyinə dair statistik informasiyanın idarə mənbələri təşkiln olundu. Eyni zamanda əhalinin məşğulluğu və işsizliyi problemləri üzrə geniş sorğunu keçirmək üçün ev təsərrüfatlarının xüsusi seçmə şəbəkəsi yaradıldı və 1992-ci ildən başlayaraq belə tədqiqatlar hər il keçirilir. Həmin tədqiqatların materiallarına əsasən məşğul olan əhalinin hesabatlarda əks olunmayan bəzi kateqoriyalarının: qeyri-formal sektorda məşğul olanların, fiziki şəxslər üçün muzdla işləyənlərin, ailə müəssisələri üzvlərinə kömək edənlərin sayını müəyyən etmək imkanı yarandı. Bu tədqiqatlar həmçinin işçi qüvvəsinin keyfiyyət tərkibinə, faktiki işsizliyin səviyyəsinə və quruluşuna, qeyri-məşğulluğun səbəblərinə, iş axtarılması üsullarına və iş gününün müddətinə dair statistik informasiyanın əsas mənbəyidir.

## İstifadə olunan ədəbiyyatlar:

- Голуб Л.А. Социально-экономическая статистика: Учеб, пособие для студ. высш. учеб, заведений. - М.: Гу манит, изд. центр ВЛАДОС, 2009. - 272 с.


## Mövzu 8. Əmək haqqı statistikasının göstəriciləri

**Plan:**

18. *Əmək haqqi və iş qüvvəsinin dəyəri statistikası*
19. *Əmək haqqı statistikasının vəzifələri*
20. *Əmək haqqı fondunun tərkibi*
21. *Əmək haqqının səviyyəsi göstəriciləri*
22. *Əmək haqqının hesablanması metodları*

**Əmək haqqı statistikasının vəzifələri.** Əmək haqqı müəssisə və təşkilatlarda işçilərə istehsal edilmiş məhsulun, göstərilmiş xidmətin və işlənmiş vaxtın müqabilində pul və natura formasında hesablanan (vergilər çıxılana qədər) muzda deyilir. Əmək qanunvericiliyinə və kollektiv əmək müqaviləsinə uyğun olaraq işçilər hər il növbəti məzuniyyətə buraxıldıqda, işləmədiyi bayram və başqa günlər üçün verilən, habelə əmək şəraiti ilə əlaqədar bütün ödənişlər də əmək haqqına daxildir. Əmək haqqı iş qüvvəsinin dəyərinin başlıca tərkib ünsürlərindən biridir. Odur ki, onu aşağıdakı kimi də müəyyən etmək olar. Əmək haqqı iş qüvvəsinin dəyərini ifadə edir. Başqa sözlə, əmək haqqı iş qüvvəsinin təkrar istehsalı və istehsalın səmərəli fəaliyyət göstərməsinin təmin olunması üçün tələb edilən yaşayış vasitələrinin dəyərini ifadə edir. İş qüvvəsinin dəyəri əmək haqqı formasında təzahür edir və əmək bazarında konyunkturadan asılı olaraq dəyişə bilər. Bunlara uyğun olaraq əmək haqqı və iş qüvvəsinin dəyəri statistikası aşağıdakı vəzifələri yerinə yetirir: - əmək haqqı fondunu və sosial xarakterli ödənişləri müəyyən edir; - əmək haqqı fondunun tərkibi və strukturunu təhlil edir; - işçilərin orta nominal əmək haqqını və orta gəlirlərini müəyyən edir; - nominal və real əmək haqqının dinamikasını öyrənir; - ayrı-ayrı peşə qrupları üzrə əmək haqqının kəmiyyətini hesablayır; - iş qüvvəsinin dəyərini müəyyən edir.

**Əmək haqqı fondunun tərkibi.** Əmək haqqı fonduna müəssisə və təşkilatlarda işlənmiş və işlənməmiş vaxtın müqabilində işçilərə pul və natura formasında hesablanan əmək haqqı; əməyin stimullaşdırılması, iş rejimi və əmək şəraiti ilə əlaqədar əlavə ödənişlər daxildir. İşçilərin yemək, mənzil və yanacaqla təmin olunması ilə əlaqədar sərf olunan xərclər də əmək haqqı fonduna daxil edilir. İşlənmiş vaxta görə ödənişlərə aşağıdakılar aiddir; - tarif dərəcəsinə, vəzifə maaşına, götürə işə görə, habelə məhsul satışından əldə edilən vəsaitdən faizlə hesablanan əmək haqqı; natura formasında ödənilmiş məhsulların dəyəri; - ödənilmə mənbəyindən asılı olmayaraq daimi, yaxud da vaxtaşırı xarakter daşıyan mükafatlar; - işçiləri stimullaşdırmaq məqsədilə tarif dərəcələri və vəzifə maaşlarına (peşə ustalıqlarına, qarışıq vəzifələrdə işlədiklərinə görə və i.a.) edilən əlavələr; - əmək haqqı vaxtında ödənilmədikdə və istehlak səbətinin dəyəri artdıqda indeksləşdirmədən

əmələ gələn məbləğlər; - iş rejimi və əmək şəraiti ilə əlaqədar əlavə ödənişlər (insanların səhhəti üçün zərərli işlərdə və təhlükəli şəraitdə, gecə vaxtı və iş vaxtından artıq işlədikdə, habelə bayram və istirahət günləri üçün işçilərə verilən əlavə ödənişlər). İşlənilmiş vaxta görə əmək ödənişlərinə əvəzçiliklə işə qəbul edilmiş və işçilərin siyahı sayına daxil edilməyən şəxslərə verilən əmək haqqı aiddir. İşçilərin siyahı sayma daxil edilməyən işçilərə verilən əmək haqqı statistik hesabatlarda əmək haqqı fondunun tərkibində deyil, ayrıca göstərilir. İşlənilməmiş vaxta görə əmək haqqı müxtəlif ödənişlərdən (iş günü ərzində işlənilməmiş saat, işlənilməmiş adam-gün) ibarətdir. Buna aşağıdakılar daxildir: - hər il növbəti və əlavə məzuniyyət günləri üçün ödənişlər; - kollektiv müqaviləyə əsasən verilən (qanunvericilikdə nəzərdə tutulan məzuniyyət günlərindən başqa) əlavə məzuniyyət günləri üçün ödənişlər; istehsalatdan ayrılmadan təhsil alan işçilərə verilən məzuniyyət günləri və yeni peşə hazırlığı ilə əlaqədar ödənişlər; - dövlət və ictimai işlərin yerinə yetirilməsinə cəlb edilmiş işçilərin əməyinin ödənilməsi; - xəstəliyə görə işə çıxılmayan günlər üçün müəssisənin vəsaiti hesabına ödənişlər (əmək qabiliyyətini müvəqqəti itirdikdə məcburi tibbi sığorta fondundan verilən vəsaitdən başqa); -müdiriyyətin təşəbbüsü ilə tam iş günü işləmədikdə işçilərə müəssisə vəsaitindən verilən ödənişlər; - müəssisədə işin təşkilində yol verilən nöqsanlara görə boş dayanmayanlar üçün ödənişlər və i.a. Birdəfəlik stimullaşdırıcı amillərə aşağıdakılar daxildir: 1) birdəfəlik verilən mükafatlar; 2) ilin yekunlarına görə verilən əlavə əmək haqqı; 3) xidmət illərinə görə verilən əmək haqqı; 4) istifadə olunmamış məzuniyyət günləri üçün ödənişlər; 5) məzuniyyət verilərkən əlavə ödənişlər; 6) bütün işçilərə, yaxud da onların əksəriyyətinə edilən maddi yardımlar; 7) həvəsləndirici tədbir kimi işçilərə pulsuz verilən səhmlərin dəyəri və s.

İşçilərin yemək, mənzil və yanacaqla təmin edilməsi ilə əlaqədar xərclərə aşağıdakılar aiddir: a) qanunvericiliyə uyğun olaraq iqtisadiyyatın ayrı-ayrı sahələrində işçilərə pulsuz verilən yeməyin və məhsulun dəyəri; b) işçilərə qanunvericilikdə nəzərdə tutulduğundan artıq pulsuz, yaxud da güzəştli şərtlərlə verilən yeməyin dəyəri; c) qanunvericiliyə uyğun olaraq ayrı-ayrı sahələrdə işçilərə pulsuz verilən mənzilin dəyəri, yaxud da mənzil pulsuz verilmədikdə pul formasında ödənilən kompensasiyalar; d) işçilərə pulsuz verilən yanacağın dəyəri.

Əmək haqqı fondu ay, rüb və il üzrə hesablanır. İllik əmək haqqı fondu aylar üzrə əmək haqqı fondunun cəminə bərabərdir. İstər müəssisə və təşkilatlar, istərsə də sahələr və bütövlükdə iqtisadiyyat üzrə orta əmək haqqının səviyyəsi əmək haqqı fonduna əsasən müəyyən edilir. Əmək haqqı fondu barədə məlumat iş qüvvəsinin dəyərini müəyyənləşdirmək, MHS-də gəlirlərin əmələ gəlməsi və bölgüsü hesablarını tərtib etmək, bölgü metodu ilə ÜDM-i hesablamaq üçün lazımdır. Əmək haqqı fondu barədə məlumatdan istər bütövlükdə iqtisadiyyat, istərsə də onun ayrı- ayrı sahələri və bölmələri səviyyəsində sahələrarası balansın tərtib olunması, iqtisadiyyatın strukturunu, iqtisadi artımı və əhalinin həyat səviyyəsini təhlil etmək üçün ekonometrikanın istehsal funksiyaları və digər modellərinin işlənib hazırlanmasında geniş istifadə edilir. Sərf olunan əməyin haqqının ödənilməsi ilə əlaqədar xərclər məhsulların istehsalına çəkilən xərclərin ən mühüm, iqtisadiyyatın bəzi sahələrində hətta çox böyük xüsusi çəkiyə malik olan ünsürlərindən biridir.

Müəssisələrdə əmək haqqı fondu ayrı-ayrı işçi kateqoriyaları üzrə müəyyən olunur. Ayrı-ayrı işçi kateqoriyaları üzrə əmək haqqı fondunun strukturunda müxtəliflik vardır. Müxtəlif iqtisadi fəaliyyət sahələrində əmək haqqının strukturunu təhlil edərkən istər bütün işçi heyəti, istərsə də onun ayrı-ayrı kateqoriyaları üzrə bu fərqlər daha da artır. Sahələr üzrə əmək haqqı fondunun strukturu haqqında məlumatlardan əmək sahəsində siyasətin işlənib hazırlanması və kollektiv müqavilələrin bağlanmasında istifadə olunur.

Statistikada əmək haqqına daxil edilməyən sosial xarakterli ödənişlərdən də bəhs olunur. Beynəlxalq tövsiyələrə uyğun olaraq sosial ödənişlərin bir hissəsi milli hesablarda əsas etibarilə "Sosial sığorta ayırmaları (faktiki və hesablanan)" maddəsində öz əksini tapır. Sosial xarakterli ödənişlərin bir hissəsi əmək haqqına daxil edilməsələr də, onlar bu və ya digər dərəcədə muzdlu işçilərin gəlirlərinin formalaşmasında iştirak edirlər.

Sosial xarakterli ödənişlərə aşağıdakılar aiddir: -müəssisənin vəsaiti hesabına burada çalışan işçilərin pensiyalarına edilən əlavələr, yaxud da yeni pensiyaya çıxan işçilərə edilən birdəfəlik yardımlar; - bağlanmış sığorta müqaviləsinə əsasən işçilərə müəssisənin vəsaiti hesabına verilən sığorta ödənişləri; - könüllü tibbi sığortaya ödənilən üzvlük haqqı və müəssisənin vəsaiti hesabına onun işçilərinə səhiyyə təşkilatlarının göstərdikləri xidmətin dəyərinin ödənilməsi; - əmək müqaviləsi dayandırıldıqda verilən işdən çıxarma pulu (son hesablaşma pulu) və müəssisə ləğv olunduqda, yaxud da ştatlar ixtisar edildikdə işdən çıxarılmış işçilərə ödənilən məbləğlər; - işə gedib-qayıtma xərclərinin ödənilməsi, ailə vəziyyəti ilə əlaqədar birdəfəlik maddi yardım; - Sosial xarakterli ödənişlərə aşağıdakılar aiddir; digər xərclər və ödənişlər.

Sosial xarakterli ödənişlərin bir hissəsi qüvvədə olan əmək qanunvericiliyinə əsasən, çox hissəsi isə müdiriyyətlə əməkçi təşkilatları (o cümlədən həmkarlar ittifaqları təşkilatları) arasında bağlanmış əmək müqavilələri əsasında həyata keçirilir.

Müəssisələrin işçiləri əmək haqqı fondu və sosial xarakterli ödənişlərlə yanaşı səhmlərə, habelə təşkilatın mülkiyyətində iştiraka görə də gəlir əldə edə bilər. Müəssisələr pensiya fonduna, sosial sığorta fonduna və məcburi sığortaya, dövlət məşğulluq fonduna müəyyən ödənişləri həyata keçirir. Müəssisələrdə işçilərə pulsuz, yaxud da güzəştli şərtlərlə paltar, xüsusi geyim və ayaqqabı, müalicə-profilaktika yeməkləri verilir, tədris, mədəni-kütləvi, idman və digər tədbirlərin həyata keçirilməsi üçün bina icarəyə götürülür və s. Müəssisə və təşkilatların çəkdikləri bu xərclər haqqında informasiya işçilərin ümumi gəlirlərinin müəyyən edilməsi və MHS-də müvafiq hesabların tərtib olunması, habelə iş qüvvəsinin dəyərinin hesablanması üçün lazımdır.

**Əmək haqqının səviyyəsi göstəriciləri və onların hesablanması metodları.** Əmək haqqı olduqca mürəkkəb iqtisadi münasibətləri ifadə edir. Bu, özünü müxtəlif əmək kollektivləri, hər bir işçi ilə onun işlədiyi əmək kollektivi arasında meydana çıxan münasibətlərdə göstərir.

İşçilər bərabər məbləğdə əmək haqqı almırlar. Bu, onunla izah edilir ki, onlar eyni fiziki və əqli qabiliyyətə malik deyildirlər və mürəkkəblik dərəcəsi müxtəlif olan işlərdə çalışırlar. İqtisadiyyatda əməyin və işin hər birinin bircə növü mövcud olsa idi, əmək haqqı da hamı üçün bərabər olardı. Bütün bunlar əmək haqqının müxtəlif forma və metodlarından istifadə olunmasını zəruri edir. Hazırda əmək haqqının ən çox tətbiq olunan aşağıdakı formaları vardır: 1) vaxtamuzd

əmək haqqı; 2) işəmuzd əmək haqqı. İşlənmiş vaxtın saat, gün, həftə, ay - kəmiyyətinə uyğun olaraq hesablanan əmək haqqına vaxtamuzd əmək haqqı deyilir. Vaxtamuzd əmək haqqının ən geniş yayılmış sistemləri aşağıdakılardır: 1) sadə vaxtamuzd əmək haqqı; 2)mükafatlı vaxtamuzd əmək haqqı. Sadə vaxtamuzd əmək haqqı saatlıq, gündəlik və aylıq əmək haqqına bölünür. Bunlar aşağıdakı kimi müəyyən edilir: Saatlıq əmək haqqı: $Əh = t_{saat} \times T_{saat}$; Gündəlik əmək haqqı: $Əh = t_{gün} \times T_{gun}$; Aylıq əmək haqqı: $Əh = t_{ay} \times (T_{ay}: T_{qrafik})$. Bu düsturlarda: saat > $t_{gün}$ > $t_{ay}$ - saatlıq, gündəlik tarif maaşı və aylıq vəzifə maaşı, $T_{saat}$, $T_{gün}$ - faktiki işlənilmiş saatların, yaxud da günlərin sayı, T - qrafik üzrə iş günlərinin sayı deməkdir.
Mükafatlı vaxtamuzd əmək haqqı dedikdə sadə vaxtamuzd əmək haqqı üstəgəl işin konkret kəmiyyət və keyfiyyət göstəricilərinə görə mükafat (əlavə) nəzərdə tutulur. Əməyin ödənilməsinin işəmuzd formasında əmək haqqı faktiki istehsal edilmiş məhsulun miqdarına, yaxud da işin həcminə görə hesablanır. İşəmuzd əmək haqqının aşağıdakı sistemləri vardır: - müstəqim işəmuzd əmək haqqı. Bu sistemdə əmək haqqı keyfiyyətli istehsal edilmiş hər məhsul vahidi üçün müəyyən olunmuş qiymətlərlə hesablanır; - mükafatlı işəmuzd əmək haqqı. Müəyyən edilmiş iş normaları artıqlaması ilə yerinə yetirildikdə artıq istehsal olunmuş məhsula görə mükafat verilir; - mütərəqqi işəmuzd əmək haqqı. Bu sistemdə müəyyən edilmiş norma daxilində istehsal olunan məhsullara görə bir qiymətlə, artıq istehsal olunan məhsullara görə isə mütərəqqi (yüksək) qiymətlə əmək haqqı verilir. -vasitəli sistem - bundan köməkçi işçilərin əməyinin ödənilməsi üçün istifadə olunur. Həm də onların əmək haqqı xidmət etdikləri fəhlələrin əməyinin nəticələrindən birbaşa asılı olur. - akkord əmək haqqı sistemi. Bu sistemdə əmək haqqı yerinə yetirilmiş hər əməliyyata görə deyil, bütün kompleksə görə ödənilir. Son dövrlərdə əmək haqqının ödənilməsinin tarifsiz sistemindən də istifadə olunur. Bu, hər bir işçinin fərdi əmək haqqının əmək haqqı fondunda, onun iştiraketmə əmsalı ilə müəyyən olunan paymı göstərir. Büdcə təşkilatlarında əməyin ödənilməsi vahid tarif sistemi əsasmda həyata keçirilir. Əmək haqqının statistik yolla öyrənilməsi aşağıdakı istiqamətlərdə aparılır: - əmək haqqı fondu və onun tərkibi müəyyən edilir; - orta əmək haqqının səviyyəsi müəyyən olunur; - əmək haqqının dinamikası təhlil olunur; - əmək haqqındakı fərqlər öyrənilir. Əmək haqqının səviyyəsi bir işçinin orta əmək haqqı ilə səciyyələnir. Statistika işləri təcrübəsində müəssisə və təşkilatlarda həm bütün işçilər, həm də ayrı-ayrı işçi kateqoriyaları üzrə orta aylıq və orta illik əmək haqqı göstəriciləri hesablanır. İşçilərin orta aylıq əmək haqqı hesablanmış əmək haqqı fondunu onların (yəni işçilərin ) orta aylıq siyahı sayma bölmək yolu ilə müəyyən edilir. Lakin sahələr üzrə orta əmək haqqını müəyyən edərkən əmək haqqı fondundan işçilərin orta siyahı sayma daxil edilməyən işçilərə hesablanan əmək haqqı nəzərə alınmamalıdır. Müəssisə və təşkilat səviyyəsində işçilərin orta aylıq əmək haqqı hesablanarkən əvəzçiliklə işləyənlər nəzərə alınmır. Bu zaman hesablanmış əmək haqqı fondundan əvəzçiliklə işə qəbul edilmiş şəxslər üçün hesablanmış əmək haqqı məbləğini çıxmaq, sonra isə əldə edilmiş kəmiyyəti əvəzçiliklə işləyənlərin sayı nəzərə alınmadan işçilərin orta siyahı sayına bölmək lazımdır. Saatlıq orta əmək haqqı hesablanmış əmək haqqı məbləğinin işlənilmiş adam-saatların miqdarına nisbəti kimi müəyyən edilir. Bu göstərici müəssisə və iqtisadiyyatın ayrı-ayrı sahələri üzrə hesablanır. Ayrı-ayrı peşə qrupları üzrə orta əmək haqqının hesablanması

xüsusi maraq doğurur. Beynəlxalq statistikada bu sahədə müsbət təcrübə toplanmışdır. Beynəlxalq Əmək Bürosu (BƏB) bu problemlə məşğul olan statistiklərin birinci beynəlxalq konfransının (1923) tövsiyələrinə əsasən 1925-ci ildən başlayaraq hər il peşələr və ərzaq məhsullarının qiymətləri ilə əlaqədar əmək haqqmın və iş həftəsinin uzunluğunun öyrənilməsinə dair oktyabr tədqiqatları aparır.

Hər bir sahədə ən geniş yayılmış və tipik peşələr isə öz əksini "Məşğulluğun təsnifləşdirilməsinin beynəlxalq standartlarında (MTBS-88) tapmışdır. Hazırda bu ümumdünya tədqiqatında Azərbaycan Respublikası da daxil olmaqla 160-dan çox ölkə iştirak edir. Ayrı-ayrı məşğulluq növləri üzrə aşağıdakı məlumat toplanır: - tam bir ay işləmiş işçilərin sayı (nəfər); - bir ay üçün hesablanmış əmək haqqı (manat); - işçilərə bir ayda tarif üzrə hesablanmış əmək haqqı (manat). Tarif üzrə əmək haqqına işlənilmiş vaxtın (görülmüş işlərin) müqabilində tarif qiymətləri və vəzifə maaşı əsasında hesablanmış əmək haqqı, iş şəraiti və peşə mənsubiyyətinə görə hesablanan və daimi xarakter daşıyan əlavələr daxildir. Müəyyən edilmiş vaxtdan artıq, yaxud da bazar və bayram günlərində işlənilmiş vaxta, rayon əmsallarına, fəxri adlara, fərdi xarakter daşıyan qarışıq ixtisasda işləməyə görə verilən əlavələr tarif maaşlarına daxil edilmir; ay ərzində işlənilmiş adam - saatın miqdarı; - rayon əmsallarına uyğun olaraq işçilərə hesablanan məbləğlər. Oktyabr tədqiqatlarının nəticələrinə əsasən aşağıdakı göstəriciləri hesablamaq mümkün olur: - orta aylıq əmək haqqı; - tarif üzrə orta aylıq əmək haqqı; - orta saatlıq əmək haqqı; - tarif üzrə orta saatlıq əmək haqqı; - ay ərzində orta hesabla bir işçi tərəfindən işlənilmiş adam-saatın miqdarı; - orta hesabla bir işçi tərəfindən həftə ərzində işlənilmiş adam-saatın miqdarı. Bu göstəricilər hər bir məşğulluq növü və bütün işçi qrupları üzrə hesablanır. Məlumatlar hər bir fəaliyyət növü üzrə daha kütləvi və tipik peşələr üzrə dərc olunur. Oktyabr tədqiqatlarının məlumatlarından regionlar, habelə müəssisələr və müxtəlif mülkiyyət formaları üzrə ayrı-ayrı peşə işçilərinin əmək haqqını müqayisə etmək üçün İstifadə olunur. Bu məlumatlar aşağıdakıların həyata keçirilməsi üçün lazımdır: 1) müxtəlif peşə qruplarına daxil olan işçilərin əmək haqqındakı fərqləri təhlil etmək; 2) eyni bir sahədə müxtəlif ixtisaslı işçilərin əmək haqqındakı fərqləri təhlil etmək; 3) müxtəlif peşələr üzrə əmək haqqının dinamikasını müqayisə etmək. Bu məlumatlar əmək haqqı sahəsində siyasət işlənib hazırlandıqda əməkçiləri birləşdirən təşkilatlarm maraq dairəsində olur. Xarici investorlar da bu məlumatlardan geniş istifadə edirlər.

**İstifadə olunan ədəbiyyatlar:**


- O.Q.Məmmədli, N.Ə.Cavadov, X.N.Cavadzadə. Sosial-iqtisadi statistika. Ali məktəblər üçün dərslik. I hissə. Bakı, "MBM", 2014


## Mövzu 9. Əmək haqqının dimanikasının göstəriciləri

**Plan:**

23. *Əmək haqqının dinamikası göstəriciləri*
24. *Nominal əmək haqqı*
25. *Real əmək haqqı*
26. *Nominal və real əmək haqqının təhlilində indeks metodundan istifadə edilməsi*
27. *İş qüvvəsinin dəyərinin və ya ona sərf olunan xərclərin müəyyən edilməsi*

Əsas dövrə nisbətən cari (hesabat) dövrdə əmək haqqının orta səviyyəsi aşağıdakı amillərin təsiri ilə dəyişə bilir: 1) ayrı-ayrı işçi kateqoriyalarının orta əmək haqqının dəyişməsi; 2) əmək haqqının müxtəlif səviyyələrində ayrı-ayrı işçi kateqoriyalarının xüsusi çəkisinin dəyişməsi. Bu amillərin hər biri orta əmək haqqının səviyyəsinə müxtəlif cür təsir edir.

Nominal və real əmək haqqı bir-birindən fərqlənir. Nominal əmək haqqı işçinin pul formasında aldığı saatlıq, gündəlik, aylıq əmək haqqı, real əmək haqqı isə yaşayış vasitələri və xidmətlərdə öz əksini tapan əmək haqqıdır. Real əmək haqqı nominal əmək haqqının alıcılıq qabiliyyətini, onun real istehlak məzmununu ifadə edir. Deməli, nominal əmək haqqı işçinin yaşayış səviyyəsi haqqında düzgün təsəvvür vermir. Bunu real əmək haqqı, qiymətlərin səviyyəsi və nominal əmək haqqı arasındakı qarşılıqlı əlaqə daha düzgün əks etdirir. Məsələn, real əmək haqqının dəyişməsini(%-lə) müəyyən etmək üçün nominal əmək haqqının dəyişməsi faizindən qiymətlərin dəyi.məsi faizini çıxmaq lazımdır. Tutaq ki, nominal əmək haqqı 8%, qiymətlərin səviyyəsi 5% artmışdır. Bu, real əmək haqqının 3% artdığını göstərir.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi hər il ölkə iqtisadiyyatı və ayrı-ayrı fəaliyyət növləri üzrə muzdla işləyənlərin orta aylıq nominal əmək haqqını hesablayır və özünün rəsmi nəşrlərində əks etdirir. Məsələn, ölkəmizdə nominal əmək barədə 7.4 cədvəlindəki məlumatlara əsasən mühakimə yürütmək olar.

**Cədvəl 7.4**

**Azərbaycan Respublikasında muzdla işləyənlərin orta aylıq nominal əmək haqqının dinamikası (manat)[36]**

| Göstərici | İllər | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2010 | 2011 | 2012 |
| Orta aylıq nominal əmək haqqı, man | 44,3 | 52,0 | 63,1 | 77,4 | 99,4 | 123,6 | 331,5 | 364,2 | 398,4 |

7.4 cədvəlindəki məlumatlara əsasən demək olar ki, ölkəmizdə muzdla işləyənlərin orta aylıq nominal əmək haqqı 2000-ci ilə nisbətən 2012-ci ildə 9,0 dəfə artmışdır və bunu Azərbaycan Dövlətinin yeritdiyi sosialiqtisadi siyasətin nəticəsi kimi qiymətləndirmək olar. Statistika, həmçinin müxtəlif fəaliyyət növləri üzrə əmək haqqında olan fərqləri də öyrənir. Məlum olduğu kimi, əmək haqqı işçinin ixtisasından, peşə hazırlığından, əməyin intensivliyindən və əmək şəraitindən, məşğul olduğu sahədən, müəssisənin ərazicə yerləşməsindən və digər amillərdən asılıdır. Əmək haqqında olan fərqlər barədə əsas məlumat mənbəyi hər il nəşr olunan statistik məcmuələr və müəssisələrin statistika orqanlarına təqdim etdikləri hesabatlardır. Bunlarla yanaşı, əmək haqqma işçilərin bir-birindən fərqlənməsinin təsirini müəyyən etmək üçün xüsusi tədqiqat

aparırlar. Tədqiqatın məlumatlarına əsasən müxtəlif fərqləndirmə əmsalları hesablanır. Fərqləndirmənin desil, kvantil və fond əmsallarından daha geniş istifadə olunur. Fərqləndirmənin desil əmsalı (Əd) aşağıdakı düsturla hesablanır:

$$Ə_d = \frac{d_9}{d_1},$$

Burada: $d_1$ - ən aşağı əmək haqqı alan işçilərin ilk 10%-nin içərisində əmək haqqının ən böyük kəmiyyətini; $d_9$- ən yüksək əmək haqqı olan işçilərin 10%-nin içərisində əmək haqqının ən aşağı kəmiyyətini göstərir. Kvantil əmsalı bu işçi kateqoriyalarının ən yüksək və ən aşağı kvantillərinin əmək haqqı fondları arasındakı nisbəti səciyyələndirir. Fond əmsalı (Əl) qeyd edilən qrupların daxilində əmək haqqının orta səviyyələri arasındakı nisbət kimi hesablanır. Bunu həmin işçi qruplarının əmək haqqı fondlarının nisbəti kimi də hesablamaq olar.Bu zaman aşağıdakı düsturdan istifadə edilir:

$$Ə_f = F_{10} : F_1 = f_{10} : f_1;$$

Burada: $F_{10}$ - ən yüksək əmək haqqı alan işçilərin 10%-nin payına düşən əmək haqqı fondu; $F_1$- ən aşağı əmək haqqı alan işçilərin 10%-nin payına düşən əmək haqqı fondu; $f_{10}$- ən yüksək əmək haqqı alan həmin işçilərin orta əmək haqqı; $f_1$ - ən aşağı əmək haqqı alan həmin işçilərin orta əmək haqqı deməkdir. $F_0$ və $F_1$ - dən ibarət əmək haqqı fondu tərkibinin bərabər olduğu toplulara aid olduğu üçün fond əmsalını əmək haqqının orta qiymətlərinə əsasən də hesablamaq olar. Əmək haqqmın fərqləndirmə göstəriciləri bütövlükdə iqtisadiyyat və onun ayrı-ayrı sahələri üzrə hesablanır. Məsə lən, Azərbaycanda 2012-ci ildə muzdla işləyənlərin orta aylıq nominal əmək haqqı 398,4 manat, o cümlədən mədənçıxarma sənayesində 1402,0 manat, maliyyə və sığorta fəaliyyəti sahəsində 1055,5 manat, nəqliyyat və anbar təsərrüfatında 511,5 manat, təhsildə 287,3 manat, səhiyyə və sosial xidmətlər göstərilməsində 175,1 manat olmuşdur. Göründüyü kimi, respublika üzrə orta aylıq nominal əmək haqqı ilə müqayisədə mədənçıxarma sənayesində orta aylıq nominal əmək haqqmın səviyyəsi 3,5 dəfə, nəqliyyat və anbar təsərrüfatında 1,3 dəfə, maliyyə və sığorta  fəaliyyəti sahəsində 2,7 dəfə yüksəkdir. Təhsildə orta aylıq nominal əmək haqqı mədənçıxarma sənayesindəki eyni göstəricidən 4,9 dəfə, maliyyə və sığorta fəaliyyətində olduğundan 3,7 dəfə, səhiyyə və sosial xidmətlər göstərilməsində müvafiq olaraq 8,0 və 6,0 dəfə aşağıdır.

Müxtəlif işçi qruplarının əmək haqqındakı fərqlər oktyabr müayinələrinin yekunlarına əsasən aparılır. Bu müayinənin məlumatlarından iqtisadiyyatın ayrı-ayrı sahələrində əsas və daha kütləvi peşələrdə çalışan işçilərin əmək haqqındakı fərqləri beynəlxalq miqyasda müqayisə edərkən də istifadə etmək olar.

**İş qüvvəsinin dəyərinin və ya ona sərf olunan xərclərin müəyyən edilməsi**. Onun meydana gəlməsi bazar iqtisadiyyatına keçilməsi və bazar münasibətlərinin inkişaf etməsi ilə əlaqədardır. İş qüvvəsinin dəyəri onun muzdla tutulmasına və saxlanmasına sərf olunan xərclərlə müəyyən edilir. İş qüvvəsinə sərf olunan xərclər haqqında informasiya əmək bazarının normal

fəaliyyət göstərməsi üçün lazımdır. İş qüvvəsinə sərf olunan xərclərin müəyyən edilməsi ilə bağlı iki konsepsiya mövcuddur. Bunlardan biri ümumi iqtisadi, digəri isə sahə (yaxud da müəssisə səviyyəsində) konsepsiyası adlanır. Birinci konsepsiya işçilərin peşə hazırlığı, sosial proqramlar, pensiya təminatı və sairələrlə əlaqədar xərclərin nəzərə alınmasında təkcə iş verənlərin deyil, həm də dövlətin məsuliyyət daşımasına əsaslanır. İkinci konsepsiyaya görə iş qüvvəsinin muzdla tutulması və saxlanmasına sərf olunan xərclərin nəzərə alınmasında məsuliyyəti işverən daşıyır. Göründüyü kimi eyni məsələdə konsepsiyalar arasında ciddi fikir ayrılığı vardır. Lakin təcrübədə ümumi iqtisadi konsepsiyanın həyata keçirilməsi ciddi problemlərlə əlaqədardır. Bu, özünü sahələr və regionlar üzrə məlumatların toplanmasındakı çətinliklərdə göstərir. Ona görə də iş qüvvəsinə sərf olunan xərclər haqqında məlumat topladıqda və onları təhlil etdikdə sahə konsepsiyasına üstünlük verilir.

Hər bir ölkənin milli statistikasında iş qüvvəsinin dəyəri müəyyən edilərkən əmək statistikası sahəsində məşğul olanların, əgər belə demək mümkündürsə əmək üzrə statistiklərin 11-ci beynəlxalq konfransında qəbul edilmiş qətnamədəki aşağıdakı müddəalara əsaslanılır: "İş qüvvəsinə sərf olunan xərclər onun muzdla tutulması və saxlanması ilə əlaqədar olaraq iş verənin çəkdiyi xərc deməkdir. İş qüvvəsinə sərf olunan xərc anlayışına işçilərə yerinə yetirilmiş işin müqabilində verilən əmək haqqı, qeyri-iş günləri üçün ödənişlər, mükafat və hədiyyələr, natura formasında verilən məhsulların, içkilərin və digər ödənişlərin dəyəri; işçilərin mənzillə təmin olunması, peşə hazırlığı və sosial ödənişlər və digər sosial ehtiyaclarla (məsələn, işçilərin iş yerinə aparılması və evlərinə qaytarılması, muzdlatutma ilə əlaqədar xərclər, iş qüvvəsi ilə əlaqədar xərclərə aid edilən xərclər, iş qüvvəsi ilə əlaqədar xərclərə aid edilən vergilər) əlaqədar iş verənlərin çəkdikləri xərclər daxildir". İş verənin iş qüvvəsinə çəkdiyi xərc əmək sərfi vahidinə və məhsul vahidinə görə hesablana bilər. Rəqabət qabiliyyətini təhlil edərkən məhsul vahidinə çəkilən xərcin hesablanması daha yaxşıdır. Həm də bu zaman məhsul haqqında natura ifadəsində olan məlumatdan istifadə olunması məqsədəuyğundur. Lakin müxtəlif növ məhsul istehsal olunduğu şəraitdə müəssisə və sahə səviyyəsində iş qüvvəsinə sərf olunan xərclərin hesablanmasında çətinliklər yaranır. Odur ki, iş qüvvəsinə sərf olunan xərcləri hesabladıqda onun vaxt vahidinə (işlənilmiş adam-saat və adam-gün) görə ölçülməsinə üstünlük verilir. Milli statistikada iş qüvvəsinə sərf olunan xərclərin strukturu müəyyən edilərkən beynəlxalq standartlara əsaslanılır.

**Cədvəl 7.5 İş qüvvəsinə sərf olunan xərclərin təsnifləşdirilməsi**

| Sıra №-si | Beynəlxalq standartlar | Sıra №-si | Azərbaycan Respublikasında mövcud təsnifləşdirmə |
|---|---|---|---|
| 1. | Müstəqim əmək haqqı və əlavələr | 1. | İşlənilmiş vaxta görə əməyin haqqının ödənilməsi |
| 2. | Qeyri-iş vaxtı üçün ödənişlər | 2. | İşlənilməmiş vaxta görə əməyin haqqının ödənilməsi |
| 3. | Mükafat və hədiyyələr | 3. | Birdəfəlik həvəsləndirici ödənişlər |
| 4. | Natura formasında yemək, içkilər və digər ödənişlər | 4. | Əmək haqqına daxil edilən yemək, mənzil və yanacaq xərcləri ilə əlaqədar ödənişlər |
| 5. | İşçilərin mənzillə təmin olunması ilə əlaqədar işverənin üzərinə götürdüyü xərclər | 5. | Müəssisələrin (təşkilatların) işçilərin mənzillə təmin edilməsi ilə əlaqədar xərcləri |
| 6. | İşverənin sosial təminatla əlaqədar xərcləri | 6. | Müəssisələrin (təşkilatların)işçilərin sosial müdafiəsi ilə əlaqədar xərcləri |
| 7. | Peşə hazırlığına sərf olunan xərclər | 7. | Peşə təlimi xərcləri |
| 8. | Sosial xidmətlərə çəkilən xərclər | 8. | Mədəni-məişət xidməti ilə əlaqədar xərclər |
| 9. | İş qüvvəsinə sərf olunan digər xərclər | 9. | İş qüvvəsinə təsnifləşdirmədə olmayan xərclərin sərfi |
| 10. | İş qüvvəsinə sərf olunan xərclərə görə vergilər | 10. | İş qüvvəsindən istifadə ilə əlaqədar vergilər |

7.5 cədvəlindəki bəzi xərc maddələrinin məzmununa aydınlıq gətirmək lazımdır. Onlardan bəziləri bundan əvvəlki mühazirəmizdə aydınlaşdırılmışdır. Burada aydınlaşdırılmayan, yaxud da tələb olunan səviyyədə aydınlaşdırılmayan maddələrdən biri işçilərin sosial təminatı ilə əlaqədar olan xərclərdir. Beynəlxalq standartlara uyğun olaraq bu xərclərə pensiya fonduna, sosial sığorta fonduna, məcburi tibbi sığorta fonduna, habelə qeyri-dövlət pensiya fondlarına üzvlük haqqı ilə əlaqədar ödənişlər, işləyən pensiyaçıların pensiyalarına edilən əlavələr, işdən çıxarma pulu(təzminat), müəssisənin vəsaiti hesabına işçilərin və onların ailə üzvlərinin müalicəyə və istirahətə göndərilməsi ilə əlaqədar xərclər aid edilir. Peşə təlimi xərclərinə tədris binalarının, məşğələləri aparmaq üçün icarəyə götürülmüş binaların saxlanmasına, işçilərin tədris müəssisə-lərində pullu təhsil almalarına, müəssisənin göndərişi ilə təhsil alan şəxslərə təqaüdlərin verilməsinə, kadrların hazırlanması və yenidən hazırlanması ilə əlaqədar digər xərclər daxil edilir.

Mədəni-məişət xidməti xərcləri mədəni-kütləvi və idman tədbirlərinin, tənəzzöhlərin, sərgilərin keçirilməsi, yeməkxanaların, kitabxanaların, klubların, idman qurğularının, məktəbəqədər müəssisələrin saxlanılması xərclərini və digər mədəni-məişət tədbirləri ilə əlaqədar olan xərcləri özündə birləşdirir. 9-cu qrup xərclərə iş yerinə gəlib-qayıtma ilə əlaqədar nəqliyyat xərcləri, pulsuz verilmiş formalı paltarların, xüsusi geyimlərin və ayaqqabının dəyəri, həmçinin ezamiyyə xərcləri, işçilərin bir işdən başqa bir işə keçirilməsi xərcləri və s. aid edilir. İş qüvvəsinə sərf olunan xərclərin tərkibinə daxil edilən vergilər məşğul şəxslərin sayı və əmək haqqı fondu ilə əlaqədardır. Bu xərclərin vergi bazası əmək haqqı fondu, yaxud da işçilərin sayıdır. Səhmlərə, habelə işçilərin müəssisə və təşkilatların mülkiyyətində iştirakına görə əldə etdikləri digər gəlirlər, əmək qabiliyyətini müvəqqəti itirməyə, hamiləlik və doğuşla əlaqədar olan ödənişlər iş qüvvəsi xərclərinə aid edilmir. Çünki bu xərclər dövlət və qeyri-dövlət fondlarının vəsaiti hesabına ödənilir. İş qüvvəsinə sərf olunan xərcləri təhlil edərkən göstəricilərin müqayisə edilə bilən olmasına xüsusi diqqət etmək lazımdır. Bu məqsədlə işçilərin sayı, işlənilmiş, həmçinin işlənilməmiş, lakin haqqı ödənilmiş vaxt barədə məlumat əldə edilir. İş qüvvəsinin orta dəyərinin göstəriciləri ölkə iqtisadiyyatı, onun ayrı-ayrı sahələri, müxtəlif mülkiyyət formalarına mənsub olan müəssisələr üzrə hesablanır.

Qərbi Avropanın inkişaf etmiş ölkələrində, ABŞ və Kanadada işverənlərin əmək kollektivlərinin sabitliyinin təmin olunmasına yönəltdikləri xərclərin artması müşahidə olunur. Bunlar öz ifadəsini işçilərin mənzil əldə etmələri, icarəyə götürdükləri mənzilin, habelə yanacağın, elektrik enerjisi və telefon haqqının ödənilməsi üçün faizsiz kreditin verilməsində tapır. Bundan başqa, müəssisələrdə yeməkxanaların saxlanması üçün subsidiyalar verilir, işçilərin ailə üzvləri və uşaqlarının oxumasma sərf olunan xərclər, işə gəlib-qayıtmaq üçün nəqliyyat xərcləri, güzəştli şərtlərlə tibbi xidmət xərcləri ödənilir və s. Beləliklə, iş qüvvəsinə sərf olunan xərclər müəssisələrin rəqabət qabiliyyətini ifadə edən göstəricilərdən biridir və ondan beynəlxalq müqayisələrin aparılmasında geniş istifadə edilir.

**İstifadə olunan ədəbiyyatlar:**


- O.Q.Məmmədli, N.Ə.Cavadov, X.N.Cavadzadə. Sosial-iqtisadi statistika. Ali məktəblər üçün dərslik. I hissə. Bakı, "MBM", 2014


## Mühazirə 10. Əhalinin həyat səviyyəsinin statistik göstəriciləri

**Plan:**

28. *Əhalinin həyat səviyyəsinin statistik öyrənilməsinin zəruriliyi*
29. *Əhalinin həyat səviyyəsinin statistikasının vəzifələri*
30. *Əhalinin həyat səviyyəsini səciyyələndirən əsas sosial göstəricilər*

**Əhalinin həyat səviyyəsinin statistik öyrənilməsinin zəruriliyi və statistikanınvəzifələri.** Ölkənin sosial-iqtisadi inkişafını əks etdirən məsələlərdən biri əhalinin həyat səviyyəsinin öyrənilməsidir. Sosial problemlər hamını: mərkəzi və yerli hakimiyyəti, ictimai təşkilatları və siyasi partiyaları, həmkarlar təşkilatını, elmi ictimaiyyəti və nəhayət, əhalinin özünü daima düşündürür. Bu anlaşılandır, axı əhalinin müxtəlif təbəqələrinin rifahının yüksəldilməsi, həyat şəraitinin yaxşılaşdırılması ölkənin sosial-iqtisadi inkişafının uzunmüddətli prioritetlərindən biridir. Sosial proqramların mühüm tərkib hissəsi sosial-iqtisadi indikatorlardır. Onlar dövlət idarə orqanlarının həyata keçirdikləri iqtisadi və sosial siyasətin səmərəliliyini qiymətləndirməyə və qarşıya qoyulan məqsədlərə nə dərəcədə nail olunduğunu aşkar etməyə imkan verir.

«Həyat səviyyəsi» anlayışı mürəkkəb olmaqla əhalinin öz maddi və mədəni tələbatını ödəməsi imkanlarını səciyyələndirir. Bura əhalinin həyatının müxtəlif sosial aspekti: əmək və məişət şəraiti, əhalinin gəlirləri və xərclərinin səviyyəsi və quruluşu, asudə vaxtın istifadə formaları, səhiyyənin, incəsənətin, mədəniyyətin və s. inkişaf səviyyəsi daxildir. Cəmiyyət həyatının bu

sosial cəhətlərinin müxtəlif sosial-iqtisadi indikatorların köməyi ilə miqdar səciyyəsi əhalinin həyat səviyyəsi və sosial inkişafı statistikasının öyrənmə predmetidir.

Dünya əhalisinin rifahının müxtəlif cəhətlərini əks etdirən statistika göstəricilərinin işlənib hazırlanması sahəsində böyük təcrübə toplanmışdır. Burada biz əhalinin həyat səviyyəsini öyrənmək üçün hazırda istifadə olunan əsas sosialiqtisadi indikatorları nəzərdən keçirəcəyik:

1) əhalinin həyat səviyyəsinin və sosial inkişafının ümumi (intiqral) indikatorları;
2) əhalinin şəxsi gəlirlərini səciyyələndirən göstəricilər;
3) əhalinin xərcləri və istehlakı göstəriciləri;
4) həyat səviyyəsinə görə əhalinin diferensiyası göstəriciləri.

Əhalinin həyat şəraitini səciyyələndirmək üçün dörd səviyyə fərqləndirilir:

1) bolluq (adamların hərtərəfli inkişafını təmin edən nemətlərdən istifadə);
2) normal səviyyə (adamların fiziki və intellektual qüvvəsinin bərpasını təmin edən, elmi cəhətdən əsaslandırılmış normalar üzrə nemətlərin səmərəli istehlakı);
3) kasıblıq (işçi qüvvəsinin təkrar istehsalı üçün iş qabiliyyətinin saxlanması səviyyəsində nemətlərin istehakı);
4) dilənçilik (adamların yaşamaq qabiliyyətini saxlamağa imkan verən nemətlərin və xidmətlərin minimal istehlakı).

Həyat səviyyəsi statistikasının əsas vəzifəsi əhalinin həyat səviyyəsi göstəricilərinin hesablanması və təhlili metodologiyasını və habelə həyat səviyyəsinə təsir edən amillərin öyrənilməsi metodlarını işləyib hazırlamaqdan ibarətdir.

**Əhalinin həyat səviyyəsini səciyyələndirən əsas sosial-iqtisadi göstəricilər.** Əhalinin həyat səviyyəsinin inteqral indikatorlarına (yəni ümumiləşdirici göstəricilərinə) onun gəlirləri və xərclərinin makroiqtisdi göstəriciləri, demoqrafik-iqtisadi fəallıq göstəriciələri aid edilir.

Respublikada uçot və statistikanın beynəlxalq standartlarına keçilməsi ilə əhalinin həyat səviyyəsinin milli hesablar sistemi çərçivəsində hesablanan yeni makroiqtisadi indikatorları istifadə edilməyə başlanılmışdır. Həmin göstəricilərə: ev təsərrüfatlarının sərəncamında qalan gəliri, düzəliş verilmiş sərəncamda qalan gəliri, real sərəncamda qalan gəliri, əhalinin faktiki son istehlakı və istehlak qiymətləri indeksi aiddir. Ev təsərrüfatlarının sərəncamında qalan gəliri dedikdə onların əmtəə və xidmətləri son istehlakı və ya yığımını (qənaətlərini) müəyyənləşdimək üçün istifadə edə biləcəkləri cari gəlirlərinin məbləği başa düşülür. Həmin məbləğə istehsal fəaliyyətindən, mülkiyyətdən və təkrar bölgü əməliyyatlarından (cari transfertlər) əldə etdikləri cari gəlirlər daxil edilir. Ev təsərrüfatları sektorunun sərtancamında qalan gəlirini hesablamaq üçün hər şeydən əvvəl onların istehsalatda bilavasitə iştirakı ilə əlaqədar olan əmək ödənişini və ümumi qarışıq gəlirlərini toplamaq lazımdır. Həmin indikatorun təyinatı – əhalinin sərəncamına iqtisadi resurslardan nə qədərinin daxil olduğunu və onların öz tələbatını ödəmək üçün istifadə edə biləcəyini göstərməkdən ibarətdir.

Ev təsərrüfatlarının düzəliş verilmiş sərəncamda qalan gəliri, sərəncamda qalan gəlirdən natural formada əldə olunan sosial transfertlərin məbləği qədər çoxdur. Sonuncuya qeyrikommersiya təşkilatlarının və dövlət idarələrinin ev təsərrüftalarına ünvanlı pulsuz və ya güzəştli qiymətlərlə verdikləri malların və fərdi qeyri-bazar xidmətlərinin dəyəri aid edilir. Natural formada sosial transfertlərə: təhsil, mədəniyyət, səhiyyə, idman, sosial təminat, mənzil-kommunal təsərrüfatı, nəqliyyat vasitəsi, onların təmiri və texniki xidməti, ümumtəhsil məktəbləri üçün dərsliklərin əldə edilməsi üzrə xidmətin dəyəri, əhalinin bəzi qrupuna pulsuz verilən tibbi dərmanların dəyəri aid edilir. Ev təsərrüfatlarının sərəncamında qalan real gəliri cari dövrün sərəncamda qalan gəlirlərinə istehlak qiymətləri indeksinə əsasən düzəliş verməklə müəyyən olunur. Bu ev təsərrüfatlarının əsas dövrün qiymətləri ilə əldə edə biləcəyi mal və xidmətlərin maksimum dəyərini əks etdirir. Ev təsərrüfatlarının faktiki son istehlakı onların fərdi istehlakı üçün cari gəlirləri hesabına və ya dövlət idarələrindən və qeyri-kommersiya təşkilatlarından pulsuz və ya güzəştli qiymətlərlə faktiki əldə etdikləri mal və xidmətlərin dəyərindən ibarətdir.

Istehlak qiymətləri indekslərinin əsas təyinatı əhalinin qeyri-istehal istifadəsi üçün əldə etdikləri mal və xidmətlərin qiymətlərinin ümumi səviyyəsinin zaman etibarı ilə necə dəyişdiyini müəyyən etməkdən ibarətdir. Bu zaman istehlak qiymətlərinin ümumi səviyyəsinin necə dəyişdiyini qiymətləndirmək üçün istehlak səbəti deyilən mal və xidmətlərin sabit toplusunun dəyəri müqayisə olunur. Beləliklə, istehlak qiymətləri indeksi pərakəndə qiymətlərin dəyişməsinin təsiri ilə mal və xidmətlər toplusu dəyərinin zaman etibarı ilə necə dəyişdiyini göstərir. İstehlak qiymətləri indeksi ümumi qiymət səviyyəsini müəyyən edən əsas ölçüdür. Bu ölçüdən istifadə etməklə inflyasiya dərəcəsini tapmaq mümkündür. İstehlak qiymətləri indeksi alıcıların istehlak səbətinə daxil olan məhsul və xidmətlərin (ərzaq, tibbi xidmətlər, nəqliyyat, sığorta xərcləri, kommunal xərclər və s.) ümumi qiymət səviyyəsinin dəyişməsini göstərir.
İstehlak qiymətləri indeksinin düsturu aşağıdakı kimidir:
İstehlak qiymətləri indeksi=(Cari dövr istehlak səbətinin qiyməti)/(Baza dövrü istehlak səbətinin qiyməti)×100
Məsələn düşünək ki, tipik bir isteklakçı hər ay 5 kq alma, 2 kq portağal alır və onun isteklak səbəti ancaq bu məhsullardan ibarətdir. Bu ay almanın bir kiloqramının qiyməti 1 man, portağalın bir kiloqramının qiyməti isə 2 man-dır. Keçən ay isə 1 kq alma 0.98 man, 1 kq portağal isə 1.95 man olmuşdur. Bu zaman istehlak qiymətləri indeksi belə hesablanacaqdır:
İQİ=(almanın çəkisi×almanın cari qiyməti+portağalın çəkisi×portağalın cari qiyməti)/(almanın çəkisi×almanın keçən aya olan qiyməti+portağalın çəkisi×portağalın keçən aya olan qiyməti)×100
İQİ= (5×1+2×2)/(5×0.98+2×1.95)×100=102 Hər ay üçün istehlak qiymətləri indeksi tapılır və müqayisə edilərək inflyasiya səviyyəsi müəyyən edilir.
Istehlak qiymətləri indeksinin çəkilərini müəyyən etmək üçün əmtəə və xidmətlərin əldə edilməsinə ailələrin xərclərinə dair ev təsərrüfatları büdcələrinin tədqiqi statistikasının məlumatlarından istifadə olunur, istehlak səbətinin ayrı-ayrı bölmələri üzrə isə pərakəndə mal dövriyyəsinin quruluşuna, ayrı-ayı malların istehsalının həcminə və ekspert qiymətərinə dair məlumatlara istinad edilir.

Qiymətlərin dəyişməsinə dair məlumat isə istehlak toplusuna daxil olunan konkret məhsul və xidmət növləri üzrə istehlak bazarında olan faktiki qiymət və tarifləri qeydə almaqla əldə edilir. Burada ərzaq malları, qeyri-ərzaq malları və pullu xidmətlər üzrə qiymət və tariflər əks etdirilir. Mal qruplarının siyahısı mərkəzləşdirilmiş qaydada işlənib hazırlanır, yerlərdə isə qiymətləri tədqiq olunacaq mal nümunələrinin adları müəyyən edilir. Istehlak qiymətəri indeksləri infilyasiyanın səviyyəsini səciyyələndirmək üçün qurulur. Istehlak qiymətləri indeksləri cari dövrdəki bir sıra dəyər göstəricilərini əsas dövrün qiymətlərinə keçirmək, minimal sosial təminatları nəzərdən keçirmək, əməyin ödənilməsi sahəsindəki məsələləri həll etmək, valyuta kurslarını təhlil etmək və b. məqsədlər üçün istifadə olunur.

Əhalinin həyat səviyyəsinin hərtərəfli öyrənilməsi ölkədə demoqrafik situasiyanı təhlil etmədən mümkün deyildir. O bir sıra amillərin təsirinə məruz qalır: ekologiyanın vəziyyəti, səhiyyənin inkişaf səviyyəsi, gəlirlərin səviyyəsi, xərclərin quruluşu, qidanın keyfiyyəti və quruluşu və s. Demoqrafiyanın təsiri öyrənilərkən daimi əhalinin sayı və dinamikası, doğum və ölümün, uşaq ölümünün ümumi əmsallığından, əhalinin gözlənilən ömür müddətindən, onların miqrasiyası göstəricilərindən istifadə ounur.

Əhalinin həyat səviyyəsinin ümumi indikatorlarını onların iqtisadi fəallığı göstəriciləri tamamlayır. Cari dövrdə əhalinin sərəncamına daxil olan iqtisadi resursların həcmi, onların formalaşma mənbələr üzrə tərkibi, əhalinin müxtəlif qruplarının öz tələbatını ödəməsi imkanı xeyli dərəcədə əmək bazarındakı vəziyyətdən asılıdır. Bununla əlaqədar olaraq əhalinin məşğulluğunun dərəcəsi, işsizliyin səviyyəsi, işə düzəltmə imkanlarını da tədqiq olunmalıdır. Əhalinin iqtisadi aktivliyi göstəricilərinə: iqtisadi fəal əhalinin sayı və tərkibi, məşğul olan əhalinin sayı və tərkibi, əhalinin ümumi sayında onların tutduğu hissə, işsizlərin sayı və tərkibi, işsizliyin səviyyəsi aid edilir. Əhalinin «həyat səviyyəsi» anlayışını daha geniş aspektdə nəzərdən keçirsək, onda işçilərin əmək şəraiti göstəriciləri, iş gününün, iş həftəsinin və həmçinin məzuniyyətlərin davam etmə müddəti, istehsal zədələnmələrinin və ixtisas xəstələnmələrinin səviyyəsi də istifadə olunmalıdır.

**İstifadə olunan ədəbiyyatlar:**


- С.М.Йагубов, А.Ж. Мяммядов. Сосиал-игтисади статистика. Дярслик. Бакы: «Игтисад Университети » няшриййаты, 2008, - 388 сящ.

## Mövzu 11. Əhalinin pul gəlirləri, xərcləri və istehlak göstəriciləri

**Plan:**

*31. Əhalinin pul gəlirləri göstəriciləri*
*32. Əhalin xərclərinin göstəriciləri*
*33. Əhalin istehlak göstəriciləri*
*34. Əhalinin həyat səviyyəsinə görə differensasiasiyası göstəriciləri*
*35. Əhalinin həyat səviyyəsi haqqında informasiyaların mənbələri*

**Əhalinin pul gəlirləri göstəriciləri.** Bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq xüsusi sahibkarlığın və iqtisadiyyatın qeyri-formal bölməsinin rolu xeyli artımşdır. Sonuncu ev təsərrüfatlarının bir hissəsi olmaqla qeyri-korporativ müəssisələr kimi meydana çıxırlar. Həmin müəssisələr adətən müəyyən olunmuş qaydada rəsmiyyətə salınmır, istehsal iştirakçıları arasında qeyri-formal münasibətlərə əsaslanır və tamamilə və ya qismən ev təsərrüfatlarının şəxsi istehlakı üçün məhsul isthesal edir və xidmət göstərirlər. Respublikamızın kənd təsərrüfatında (məsələn, xırda kəndli təsərrüfatlarında, əhalinin şəxsi yardımçı təsərrüfatlarından), tikintidə, ticarətdə, xidmətlər sferasında (hüquqi xidmətlər, repititorluq üzrə xidmətlər və s.) qeyri-formal istehsal geniş yayılmışdır. Bütün bunlar əhalinin pul gəlirlərinin quruluşunda ciddi dəyişikliklərə səbəb olmaya bilməzdi. Əgər keçən əsrin 80-ci illərinin axırında gəlirlərin əsas mənbəyi əmək haqqı idisə, hazırda mülkiyyətdən və fərdi sahibkarlıq fəaliyyətindən gəlirlər daha çox əhəmiyyət kəsb edir. Bütövlükdə gəlir anlayışı subyekt tərəfindən müəyyən dövrdə əldə olunan pul vəsaitinin, maddi nemətlərin və xidmətlərin miqdarı ilə səciyyələnir. MHS-də gəlir göstəricilərinin hesablanmasının əsasını ingilis iqtisadçısı C.Xiksonun verdiyi tərif təşkil edir. Həmin tərifə görə gəlir müəyyən dövrdə təsərrüfat subyektinin kapitalının azalmaması şərti ilə öz istehlakına sərf edə biləcəyi maksimum məbləğdən ibarətdir.
Hazırda əhalinin şəxsi gəlirlərinin göstəricilər sisteminə, onların qurulması metodolgiyasına, məlumat mənbələrinə, müşahidənin növünə, formasına və üsullarına görə bir-birindən fərqlənən iki tədqiqat yanaşması mövcuddur. Birinci yanaşmanın əsasını əhalinin pul gəlirləri və xərcləri, ikincininki isə ev təsərrüfatları büdcələrinin seçmə tədqiqatı təşkil edir. Əhalinin pul gəlirləri və xərcələri çərçivəsində birinci yanaşmaya müvafiq olaraq hər şeydən əvvəl bütün əhalinin pul gəlirlərinin ümumi məbləği, sonra isə buna əsasən hər nəfərə düşən gəlir müəyyən edilir. Həmin balansın gəlirlər hissəsinin məlumatına əsasən əhalinin pul gəlilərinin yaranma mənbələrinə görə quruluşunu və dinamikasını təhlil etmək imkanı yaranır. O, əhalinin sərancamına pul formasında daxil olan milli gəlirin həcmini müəyyən etməyə imkan verir.

Balansı tərtib etmək üçün informasiya mənbəi statistik müşahidə vahidi olan iqtisadi fəaliyyət subyektlərinin statistika və maliyyə hesabatları, habelə xüsusi təşkil edilmiş tədqiqatlar, vergi

xidmətlərinin məlumatı və ekspert qiymətləridir. Balansın gəlirlər hissəsində əhalinin aşağıdakı pul gəlirləri əks etdirilir:

1) mövcud qaydaya görə əmək haqqı fonduna aid edilən müxtəlif əlavə ödənişləri də daxil etməklə muzdlu işçilərə pulla və natural formada hesablanan əmək haqqı;
2) müəssisə və təşkilatların fəhlə və qulluqçularının əmək ödənişindən başqa müəssisədən əldə etdikləri gəlirlər (sosial xarakterli ödənişlər, ezamiyyə xərcləri, müəllif haqları və s. ödənişlər);
3) dividentlər;
4) müəssisə və təşkilatlara kənd təsərrüfatı məhsullarının satışından daxil olmalar;
5) maliyyə ssistemindən ödənilən pensiyalar, müavinətlər, təqaüdlər və başqa daxil olmalar;
6) xarici valyutaların satışından əhalinin gəlirləri;
7) başqa daxilolmalar.

Balansın son maddəsi həm də sahibkarlıq fəaliyyətindən əldə edilən gəlirin bir hissəsini özündə əks etdirir. Burada ev təsərrüfatlarına məxsus olan və korporasiyalara daxil edilməyən müəssisələrin gəliri nəzərdə tutulur (fiziki şəxslərin əhaliyə göstərdiyi pullu xidmtlərdən əldə olunan gəlir, əhalinin müəssisə və təşkilatlara satdığı kənd təsərrüfatı məhsullarına görə aldığı vəsait və s.).

Hər nəfərə düşən gəlir əhalinin cari dövrdəki pul gəlirlərinin ümumi məbləğini mövcud əhalinin orta illik sayına bölməklə hesablanır. Əhalinin məcmuu pul gəlirinin ümumi məbləğinə əsasən sərəncamda qalan pul gəliri hesablanır. Bu məqsədlə məcmuu gəlirdən bütün məcburi ödənişlər və haqlar (vergi və yığımlar, sığorta ödənişi, ictimai təşkilatlara üzvlük haqqı, ssudaların qaytarılması, lotereya biletlərinin əldə edilməsinə xərclər, kreditlə alınan mallar üçün faizlər, pensiya fonduna məcburi sığorta haqları) çıxılmalıdır.

Real pul gəlirləri və sərəncamda qalan real pul gəlirləri indeksi, əhalinin nominal pul gəlirləri indeksini istehlak qiymətləri indeksinə bölməklə hesablanır:

$$Jr.g. = Jn.g. : J\ \ p$$

Burada $J_{r.g.}$ – real gəlirlər indeksini;

$J_{n.g.}$ – nominal gəlirlər indeksini;

$J_{p.}$ – istehlak qiymətləri indeksini göstərir.

Milli iqtisadiyyat sahələrində işçilərin orta aylıq nominal əmək haqqı onların aylıq əmək haqqı fondunu orta aylıq siyahı sayına bölməklə hesablanır. Təyin olunmuş pensiyaların orta aylıq məbləği isə pensiyanın aylıq ümumi məbləğini pensiyaların orta aylıq sayına nisəti ilə hesablanır.

Əhalinin şəxsi gəlirlərinin tədqiqinə ikinci yanaşmanın əsasını ev təsərrüfatları büdcələrinin müayinəsi təşkil edir. Belə tədqiqat əhalinin müxtəlif təbəqələri və qrupları üzrə gəlirlərin, istehlakın, yığımın və qənaətin həcminə dair məlumat əldə etməyə imkan verir. Əhalinin ev təsərrüfatı büdcəsinin tədqiqi onların həyat səviyyəsi üzərində dövət stastistika müşahidələrinin metodlarından biridir. Ev təsərrüfatlarının büdcələrinin tədqiqi xüsusi təşkil olunmuş seçmə müşahidəsidir. Müşahidə vahidi ev təsərrüfatlarıdır. Tədqiqat seçmə məcmuuna daxil olan ev təsərrüfatları üzvlərinin bilavasitə sorğusu yolu ilə keçirilir. Bu zaman ay ərzində ev təsərrüfatlarında gəlirlərin və xərclərin aparılan yardımçı qeydlərindən istifadə olunur. Həmin tədqiqatın materiallarına əsasən ev təsərrüfatlarının ümumi və pul gəlirlərinin həcmi və tərkibi müəyyən edilir, onların ayrıayrı kateqoriyaları üzrə (yaşayış yerindən, ailənin tərkibindən, ailə üzvlərinin məşğulluğundan asılı olaraq) gəlirlərin səviyyəsi və quruluşundakı fərqlər aşkar olunur. Ümumi gəlirə ailənin pul gəlirləri və müxtəlif mənbələrdən daxil olan istehlak olunan qida məhsullarının dəyəri aid edilir.

Həyat səviyyəsini öyrənərkən təkcə əhalinin pul gəlirlərinin həcmini qiymətləndirmək kifayət deyil, həm də əmtəə və xidmətləri əldə etməsi üçün bu resurslardan istifadə üzrə əhalinin bu potensial imkanlardan istifadə dərəcəsi miqdarca ölçülməlidir. Bu məqsədlə bütün əhalinin və ya onun ayrı-ayrı qruplarının pul gəlirlərinin alıcılıq qabiliyyəti göstəriciləri hesablanır. Pul gəlirlərinin alıcılıq qabiliyyətinin səivyyəsi ya müəyyən növ malın miqdarı ilə, ya da hər nəfərə düşən pul gəlirlərinin məbləğinə əldə oluna bilən sabit mal yığımının miqdarı ilə ölçülə bilər.

$AQ = D : P$

Burada, AQ – əhalinin hər nəfərinə düşən pul gəlirinin alıcılıq qabiliyyətini;

D – əhalinin hər nəfərinə düşən pul gəlirinin məbləğini;

P – malın orta qiymətini və ya müəyyən mal qrupunun dəyərini göstərir.

Beləliklə, əhalinin pul göstəricilərinin alıcılıq qabiliyyəti təkcə gəlirlərin həcmindən deyil, həm də əmtəə və xidmətlərin qiymətlərinin səviyyəsindən asılıdır.

**Əhalinin xərcləri və istehlakı göstəriciləri.** Əhalinin istehlakı təkcə MHS çərçivəsində hesablanan makroiqtisadi göstəricilərlə (məsələn, ev təsərrüfatlarının son istehlakına xərclər, natural formada sosial transfertlər, ev təsərrüfatlarının fatkiki son istehlakı) deyil, həm də mal və xidmətlərin növləri üzrə şəxsi istehlak göstəriciləri ilə səciyyələndirilir. Statistika gəlirlərin səviyyəsindən, qiymətlərdən, ev təsərrüfatlarının tərkibindən və başqa əlamətlərindən asılı olaraq əhalinin konkret növ mal və xidmətləri istehlakını öyrənir.

Şəxsi istehlak statistikasının məlumatları təkcə əhalinin maddi rifahını səciyyələndirmək üçün tələb olunmur. Bunlar istehlak qiymətləri indekslərinin çəkilərini müəyyən etmək, istehlak mallarına və xidmətlərə tələbatı və başqa makroiqtisadi göstəriciləri təhlil etmək üçün istifadə olunur.

Əhalinin şəxsi istehlakının təhlili iki istiqamətdə aparılır:

1) əhalinin pul gəlirlərinin istifadə istiqamətlərini tədqiq etmək; ev təsərrüfatlarının pul xərclərinin həcmini və qurluşunu, özünün istehlak xərclərinin tərkibini öyrənmək;
2) ev təsərrüfatlarının fatkiki istehlakını öyrənmək.

Ev təsərrüfatlarının mal və xidmətlərin alınmasına xərclərinə və faktiki istehlaka dair məlumatın əsas mənbəyi seçmə büdcə tədqiqatı, ticarət statistikası və əhalinin pul gəlirləri və xərcləri balansıdır.

Əhalinin həyat səviyyəsinin sosial indikatorlarının bir hissəsi kimi əhalinin xərcləri və istehlakı göstəricilərinə: əhalinin pul xərclərinin həcmi və tərkibi, ev təsərrüfatlarının faktiki istehlak xərclərinin səviyyəsi və quruluşu, əsas növ qida məhsullarının hər nəfərə düşən istehlakı; yaşayış minimumunun (minimal istehlak büdcəsinin) həcmi, quruluşu və dinamikası aid edilir. Əhalinin pul gəlirləri və xərcləri balansı əhalinin pul gəlirlərinin həcmini və tərkibini təhlil etməyə imkan verir. Balansın məsarif hissəsində əhalinin müxtəlif idarə və təşkilatlara, fiziki şəxslərə pul ödənişi ilə əlaqədar olan bütün xərcləri əks etdirilir. Bu zaman əhalinin pul xərcləri aşağıdakı istiqamətlərdə qruplaşdırılır:

-mal alınmasına və xidmətlərin ödənməsinə;

-məcburi ödənişlər və könüllü haqlar;

-əmanətlərdə və qiymətli kağızlarda olan qənaətlərin artımı;

-daşınmaz əmlakın alınmasına;

-xarici valyutaların əldə olunmasına əhalinin xərcləri;

-köçürmələr üzrə göndərilən pullar.

Əhalinin pul gəlirlərinin və xərclərinin fərqi onlarda olan nəqd pulun artımını və ya azalmasını səciyyələndirir.

MHS-də son istehlaka xərclər və faktiki son istehlaka xərclər fərqləndirilir. Ev təsərrüfatlarının son istehlakına xərclərə:

-istehlak mallarının satın alınmasına xərclər;

-istehlak xidmətlərinin ödənməsi xərcləri;

-ev təsərrüfatlarının özünün son istehlakı üçün istehsal etdiyi məhsulların natural formada daxil olması;

-ev təsərrüfatlarının əmək ödənişi kimi aldıqları natural formada məhsulların istehlakı;

-öz evində yaşamaq üzrə xidmətlər daxil edilir.

Ev təsərrüfatlarının faktiki son istehlakı isə həm sərəncamda qalan gəlir hesabına, həm də dövlət idarə orqanlarının və qeyri-kommersiya təşkilatlarının əhaliyə təqdim etdikləri natural formada sosial transfertlər hesabına təmin edilən son istehlakın real miqdarıdır.

Əhalinin mal və xidmətlərə çəkdiyi xərclər maddəsində təkcə şəxsi istehlak xərcləri deyil, həm də investisiya xarakterli xərclər uçota alınır. Onlara aiddir: daşınmaz əmlakın alınması xərcləri, yemlərin, toxumun, malqaranın satın alınması xərcləri və s.

Əhalinin istehlak xərclərinə ev təsərrüfatlarının cari istifadəsi üçün bilavasitə əldə edilən istehlak mallarına sərf etdiyi xərclər aid edilir. Əhalinin faktiki istehlak xərclərinin səviyyəsini, dinamikasını və quruluşunu daha ətraflı öyrənmək üçün ev təsərrüfatları büdcələrinin seçmə tədqiqatının məlumatlarından istifadə edilir. Ev təsərrüfatlarının istehlak xərclərinin tərkibində:

-evdə qidalanmaq üçün məhsulların alınması xərcləri;

-evdən kənar yerlərdə qidalanma xərcləri;

-qeyri-ərzaq malların satınalınması xərcləri;

-spirtli içkilərin satınalınması xərcləri;

-xidmətlərin (mənzil, məişət-kommunal, tibbi, mədəniyyət və incəsənət, təhsil və s. xidmətlər) ödənilməsi xərcləri ayrılır.

Əhalinin qidalanması xərcləri onların büdcələrində təxminən 50% təşkil etməklə tədricən artır ki, bu da həyat səviyyəsinin ən mühüm göstəricisi hesab edilir.

Ev təsərrüfatlarının seçmə tədqiqatının materialları əsas növ məhsulların hər nəfərə düşən istehlakının səviyyəsini hesablamaq üçün əsas götürülür. Həmin göstəricilər ev təsərrüfatlarının müxtəlif kateqoriyaları və tipləri üzrə istehlak olunan qida məhsullarıın ümumi miqdarını istehlakçıların sayına nisbəti ilə hesablanır. Uşağın, pensiyaçının, iri yaşlı kişi və qadının qida məhsulları istehlakının tərkibi və səviyyəsi xeyli fərqlənir. Bununla əlaqədar olaraq ev təsərrüfatlarının ölçüsü üzvlərin sayı ilə deyil, şərti istehlakçıların (istehlak vahidlərinin) sayı ilə ifadə olunur. Bu məqsədlə çevirmə əmsalları şkalasından istifadə olunur və şərti istehlak vahidi kimi 18-59 yaşda kişi qəbul edilir. Hər nəfərə düşən qida məhsulları istehlakının miqdarı istehlak edilən məhsulun həcmini şərti istehlakçıların sayına bölməklə hesablanır.

Tövsiyə olunan səmərəli istehlak normasına nail olunma səviyyəsini səciyyələndirmək üçün istehlakın ödənmə əmsalı hesablanır: $Ə_{öd} = I_f \cdot I_n$. Burada ($I_f$ və $I_n$ – hər nəfərə düşən istehlakın uyğun olaraq faktiki və norma üzrə həcmini göstərir. Əhalinin uzun müddət istifadə olunan mədəni-məişət və təsərrüfat əşyaları ilə təmin olunmasını səciyyələndirən göstərici hər 1000 nəfərə və ya 100 ailəyə görə hesablanır. Istehlakın dinamikasının əsas göstərici istehlak olunmuş məhsulların miqdarının fərdi indeksidir. O, ayrı-ayrı məhsullar üzrə hesabat dövründə istehlakın natural ifadədə hər nəfərə düşən həcminin əsas dövrdəki həcminə nisbətilə hesablanır:

$$i_q = \frac{q_1}{q_0}$$

Bir neçə növ məhsul üzrə istehlakın ümumi indeksi fiziki həcm indeksinin aqreqat düsturu ilə hesablanır:

$$j_q = \frac{\Sigma q_1 P_0}{\Sigma q_0 P_0}$$

Əhalinin xidmətlər istehlakının dinamikası da həmin qaydada öyrənilir. Bununla yanaşı, maddi nemətlərin və xidmətlərin istehlakının ümumi həcm indeksi də hesablanır:

$$j_q = \frac{\Sigma q_1 P_0 + \Sigma d_1 P_0}{\Sigma q_0 P_0 + \Sigma d_0 P_0}$$

Burada $d_1 P_0$ və $d_0 P_0$ – hesabat və əsas dövrdə istehlak olunmuş xidmətlərin növləri üzrə müqayisəli qiymətlərdə dəyəridir.

Istehlak qiymətləri indeksləri hesablanarkən pərakəndə şəbəkədə seçilib öyrənilən mallar üzrə (çəki kimi götürülən bütün istehlak səbəti üzrə) hesablaınr.

Istehlak səbəti - əhali tərəfindən istehlak olunan ərzaq məhsullarının, malların və xidmətlərin yığımı və onun dəyəridir. Normativ və faktiki istehlak səbəti fərqləndirilir. Normativ istehlak səbəti (minimum və səmərəli) əhalinin müxtəlif cins-yaş qruplarının elmi cəhətdən əsaslandırılmış tələbatı əsasında formalaşır.

Faktiki istehlak səbəti – bütün əhalinin və onun ayrı-ayrı qruplarının istehlakının faktiki quruluşunu əks etdirir. Azərbaycan Respublikasında istehlak səbəti şərti ailənin minimum tələbatını nəzərə almaqla müxtəlif elmi idarələr tərəfindən müəyyən olunur.

Əhalinin həyat səviyyəsini yüksəltmək məqsədi ilə dövlət sosial proqramları işlənib hazırlanarkən yaşayış minimumunun həcminin, quruluşunun və dinamikasnın müəyyən olunması böyük əhəmiyyət kəsb edir. Yaşayış minimumu dedikdə müəyyən normativlərdən istifadə etməklə ən mühüm nemət və xidmətlərin minimal səviyyədə istehlakını təmin etmək üçün kifayət edən gəlirin məbləği başa düşülür. Yaşayış minimumu əhalinin müxtəlif sosial-demoqrafik qrupları (əmək qabiliyyətli əhali, pensiyaçılar, 0-6 yaşda və 7-15 yaşda olan uşaqlar) üzrə hesablanır:

A=B+C+D+E

Burada A – yaşayış minimumunun məbləğini;

B – minimal ərzaq «səbətinin dəyərini»

($B=\sum q_1P_1$ burada $q_1$ - ərzaq məhsulunun istehlak normasını; $P_1$ - i məhsulun orta qiymətini göstərir).

C – qeyri-ərzaq malları istehlakının dəyərini;

D – pullu xidmətlərə xərclərin məbləğini;

E – vergiyə və məcburi ödənişlərə xərcləri göstərir.

**Əhalinin həyat səviyyəsinə görə diferensiasiyası göstəriciləri**. Səmərəli sosial siyasət yürütmək, dövlətin qəbul etdiyi qərarların təsirini proqnozlaşdırmaq üçün əhalinin müxtəlif qruplarının maddi vəziyyətinə dair tam və dürüst məlumat olmalıdır. Cəmiyyətin həyat səviyyəsinə görə diferensiasiyası iqtisadi, sosial-demoqrafik və coğrafi amillər kompleksinin qarşılıqlı təsirinin nəticəsidir. Əhalinin sosial qeyri-bərabərliyinin qiymətləndirilməsi statistikanın əsas vəzifələrindən biridir.
Son illərdə bazar münasibətlərinin inkişafı ilə əlaqədar olaraq cəmiyyətin təbəqələşməsinin artması həmin istiqamətdə statistika işlərinin aktuallığını ciddi surətdə artırmışdır.

Maddi nemətlərin və xidmətlərin istehlakında əhalinin qeyri-bərabərliyi xeyli dərəcədə onların əldə etdikləri gəlirlərin qeyri-bərabərliyi ilə şərtlənir. Bununla əlaqədar olaraq əhalinin iqtisadi diferensiasiyasının ölçülməsinin əsasını ayrı-ayrı qruplar arasında gəlirlərin bölgüsünün qeyri-bərabərliyi durur. Əhalinin həyat səviyyəsinə görə diferensiasiyasını qiymətləndirmək üçün aşağıdakı göstəricilərdən istifadə olunur:

1) hər nəfərə düşən pul gəlirlərinin səviyyəsinə görə əhalinin bölgüsü;
2) əhalinin gəlirlərinin diferensiasiyası;
3) əhalinin müxtəlif qrupları arasında pul gəlirlərinin bölgüsü;
4) gəlirlərin təmərküzləşməsi əmsalı;
5) kasıblıq həddindən aşağı gəliri olan əhalinin sayı; kasıölıq əmsalı.

Əhalinin həyat səviyyəsi statistikası onların gəlirlərinin səviyyəsindəki fərqləri də öyrənməklə məşğuldur. Bu məqsədlə yoxsulluq həddində yaşayan əhalinin hissəsi göstəricisindən istifadə olunur. Yoxsulluq əmsalı yaşayış minimumundan aşağı gəliri olan əhalinin sayının ölkə əhalisinin ümumi sayına nisbəti ilə hesablanır.

Gəlirlərin ümumi məbləğinin əhalinin müxtəlif qrupları arasında hansı nisbətdə bölüşdürülməsinin öyrənilməsi də böyük maraq doğurur. Bu məsələnin belə qoyuluşu əhalinin müxətlif qrupları arasında gəlirlərin təmərküzləşmə dərəcəsini təhlil etməyə və onların qeyri-bərabər bölüşdürülməsini miqdarca qiymətləndirməyə imkan verir. Təhlil aləti Lorens əyrisidir və onun əsasında hesablanan gəlirlərin təmərküzləşməsi indeksi (Cini əmsalı) və fondlar əmsalıdır.

Lorens əyrisi əhalinin sayının və onların əldə etdiyi ümumi gəlirin məbləğinin nə dərəcədə uyğun gəldiyini əks etdirir. Onu qurmaq üçün əhali sayca bərabər olan və hər nəfərə düşən gəlirin səviyyəsinə görə fərqlənən qruplara ayrılır. Qruplar adambaşına düşən gəlirin məbləğinə görə yaradılır. Hər qrup üzrə tezlik, yəni əhalinin ümumi sayından və gəlirlərin ümumi məbləğində hissə, onun əsasında isə toplanmış tezliklər müəyyən edilir. Düzbucaqlı koordinat sistemində absis oxu üzərində əhalinin sayına görə qrupların toplanmış tezliklər yazılır, ordinat oxu üzərində isə artan yekunla gəlirlərin hissəsi qeyd olunur. Gəlirlər bərabər surətdə bölüşdürülərsə, ən aşağı gəlirlə əhalinin ondabiri gəlirlərin ümumi məbləğinin 10%-nə malik olacaq; əhalinin beşdəbiri isə gəlirlərin 20%-ə malik olar.

Aşağıdakı şəkildə gəlirlərin bərabər surətdə bölgüsü koordinatın A başlanğıcı ilə C nöqtəsini birləşdirən düz xətt ilə göstərilir.

Sxem 34




Lorens əyrisi.

Gəlirlərin bölgüsündə qeyri-bərabərlik nə qədər çox olarsa, gəlirlərin faktiki bölüşdürülməsi xətti bərabər bölüşdürmə xəttindən bir o qədər fərqlənəcəkdir. Gəlirlərin bölüşdürülməsində bərabərsizliklər nə qədər güclü olarsa, $S_o$ fiqurunun sahəsi bir o qədər böyük olacaqdır. $S_o$ fiqurunun sahəsi ilə ACD üçbucağının sahəsini müqayisə etməklə (sonuncu $S_o+S_1$-in sahələrinin cəminə bərabərdir), gəlirlərin qeyri-bərabər bölüşdürülmə dərəcəsinin miqdar ölçüsünü əldə edirik. Buna gəlirlərin təmərküzləşmə indeksi və yaxud Cini əmsalı deyilir.

Bundan əlavə fondlar əmsalı ($Ə_f$) əhalinin iki qrupu üzrə: ən yüksək gəlirlə 10% əhalinin və ən aşağı gəlirlə 10% əhalinin orta gəlirlərinin nisbətini əks etdirir.

Cəmiyyətin inkişafının müxtəlif cəhətlərini az-çox əks etdirə bilən kompleks göstəricinin yaradılması cəhdləri olmuşdur. BMT-nin inkişaf proqramı mütəxəssislərinin işləyib hazırladığı insanın inkişaf indeksini (insan potensialının inkişaf indeksini) belə cəhdlərin uğurlusu hesab etmək olar. Insanların müxtəlif tələbatının ödənilməsi üçün mövcud imkanların ölçülməsi vasitəsi kimi bu göstəricidən cəmiyyətin sosial tərəqqisini səciyyələndirmək üçün istifadə oluna bilər. Bu indeks insanın inkişafını səciyyələndirən üç əsas komponentini: ömür müddətini, təhsil səviyyəsini və adambaşına düşən ÜDM-un səviyyəsini əhatə edən ümumiləşdirici göstəricidir. O, həm əhalinin maddi rifahını, həm də həyatın keyfiyyətini əks etdirir və həyat səviyyəsinin ən aydın indikatorlarının hesabi ortası kimi hesablanır:

$$Jins.^{pot} = \frac{1}{3} \cdot \Sigma \dot{I}_{x1}$$

Burada $J_{xi}$ – uşaq doğularkən qarşıdakı ömrünün gözlənilən uzunluğu indeksini;

$Jx_2$ – əhalinin təhsil səviyyəsi indeksini (ibtidai, orta və ali təhsili olan əhalinin xüsusi çəkisi indeksini);

$Jx_3$ – hər nəfərə düşün real ÜDM indeksini göstərir.
BMT-nin inkişaf metodologiyasına uyğun olaraq qeyd edilən ümumi indeksləri hesablayarkən faktiki göstəricilərlə müqayisə aparmaq üçün standart kimi qəbul olunmuş minimum və maksimum qiymətlərdən istifadə olunur:

$$J_x = \frac{X_1\text{-nin faktiki qiyməti} - X_1\text{-nin minimum qiyməti}}{X_1\text{-nin maksimum qiyməti} - X_1\text{-nin minimum qiyməti}}$$

Doğularkən insanın gözlənilən ömür müddəti indeksi üçün maksimum yaş həddi 85 il, minimum yaş isə 25 il, təhsil səviyyəsi indeksi isə 0-la 100% arasında, hər nəfərə düşən real ÜDM indeksi isə 100 dollarla 40 min dollar fasiləsi qəbul olunur. Deməli, bu ümumiləşdirici göstəricinin mahiyyətindən görünür ki, əhalinin orta ömür müddətinin 85 ilə çatdırılması, hamının təhsilli olmasının mümkünlüyü və əhalinin layiqli gəlir səviyyəsi ilə təmin edilməsi inkişafın son məqsədi hesab olunur.

Beynəlxalq təşkilatlar müxtəlif ölkələr üzrə insan potensialının inkişafı səviyyəsini müqayisəli qiymətləndirərkən insan potensialının inkişaf indekslərindən geniş istifadə edirlər. Qəbul edilən bölgüyə görə həmin indeksin qiyməti 0,8 və ondan çox olarsa, o ölkə insan potensialı yüksək inkişafa nail olan ölkə, 0,5-0,799 hüdudunda olarsa orta inkişaf etmiş ölkə, 0,5-dən aşağı olarsa inkişaf səviyyəsi aşağı olan ölkə hesab edilir.

Beləliklə, ümumiləşdirmə aparsaq belə nəticəyə gəlmək olar ki, respublikada əhalinin həyat səviyyəsini (yəni ölkəmizdəki sosial tərəqqini) qiymətləndirmək üçün təklif olunan göstərici bir sıra cəhətləri ilə mühüm əhəmiyyətə və üstünlüyə malikdir. Inteqral göstərici kimi bunun vasitəsi ilə insan resurslarının inkişafında nəinki bötövlükdə respublikada nail olunan səviyyəni qiymətləndirmək olar, hətta ayı-ayrı bölgələr üzrə bu göstəricini hesablamaq mümkündür ki, bu da bölgələrin sosial-iqtisadi inkişafı layihələrinə lazımi düzəlişlər və əlavələr etməyə imkan verəcəkdir.

**Əhalinin həyat səviyyəsi haqqında statistik informasiyanın əsas mənbələri.** Əhalinin həyat səviyyəsinə dair statistik informasiyanın əsas mənbələri aşağıdakılardır:

1. Əhalinin pul gəlirləri və xərcləri balansı;
2. Milli hesablar sistemi;
3. Əhali statistikası;
4. Sosial statistika;
5. Əmtəə və xidmətlər bazarı statistikası;
6. Qiymət statistikası;
7. Ev təsərrüfatlarının büdcələri statistikası.

Əhalinin həyat səviyyəsinə dair məmulatlar Dövlət Statistika Komitəsinin hər il dərc etdiyi bülletenlərdə, məcmuələrdə və başqa analitik tədqiqatların materiallarında daha ətraflı verilir.

## İstifadə olunan ədəbiyyatlar:


- С.М.Йагубов, А.Ж. Мяммядов. Сосиал-игтисади статистика. Дярслик. Бакы: «Игтисад Университети » няшриййаты, 2008, - 388 сящ.


## Mövzu 12. Əhalinin mənzil şəraiti, mənzil-kommunal, məişət, nəqliyyat və rabitə xidmətləri statistikası

**Plan:**

36. *Əhalinin mənzil şəraiti*
37. *Əhalinin mənzil-kommunal xidmətinin statistik göstəriciləri*
38. *Əhaliyə məişət xidməti statistikası göstəriciləri*
39. *Əhaliyə göstərilən nəqliyyat xidmətinin statistikası*

*40. Rabitə xidmətinin əsas göstəriciləri*

**Əhalinin mənzil şəraiti və mənzil-kommunal xidməti statistikasının göstəriciləri.** Əhalinin həyat səviyyəsinin kompleks tədqiqi təkcə onların gəlirlərinin, xərclərinin və maddi nemətlər və xidmətlər istehlakının səciyyələndirilməsi ilə bitmir. Həyat səviyyəsini daha ətraflı öyrənmək üçün əhalinin mənzil və mehmanxana ilə təmin olunması, kommunal, məişət, nəqliyyat, rabitə xidmətinin vəziyyəti, əhalinin istirahət və turizmlə əhatə olunması, səhhətinin vəziyyəti və tibbi yardımla təmin olunması, təhsil səviyyəsi, mədəniyyətin, incəsənətin və idmanın inkişaf səviyyəsi də tədqiq olunmalıdır. Cinayətkarlıq problemlərinin statistik öyrənilməsi də az əhəmiyyət kəsb etmir.

Statistika əhalinin mənzil şəraitini öyrənmək üçün mənzil fondunun həcmini müəyyən edir. Mənzil fondu dedikdə yaşayış evləri və başqa yaşayış binaları başa düşülür. Mənzil fondu mənsubiyyətinə görə üç qrupa ayrılır: 1) dövlət mənzil fondu; 2) mənzil-tikinti kooperativlərinə məxsus olan mənzil fondu; 3) xüsusi mülkiyyətdə olan mənzil fondu. Mənzil fondunun $m^2$-lə böyüklüyü əhalinin sayına bölməklə onun mənzillə təmin edilməsi dərəcəsi öyrənilir. Mənzil fondu faydalı sahədən və yaşayış sahəsindən ibarətdir. Faydalı sahə yaşayış otaqlarının və əlavə otaqların (mətbəx, dəhliz, vanna otağı) cəmi sahəsindən ibarətdir.

Əhalinin mənzillə təmin olunması səviyyəsini müəyyən etmək üçün statistika məskən salmanın sıxlığı və mənzillərin təcrid olunma dərəcəsini hesablayır. Məskən salmanın sıxlığı hər nəfərə düşən mənzil sahəsi ilə ölçülür. Mənzillərin təcrid olunması dərəcəsi – ayrıca mənzili olan ailələrin sayını ailələrin ümumi sayına bölməklə hesablanır. Mənzillərin abadlığı komunal xidmətinin aşağadıkı növlərilə səciyyələndirilir: elektrik işığı, su xətti, kanalizasiya, mərkəzi istiliklə və qaynar su ilə təmin olunma. 5 və daha çox mərətbəli binalar üçün onlarda liftin və zibil xəttinin olub-olmaması da göstərilir.

**Əhaliyə məişət xidməti statistikasının göstəriciləri.** Əhaliyə məişət xidməti onların maddi tələbatının daha tam ödənilməsinə şərait yaradır. Statistika məişət xidməti müəssisələrinin növləri üzrə sayını uçota alır. Məişət xidmətinin bütün növləri iki sahə qrupuna ayrılır: sənaye xarakterli iş və xidmətlər və qeyri-sənaye xarakterli iş və xidmətlər I qrupa ayaqqabı və paltarların fərdi tikişi və təmiri üzrə, metal məmulatların təmiri üzrə, mebelin, trikotajın təmiri emalatxanaları daxildir. II qrupa hamam və camaşırxanalar, fotoqraflar, mənzil təmiri, kirayə

məntəqələri daxil edilir. Məişət xidməti sahəsinin bütün işinin yekunu kimi pullu xidmətlərin ümumi həcmindən və məişət müəssisələrinin pul mədaxilinin ümumi məbləğindən istifadə olunur. Əhalinin hər nəfərinə düşən məişət xidmətinin həcmi və hər 10 min əhaliyə düşən məişət xidməti müəssisələrinin sayı da geniş istifadə olunur. Məişət xidməti göstəriciləri şəhər və kənd yerləri üzrə ayrıca hesablanır.

**Əhaliyə nəqliyyat və rabitə xidmətinin əsas göstəriciləri.** Əhaliyə nəqliyyat xidməti statistikasında bir sıra kateqoriyalardan istifadə olunur: sərnişin dövriyyəsi, əhalinin hərəkət etmə əmsalı, sərnişinin orta hərəkət sürəti.

Sərnişin dövriyyəsi – hesabat dövründə əldə edilmiş biletlər üzrə daşınılan bütün sərnişinlərin cəmi getdiyi məsafəni əks etdirir. Bu göstərici daşınılan sərnişinlərin sayını daşıma məsafəsinə vurmaqla hesbalanır. Əhalinin hərəkətetmə əmsalı – rayonun və ya ölkənin hər bir sakininə düşən müəyyən növ nəqliyyatla gedişin sayıdır. Sərnişin dövriyyəsini daşınılmış sərnişinlərin sayına bölməklə daşımanın orta məsafəsi müəyyən edilir. Sərnişinlərin orta hərəkət sürəti isə vaxt vahidi ərzində sərnişinin getdiyi yolun uzunluğu ilə ölçülür.

Rabitə müəssisələri əhaliyə telefon, poçt göndərmələri, redioverilişləri, televiziya vasitəsilə xidmət göstərir. Statistika xidmətin hər növü üzrə və ümumi həcmini uçota alır (poçt göndərmələrinin növləri üzrə sayı, çəkisi, telefon və radioveriliş nöqtələrinin orta illik sayı, televiziya kanallarının sayı və verilişlərin müddəti).

Rabitə xidmətinin ümumi həcmi rabitə müəssisələrinin müxtəlif xidmətlərdən əldə etdiyi pul mədaxilinin ümumi məbləğilə ölçülür. Əhalinin hər 100 min nəfərinə düşən poçt göndərmələrinin sayı da hesbalanır.

## İstifadə olunan ədəbiyyatlar:


- С.М.Йагубов, А.Ж. Мяммядов. Сосиал-игтисади статистика. Дярслик. Бакы: «Игтисад Университети » няшрийййаты, 2008, - 388 сящ.
- Aslanov A.M. Statistikanın ümumi nəzəriyyəsi və sosial-iqtisadi statistika. Bakı, 2005, 240 s

- Голуб Л.А. Социально-экономическая статистика: Учеб, пособие для студ. высш. учеб, заведений. - М.: Гу манит, изд. центр ВЛАДОС, 2009. - 272 с.


## Mövzu 13. Səhiyyə xidməti, idman və təhsil, mədəniyyət, incəsənət və turizmin inkişafının statistik öyrənilməsi

**Plan:**

1. *Səhiyyə xidməti və idman statistikasının əsas göstəriciləri*
2. *Təhsil statistikasının göstəricilər sistemi*
3. *Mədəniyyət və incəsənətin statistikası*
4. *Turizmin inkişafının statistik göstəriciləri*

**Səhiyyə xidməti və idman statistikasının əsas göstəriciləri.** Səhiyyə – əhalinin sağlamlığını qorumaq, xəstəliklərin qarşısını almaq, sağlam əmək və məişət şəraiti təmin etmək, ölümün sayını azaltmaq və əhalinin ömür müddətini uzatmaq sahəsində dövlətin həyata keçirdiyi geniş tədbirlər sistemindən ibarətdir. Həmin tədbirlər müalicə – profilaktika və sanitariya profilli səhiyyə təşkilatlarının fəaliyyətilə həyata keçirilir.

Səhiyyə orqanları əhaliyə müalicə və profilaktika xidməti göstərir. Əhalinin xəstələnməsi və ölümünün sayının azaldılması üzrə işlər görür, ətraf mühit, mənzillərə və kommunal qurğularına, ərzaq və sənaye müəssisələrinə sanitariya nəzarətini həyata keçirir, aptek işini genişləndirir və sanitariya maarifi üzrə işlər görürlər.

Sanitariya-kurort idarələrinə – sanatoriyalar, sanatoriyaprofilaktoriyalar, müalicə pansionatları, kurort poliklinikaları və müxtəlif müalicəxanalar aid edilir. Statistika idmanın, bədən tərbiyəsi və turizmin inkişafını da öyrənməlidir. Bu işdə istirahət evləri, pansionatlar, turist bazaları, səyahət və turist agentlikləri və büroları böyük rol oynayırlar. Bədən tərbiyəsi və istirahət idarələrinin növləri üzrə sayı və onlarda çalışan işçilərin sayı da öyrənilir.

Səhiyyə statistikası əhalinin səhhətinin vəziyyətini onun ümumi xəstələnməsini uçota almaq və əldə edilən məlumatları təhlil etməklə öyrənir. Bu əhalinin müalicə idarələrinə müraciətinə əsasən öyrənilir. Əgər əhalinin xəstərəlnməsi statistikası tibbi yardım üçün xəstələrin müracətinə əsasən qurularsa, müvəqqəti əmək qabiliyyətini itirməklə xəstələnmə statistikası ayrıca aparılır. Xəstələnmə halı uçota alınarkən həkimə müraciət etmə hallarının hamısı qeydə alınır. Əgər eyni xəstəliklə həkimə təkrarən bir neçə dəfə müraciət edilərsə, sonrakı müraciətlər nəzərə alınmır. Qrip, angina və s. üzrə həkimə təkrar müraciət olunma hallarının hamısı qeydə alınır. Müalicə olunmuş və yenidən başvermiş xəstəliklərə ilk xəstələnmə kimi baxılır. Xəstəliklərin uçotu və təhlili xəstələrə verilən statistika talonuna və qəti diaqnoza əsaslanır. Statistika müalicəxanalara müraciətin ümumi sayını və habelə xəstəliklər üzrə sayını uçota alır: 1) yolxucu xəstəliklər; 2) mühüm yoluxucu olmayan xəstəliklər; 3) müvəqqəti əmək qabiliyyətini itirməklə xəstələnmə; 4) tədqiqat yolu ilə aşkar edilmiş xəstəliklər;5) profilaktik tibbi müayinələr. Xəstələnmənin ümumi səviyyəsi əhali qrupları üzrə xəstələnmə hallarının sayını həmin qrup əhalinin ümumi sayına nisbətilə hesbalanır. Xəstələnmənin quruluşu isə ayrı-ayrı xəstəliklərin sayının xəstələnmələrin ümumi sayına nisbətilə hesablanır. Əhalinin hər 100 min nəfərinə düşən xəstələnmə göstəricisi isə bir sıra qüsurlara malikdir: hesablama bütün əhali üzrə birgə aparılır, bəzi xəstəliklərə ancaq uşaqlar tutulurlar. Xəstələnmə səviyyəsi əhalinin yaş qrupları

üzrə hesablaşma daha yaxşı olar. Səhiyyə statistikasında xəstələnənlər bir sıra demoqrafik əlamətlər üzrə qruplaşdırılırlar (cinsə, yaşa, ixtisasa, milliyyətə və s. görə).

Müvəqqəti əmək qabiliyyətini itirməklə xəstələnməyə dair məlumata əsasən bir sıra nisbi göstəricilər hesablanır: 1) Hər 100 işçiyə düşən əmək qabiliyyətini itirmə hallarınnın sayı; 2) hər 100 işçiyə düşən əmək qabiliyyətini itirmə günlərinin sayı; 3) xəstələnmənin orta müddəti. Müalicə-profilaktika tibbi idarələri şəbəkəsinin uçotuna da böyük əhəmiyyət verilir. Müalicə idarələrinin təsnifatına uyğun olaraq bütün səhiyyə təşkilatları dörd qrupa ayrılır: müalicə-profilaktika; sanatoriya - profilaktika; tibbi-məhkəmə ekspertizası; apteklər.

I qrupa - poliklinikası olan xəstəxanalar, dispanserlər, kənd ambulatoriyaları, səhiyyə məntəqələri, uşaq və anaların mühafizəsi idarələri və sanatoriya-kurort təşkilatları daxil edilir.

II qrupa - epidemiya əleyhinə mübarizə aparan sanitar idarələri və sanitariya maarifi təşkilatları daxildir.

III qrupa - tibbi-məhkəmə ekspertizaları büroları daxildir.

IV qrupa – apteklər, aptek köşkləri və anbarları daxildir.

Xəstəxanaların tipinə, onlarda olan çarpayıların sayına və il ərzində daxil olan xəstələrin sayına görə bölüşdürülməsi göstəriciləri də mühüm əhəmiyyət kəsb edir.

Xəstəxanaların işi öyrənilərkən aşağıdakı göstəricilərdən istifadə edilir: çarpayı fondundan istifadə, çarpayıların dövriyyəsi və xəstəxanalarda ölümün sayı.

Çarpayı fondundan istifadə il ərzində çarpayıların faktiki tutulma günlərinin ümumi sayı ilə səciyyələndirilir. Bu göstərici xəstəxanalarda olma çarpayı-günlərinin ümumi sayını çarpayıların ortaillik sayına nisbətilə hesbalanır. Xəstəxanalarda ölüm göstəricisini hesbalamaq üçün hesabat dövründə ölən xəstələrin sayını bütün xəstələrin sayına bölmək lazımdır.

Əhalinin səhiyyə idarələri ilə təmin olunması göstəricilərinə: orta hesabla hər 10 min nəfərə düşən həkimlərin və xəstəxana çarpayılarının sayı aid edilir.

Əhalinin sağlamlığının möhkəmləndirilməsi işində bədən tərbiyəsi və idmanın inkişaf etdirilməsi böyük əhəmiyyətə malikdir. Statistika idmançı kollektivlərinin və cəmiyyətlərinin sayını, idmançıların sayını, idman ustalarının sayını, dərəcəli idmançılar hazırlanmasını və habelə idman qurğularının, idman komplekslərinin (stadionların, idman zallarının, üzgüçülük hovuzlarının, futbol meydançalarının və s.) sayını və tutumunu uçota almaqla bədən tərbiyəsi və idmanın vəziyyətini və inkişafını öyrənir. Idman işçilərinin sayına və təhsil səviyyəsinə dair məlumatlar da toplanır. Idmançı mütəxəssislər hazırlayan müxtəlif məktəblərin sayı və habelə hazırlanan mütəxəssislərin sayı da uçota alınır.

**Təhsil statistikasının göstəricilər sistemi.** Maarif dedikdə əhalinin təhsil səviyyəsinin yüksəldilməsinə yönəldilən tədbirlər sistemi nəzərdə tutulur. Bu isə ölkədə ümumtəhsil, texniki-peşə, xüsusi orta və ali təhsil məktəbləri şəbəkəsi vasitəsilə həyata keçirilir. Məktəbəqədər uşaq tərbiyə idarələri (körpələr evi, uşaq bağçaları) və kadr hazırlayan və ixtisasartıran müxtəlif institutlar, fakültələr və kurslar da maarif sisteminə aid edilir.

Maarif statistikasının əsas göstəriciəlrinə: növlər üzrə tədris müəssisələrinin sayı, onlarda oxuyanların sayı, tələbə qəbulu, mütəxəssis buraxılışı və məktəbdən yayınma göstəriciəlri aid edilir. Ümumtəhsil məktəbləri statistikası ibtidai, doqquzillik və orta məktəblərin bütün tipini əhatə edir. Məktəbyaşlı uşaqların sayının hər il uçota alınması məlumatına əsasən aşağıdakı göstəricilər hesablanır: 1) müəyyən rayonda yaşayan uşaqların yaş qrupları üzrə məktəb təlimi ilə əhatə olunma göstəriciləri; bu məktəbdə oxuyan uşaqların sayının müvafiq yaşda olan uşaqların sayına nisbətilə hesablanır; 2) məktəb şəbəkəsinin inkişafı göstəriciləri: şagird yerlərinin sayı və onların şagirdlərlə

dolması dərəcəsi, məktəblərdə dəst siniflərin mövcud olması göstəricisi. Siniflərin dolması əmsalı hər sinifdə fatkiki oxuyanların sayını norma üzrə şagirdlərin sayına bölməklə hesablanır.

Məktəbdənkənar və məktəbəqədər idarələrin şəbəkəsi də öyrənilir. Uşaq bağçaları və körpələr evi şəbəkəsi haqqında məlumat toplanır və təhlil olunur. Uşaq müəssisələrindəki uşaqların sayı və uşaqların məktəbəqədər uşaq idarələri ilə əhatə olunma əmsalı da hesablanır. Gənclər sarayları və evləri, uşaq idman məktəbləri, gənc təbiətçilər stansiyaları və sairə məktəbdənkənar uşaq idarələrinə aid edilirlər. Kadr hazırlığı statistikası ali və orta ixtisas məktəblərinin sayı, tələbələrin sayı, tərkibi, hərəkəti, müəllimlərin sayı və tərkibi göstəricilərini işləyib hazırlayır. Ali və orta ixtisas məktəbləri tələbələrinin tərkibi öyrənilərkən onların yaşına, cinsinə, milliyətinə və ixtisasına görə qruplaşdırılmasından istifadə olunur. Tələbələrin tərkibində qadınların tutduğu xüsusi çəkisinə də fikir vreilir.

Respublikada ali və orta ixtisas təhsilinin inkişafını səciyyələndirən nisbi göstərici əhalinin hər 10 min nəfərinə düşən tələbələrin sayı və mütəxəssis buraxılışıdır.

Əhalinin savadlılıq və təhsil səviyyəsi göstəriciləri də hesablanır. Əhalinin savadlılıq səviyyəsi savadlı əhalinin sayını 100-ə vurub, 9-49 yaşlı əhalinin sayına bölməklə hesablanır. Müəyyən dildə yazıb-oxuya bilən və yaxud heç olmasa oxuya bilən şəxs savadlı hesab edilir.

10 yaşda və daha böyük yaşda olan əhalinin hər min nəfərinə düşən təhsilli şəxslərin sayı da hesablanır.

Ixtisaslı fəhlələrin hazırlanması ilə texniki-peşə, texniki məktəblər, fabrik-zavod məktəbləri məşğul olurlar. Texnikipeşə məktəbləri statistikası məktəblərin tipi, peşələr, ixtisaslar üzrə sayına dair məlumatı işləyib hazırlayır, şagirdlərin tərkibi isə cinsinə, yaşına və təhsili qurtardıqdan sonra verilən dərəcəyə görə qruplaşdırmaqla öyrənilir.

Maarif və kadr hazırlığı statistikası təhsil məktəblərinin müəllimələrlə təmin olunması göstəricilərini də hesablayır: onların sayı, hərəkəti, ixtisas və peşələr üzrə tərkibi öyrənilir. Ali məktəb müəllimlərinin tərkibi elmi rütbələr (professor, dosent, assistent) və elmi dərəcələr (elmlər doktoru və namizədi) üzrə öyrənilir.

Təhsilin keyfiyyətini qiymətləndirmək üçün müvəffəqiyyət göstəriciləri hesablanır. Məsələn, ümumtəhsil məktəblərində şagirdlərin yuxarı sinfə keçmə əmsalları hesablanır. Dərs ilinin axırında şagirdlərin ümumi sayında ikinci il həmin sinifdə oturanların xüsusi çəkisi hesablanır.

**Mədəniyyət və incəsənət və turizmin inkişafının statistik öyrənilməsi.** Mədəniyyət sözün geniş mənasında tarixən insan cəmiyyətinin yaratdığı və inkişaf eidirdiyi maddi və mənəvi qiymətlilərin məcmuudur. Maddi və mənəvi mədəniyyət fərqləndirilir. Maddi mədəniyyətə məhsuldar qüvvələrin vəziyyəti və adamların əmək vərdişləri, mənəvi mədəniyyətə isə elmin, maarifin, incəsənətin və ictimai təfəkkürün vəziyyəti daxildir.

Mədəniyyət idarələrinə: kitabxanalar, muzeylər, sərgilər, klublar, məktəbdənkənar tərbiyə ocaqları; mədəniyyət və istirahət xiyabanları, nəbatat bağları, zooparklar, radio və televiziya verilişləri redaksiyaları və kitab palataları aid edilir.

Incəsənət idarələrinə tamaşa müəssisələri – teatrlar, kinoteatrlar, filarmoniyalar, sirklər, konsert kollektivləri, operalar və s. aid edilir. Mədəniyyət statistikası mədəniyyət və incəsənət idarələrinin sayını və iş göstəricilərini öyrənir. Klublar tipinə görə, onlarda kitabxanaların olub-olmamasına görə, kinoqurğuların, radioqurğuların, dərnəklərin sayına görə, tamaşa salonundakı yerlərin sayına görə qruplaşdırılırlar. Klubların fəaliyyətini səciyyələndirən göstəricilərdən biri onların təşkil etdiyi tədbirlərə, məsələn, mühazirələrə, axşamlara, konsertlərə və s. gələn dinləyicilərin sayıdır. Teatrların işini səciyyələndirən göstəricilərlə: onların sayı, tutumu, tamaşaların sayı, o cümlədən yeni qoyulan tamaşaların sayı, repertuarların sayı, tamaşaya qoyulan əsərlərin adı və sayı aiddir.

Hər kino qruğusuna düşən əhalinin sayı və ya əhalinin 10 min nəfərinə düşən kinoqurğularının sayı, kino-teatrlarda olan yerlərin sayı və əhalinin hər 10 min nəfərinə düşən kinoya gələnlərin sayı hesablanır. Kitab, broşü ra, qəzet, jurnal buraxılışının sayı, onların tirajı, o cümlədən milli dildə buraxılışın və tirajların sayı da uçota alınır.

Əhalinin istirahətinin ən geniş yayılmış formalarından biri turizmdir ki, o analoji xidmət növlərinə nisbətən daha sürətlə ikişaf edir. Beynəlxalq standartlara uyğun olaraq turizmin üç əsas növü fərqləndirilir:

- sakinlərin öz ölkəsində səyahəti (daxili);
- xaricilərin ölkə daxilində səyahəti;
- sakinlərin başqa ölkələrə səyahəti.

Turizmin bu növlərinə uyğun olaraq aşağıdakı kateqoriyaları fərqləndirilir: ölkə hüdudlarında turizm; milli turizm və beynəlxalq turizm.

Turizmi statistik öyrənərkən müşahidə predmeti hər şeydən əvvəl daxili turizmdir (sakinlərin öz ölkəsində səyahətidir).

Məlumat mənbəyi – turizm və ekskursiyalarla məşğul olan təşkilatların illik hesabatları və xüsusi təşkil olunan birdəfəlik seçmə müşahidələridir. Bu mənbələrdə turizm təşkilatlarının maddi bazasının vəziyyətinə, şəbəkənin faktiki istifadəsinə, göstərilən xidmətərin növlərinə və habelə maliyyə fəaliyyətinə dair məlumatlar əks olunur. bu sahələrdə çarpayı fondundakı yerlərin sayına, onların istifadəsinə, turistlərin yataq otaqlarının, onlardakı yerlərin sayına, yaşayış yerlərinin avadanlığına, istirahət və tamaşaların növünə və s. dair göstəricilər verilir. Turist təşkilatları fəaliyyətinin maliyyə göstəriciləri çarpayı – günün dəyəri, gəlirlər və onların mənbələri,xərclər və onların tərkibi və s. haqqında da məlumatlar hesabatda da öz əksini tapır. Həmin göstəricilərin təhlili tədqiq olunan obyektərin turist resurslarını, onların istifadəsini, göstərilən xidmətlərin keyfiyyətinin səviyyəsini, işin səmərəliliyini, xidmətlərin əhalinin tələbatına nə dərəcədə uyğun olmasını xarakterizə etməyə imkan verir.

**İstifadə olunan ədəbiyyatlar:**


- С.М.Йагубов, А.Ж. Мяммядов. Сосиал-игтисади статистика. Дярслик. Бакы: «Игтисад Университети » няшрийyаты, 2008, - 388 сящ.
- Aslanov A.M. Statistikanın ümumi nəzəriyyəsi və sosial-iqtisadi statistika. Bakı, 2005, 240 s
- Голуб Л.А. Социально-экономическая статистика: Учеб, пособие для студ. высш. учеб, заведений. - М.: Гу манит, изд. центр ВЛАДОС, 2009. - 272 с.


## Mühazirə 14. Hüquq və məhkəmə statistikasının, siyasi və ictimai həyat stayistikasının əsas göstəriciləri

**Plan:**

5. *Hüquq və məhkəmə statistikası*
6. *Siyasi və ictimai həyat statistikasının əsas göstəriciləri*

7. *Sosial sfera haqqında statistik informasiyanın mənbələri*

**Hüquq və məhkəmə statistikasının əsas göstəriciləri.** Ən ciddi sosial problemlərdən biri cinayətkarlıqdır. Azərbaycanda sosial, siyasi və iqtisadi vəziyyətin kəskin dəyişməsi, habelə ictimai şüurun yeni şəraitdə həyata hazır olmaması ölkədə kriminal şəraitin kəskinləşməsinə gətirib çıxardı.

Cinayətkarlıq – sosial hadisədir. Bu hadisəni səciyyələndirmək üçün daxili işlər, ədliyyə və prokurorluq orqanlarının topladığı məlumatlardan istifadə olunur. Həmin məlumatları şərti olaraq üç hissəyə bölmək olar: qeydə alınmış cinayətlərin sayı, cinayətkarların sayı və sosial-kriminal tərkibi, cinayətkarlıqdan dəyən zərərin məbləği. Mühakimələrə dair statistika məlumatına mühakimə olunanların sayı, onların sosial-kriminal tərkibi və cəzanın həddi də daxildir və ədliyyə orqanlarının hesabatlarında əks olunur.

Məhkəmə statistikasının məlumatları cinayətkarlığın və mühakiməçilərin qanunauyğunluqlarının və meyllərini aşkar etməyə, cəza tədbirlərinin səmərəliliyini qiymətləndirməyə kömək edir.

Mühakimə olunanların statistik kartoçkası ilk uçot sənədidir və o dörd bölmədən ibarətdir: 1) məhkumlara dair məlumatlar; 2) cinayətlər haqqında məlumat; 3) məhkəmənin hökmünə dair məlumat; 4) kasasiya qaydasında işlərə baxılması.

Haqqında məhkəmənin hökm çıxardığı şəxslər mühakimə olunanların sayına daxil edilir. Mühakimə olunanların sosial-kriminal tərkibi aşağıdakı göstəricilərlə xarakterizə edilir: yaşı, cinsi, məşğuliyyəti, təhsili, əvvəlki məhkumluq və cinayətin baş vermə şəraiti (sərxoşluqla, narkotik həyəcan, qruplarla və s.).

Məhkum olunanlar məşğuliyyətinə görə: fəhlələrə, qulluqçulara, kəndlilərə, xüsusi müəssisələrin işçiləri, şagirdlərə, işləməyən və ya təhsil almayanlara, o cümlədən işsizlərə və məhkumlara ayrılır. Hesabatda təkrar cinayət törədən şəxslərin sayı ayrıca göstərilir. Belə məlumatı ancaq ədliyyə orqanlarının təqdim etdiyi hesabatlarda verilir. Şüurlu surətdə törədilən və üzərindən götürülməmiş məhkumluğu olan şəxslər retsidivist adlanır. Təhlükəli və xüsusi təhlükəli retsidivistlərin sayının və ya xüsusi çəkisinin artması retsividivist cinayətkarlığın artmasından xəbər verir. Statistik hesabatlarda bir, iki, üç və daha çox məhkumluğu olan retsidistvlər ayrıca göstərilir.

**Siyasi və ictimai həyat statistikasının əsas göstəriciləri.** Cəmiyyətin siyasi sistemi statistikası dövlət hakimiyyətinin strukturunu, dövlət və ictimai təşkilatlar, sosial qruplar arasındakı münasibətləri, hakimiyyət məsələsi və siyasətin yaradılması və həyata keçirilməsində dövlət ilə ayrı-ayrı vətəndaşlar arasındakı münasibətləri kəmiyyət göstəricilərində əks etdirən sosial statistikanın bir bölməsidir.

Siyasi və ictimai həyat statistikasının predmeti dövlət və onun idarələrində, siyasi partiyalarda, ictimai təşkilatlarda və birliklərdə, əmək kollektivlərində və bütövlükdə cəmiyyətin siyasi sistemində baş verən hadisələrin kəmiyyət tərəfidir.

Statistik  məlumatlar cəmiyyətin və dövlətin inkişaf qanunauyğunluqlarını tam və hərtərəfli açmağa, yeni meydana gələn hadisələri anlamağa və onların xarakteristikasını  verməyə imkan yaradır. Statistik məlumatlar həm keçmişi, həm də dövlət orqanlarının müasir praktiki ehtiyclarını dərk etməyə, siyasi kursu təshih (korrektirovka) etməyə, iqtisadi və sosial siyasətin əsas istiqamətlərini işləyib hazırlamağa, siyasi sistemin inkişafının ən mühüm yollarını müəyyən etməyə xidmət edir.

Ölkədə gedən ictimai-siyasi proseslər və Respublikamızın beynəlxalq praktikada qəbul edilmiş uçot və statistika sisteminə keçməsi siyasi və  ictimai həyat statistikası göstəricilərinin beynəlxalq standartlara uyğunlaşdırılması zərurətini qarşıya qoymuşdur.

Siyasi və ictimai həyat statistikası aşağıdakı 4 bölməni əhatə edir: 1) seçki sistemi və dövlət hakimiyyəti orqanlarına seçkilər statistikası; 2) dövlət  idarəetmə və yerli özünüidarə statistikası; 3) siyasi və kütləvi ictimai təşkilatlar statistikası; 4) vətəndaşların siyasi və  şəxsi hüquqlarının həyata keçirilməsi statistikası.

I qrupa  aşağıdakı statistik göstəricilər  aid edilir:  irəli sürülmüş namizədlərin sayı (cəmi, o cümlədən, cinsi, yaşı, partiya mənsubiyyəti, təhsili və s.); qeydə alınmış namizədlərin sayı (cəmi, o cümlədən seçki dairələri üzrə, şəhərlər üzrə və i.a.); səsvermədə iştirak edən seçicilərin sayı (cəmi, o cümlədən seçki dairələri və məntəqələri  üzrə, şəhərər üzrə; seçki günü müəyyən saata və bütövlükdə); etibarsız hesab edilən bülletenlərin sayı; təkrar seçki təyin edilən seçki dairələrinin sayı; müvafiq hakimyyət orqanlarına seçilənlərin sayı və tərkibi.

Inkişaf  etmiş ölkələrdə  seçicilərin tərkibi daha geniş təhlil olunur. Bu məqsədlə bülletendə  səs verənlərin cinsi və yaşı haqqında məlumatlar (18-25; 25-35;  35-45; 45-60 və çox) verilir.  Bu, səsverməyə gələnlərin strukturunu, müxtəlif kateqoriyadan olan seçicilərin son seçimini müəyyən etməyə və bunu ilkin sorğuların nəticələri ilə müqayisə etməyə imkan verir.

II qrup  göstəricilər dövlət idarəetmə  və yerli özünüidarə orqanlarının strukturu və fəaliyyətini əhatə edir. Burada  nazirlik və idarələrin sayı, orada işləyənlərin sayı və tərkibi, bələdiyyələrin sayı, bələdiyyələrin  deputatlarının sayı və müxtəlif əlamətlər üzrə tərkibi və s. göstəricilər hesablanmalıdır.

III qrupa  aşağıdakı statistik göstəricilər aid edilir:  siyasi partiyaların sayı; hər bir partiyada üzvlərin sayı,  cinsi, yaşı, təhsili və regionlar üzrə onların bölgüsü; partiyaların gəlirləri (cəmi, o cümlədən üzvlük haqqından, nəşriyyat və sair fəaliyyətdən); partiyaların xərcləri (cəmi, o cümlədən partiya  aparatının saxlanmasına, sosial-mədəni tədbirlərə, ilk təşkilatların xərcləri, xeyriyyəçilik fəaliyyətinə xərclər və s.); partiyaların buraxdığı qəzet və jurnalların sayı, onların tirajı; il ərzində keçirilən nümayişlərin sayı və s.

IV qrupa aşağıdakı göstəricilər aid edilir: mitinq, nümayiş keçirmək haqqında icra hakimyyəti orqanlarına olunan müraciətlərin sayı; icazə verilmiş mitinq və nümayişlərin sayı; icazı verilmədən keçirilən mitinq, nümayişlərin sayı; ictimai qayda-qanunu pozmaqda günahlandırılıb saxlanan mitinq və nümayiş iştirakçılarının sayı; tətillərin sayı (cəmi, o cümlədən iqtisadiyyat sektorları və sahələri üzrə, tələblərin xarakteri üzrə (iqtisadi, siyasi, qarışıq); tətil iştirakçılarının sayı-cəmi, o cümlədən orta hesabla bir tətildə (orta hesabla bir müəssisəyə düşən), tətil iştirakçılarının regionlar, iqtisadiyyat sektorları və sahələri, habelə tələblərin xarakteri üzrə bölgüsü; tətildə iştirak edən işçilərin işləmədiyi vaxtın miqdarı-cəmi; daimi yaşamaq üçün xarici ölkələrə getmək haqqında xahişlə müraciət edən ölkə vətəndaşlarının sayı və tərkibi; xahişi yerinə yetirilənlərin sayı; daimi yaşamaq üçün ölkəmizə gəlmək haqqında müraciət edən digər ölkə vətəndaşlarının sayı, o cümlədən bizim ölkənin keçmiş vətəndaşları; yazışmaların (məktubların), telefon danışıqlarının, teleqram göndərmələrinin gizliliyinin (sirrinin) pozulması üzrə qeydə alınmış cinayətlərin sayı; vətəndaşların toxunulmazlığının pozulması qeydə alınmış hadisələrin sayı; fəaliyyətdə olan dini birliklərin sayı; fəaliyyətdə olan dini təhsil müəssisələrinin sayı (cəmi, o cümlədən kateqoriyalar üzrə, onlarda təhsil alanların sayı); vətəndaşların hüquq və qanunu mənafelərini müdafiə etmək üçün məhkəməyə təqdim olunmuş iddiaların sayı; - vəzifəli şəxslərin qanunsuz hərəkətləri haqqında vətəndaşların məhkəməyə müraciətlərinin sayı; qeyri-dövlət radiostansiyalarının sayı; qeyri-dövlət telekanallarının sayı; qeyri-dövlət, habelə heç bir partiyaya aidiyyatı olmayan qəzet və jurnalların sayı.

Vətəndaşların ictimai-siyasi fəallığının siyasi və vətəndaş hüquqlarının həyata keçirilməsinin meyllərini müəyyən etmək üçün bütün bu göstəriciləri dinamikada öyrənmək və təhlil etmək lazımdır. Sadalanan göstəricilər siyasi və ictimai həyat sahəsində əsas informasiyanı verir. Lakin ölkədə gedən ictimai-siyasi proseslərin və demokratiyanın inkişafı ilə əlaqədar olaraq göstəricilər sistemi də daima inkişaf etməli və təkmilləşməlidir.

Dövlətin beynəlxalq aləmdə tutduğu mövqeyini xarakterizə edərkən onun iqtisadi və siyasi vəziyyəti ilə yanaşı orada yaşayan əhalinin mənəvi vəziyyəti də nəzərə alınmalıdır. Iqtisadi və siyasi quruluşda baş verən dəyişikliklər əhalinin mənəvi vəziyyətinin də dəyişməsinə təsir göstərir.

Əxlaq, yaxud mənəviyyat (latın sözü moralis – əxlaq) ictimai şüurun əsas formalarından biri olub, adamların birbirinə və cəmiyyətə münasibətini əhatə edən prinsip və normaların məcmusunu ifadə edir.

Əhalinin mənəvi vəziyyətinin öyrənilməsi cəmiyyətin etik-əxlaqi inkişaf səviyyəsinin müəyyən edilməsinin əsasını təşkil edir. Ona görə də bu prosesin hərtərəfli öyrənilməsi statistika qarşısında duran əsas vəzifələrdən biridir. Bunun üçün statistika:

- əhalinin mənəvi vəziyyətini xarakterizə edən göstəricilər sistemini işləyib hazırlamalı və onların hesablanması metodologiyasını daima təkmilləşdirməli;

- əhalinin mənəvi vəziyyətinin səviyyəsinə sosial-iqtisadi və digər amillərin təsirini müəyyən etməli və onlrın kəmiyyət xarakteristikasını verməlidir.

Məlum olduğu kimi sosial statistikanın göstəriciləri sistemində əsas yerlərdən birini mənəviyyat statistikasının göstəriciləri tutur. Mənəviyyat statistikasının göstəriciləri sistemi cəmiyyətin etik-əxlaqi həyatı ilə sıx surətdə əlaqədar olub, onların dəyişmə istiqamətlərini xarakterizə edir. Mənəviyyat statistikasının göstəriciləri sistemi əsasən üç qrupda birləşdirilir.

Birinci qrup göstəricilərə adamların qəhrəmanlığı, yoldaşlıq və qarşılıqlı yardım göstəriciləri daxildir.

Ikinci qrupa - cəmiyyətdə baş verən sosial anomaliya hallarını xarakterizə edən göstəricilər daxildir.

Üçüncü qrup göstəricilərə isə – qanunpozma, cinayət və məhkəmə statistikasının göstəriciləri aid edilir.

Bu göstəricilərin daxilolma mənbəələri müxtəlif olduğuna baxmayaraq məzmun etibarı ilə eynidir. Yəni, bunlar əhalinin mənəvi vəziyyətinin səviyəsini xarakterizə edir. Bununla əlaqədar olaraq onların hesablanması metodikası ümumi şərtlər əsasında aparılır.

Mənəviyyat statistikasının göstəricilərinin hesablanması metodikasını nəzərdən keçirərkən və onun nəticələrini təhlil edərkən bir sıra cəhətlər (məsələn, əhalinin sosial tərkibi və milli xüsusiyyətləri, habelə cins, yaş tərkibi, dini dünyagörüşü və s.) nəzərə alınmalıdır.

Qəhrəmanlıq göstəriciləri hər bir dövlətin vətəndaşlarının yüksək vətənpərvərlik ideyalarının təcəssümü kimi xarakterizə olunur.

Yoldaşlıq və qarşılıqlı yardım göstəriciləri dedikdə hazırda fəaliyyət göstərən xeyriyyə assosiasiya fondlarını nəzərdən keçirmək lazımdır.

Sosial anomaliya göstəriciləri mənəviyyat statistikasının göstəriciləri sistemində əsas yerlərdən birini tutur. Sosial anomaliya dedikdə cəmiyyətin inkişafı prosesində adamların ümumi əxlaqi prinsiplərində əmələ gələn kənarlaşmalar və hüquq pozuntuları nəzərdə tutulur. Kənarlaşmalar və hüquq pozuntuları dedikdə isə adamların əxlaq prinsiplərinə ciddi zərbə vuran sərxoşluq, xuliqanlıq, narkomanlıq, müftəxorluq, tüfeylilik, əmək intizamının pozulması və s. kimi əlamətlər nəzərdə tutulur.

Sərxoşluq adamların iş qabiliyyətinin aşağı düşməsinə, əmək intizamının pozulmasına, istehsalda zay məhsulun əmələ gəlməsinə, istehsal qəzalarının baş verməsinə, habelə ailədə münasibətlərin pozulmasına səbəb olur.

Sosial anomaliya göstəricilərindən biri də «ağ ölüm» adı ilə tanınan narkomaniyadır. Başqa anomaliya göstəricilərindən biri də xuliqanlıqdır. Xuliqanlıq yalnız küçə, məhəllə və evlərdə deyil, həm də istehsalatda, ictimai yerlərdə, dövlət idarələrində də baş verir. Ictimai nizam-

intizamın kobud surətdə pozulması, cəmiyyətə qarşı hər bir hörmətsiz hərəkətə yol verilməsi xuliqanlıq hesab edilir.

Mənəviyyat statistikası öz göstəriciləri vasitəsilə istehlak edilən spirtli içki məmulatlarının həcmi, quruluşu və dinamikasını, çoxlu spirtli içki qəbul edənlərin sayını, habelə alkoqolizm və sərxoşluq nəticəsində dəyən sosial-iqtisadi ziyanın həcmini də müəyyən edir.

Mənəviyyat statistikasının göstəriciləri sistemində qanunpozma, cinayət və məhkəmə statistikasının göstəriciləri əsas yerlərdən birini tutur.

Qanunpozma və cinayət hadisələrinin dinamikasını xarakterizə etmək üçün onların əvvəlki dövrlərə nisbətən necə dəyişməsini müəyyən etmək lazımdır. Bundan ötrü baş verən cinayətlərin ümumi sayını, ümumi cinayətlər içərisində azad olunmuş, icbari əməyə cəlb olunanların sayını və onların xüsusi çəkisini müəyyən etmək olar. Alınan nəticələri təhlil etməklə cinayətkarlğın səviyyəsini və ona qarşı aparılan mübarizənin, onun aradan qaldırılması üçün hansı tədbirlərin görülməsi və bu tədbirlərin səmərəliliyini müəyyən etmək olur.

Ictimai rəy-ictimai şüurun müzakirə, mülahizə, tövsiyə, tələb formasında əks olunan və sosial həyatın hadisə və problemlərinin həllinə yönəldən təzahür formasıdır.

Ictimai rəyin öyrənilməsində başlıca məsələ ayrı-ayrı sosial qrupların  və bütövlükdə xalqın həyatında böyük əhəmiyyət kəsb edən aktual problemlərin aşkar edilməsidir. Ictimai rəy iri miqyaslı  sosial və ya təsərrüfat, habelə idarəçilik problemlərinin həllinin birbaşa əsası ola bilər.

Ictimai rəyin formalaşması prosesində ictimai rəy daşıyıcılarının obyektivliyinin və qarşılıqlı əlaqəsinin təmin olunması başlıca məsələlərdən biri olmalıdır. Belə ki, ayrı-ayrı sosial quplarıın, əmək kollektivlərinin və s. sosial marağı nəticədə cəmiyyətin ümumi sosial marağına gətirib çıxarır. Lakin bu heç də ictimai rəyi yaradan ayrı-ayrı fərdlərin və sosial qrupların fikir müxtəlifliyini inkar etmir.

Filmlər, fotoşəkillər, televiziya verilişləri, vətəndaşların məktubu və s. bu kimi sənədlərin öyrənilməsi də ictimai rəyin formalaşmasında mühüm rol oynayır. Bu sənədlərin öyrənilməsi əmək kollektivlərinin, sosial qrupların və ayrı-ayrı vətəndaşların ictimai rəyinin formalaşması və dəqiqləşdirilməsinə gətirib çıxarır ki, bu da sosial problemlərin həllində daha dolğun nəticələr əldə etməyə imkan verir. Kollektiv rəy toplantıların, iclasların müvafiq qərarlarında öz əksini tapır və əməyin təşkili, məişət şəraiti, sosial-mədəni tədbirlərin həyata keçirilməsində yaranan problemlərin həllinə yönəldilir.

Qeyd etmək lazımdır ki, sosial problemlərin həllində sosial statistikanın sosiologiya və ictimai rəyi tədqiq  edən digər elmlərlə qarşılıqlı əlaqəsi və vəhdəti zəruridir. Bu, ictimai rəy göstəricilərinin statistik öyrənilməsinə bilavasitə şərait yaradır. Ictimai rəy göstəriciləri statistika göstəriciləri sisteminin tərkib hissəsidir.

Ictimai rəyin statistika göstəriciləri sistemi ictimai həyatda baş verən hadisə və faktlar haqqında əhalinin fikirlərinin kəmiyyət tərəflərini xarakterizə edir. Ictimai rəy statistikasının göstəricilər sistemi sabit deyil. Belə ki, bu göstəricilər xüsusi təşkil olunmuş statistika müşahidələri zamanı, habelə aktual siyasi, iqtisadi və sosial problemlər haqqında əhalinin mülahizə və fikirləri əsasında formalaşır və ona görə də dəyişkəndir.

Ictimai rəyin statistikasının göstəriciləri əhali kütləsinin, əmək kollektivlərinin rəylərinin ümumiləşdirmiş xarakteristikasını konkret məkan və zaman daxilində əks etdirir. Bu proses müxtəlif səviyyələrdə həyata keçirilir: respublika miqyasında, region üzrə, əhalinin sosial qrupları üzrə, əmək kollektivləri üzrə, maraq və peşə üzrə.

Ictimai rəy statistikasının göstəricilər sistemi keçirilmiş sosial-siyasi tədbirlərə əhalinin münasibəti və ictimai həyatın müxtəlif tərəfləri haqqında onların fikirlərini xarakterizə edən aşağıdakı məsələəri əhatə edir:

- siyasi və sosial fəallıq;
- əməyə münasibət və əmək fəallığı;
- məişət və məişət xidməti;
- səhiyyənin və idmanın təşkili, əhalinin sağlamlığı;
- xalq təhsili və elmi müəssisələrin əhaliyə göstərdiyi xidmət;
- mədəni-maarif müəssisələrinin işi və xidmətin keyfiyyəti;
- elmə, incəsənətə, kinoya, televiziyaya, idmana münasibət;
- ailə və şəxsi münasibətlər və s.

Ictimai rəy statistikasının göstəricilərində ölkə üzrə, ayrıayrı bölgələr və rayonlar üzrə (bütövlükdə və o cümlədən əhalinin sosial qrupları üzrə) müzakirələrdə iştirak edən adamların, əmək kollektivlərinin, ictimai təşkilatların sayı, habelə dərc olunmuş sənədə verilən təkliflərin, edilən dəyişikliklərin və əlavələrin miqdarı öz əksini tapır.

Ümumxalq səviyyədə müayinələrə bütün xalq üçün həyatı əhəmiyyət kəsb edən problemlər üzrə dövlət tərəfindən keçirilən və əhalinin fikrini əks etdirən müayinələr aid edilir.

Regional səviyyə əhalinin müəyyən region üzrə müayinəsini nəzərdə tutur. Bu müayinələrə həmin regionun sosial, iqtisadi və həyati əhəmiyyəti olan digər problemləri aid edilə bilər.

Sosial qrup səviyyəsində müayinəyə siyasi, iqtisadi və sosial problemlərə pensiyaçıların, gənclərin, qadınların və s. münasibətini əks etdirən müayinələr aid edilir.

Əmək kolektivləri səviyyəsində müayinədə müəssisə, idarə və təşkilatlarda əməyin təşkili, istirahət, işə münasibət və s. məsələlər üzrə keçirilən müayinələr aid edilir. Bu cür müayinələr hər hansı bir regionun əmək kollektivlərində və yaxud da iqtisadiyyatın müəyyən sahəsi üzrə də keçirilə bilər.

Maraq və peşə səviyyəsində müayinə maraq dairələri əlaqəli olan şəxslər arasında keçirilir. Belə müayinələr peşə əlaməti üzrə də keçirilə bilər.

Ictimai rəy göstəricilərinin spesifik xüsusiyyəti ondan ibarətdir ki, həmin göstəriciləri cari dövlət statistika hesabatlarının məlumatları üzrə deyil, xüsusi təşkil olunmuş sorğu, habelə sənədlərin təhlili əsasında əldə edirlər.

Ictimai rəy haqqında məlumatların əsas mənbəyini əhalinin seçmə qaydada sorğusu təşkil edir və bu da öz növbəsində aşağıdakı mərhələləri əhatə edir: müşahidənin (sorğunun) təşkili planının tərtibi; müşahidə planının işlənib hazırlanması; müşahidə nəticəsində alınmış məlumatların işlənməsi üsullarının müəyyən olunması; müşahidənin keçirilməsi; müşahidə materiallarının işlənməsi; - məlumatların təhlili.

Müşahidənin hazırlıq prosesində aşağıdakı məsələlərə daha çox fikir verilməlidir: müşahidənin məqsəd və vəzifələrinin formalaşması, müşahidə vahidi və müşahidə obyektinin müəyyən olunması; müayinə anketinin tərtib olunması; ilkin yoxlama müayinəsinin keçrilməsi; müayinə keçirən kadrların hazırlanması; müayinə materiallarının işlənməsi proqramının hazırlanması. Müşahidənin məqsəd və vəzifələrinin seçilməsi öyrənilən sosial problemin nə dərəcədə aktual olub-olmamasından çox asılıdır.

Statistik müayinə zamanı müşahidə obyekti kimi sosial qruplar, ayrı-ayrı regionların əhalisi, əmək kollektivləri və s. götürülə bilər. Müşahidə vahidi kimi isə şəxsiyyət və onun ictimai həyat hadisələri haqqındakı fikirləri götürülür.

Dövlət orqanları ictimai rəyin vəziyyəti, quruluşu və dinamikası haqqındakı statistik məlumatları sosial-iqtisadi məsələlərin həllində nəzərə alırlar. Bütün bunlar xalqın razılığına səbəb olan real layihə və qərarlar işləyib hazırlamağa imkan yaradır.

**Sosial sfera haqqında statistik informasiya mənbələri.** Sosial sfera haqqında statistik informasiyanın əsas mənbələri aşağıdakılardır: 1) sosial sferadakı idarə, müəssisə və təşkilatların cari hesabatları; 2) həmin vahidlərin illik hesabatları; 3) müxtəlif sosioloji mərkəzlərin və elmi-tədqiqat institutlarının keçirdikləri sosioloji sorğular; 4) Dövlət Statistika Komitəsinin müvafiq bölmələrinin apardığı seçmə statistika müşahidələrinin materialları və hazırladıqları bülletenlər, məcmuələr və başqa analitik vəsaitlər.

Məsələn, mənzil təsərrüfatları müəssisələrinin hər il təqdim etdikləri «Mənzil fonduna dair hesabat»da mənzil fondunun ümumi və yaşıyış sahəsini, onun hərəkətini və mülkiyyət formaları üzrə tərkibini, avadanlığını səciyyələndirən geniş dairəli göstəricilər verilir.

Ölkədə əhalinin pensiya təminatına dair informasiya xüsusi hesabatda verilir. Burada pensiyaçıların ümumi sayına, o cümlədən əmək pensiyası və sosial pensiya təyin olunan şəxslərin sayına, kateqoriyalar üzrə (müharibə iştirakçıları, arxa cəbhədə çalışanlar, repressiyaya əsassız uğrayanlar, radiasiayaya məruz qalanlar, işsizlər, qaçqınlar, məcburi köçkünlər) pensiyaçıların sayına dair məlumat göstərilir.

## İstifadə olunan ədəbiyyatlar:


- С.М.Йагубов, А.Ж. Мяммядов. Сосиал-игтисади статистика. Дярслик. Бакы: «Игтисад Университети » няшриййаты, 2008, - 388 сящ.
- Aslanov A.M. Statistikanın ümumi nəzəriyyəsi və sosial-iqtisadi statistika. Bakı, 2005, 240 s


## Mövzu 15. Azərbaycan respublikasinda statistika işlərinin təşkili

**Plan:**

8. *Azərbaycan Respublikasında statistika işlərinin təşkili prinsipləri*
9. *Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin vəzifələri*
10. *Dövlət Statistika Komitəsinin hüquqları və səlahiyyətləri*
11. *Azərbaycan Respublikasında Statistika orqanlarının sistemi*
12. *Vahid uçot və statistika sistemi*

**Azərbaycan Respublikasında statistika işlərinin təşkili prinsipləri.** Ölkəmizdə statistika işlərinin təşkili aşağıdakı prinsiplərə əsaslanır: 1) Ölkədə bütün uçot və statistika işlərinə rəhbərliyin ciddi şəkildə mərkəzləşdirilməsi; 2) İşləri vahid metodologiya əsasında aparan mərkəzləşdirilmiş statistika orqanlarının yaradılması; 3) Statistika orqanlarının dövləti idarəetmə orqanları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərməsi. Məlum olduğu kimi, statistika və uçot işləri bütün ölkə ərazisində çoxsaylı obyektləri əhatə edən kütləvi hadisələrdən ibarətdir. Ona görə də bu işləri yerinə yetirərkən statistika elminin qarşıya qoyduğu tələblərə ciddi əməl olunmalıdır. Bunun üçün isə mərkəzləşdirilmiş rəhbərlik və vahid metodologiya olmalıdır. Odur ki, 1991-ci ildə müstəqilliyimizi bərpa etdikdən sonra ölkəmizdə uçot işlərini vahid metodologiya ilə aparan mərkəzləşdirilmiş statistika orqanları sistemi yaradılmışdır. Bu, öz əksini Azərbaycan Respublikasının "Rəsmi Statistika haqqında" 18 fevral 1994-cü il tarixli, 789 №-li Qanununda tapmışdır. Bundan sonra Azərbaycan cəmiyyətində gedən sosial-iqtisadi proseslərlə əlaqədar olaraq qanunda dəfələrlə müəyyən dəyişikliklər edilmişdir.

Qanun Azərbaycan Respublikasının bütün idarəetmə orqanlarının, maliyyə, bank, vergi və gömrük xidmətlərinin, mülkiyyət formasından, əməyin təşkili və tabeliyindən asılı olmayaraq respublikanın ərazisində, habelə onun sərhədlərindən kənarda yerləşən, Azərbaycan Respublikasının mülkiyyətində olan müəssisələrin, idarələrin, təşkilatların, assosiasiyaların, şirkətlərin və digər hüquqi şəxslərin, həmçinin sahibkarlıq və qanunvericiliklə qadağan olunmayan digər fəaliyyət növləri ilə məşğul olan fiziki şəxslərə şamil edilir. Azərbaycan Respublikasında vahid mərkəzləşdirilmiş ümumrespublika sisteminə Dövlət Statistika Komitəsi

rəhbərlik edir. Ölkəmizdə dövlət statistikasının təşkili ilə Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, Naxçıvan Muxtar Respublikasının Statistika komitəsi, rayon, şəhər (respublika tabeli) statistika idarələri və şəhərlərdə statistika şöbələri məşğul olurlar. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi ölkəmizin iqtisadi və sosial sahələrində vahid metodologiya əsasında statistik məlumatlar sisteminin fəaliyyətini təmin edir. O, mərkəzi icra orqanları sistemində fəaliyyət göstərən, statistika və uçot işlərinə rəhbərlik edən müstəqil iqtisadi dövləti idarəetmə orqanıdır. Komitə öz fəaliyyətini ölkəmizdə baş verən sosial-iqtisadi proseslərin obyektiv və hərtərəfli Öyrənilməsi prinsipləri əsasında həyata keçirir, respublikanın sosial-iqtisadi vəziyyətinə dair məlumatların aşkarlığını təmin edir, hüquqi və fiziki şəxslərin hüquqlarına hörmət edərək və onların ilkin fərdi məlumatlarının məxfiliyini qoruyaraq statistik məlumatların rolunun artırılmasına yönəldilən siyasətin yerinə yetirilməsi üçün məsuliyyət daşıyır. Beləliklə, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi ölkədə statistika və uçot işlərinə mərkəzləşdirilmiş rəhbərliyi həyata keçirir, onun vahid elmi metodologiyasını işləyib hazırlayır, iqtisadi məsələlərlə məşğul olan hökumət orqanları ilə birlikdə (İqtisadi İnkişaf, Maliyyə, Vergilər Nazirlikləri, Dövlət Gömrük Komitəsi və i. a.) mühasibat uçotu formalarının və statistik hesabatların təkmilləşdirilməsi sahəsində iş aparır, iqtisadiyyatın və mədəniyyətin inkişafına dair məlumatları toplayır və təhlil edir. O, öz işlərini yerli - şəhər və rayon statistika orqanları vasitəsilə aparır.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, «Rəsmi Statistika haqqında» Azərbaycan Respublikasının Qanununu, digər qanunvericilik aktlarını, Respublika Prezidentinin Fərman və Sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi haqqında" 6.11.1995-ci il tarixli, 238№-li "Əsasnaməsini, digər qərar və sərəncamlarını, statistika sahəsində beynəlxalq sazişləri əldə rəhbər tutur.

**Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin vəzifələri, hüquqları və səlahiyyətləri** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi aşağıdakı vəzifələri yerinə yetirir: - ölkə ərazisində statistika siyasəti yeridir; - statistik məlumatların düzgünlüyünü və obyektivliyini, bazar münasibətləri şəraitində onların baş verən sosial-iqtisadi hadisə və proseslərə tam uyğunluğunu, vaxtında toplanmasmı təmin edir; - ölkə iqtisadiyyatının vəziyyətini səciyyələndirən, elmi cəhətdən əsaslandırılmış statistik məlumatları toplayır, işləyir, təhlil etdikdən sonra hökumətə təqdim edir; -beynəlxalq təcrübədə qəbul edilmiş standartlarla müqayisə oluna bilən və aparılan bütün statistika işlərində hökmən istifadə edilməli olan texniki-iqtisadi məlumatların işlənməsi və tətbiqi sahəsində metodoloji rəhbərliyi həyata keçirir; - statistika sahəsində beynəlxalq əməkdaşlığı həyata keçirir, ölkənin mənafeyinə xələl gətirməyən statistik məlumatları yayır və mübadilə edir; - ölkənin və onun ayrı-ayrı regionlarının sosial-iqtisadi inkişafım səciyyələndirən göstəriciləri özündə əks etdirən statistika hesabatlarının formalarını, təqdim olunması müddətlərini və qaydalarını müəyyənləşdirir və təsdiq edir, onların doldurulması, uçot və hesabatın digər məsələləri ilə əlaqədar təlimatları hazırlayır və nəşr etdirir. - demoqrafik proseslərin balans hesabatlarını aparır və proqnozlarını hazırlayır; - statistik

məlumatları, bülletenləri və məcmuələri, mətbu-buraxılışları hazırlayır və nəşr etdirir; - sosial prosesləri, yaşayış səviyyəsini və dolanacaq xərclərini təhlil edir, əhalinin siyahıyaalınmasının və digər siyahıyaalınmaların, sosial-demoqrafik müşahidələrin, ailə büdcələri statistikasının, birdəfəlik və seçmə müşahidələrinin aparılmasını təşkil edir, müxtəlif mövzularda sorğular keçirir; -bir-biri ilə qarşılıqlı əlaqədə olan statistika göstəriciləri sistemini, uçot və hesabatın vahid elmi metodologiyasını işləyib hazırlayır, onları təkmilləşdirir və dünyada prinsipcə hamı tərəfindən qəbul edilmiş uçot və statistika işlərinə uyğunlaşdırır; - uçot və statistika işçilərinin hazırlanması və ixtisaslarının artırılmasına ümumi rəhbərliyi həyata keçirir, kadrların hazırlanması ilə əlaqədar tədris müəssisələri ilə uzunmüddətli müqavilələr bağlayır; -yerli statistika orqanlarının işlərinə rəhbərlik edir, onların fəaliyyətini yoxlayır; -təsdiq olunmamış qeyri-standart formalarda təqdim olunan hesabatları ləğv edir; -Azərbaycan Respublikası ərazisində yerləşən və dövlət qeydiyyatından keçmiş müəssisə və təşkilatların avtomatlaşdırılmış uçotunu və kodlaşdırılmasını aparır; - kütləvi informasiya vasitələrinin nümayəndələri ilə müntəzəm olaraq mətbuat konfransları, görüşlər və başqa tədbirlər keçirir; - bağlanmış müqavilələrə, sazişlərə, yaxud birdəfəlik sorğulara uyğun olaraq rəhbər orqanlar istisna olmaqla, hüquqi və fiziki şəxslərə dəyəri onlar tərəfindən dövlət büdcəsinə ödənilmək şərti ilə statistik məlumatlar hazırlayıb verir; - nazirlik və baş idarələrlə birlikdə milli hesablar sisteminə, müvafiq beynəlxalq standartlara keçidlə əlaqədar iş aparır; - respublikanın ərazisində fəaliyyət göstərən hüquqi və fiziki şəxsləri dövlət statistika hesabatı blankları və digər zəruri sənədlərlə təmin edir; - beynəlxalq statistik müqayisələrin aparılmasında iştirak edir.

**Dövlət statistika orqanlarına öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquq və səlahiyyətlər verilir:** - ölkənin iqtisadi və sosial vəziyyətinin nəticələrini dərc etdirmək, statistika və uçot sahəsində metodoloji məsələləri həll etmək; -tabeliyindən və mülkiyyət formasından asılı olmayaraq, ölkəmizin ərazisində, habelə onun sərhədlərindən kənarda yerləşən və Azərbaycan Respublikasının mülkiyyəti olan hüquqi və fiziki şəxslərdən haqqı ödənilmədən, dövlət statistika orqanları tərəfindən müəyyən edilən həcmdə və müddətlərdə düzgün statistik məlumatları, hesabatları, onlara dair izahatları almaq; - fiziki şəxslərin sosial-demoqrafik vəziyyəti və sahibkarlıq fəaliyyəti haqqında müşahidələr aparmaq üçün onlardan haqqı ödənilmədən zəruri məlumatlar almaq; məlumatların təhrif olunması halları aşkara çıxarıldıqda hesabatlarda düzəliş etmək və bu barədə müəssisə, idarə, təşkilat, birlik və s. tərə findən yerinə yetirilməsi məcburi olan tapşırıqlar vermək; - qanunvericilikdə nəzərdə tutulmuş qaydada və beynəlxalq hüquq normalarına uyğun olaraq xarici ölkələrin statistika idarələri və beynəlxalq statistika təşkilatları ilə statistika elmi metodologiyasının və təcrübəsinin təkmilləşdirilməsi, yeni texnologiyalardan istifadə edilməsi məsələləri üzrə əməkdaşlıq haqqında müqavilələr bağlamaq; - dövlət statistika müşahidələrinin aparılması üçün məlumatları təqdim etməyən və ya onları gecikdirməklə ya müəyyən təhriflərlə təqdim edən vəzifəli və fiziki şəxslər barəsində inzibati icraata başlamaq və inzibati tənbeh tədbirləri tətbiq etmək; - dövlət statistika hesabatlarının formalarını işləyib hazırlamaq, hesabatların toplanması və təqdim olunmasının vaxtını və qaydalarını (ətraf mühitin mühafizəsi sahəsində dövlət statistikasının aparılması qaydaları istisna olmaqla)

müəyyənləşdirmək; - qanunvericiliyə uyğun olaraq bağlanmış müqavilələr əsasında haqqı dövlət büdcəsinə ödənilməklə hüquqi və fiziki şəxslərə reqlamentə daxil olmayan statistik xidmət göstərmək; -Azərbaycan Respublikasının statistika haqqında qanunvericiliyinə zidd olan statistik hesabatları ləğv etmək; - hesabat məlumatları təhrif olunduğu hallarda düzəlişlər etmək, bu dü zəlişləri ilkin və mühasibat uçotunda, başqa əlaqədar göstəricilərdə əks etdirməyi müvafiq hüquqi və fiziki şəxslərə tapşırmaq (burada qeyd etmək yerinə düşər ki, dövlət hesabatlarında təhrif etmələrə görə vəzifəli şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada məsuliyyət daşıyırlar); - nazirliklərdə, dövlət komitələrində, baş idarələrdə, tabeliyindən və mülkiyyət formasından asılı olmayaraq hüquqi və fiziki şəxslərdə statistik hesabatların dürüstlüyünü və ilkin uçotun vəziyyətini yoxlamaq; - şura iclaslarında statistik uçot və hesabatın vəziyyətinə dair nazirlik, baş idarə, komitə, assosiasiya və şirkət rəhbərlərinin hesabatlarını dinləmək, onlarla birgə kollegiya iclasları keçirmək və s. və i.a.

**Azərbaycan Respublikasında Statistika orqanları sistemi** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi öz fəaliyyətini Azərbaycan Respublikasının Qanunları və qanunvericilik aktları, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Nazirlər Kabinetinin qərarları, statistika sahəsində beynəlxalq sazişlər və s. əsasında qurur. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin strukturu, dövlət statistika orqanlarının vəzifələri, hüquq və səlahiyyətləri "Rəsmi Statistika haqqında"" Azərbaycan Respublikasının 18 fevral 1994-cü il tarixli Qanunu və Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikası Dövlət Statistika komitəsi haqqında Əsasnamə"si (6.11.1995-ci il, №238) ilə müəyyən edilmişdir. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə təsdiq olunan sədr rəhbərlik edir. O, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin qanunla müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməsi üçün şəxsən məsuliyyət daşıyır. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi sədrinin, onun müavinlərinin və digər rəhbər işçilərinin daxil olduğu kollegiya öz iclaslarında başlıca statistika işlərinin yekunlarını; analitik işlərin təşkili məsə lələrini, uçot və hesabatın vəziyyətini, onların dürüstlüyünü; uçot-statistika işlərinin mexanikləşdirilməsi və avtomatlaşdırılmasmı müzakirə edir; idarə, şöbə və digər struktur bölmələri rəhbərlərinin hesabatlarını dinləyir. Statistika Komitəsinin nəzdində elmi-metodoloji Şura fəaliyyət göstərir. Onun tərkibinə dövlət statistika komitəsinin və bir sıra nazirliklərin mütəxəssisləri, ali məktəblərdə çalışan alim və mütəxəssislər daxil edilir. Şura statistikanın metodoloji məsələlərini nəzərdən keçirir, ən mühüm statistika işləri üzrə proqram və təlimatları müzakirə edir. Statistika Komitəsinin tərkibində adətən aşağıdakı idarə və şöbələr yaradılır: demoqrafiya və sosial statistika; əhalinin həyat səviyyəsi və ev təsərrüfatlarının tədqiqatı statistikası; əmək statistikası; milli hesablar statistikası; sənaye, nəqliyyat və rabitə statistikası; kənd, meşə və balıqçılıq təsərrüfatı statistikası; əsaslı tikinti və mənzil şəraiti statistikası; ticarət və xarici ticarət statistikası; qiymət statistikası; yanacaq-enerji və material balansları statistikası; statistika işlərinin əlaqələndirilməsi, regionların sosial-iqtisadi inkişafı statistikası və i.a.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin şöbələri inkişaf etmiş ölkələr və MDB dövlətləri ilə ölkəmizin əsas sosial-iqtisadi göstəricilərinin müqayisəsini aparır, əhalinin ümumi və yaş qrupları üzrə sayı, təhsil səviyyəsi, milli tərkibi, nikah vəziyyəti, doğumun, ölümün, təbii artımın ümumi əmsalları, ölümün əsas səbəbləri, beynəlxalq miqrasiya, əmək qabiliyyətli yaşda əmək qabiliyyətli və iqtisadi fəal əhalinin, dövlət və qeyri-dövlət bölmələrində çalışanların, işsizlərin sayı haqqında məlumatları işləyib hazırlayır və dərc etdirir. Bazar iqtisadiyyatı strukturlarının, kiçik, xarici və müştərək müəssisələrin, birjaların, fəaliyyətlərinə, kiçik müəssisələrin özəlləşdirilmə- sinə, əhalinin gəlirləri və xərclərinə, dövlət tərəfindən verilən müavinətlərə dair məlumatların işıqlandırılması da statistika orqanları tərəfindən həyata keçirilir. Dövlət statistika orqanları ev təsərrüfatlarının (hər nəfərə görə ayrı-ayrı ərzaq məhsullarının istehlakı, mənzil şəraiti, uzun müddət istifadə olunan əşyalarla təchizat səviyyəsi), səhiyyənin, idmanın, elmitədqiqat işlərinin, turizm xidmətinin, ticarətin vəziyyətini səciyyələndirən göstəriciləri, ətraf mühitin mühafizəsi sahəsində həyata keçirilən tədbirləri, onların səmərəliliyini ifadə edən məlumatları istifadəçilərə çatdırmaqla ölkədəki vəziyyət haqqında fikir formalaşdırır, “Milli hesablar statistikası şöbəsi” ümumi daxili məhsul, onun strukturu, həcmi haqqında məlumatları hazırlayır, “məhsul və xidmətlər hesabı”, “gəlirlərin ilkin bölgüsü hesabı”, “gəlirlərin təkrar bölgüsü hesabı”, “sərəncamda qalan gəlirlərin istifadəsi hesabı”, “əsaslı xərclər hesabı”, “qalan dünya ilə xarici iqtisadi əlaqələr hesabı” və s. üzrə “ehtiyatlar” və “istifadə” maddələrinin kəmiyyətini müəyyənləşdirir, faktiki son istehlakm tarazlığının təmin olunmasım, ümumi milli gəlirin tərkibini aydınlaşdırır, ölkənin tədiyə balansını tərtib edir. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin strukturunda əsas yerlərdən birini də maliyyə şöbəsi tutur. Bu şöbə maddələr üzrə dövlət büdcəsinin gəlir və xərclərini statistik cədvəllərdə əks etdirir, müəssisələrin və təsərrüfat təşkilatlarının mənfəətinə, zərərlə işləyən müəssisələrə, pul emissiyasına, iqtisadiyyata yönəldilən investisiyalara, bələdiyyələrin işinə, onların büdcələrinə xarakteristika verir, sığortaçılar, onların ümumi kapitalı, sığorta haqları və ödənişləri haqqında yığcam məlumatlar işləyib hazırlayır. Qiymət və tariflər istehsalçıların mənafeləri ilə bilavasitə bağlıdır. Ona görə də qiymətlər haqqında məlumatların əldə edilməsi və təhlil olunması, onun təkmilləşdirilməsi üçün elmi nəticələr çıxarılması və tövsiyələr verilməsi də həlledici əhəmiyyətə malikdir. Qiymətlər haqqında ilkin məlumatların toplanması, işlənməsi, təhlil olunması və ümumi göstəricilərin hesablanması isə “Qiymət statistikası” şöbəsinin fəaliyyətinə aiddir.

Bu şöbə istehlak qiymətlərinin, ərzaq, qeyri-ərzaq və pullu xidmətlə rin, sənaye məhsulları istehsalçılarının qiymət, sənaye məhsullarının topdansatış, kənd təsərrüfatı məhsulları istehsalçılarının qiymətlər və nəqliyyat sektorunda yükdaşıma tarifləri indekslərini hesablayır və dərc etdirir. Yanacaq-energetika resursları ölkəmizin ən böyük sərvətidir. Bu, hazırda Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında da çox böyük rol oynayır. Və bununla əlaqədar olaraq Dövlət Statistika Komitəsinin strukturunda xüsusi şöbə - “Yanacaq-enerji və material balansları statistikası” şöbəsi yaradılmış və fəaliyyət göstərir. Şöbə təbii qazın, elektrik enerjisinin, təkrar enerji ehtiyatlarının, mazutun, dizel yanacağının, aviasiya və sair üçün ağ neftin ehtiyatı və istehlakmı, neft məhsullarının ehtiyatı və bölüşdürülməsini; cihaz, avadanlıq və sair məmulatların

tərkibindəki qiymətli metalların hərəkətini, təkrar xammal ehtiyatlarının, qara və əlvan metal qırıntısı və tullantılarının yaranma mənbələri və bö lüşdürülməsini səciyyələndirən göstəriciləri, əsas kapitalın (əsas fondların) təzələnməsi və sıradan çıxması əmsallarını hesablayır və dərc etdirir.

Sənayenin fəaliyyət növlərinə və mülkiyyət formalarına görə təsnifləş dirilməsi, təsərrüfat kateqoriyaları üzrə kənd təsərrüfatı məhsulları istehsalı, kənd təsərrüfatı bitkilərinin əkin sahələri, mal-qaranın sayı və məhsuldarlığı, tikintinin, nəqliyyat və qeyri-nəqliyyat sektorunun, rabitənin, ticarətin, regionların işini səciyyələndirən göstəricilər müvafiq şöbələr tərəfindən hazırlanan məlumatlarda öz əksini tapır. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi beynəlxalq mü qayisə aparır ki, bu da dünyada ölkəmizin mövqeyini müəyyən etməyə imkan verir. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin yerli orqanlarına şəhər statistika idarələri və rayon statistika şöbələri aiddir. Onların əsas vəzifəsi fəaliyyət göstərdikləri ərazilərdəki dövlət və qeyri-dövlət müəssisələrinin işini səciyyələndirən göstəriciləri toplamaqdan, sistemləşdirməkdən və aidiyyatı orqanlara, birinci növbədə Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinə təqdim etməkdən ibarətdir. Statistik uçotla yanaşı, mühasibat və operativ - texniki uçot da vardır. Bunlar birlikdə vahid uçot və statistika sistemini əmələ gətirir.

**Vahid uçot və statistika sistemi.** Ölkəmizdə operativ-texniki uçot, mühasibat uçotu və statistika vahid uçot sistemini təşkil edir. Uçotun bu növləri bir-biri ilə qarşılıqlı surətdə əlaqələndirilmiş, ziddiyyətə və paralelçiliyə yol verilmir, əksinə onlar birbirini tamamlayır. Lakin onların arasında bir sıra fərqlər də vardır. Bu, özünü hər şeydən əvvəl onların iqtisadiyyatı öyrənərkən məsələləri əhatə- etmə dairəsinə və ümumiləşdirmə metodlarına görə fərqlərdə göstərir. Operativ-texniki uçot müəssisənin (firmanın) işinə operativ rəhbərliyi həyata keçirməyə imkan verir. Onun vəzifəsi hər bir konkret şəraitdə rəhbərliyi həm bütövlükdə müəssisənin, həm də onun ayrı-ayrı sexləri və sahələrində işlərin vəziyyəti haqqında məlumatlarla təmin etməkdən ibarətdir. Onun obyekti emaldan keçdiyi bütün mərhələlərdə xammal və materialların hərəkəti, hər bir işçinin işə çıxması, nə qədər məhsul istehsal etməsi (və ya iş görməsi) və s-dir. Operativ-texniki uçot konkret faktları bilavasitə natural ifadədə və ona uyğun gələn ölçü vahidi ilə uçota alır. Məsələn, aydın məsələdir ki, istehsal edilmiş bütün detalların dəyəri haqqında məlumatlar hər hansı bir detalın istehsalı sahəsində "geridəqalmaları" aşkara çıxartmağa imkan vermir. Ayrı-ayrı detallardan nə qədər istehsal olunduğunu və onların hər birindən nə qədər olduğunu, hazır məhsulun yığılması əməliyyatının həmin detallarla necə təmin olunmasının öyrənilməsi zəruriliyi meydana çıxır. Bu zaman operativ-texniki uçot rəhbərliyi istehsalın hər bir sahəsində görülən işlərə dair məlumatlarla təmin edir. Bu məlumatlar son dərəcə konkret olmalıdır. İstehsal proseslərinin gedişi və onları müəyyən edən şəraitin cari uçotu, hissələrin, detalların, yanmfabrikatların, iş yerlərində mövcud olan materialların, buraxılan və sınaqdan keçirilən məhsulun, yerinə yetirilmiş sifarişlərin, istehsalda yaranmış artıq məhsulun uçotu və onların üzərində nəzarətin həyata keçirilməsi-bütün bunlar operativ-texniki uçotun öyrəndiyi obyektə daxildir. Bunlar avadanlıqların texniki vəziyyətinin, boşdayanmalarının və şairələrin texniki uçotu ilə tamamlanır. İşçilərin işə çıxmaması səbəblərinin aşkara çıxarılması və uçota alınması da

operativ uçotdur. Göründüyü kimi, operativ-texniki uçotun spesifik cəhəti onun konkret və operativ olmasındadır. Mühasibat uçotu təsərrüfat əməliyyatlarının başdan-başa (ucdantutma), fasiləsiz və sənədlərlə uçota alınmasını həyata keçirir. Onun vəzifəsi material qiymətlilərinin uçota alınması və onların sərf edilməsi üzərində nəzarəti həyata keçirməkdən, məqsədi isə müəssisənin maliyyə nəticələ rini aşkara çıxarmaqdan ibarətdir. Mühasibat uçotu əsas etibarı ilə müəssisənin malik olduğu vəsaitin dövriyyəsi üzərində nəzarəti həyata keçirir. O, müəssisə vəsaitinin hərəkətini və onun daim bir formadan baş qa formaya çevrilməsini uçota almaq üçün özünə məxsus xüsusi metodlardan - ikili qeydiyyat sistemi, məhsul vahidinin neçəyə başa gəlməsi, mühasibat balansının tərtib olunması və i. a. - istifadə edir.

Mühasibat uçotunun xüsusiyyəti ondan ibarətdir ki, hər bir müəssisə onun üçün əlahiddələşmiş təsərrüfat vahididir. O, müəyyən zaman kəsiyində məhz həmin müəssisənin təsərrüfat fəaliyyətinin nəticələrini aşkara çıxarmalıdır. Tərkibində bir neçə müəssisə olan firmaların icmal balansını tərtib edərkən mühasibat uçotu onu hər hansı bir toplu kimi deyil, müəyyən təsərrüfat vahidləri fəaliyyətinin yekunu kimi nəzərdən keçirir.

**Mühasibat uçotunun aşağıdakı spesifik cəhətləri vardır:** 1) Mühasibat uçotu hər şeydən əvvəl dəyər ölçü vahidlərindən istifadə etməklə müəssisə vəsaitini və onun təsərrüfat fəaliyyətinin nəticələrini dəyər ifadəsində uçota alır. Bununla yanaşı, o, həm də natural ölçülərdən istifadə edir; 2) Mühasibat uçotu müəssisədə baş verən bütün təsərrüfat əməliyyatlarını, hətta ən xırda şeyləri qeydiyyata alır. Odur ki, mühasibat uçotunda bir qayda olaraq seçmə müşahidəsindən istifadə olunmur; 3) Mühasibat uçotu bütün əməliyyatları faktiki qiymətlərlə qeydiyyata alır, müqayisəli qiymətlərdən istifadə etmir. Bu isə müəssisənin faktiki xərclərini müəyyən etməyə və faktiki rentabellik göstəricilərini hesablamağa imkan verir. Statistika mühasibat və operativ-texniki uçotun məlumatlarını ümumiləş dirir və həmişə kütləvi materiallara əsaslanır. Bunlar statistikaya lazım olduqda özünün ilkin müşahidələrini (tədqiqat və siyahıyaalmalar aparmaq) təşkil edir. Statistika kütləvi ilkin məlumatları ümumiləşdirmək üçün xüsusi metodlardan istifadə edir və əldə edilmiş məlumatlara əsasən ictimai həyatın bu və ya digər sahəsinə aid olan bütün faktlar toplusuna xarakteristika verir. Məsələn, mühasibat uçotu hər bir işçiyə gördüyü işin müqabilində əmək haqqı hesablayır, statistika isə onları müxtəlif əlamətlər üzrə qruplaşdırır və orta əmək haqqını müəyyən edir. Statistika ayrı-ayrı müəssisələr, sahələr və bütövlükdə iqtisadiyyat üzrə operativtexniki və mühasibat uçotunun məlumatlarını, həmçinin əhalinin siyahıyaalınması və ailə büdcələrinin tədqiq olunması kimi xüsusi təşkil edilmiş müşahidələrin materiallarını ümumiləşdirir. Vahid uçot və statistika sistemində təşkiledici rol statistikaya məxsusdur. İqtisadiyyat miqyasında məlumatların ümumiləşdirilməsinin zəruriliyi bütün müəssisələrin özlərinin istehsal-təsərrüfat fəaliyyətlərinin nəticələri haqqında vahid formada və müəyyən edilmiş müddətlərdə məlumat verməlerini tələb edir.

**Vahid uçot və statistika sistemi aşağıdakı əsas cəhətləri ilə səciyyələnir:** 1) bütün müəssisələrdə uçot işləri vahid metodologiya əsasmda aparılır. Bu o deməkdir ki, bütün müəssisələrdə məhsullar vahid proqram və metodika ilə uçota almır. Bunlar əməyin, əmək haqqmm, avadanlıqların və şairələrin uçotuna da aiddir. Ayn-ayrı müəssisələrdə uçot müxtəlif

metodika ilə aparılsaydı, onları və müəssisələri bir-biri ilə müqayisə etmək, onların işi haqqında ümumiləşdirici yekun göstəricilərinin hesablanması mümkün olmazdı; 2) müəssisələrdə uçotun ayrı-ayrı növlərinin materialları bir-biri ilə qarşılıqlı surətdə əlaqələndirilir. Belə ki, mühasibat, operativ-texniki uçot və statistika bir-birini qarşılıqlı surətdə tamamlayır, aralarında uyğunsuzluq, ziddiyyət, paralelçilik yoxdur və göstəriciləri bir-biri ilə uyğunlaşdı rılmışdır; 3) vahid ilk sənədləşdirmə qaydası mövcuddur. Hər bir müəssisədə müxtəlif adda çoxsaylı ilk sənədlər tərtib olunur. Bu sənədlərdəki məlumatlardan hər bir uçot növü istifadə edə bilər. Bütün uçot növlərinin vahidliyi onunla təmin edilir ki, onların hamısı eyni ilk sənədləşdirmə qaydasından istifadə edir.

**İstifadə olunan ədəbiyyatlar:**


- С.М.Йагубов, А.Ж. Мяммядов. Сосиал-игтисади статистика. Дярслик. Бакы: «Игтисад Университети » няшриййаты, 2008, - 388 сящ.


-